ATİF İSLAMZADƏ

# OĞUZ EPİK ƏNƏNƏSİNDƏ QAZAN XAN OBRAZININ MİFOLOJİ STRUKTURU

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

ATİF İSLAMZADƏ

# OĞUZ EPİK ƏNƏNƏSİNDƏ QAZAN XAN OBRAZININ MİFOLOJİ STRUKTURU

**BAKI – 2017**

**Elmi redaktoru:** **Tofiq İsmayıl oğlu Hacıyev**
akademik

**Atif İslam oğlu İslamzadə. Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturu.** Bakı, Elm və təhsil, 2017, -238 səh.

Monoqrafiyada oğuz epik ənənəsini əhatə edən epik-tarixi-mifoloji əsərlər əsasında Qazan xan obrazının mifoloji strukturu aşkarlanmış, obrazın oğuz epik sistemində tutduğu yer müəyyən olunmuşdur.

Oğuzşünaslıq və qorqudşünaslıqda ilk dəfə olaraq struktur-semiotik tədqiqat metodunun tətbiqi ilə Qazan xan obrazı haqqında geniş həcmli tədqiqat əsəri elmi-kütləvi ictimaiyyətə təqdim olunur.

folklor.az

Ə 4603000000 Qrifli nəşr
N-098-2017

© Folklor İnstitutu
© A.İslamzadə

# REDAKTORDAN

Atif İslam oğlu İslamzadənin "Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturu" monoqrafiyası aktual mövzuya həsr olunmuşdur. Belə ki, oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturunun araşdırmaya cəlb olunması, doğrudan da, folklorşünaslığın zəruri elmi problemidir. Mövzunun tədqiqat aktuallığının Qazan xan obrazının epik-mifoloji semantem kimi oğuz-türk epik-mifoloji ənənəsinin əsas struktur oxlarından birini təşkil etməsi, "Oğuznamə" eposunun üç əsas obrazından biri olması və zəngin mifoloji semantikası ilə müəyyənləşməsi təkcə oğuz etnik-mədəni sistemini deyil, ümumiyyətlə Azərbaycan-oğuz epik düşüncəsinin bütün inkişaf tarixini təsdiq və təsbit edir.

Giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olan monoqrafiya kamil elmi quruluşa malikdir. Hər iki fəsildə qoyulan məsələlər, onların həlli yollarının, tətbiq olunmuş yanaşmaların yeniliyi, əsaslandırılmış nəzəri-metodoloji bazanın mükəmməlliyi monoqrafiyanın yeniliyini və elmi sambalını müəyyənləşdirmişdir. Əsas obyektini "Oğuznamə" mətnlərinin təşkil etdiyi araşdırmada "Dədə Qorqud kitabı" ilə yanaşı başqa oğuznamələr də tədqiqata cəlb olunmuşdur. Qazan obrazının "Dədə Qorqud" eposunda inikas olunmuş səciyyəsini əsas götürən müəllif abidədən kənar digər örnəklərdəki bilgiləri də təhlil çevrəsinə daxil edərək, Qazan obrazının müəyyən oğuznamələr sistemindəki semantik bütövlüyünün gerçək sərhədlərini bərpa edə bilmişdir. İşdə Qazan xan obrazının örnəyində oğuz-türk mədəniyyətinin düşüncə tərzindən müasir ictimai-ədəbi davranış spesifikasına uyğun şəkildə adaptasiya olunmasını izləmək, qədim tarixi keçmişə malik olan türk xalqlarının, xüsusilə də oğuz türklərinin obraz vasitəsilə epos

mədəniyyətinə malik olan bir toplum kimi əski və çağdaş dünyagörüşünü, ictimai-siyasi-sosial təşkilat institutlarını diqqətdə saxlamaq, oğuzların mifoloji baxışlarının vahid kompleks səviyyədə mövcud olduğunu, kosmoqonik və etnoqonik sistemə malik bir mədəniyyət hadisəsi kimi obraz arealında bir daha müəyyənləşdirmək və oğuz epik ənənəsinin şifahi və yazılı örnəklərinin uzunəsrlik bir tarixi prosesdən keçdiyini struktur layları səviyyəsində bərpa edib aşkarlamağı qarşısına əsas məqsəd kimi qoyan A.İ.İslamzadə öncə oğuz epik ənənəsinə və qeyri-oğuz epik ənənəsinə daxil olan əsərlərdə Qazan obrazının məlumat səviyyəsində səciyyələndirilməsi üçün epik, mənqəbəvi əsərləri tədqiqata cəlb etmişdir. Tədqiqatçı daha sonra obrazın struktur səviyyələrinin aşkarlanması üçün tədqiqatda olan mətnləri struktur-semantik təsnifat prinsipinə əsasən öyrənmiş, mövzu, motiv və mifologemləri folklor, sənət, dil və düşüncə səviyyəsində izləmiş, diqqətdə saxladığı ədəbi mətnləri sinxron və diaxron istiqamətdə öz tədqiqatının baxış bucağına çevirmişdir.

Tədqiqatın elmi məziyyətlərindən biri budur ki, A.İ.İslamzadə tədqiq etdiyi problemin tarixini dərindən öyrənmişdir. Nəzərə almaq lazımdır ki, Qazan xan obrazı oğuz epik ənənəsinin əsas obrazlarından biri olduğu üçün "Dədə Qorqud kitabı" ilə bağlı tədqiqatların əksəriyyətində onun haqqında bəhs edilmişdir. Həmin araşdırmalarda obrazın bədii-poetik səciyyəsi, tarixi-sosial semantikası və s. kimi məsələlərə toxunulmuşdur. Lakin Qazan obrazının mifoloji semantikasından bəhs edən tədqiqatlar çox azdır. Belə ki, oğuz epik ənənəsində Qazan xan obrazının tarixi-müqayisəli və struktur-semantik səviyyələrdə bir obraz kimi tədqiq olunması bir neçə tədqiqat əsəri istisna olmaqla, demək olar ki, əhatəli şəkildə araşdırmalara cəlb olunmamışdır. Bütün bunları problemin real elmi mənzərəsi kimi nəzərə alan tədqiqatçı özünəqədərki araşdırmaların

əsas tezislərindən, fundamental elmi nəticələrindən uğurla istifadə etmişdir. Qeyd olunmalıdır ki, A.İ.İslamzadənin tədqiqatda əldə etdiyi nailiyyətlər yeni və orijinaldır. Bu cəhətdən monoqrafiyada bir sıra elmi yeniliklər əldə olunmuşdur. Belə ki, tədqiqatda Qazan xan obrazının mifoloji strukturu oğuz mifoloji dünya modelinin üzvi struktur ünsürü olaraq araşdırılmış, obrazın epik-mifoloji səciyyəsi aşkarlanmış, ritual-mifoloji semantikası aydınlaşdırılmış, Qazan xanın bir obraz kimi yalnız bədii təcəssümün ifadəsi olması inkar olunmuş, həm bədii-epik, həm mifoloji, həmçinin tarixi bilgilərin informator təfəkkürünün süzgəcindən keçib müxtəlif laylar səviyyəsində struktur təşkil etməsi bərpa olunmuş, obrazın oğuz epik ənənəsində folklorlaşmasının epik-bədii və tarixi-ictimai səbəbləri funksional səviyyədə öyrənilmişdir.

Tədqiqatda əsas etibarilə struktur-semiotik və tarixi-müqayisəli metodlar tətbiq olunmuşdur. Müəllif türk alimlərindən O.Ş.Gökyay, Z.Göyalp , Ə.Cəfəroğlu, M.Ergin, Ə.B.Ərcilasun, F.M.Kırzıoğlu, B.Ögəl, F.Sümər, Z.V.Toğan və başqalarının, rus alimlərindən V.V.Bartold, A.Y.Yakubovski, V.M.Jirmunski, V.N.Basilov və başqalarının, Azərbaycan alimlərindən Ə.Abid, H.Araslı, M.Təhmasib, M.Seyidov, X.Koroğlu, T.Hacıyev, N.Cəfərov, Ş.Cəmşidov, P.Xəlilov, K.Abdulla, R.Bədəlov, A.Rzayev, B.Abdulla, F.Bayat, K.Əliyev, C.Bəydili, M.Kazımoğlu, R.Əliyev, S.Rzasoy, R.Kamal, Ə.Əsgər, A.Xəlil və başqalarının tədqiqatlarının fundamental elmi nəticələrindən nəzəri-metodoloji baza kimi istifadə etmişdir.

Son olaraq bir daha qeyd edək ki, elmi ictimaiyyətə təqdim olunan bu monoqrafiya qorqudşünaslığın zənginləşməsində ciddi rol oynamışdır.

**Tofiq Hacıyev**
**Akademik**

# G İ R İ Ş

**Bismillahir-Rəhmanir-Rəhim**

Oğuz epik ənənəsində Qazan xan obrazının bir obraz kimi araşdırmaya cəlb olunması folklorşünaslığımız üçün bir neçə səbəbdən vacib və zəruridir:

– Qazan xan obrazı oğuz epik ənənəsində obrazlar sisteminin əsas obrazıdır;

– Qazan xan obrazı epik-mifoloji semantem olaraq oğuz-türk epik-mifoloji ənənəsinin əsas struktur oxlarından birini təşkil edir;

– “Oğuznamə” eposunun üç əsas obrazından biri olması ilə işarələnir.

Mövcud tədqiqatlarda Qazan xan obrazının tarixi-müqayisəli metodla öyrənilməsi müəyyən qədər mümkün olsa da, struktur-semiotik metodla öyrənilməsi, demək olar ki, aparılmamışdır. Bu da öz növbəsində oğuz epik ənənəsinin əsas semantik obrazlarından olan “Qazan” mifoloji modelinin hər iki metodla tədqiqini zərurətə çevirir. Qazan xan obrazı oğuz epik ənənəsinin məşhur personajı olduğu üçün DQK ilə bağlı tədqiqatların, demək olar ki, hamısında onun haqqında bəhs edilmişdir. Həmin araşdırmalarda obrazın bədii-poetik səciyyəsi, tarixi-sosial semantikası və s. məsələlərə toxunulmuşdur. Lakin Qazan obrazının mifoloji semantikasından bəhs edən tədqiqatlar çox azdır.

Oğuz epik ənənəsində Qazan xan obrazının tarixi-müqayisəli və struktur-semantik səviyyələrdə bir obraz kimi tədqiq olunması bir neçə tədqiqat əsəri istisna olmaqla, demək olar ki, əhatəli şəkildə araşdırmalara cəlb olunmamışdır. Yalnız bu və ya digər formada “Dədə Qorqud kitabı” eposu haqqında bəhs açılarkən Qazan xan obrazı haqqında müəyyən təsviri bilgi verilmiş, lakin bu məlumat səviyyəsi o qədər də geniş

şəkildə səciyyələnməmiş, kompleks təfərrüatlar meydana çıxmamışdır. Həm oğuz-türk mədəniyyətinin öyrənilməsi, tədqiq və təbliğ olunması, həmçinin Qazan xan obrazının bütövlükdə oğuz epik ənənəsində yerini müəyyənləşdirmək baxımından tədqiq etdiyimiz mövzu kifayət qədər aktual və gərəklidir. Ancaq onu da qeyd etmək lazımdır ki, DQK mükəmməl bir abidə olduğu üçün bundan sonra da bu mövzuya elmi-nəzəri cəhətdən tədqiqat obyekti olaraq yanaşmaq ehtiyacı meydana gətirəcək və yalnız Qazan obrazı deyil, digər obrazlarla da bağlı mövzu aktuallığı doğuracaqdır.

Araşdırmanın əsas obyektini oğuznamə mətnləri təşkil edir. Buraya DQK və digər oğuznamələr aiddir. Tədqiqatın birbaşa predmeti Qazan xan obrazının mifoloji strukturunun öyrənilməsidir. Qazan obrazı bir obraz kimi əsasən DQK-də öz səciyyəsini tapır. Lakin DQK-dən kənar digər örnəklərdə Qazan xan haqqında əlavə bilgilər mövcuddur. Elə bu səbəbdən də Qazan xan obrazının öyrənilməsində DQK əsas yeri tutur, əlavə bilgi gətirən dastan və mənqəbələr isə tədqiqata vasitəçi örnəklər kimi cəlb olunur.

Tədqiqat işinin yazılmasında başlıca məqsəd Qazan xan obrazının örnəyində oğuz-türk mədəniyyətinin arxaik düşüncə tərzindən müasir ictimai-ədəbi davranış spesifikasına uyğun şəkildə adaptasiya olunmasını izləmək, qədim tarixi keçmişə malik olan türk xalqlarının, xüsusilə də oğuz türklərinin obraz vasitəsilə epos mədəniyyətinə malik olan bir toplum kimi əski və çağdaş dünyagörüşünü, ictimai-siyasi-sosial təşkilat institutunu diqqətdə saxlamaq, oğuzların mifoloji baxışlarının vahid kompleks səviyyədə mövcud olduğunu, kosmoqonik və etnoqonik sistemə malik bir mədəniyyət hadisəsi kimi obraz arealında yerini bir daha müəyyənləşdirmək və oğuz epik ənənəsinin şifahi və yazılı örnəklərinin uzunəsrlik bir tarixi prosesdən keçdiyini struktur laylar səviyyəsində bərpa edib aşkarlamaq olmuşdur.

Bu tədqiqat işində qarşıda duran vəzifələr aşağıdakı kimi həyata keçirilmişdir:

– Oğuz epik ənənəsinə və qeyri-oğuz epik ənənəsinə daxil olan əsərlərdə Qazan obrazının məlumat səviyyəsində səciyyələndirilməsi üçün epik, mənqəbəvi əsərlər tədqiqata cəlb olunmuşdur;

– Obrazın struktur səviyyələrinin aşkarlanması üçün tədqiqatda olan mətnlər qeyri-ənənəvi formada, struktur-semantik təsnifat prinsipinə əsasən öyrənilmişdir;

– Mövzu, motiv və mifologemlər folklor, sənət, dil və düşüncə səviyyəsində izlənilmişdir;

– Obrazın mifoloji strukturunun aşkarlanmasında əski ritual və ayinlərin spesifikasının qismən öyrənilib tədqiqatda diqqətdə saxlanması nəzərdə tutulmuşdur;

– Diqqətdə saxlanan ədəbi mətnlər sinxron və diaxron istiqamətdə tədqiqatın baxış bucağına çevrilmişdir.

Qazan xan obrazı haqqında ən əhatəli şəkildə türk alimi Ali Duymaz "Bir dastan kahramanı Salur Kazan" əsərini yazmışdır. Lakin Qazan xan haqqında ümumi bilgilər verən bu əsər mövzumuzla sıx bağlı deyil. Çünki bu əsər Qazan xan obrazını ümumi şəkildə səciyyələndirir. Ə.B.Ərcilasunun yazdığı "Salur Qazan kimdir?" məqaləsi də Qazan xan obrazının mifoloji səviyyəsini deyil, tarixi səviyyəsini araşdırır.

T.Hacıyev "Dədə Qorqud: Dilimiz, düşüncəmiz" əsərində Qazan xan obrazının mifoloji strukturunu qismən olsa da, əhəmiyyətli şəkildə tədqiqata cəlb etmişdir.

Ş.Cəmşidov da Qazan xan obrazının əsasən tarixi aspektdən öyrənilməsinə can atmış, Qazan xanı Xürrəmilər hərəkatının rəhbəri Babəklə müqayisə etmişdir.

Mövzumuza birbaşa aidiyyəti olan ən geniş əsər B.Abdullanın "Salur Qazan" monoqrafiyasıdır. Tarixi-müqayisəli metod əsasında işlənmiş bu əsərdə müəllif Qazan xan obrazının

mifoloji səviyyəsini oğuz-türk epik ənənələrində diqqətəlayiq şəkildə araşdırmışdır. M.Seyidov Qazan xan adının etimologiyasına baş vurmuş və özünəməxsus şəkildə Qazan xan obrazının dayandığı mifoloji bünövrənin əhəmiyyətli əsaslarını açıqlamış, Qazan xan haqqında qismən bilgi versə də, qorqudşünaslığa qiymətli töhfə bəxş etmişdir. Qazan xan obrazının mifoloji səviyyəsinə aid qismən bilgilər çərçivəsində K.Abdullayev də "Gizli Dədə Qorqud" əsərində toxunmuşdur.

Qazan xan obrazının mifoloji strukturunu struktur-semantik metod əsasında araşdıran S.Rzasoy "Oğuz mifinin paradiqmaları" əsərində obrazın mifoloji təməlini əhəmiyyətli şəkildə tədqiq etmişdir.

Monoqrafiyada obrazla bağlı bütün mövcud araşdırmalar diqqətlə öyrənilmiş, onların nəzəri-metodoloji, faktoloji təcrübəsinə konkret şəkildə istinad olunmuşdur.

Oğuz epik ənənəsində Qazan xan obrazı indiyə qədər üç aspektdən öyrənilməyə çalışılmışdır: Epik, tarixi və mifoloji aspekt. Lakin bu tədqiqat əsərinə qədər həmin araşdırmaların, demək olar ki, tamamı yalnız tarixi-müqayisəli və ənənəvi-təsviri tədqiqat prinsiplərinə uyğun aparılmışdır. Elə bu səbəbdən də Qazan xan obrazının oğuz epik ənənəsində bütünlüklə öyrənilməsi mümkün olmamışdır. Çünki struktur-semantik tədqiqat üsuluna əsaslanmadan Qazan xan obrazının mifoloji semantikasının kompleks şəkildə öyrənilməsi mümkün deyil, yalnız müəyyən süjetüstü komponentlərin araşdırmaya cəlb olunması imkan verə biləcək səviyyədədir. Bu natamamlığı nəzərə alaraq bu tədqiqat işi tarixi-müqayisəli metodla yanaşı, struktur-semantik aprobasiya vasitəsilə Qazan xan obrazının oğuz epik ənənəsindəki sistematik rolunu aşkarlamağa xidmət göstərmişdir.

Tədqiqatda:

– Qazan xan obrazının mifoloji strukturu oğuz mifoloji dünya modelinin üzvi struktur ünsürü olaraq araşdırılmışdır;

– Obrazın epik-mifoloji səciyyəsi aşkar edilmişdir;

– Qazan xan obrazının epik-tarixi səviyyədə aparılması aydınlaşdırılmış, tarixi aspektdə araşdırılmasını isə epik tələbatın qanunauyğunluğunun inkar etməsi aşkarlanmışdır;

Tədqiqatda elm aləminə mətnaltı laylardan struktur-semantik səviyyədə bərpa edilmiş üç mifologem təqdim olunmuşdur.

Araşdırmada elmi ictimaiyyətə süjetüstü və süjetaltı mətn strukturu səviyyəsində üç motiv bərpa olunub təqdim olunmuşdur.

Tədqiqat işində DQK-dən struktur-semiotik yanaşma əsasında mətnüstü və mətnaltı araşdırma nəticəsində bütöv bir süjet (süjetaltı süjet) bərpa olunub təqdim olunmuşdur. Bu süjet xətti "Uruzun xaqan edilməsi" şərti adı ilə "Xan Uruzun ağası" təyinində diqqətə çatdırılmışdır. Ümumilikdə bərpa olunan mifolegem, motiv və sület xətti aşağıdakı kimi təsnif oluna bilər:

1. "Doğan günəş" mifologemi;
2. "Oğuzun yeyilməsi" mifologemi;
3. "Aslan öldürüb aslana çevrilmə" mifologemi;
4. "Atın bir hissəsi olmaq" motivi;
5. "Xaqana bağlanmaq" motivi;
6. "Qalın" sözünün motiv səviyyəsi;
7. "Uruzun xaqan edilməsi" süjeti.

Monoqrafiyada Qazan xan obrazının ritual-mifoloji strukturu aşkarlanmışdır.

Araşdırmada Qazan xanın bir obraz kimi yalnız bədii təcəssüm olması inkar olunmuş, həm bədii-epik, həm mifoloji, həmçinin tarixi bilgilərin informator təfəkkürünün süzgəcindən keçib müxtəlif laylar səviyyəsində struktur təşkil etməsi bərpa olunmuşdur.

Tədqiqat işində Qazan xan obrazının oğuz epik ənənəsində folklorlaşmasının epik-bədii və tarixi-ictimai səbəbləri funksional səviyyədə öyrənilmişdir.

Araşdırmada "transformativ məlumat baqajının" epik ənənə səviyyəsində keçidlər təşkil etməsi diqqətə çatdırılmışdır. Belə ki, DQK-də II-III boyda Qazan xanla, VII boyda Bayındır xanla bağlı ritual etiket qaydası olaraq söylənilən təyinlərin bir abzasa yerləşdirilmiş söz birləşmələri olmadığı, bu təyinlərdən digər boylara, mövzu və motivlərə, hətta DQK-dən kənar epik ənənələrə və eyni zamanda DQK-nin də daxil olduğu bütün oğuz epik ənənəsinə keçidlər mövcud olduğu struktur-semantik səviyyədə aşkarlanıb elmi auditoriyaya elmi-nəzəri metodologiya kimi təqdim olunmuşdur. Onu da deyək ki, gəldiyimiz elmi qənaətlər yekun deyil, gələcək tədqiqatlarda bu mövzuya daha geniş səviyyədə yanaşılmağa çalışılacaqdır.

Araşdırmada mətnaltı laylarda Qazan təyinlərinin zoomifoloji, antropomifoloji və sosiomifoloji modellər təşkil etməsi arxaik spesifika olaraq işarələnir. "Tülü quşun yavrısı", "Amit soyının aslanı", "Qaracuğın qaplanı", "Qonur atın iyəsi" təyinləri zoomifoloji modeli, "Ulaş oğlı", "Xan Uruzın ağası", "Bayındır xanın göygüsi", "Salur Qazan" təyinləri antropomifoloji modeli, "Bizə miskin umudı","Qalın Oğuzın dövləti", "Qalmış yigit arxası", "Türküstanın dirəgi" təyin-titulları isə sosiomifoloji modelləri təşkil edir. Ancaq onu da inkar etmək olmaz ki, zoo-antro-sosio informasiyalar bu təyinləri eyni qəlib daxilində saxlaya bilmir, təyinlərin funksionallaşması müxtəlif məna və anlamlarda proyeksiyalanır ki, bu işarələr sistemi, ayrı-ayrı semantemlər tədqiqat boyu izlənilməyə çalışılmışdır.

Tədqiqatda əsasən struktur-semiotik və tarixi-müqayisəli metodlar tətbiq olunmuşdur. İşdə həmin metodların tətbiqi üçün türk alimlərindən O.Ş.Gökyay (139; 140), Z.Göyalp (138),

Ə.Cəfəroğlu (134), M.Ergin (137), Ə.B.Ərcilasun (136), F.M.Kırzıoğlu (141), B.Ögəl (111), F.Sümər (144), Z.V. Toğan (145) və başqalarının, rus alimlərindən V.V.Bartold (153; 154), A.Y.Yakubovski (168), V.M.Jirmunski (159; 160), V.N.Basilov (155; 156) və başqalarının, Azərbaycan alimlərindən Ə.Abid (9; 10; 11; 12), H.Araslı (18; 151), M.Təhmasib (129; 130), M.Seyidov (123; 124; 125), X.Koroğlu (161), T.Hacıyev (79; 80; 81; 82; 83), N.Cəfərov (46; 47; 48; 49, 50), Ş.Cəmşidov (51; 52; 53), P.Xəlilov (88), K.Abdulla (6; 7; 8), R.Bədəlov (152), A.Rzayev (17), B.Abdulla (1; 2; 3; 4; 5), F.Bayat (33; 34; 35; 36; 37), K.Əliyev (62; 63; 64; 65), C.Bəydili (38; 39; 40; 41; 42; 43; 44; 45), M.Kazımoğlu (92; 93; 94), R.Əliyev (66), S.Rzasoy (118; 119; 120; 121), R.Kamal (89; 90), Ə.Əsgər (69;71) A.Xəlil (85; 86; 87; 166) və başqalarının tədqiqatları nəzəri-metodoloji bazanı təşkil etmişdir.

Geniş elmi-kütləvi oxucu auditoriyası üçün nəzərdə tutulan bu monoqrafiya bədii-ədəbi, epik-mifoloji yenilikləri ilə yalnız folklorşünaslıq üçün deyil, həmçinin oğuzşünaslıq, qorqudşünaslıq, mifologiya, eyni zamanda ədəbiyyatşünaslığın əsas qolunu təşkil edən ədəbi tənqid, mənbəşünaslıq və filologiya sahələrinə gətirdiyi yeni elmi-nəzəri müddəalar baxımından mühüm əhəmiyyət daşıyır. Ümid edirik ki, bu kitab bədii əsər və ədəbi abidələrdə obrazlar sisteminin yeni istiqamətdə təhlilə cəlb olunması gərəyindən gələcək tədqiqatlar üçün əsas baza rolunda çıxış edəcəkdir.

Monoqrafiya müəllifin 2002-2013-cü illərdə nəşr etdirdiyi elmi-nəzəri məqalələri və 2013-cü ildə elmi ictimaiyyətə təqdim etdiyi "Oğuz epik ənənəsində Qazan xan obrazı" adlanan dissertasiyasının kitab tələblərinə uyğunlaşdırılmış versiyası üzərində hazırlanmışdır.

# I FƏSİL

# QAZAN XAN OBRAZININ FUNKSİONAL STATUSU

## Qazan xan obrazının xan statusu

Oğuz epik ənənəsi deyildikdə, adından göründüyü kimi, oğuzlarla bağlı olan bədii-epik, mənqəbəvi, qismən də tarixi əsərlərin ardıcıllığı nəzərdə tutulur. Bu əsərlərə elmi ədəbiyyatda konkret olaraq "Oğuznamə" adı verilmişdir. "Oğuznamə" tədqiqatlarda oğuz etnik-mədəni düşüncəsini bütövlükdə əks etdirən epik-tarixi təsəvvürlər sisteminin etnokosmik işarəsi kimi səciyyələndirilir (9; 80; 33; 36; 49; 51; 52; 70; 72; 85; 89; 103; 118; 119; 120; 121; 132; 152; 160; 166) və s.

Oğuznamələr hələlik müəyyən sayda olsa da, bu, oğuznamələrin tamamı anlamını vermir. Zaman-zaman arxivlərdən yeni oğuznamələr aşkara çıxarılıb elmi auditoriyaya təqdim edildikcə, oğuz epik ənənəsinin zənginliyi bir daha təsdiq olunur. Əldə olan oğuznamələr arasında XVI-XVII yüzilliyə aid edilən, lakin öz səhifələrində minilliklərin şifahi abidələrini daşıyan "Əmsali-Məhəmmədəli", yaxud "Əmsali-türki" adlanan oğuz atalar sözü və məsəlləri, XIII-XIV əsrlərdə Elxani hökmdar(lar)ının vəziri və tarixçisi F.Rəşidəddinin yazdığı "Cəmi ət-təvarix" (tarixlər toplusu) əsərindən çıxarılmış oğuznamə, XV-XVI yüzilllkdə yaşadığı güman edilən sufi şeyxi Dana Atanın heca vəznində yazdığı oğuznaməsi, XV əsrdə yaşamış olan Yazıçıoğlu Əlinin yazdığı "Təvarixi-ali Səlcuq" adlanan oğuznaməsi, XVI əsrdə yaşamış olan türkmən tarixçisi Salır Babanın "Oğuz tarixi" əsəri, XIII-XIV yüzillikdə üzü köçürüldüyü təxmin olunan "Oğuz Kağan" dastanı, XVII əsrdə yaşamış Xivə xanı Ə.Bahadırın "Şəcərəyi-Tərakimə" (Türkmənlərin soy ağacı) əsəri, N.Əndəlibin

Dana Atadan sonra XVIII əsrdə şeirlə yazdığı "Oğuznamə", Uzunkörpüdə Seyyid Əli adlı bir şəxsin kitabxanasından tapıldığı üçün elmi ədəbiyyatda "Uzunkörpü variantı" adını almış oğuznamə, Əlyazma nüsxəsində "Əla-lisani-taifeyi-Oğuzan" deyilən oğuz abidəsi "Kitabi-Dədə Qorqud" eposu və oğuzlarla bağlılığı olan, epik-mənqəbəvi, folklor bilgiləri verən bir qisim salnamələr də mövcuddur (36; 110; 60; 61; 73; 115; 116; 164;165; 147; 148; 149; 158; 169) və s. Bizim mövzumuz "Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturu" olduğu üçün əsas tədqiqat mənbəyimiz DQK (Dədə Qorqud Kitabı) və bir neçə oğuznamə olmuşdur. Çünki Qazan xan obrazı mükəmməl bir obraz olaraq DQK-də öz əksini tapmış, digər oğuznamələrdən isə Salur Qazan haqqında az bilgi əldə etmək mümkün olmuşdur.

Oğuz epik ənənəsində Qazan xan obrazını araşdırarkən bu obrazın mifoloji strukturunu bərpa etmək tələbatı meydana çıxır. DQK-də və digər oğuznamələrdə diqqət çəkən bu obrazın epik, tarixi, mifoloji səviyyələri əsasən bir-birinə bağlı komponentlərlə izlənilir. Qazan xan DQK-də epik obrazdır. Nə qədər məlumatları özündə cəmləsə belə, bu əsər epik əsərdir. Bu səbəbdən də Qazan xan obrazının bu əsərdə aparılan tədqiqi epik izləmələrlə mümkündür. Yəni burada tarixilik də, mifiklik də epik qanunlara tabedir. Nə real tarix, nə gerçək mif deyil, əksinədir. Mətnaltı bazanın üzə çıxarılması belə yenə də epik qanunlarla təsdiqini tapır. Digər oğuznamələrdə isə əsasən ya epik, yaxud da tarixi-epik şəkildə bu obraz araşdırıla bilir. Çünki mənqəbə oğuznamələr yalnız epik deyil, adından da göründüyü kimi, həm tarixi, həm epik mənbələrdir. Lakin istər DQK-də, istərsə də digər oğuznamələrdə mif və tarix məlumat səviyyəsində mətndə daşınır. Bu məlumat bazası mənqəbələrdə də açıq və qapalı şəkildə özünü göstərir. Elə bu səbəbdən də Qazan xan obrazının mifoloji strukturunun araşdırılması ilkin

olaraq mifə baxışın həm məlumat səviyyəsində (dünyagörüşü forması kimi), həm də epik səviyyədə (təhkiyə təzahürü kimi) vacib tədqiqini tələb edir. Elə bu baxımdan da ilkin olaraq oğuz epik ənənəsində Oğuz xanın tarixi-real statusu və epik düşüncədə oturuşmuş sistem olmasının səbəbləri araşdırılmalıdır. Epik ənənədə Qazan xan obrazının öyrənilməsi və bu obrazın mifoloji strukturunun açılması mifin və oğuz mifinin (oğuz türk mifologiyasının) (110, 74) öncə araşdırılması vacibliyini irəli sürdüyündən mövzu daxilində, qısa da olsa, bu məsələlərə diqqət çəkmək ehtiyacı yaranır.

Oğuz epik ənənəsinin əsası üç əsas obraz üzərində struktur material olaraq kliseləşir: Oğuz xan, Ata Qorqud, Qazan xan. Sonuncu iki obraz da birinci obrazdan şaxələnir. Yəni Qorqud və Qazan obrazı oğuz mifinin paradiqmatik görüntüləridir. S.Rzasoy Qazan xan obrazını Oğuz Kağanın, Qorqud obrazını isə qam-şaman invariantının paradiqması kimi təqdim edir (118, 36).

Oğuz mifi epik ənənədən daha qədim olmasına baxmayaraq, epik ənənə mif strukturunu özündə daşıyır. Epik ənənədə oğuz mifinin obraz versiyası olan Oğuz xan oğuz mifinin obraz versiyası olan Qorqud Dədə və Qazan xan obrazlarının sinxron düzümündə iştirak edir. Lakin Oğuz xan obraz versiyasına başlanğıc olan oğuz mifi digər iki obraz ilə sinxron deyil, diaxron laylar təşkil edir. Oğuz xaqan obraz olaraq digər obrazlarla yanaşı iştirak etsə də, strukturunda daşınan mifik sistemin digər obrazlar üçün invarianta çevrilməsi baxımından bu obrazlarla eyni zamanda diaxron istiqamətində olur. Oğuz mifinin modelləşdirilməsində bu iki obrazın invariant strukturundan qopan paradiqmalar kimi meydana çıxması hər iki obrazın öyrənilməsi zamanı oğuz mifinin araşdırılması zəruriliyini ortaya çıxarır. Bu vacib məsələ eyni zamanda epik ənənə və miflə bağlıdır. Deməli, epik ənənənin araşdırılması

zəminində mifoloji sistemin də öyrənilməsi tədqiqatın prinsipial tələbatıdır. Elə bu səbəbdən də biz Qazan xan obrazını araşdırarkən yalnız bir obraz haqqında təfərrüatları deyil, böyük bir sistemin hərəkətverici tərkib hissəsi olan, obrazlar sistemində əsas obraz olaraq kommunikativ əlaqə zənciri quran bu obrazın struktur səviyyələrini də araşdırmağa can atdıq. Oğuz mifi ilkin olaraq Oğuz xan (xaqan) obrazına transformasiya olunub onu törətdiyi kimi həm oğuz mifi, həm də Oğuz obrazı Dədə Qorqud və Qazan xan obrazlarının invariantı rolunu oynayıb onları paradiqmaya çevirərək bu obrazlarda daşınır. Hər iki obrazın əsasında mif və obraz (Oğuz xaqan) funksiyaları eyni səviyyədə dayanır. Dədə Qorqud obrazında oğuz mifindən gələn Oğuz xan ("Oğuz Kağan" dastanı və s.) obrazının ruhani missiyası (dini-sakral vəzifə, Oğuz xanın peyğəmbərlik statusu və s.) Qazan xan obrazında isə ali idarəçilik və Qəzavat funksiyası (xan, mədəni qəhrəman, qazi (ərən), cəngavər və s.) inikas edir.

Eyni zamanda qarşıda görəcəyik ki, bu funksiyalar bütövlükdə xan, xaqan statusundan keçir ki, bu da Oğuz xaqan statusunun paradiqmasıdır. Bu funksiya, missiya və statusların aydınlaşdırılması bəzən mətnin üst qatında, bəzən isə alt laylarda iştirak edir. Elə bu səbəbdən də struktur-semantik metod kod açarı rolunu oynayaraq dekodlayıcı vəzifə daşıyır və obrazın əhatəli şəkildə kütləvi auditoriyaya çatdırılmasına yardım edir. Qazan xan obrazının paradiqma kimi izlənilməsi Oğuz eposunda, əsasən də "Oğuz Kağan" dastanında araşdırıldığından, eyni zamanda tarixi-müqayisəli metodu da diqqətdən kənarda saxlamamağı tələb edir. Elə bu baxımdan da hər iki metod araşdırmada iç-içə olaraq iştirak edir. Onu da qeyd edək ki, Qazan xan obrazı oğuz mifinin paradiqması olsa da, bu obrazın oğuz eposundan bilavasitə tədqiqata cəlb olunması daha məqsədə uyğundur. Çünki həm "Oğuz mifi Oğuznamə epo-

suna transformasiya olunmuşdur" (118, 5), həmçinin oğuz mifi deyil, Oğuz (namə) eposu əldə olan mənbədir. Bütün yürüdülən mühakimələr son nəticədə mənbəyə söykənmək ehtiyacını ortaya çıxarır. Elə buna görə də Qazan xan obrazının bu istiqamətdə araşdırmaya cəlb edilməsi vacib və zəruridir.

Qazan xan obrazının invariant kök əsası oğuz mifi və oğuz eposu bu obrazda Oğuz obrazının müxtəlif şəkillərini, şaxələrini, törəmələrini səciyyələndirir. Qazan xan obrazı mövzu və motiv vasitəsilə paradiqmatik əksini reallaşdırır. Bu obrazın paradiqma olaraq oğuz epik ənənəsində üç əsas obrazdan biri kimi iştirak etməsi digər obrazların mərkəzində durmaqla epik sferanın ana obrazı olması – DQK-də bu aydın nəzərə çarpır, Bayındır xan mətndə zəif şəkildə görünür,– onu Oğuz Kağan obrazının klişesi kimi şərtləndirir.

Oğuz mifinin paradiqması kimi Qazan xan obrazı epik ənənədə, xüsusilə də DQK-də **xan statusu** ilə diqqət çəkir. Qazan xan DQK-də xan (97, 43, 116, 119, 123), bəy (bəg) (97, 43, 64, 68), bəylər bəyi (bəglər bəgi) (97, 107, 108, 116), alp və yaxud alplar başı (97, 99) və s. kimi titullarla tanınır. Rəşidəddin "Oğuznamə"sində Qazan olduğu ehtimal olunan kişinin rütbəsi bəy (115, 61), Əbülqazi Oğuznaməsində də eyni titulla bəy (60, 93) və alp (60, 97-98) kimi getmişdir. Elə diqqətlə baxdıqca DQK-də də xan tituluna nisbətdə bəy titulu xeyli artıq görünür. Demək olar ki, eposun əksər hissəsində Qazan xan deyil, Qazan bəy adlanmışdır. Təsadüfi deyil ki, DQK-nin Vatikan nüsxəsi də "Hekayeti-Oğuznameyi Qazan bəg və qeyri" adlanır (99, 311). Bu, Qazan obrazının epik ənənədə ən əhəmiyyətli obraz olduğunu dəyərləndirməklə bərabər, Qazanın titulunu xan deyil, bəy kimi göstərir. Lakin DQK-də Qazanın xan, bəylərbəyi və yaxud "bəylərbəyi xan Qazan" adlanması və Bayındır xana aid olan təyinlərin eyni qaydada və bir az da artıq olaraq Qazan xana aid edilməsi (97, 42), bundan əlavə

dörd dəfə Bayındır xanın, iki dəfə də Qazan xanın ritual ənənəyə uyğun olaraq boy başlanğıcındakı rəsmi törəni (97, 34, 52, 94, 104, 42, 68) və ritual keçirməsi (97, 123) Qazan xanı epik mətndə xan kimi işarələyir. Eyni zamanda Bayındır xanın xanlar xanı adlanmasına uyğun olaraq Qazan xanın bəylər bəyi adlanması da, Bayındır xanın xaqan, Qazan xanın xan statusunu müəyyənləşdirir (97, 34, 116). Təsadüfi deyil ki, A.Xəlil "bəy" titulunun oğuz düşüncəsindəki semanteminin oğuz kompleksi səviyyəsində olub struktur təşkil etdiyini qeyd edir: "Bəy sakral sferaya daxil edilir, Tanrıya və başqa sakral dəyərlərə olan münasibətə uyğun funksiyada müşahidə olunur" (87, 118).

Epik mətndə (DQK-də) nə üçün Qazan xan aydın şəkildə xan, bəy və yaxud bəylərbəyi kimi getmir? Elə Bamsı Beyrək də gah bəy, gah da xan kimi təriflənir. (97, 54, 60). Bu, ozan diqqətsizliyidir, katib xətasıdır, yoxsa anaxronizm? Oğuz eposunu tədqiq edərkən bu məsələnin diaxronluqdan doğan anaxron olduğu aydın olur. Oğuz Kağan (xaqan) mətnin epik səviyyəsində kosmoloji strukturda ilk insanı simvolizə etdiyinə görə (oğuz iyerarxiyası) həm də ilk xaqan, ilk xan, ilk bəy, ilk mədəni qəhrəman və s. dir. Oğuz ilk insan olaraq bütün arxaik titulları özündə cəmləyir. Əgər tarixə müraciət etsək, bu titullar Oğuz xandan əvvələ gedib çıxar. Lakin oğuz epik düşüncəsində Oğuz ilk insan olduğuna görə xaqan, xan, bəy diaxronik düzümü oğuz epik ənənəsinə paradiqma təşkil edir. Bu baxımdan Bayındır və Qazan xanda Oğuz xanın xaqanlığı və xanlığı sistematik paradiqma yaradır. Bu səbəbdən mətnə səpələnən xan, bəy, bəylərbəyi kimi rütbə təyinləri ona görə bir şəxsə (Qazana və s.) aid edilə bilir ki, bu titullar Kağan (Oğuz) titulunun törəmələri olaraq diaxron səviyyə təşkil edir. Əgər bu titullar iyerarxik sistemin məlum sözlükləridirsə, oğuz epik ənənəsində Oğuz kağanlığından doğan paradiqmalardır. Elə B.Ögəl də uyğurca, "Oğuz Kağan" dastanının

tərcüməsində, (müasir türk dilinə uyğunlaşdırmasında) "Oğuz Kağan"ı əksər yerdə Oğuz xan kimi, tək-tək halda isə "kağan" kimi eyni mənalı söz olaraq işlədir (112, 130-185).

Məlumdur ki, "Oğuz Kağan"ın kağanlığı mətndə təsadüfi xarakter daşımır. Oğuz Kağan özünü yer üzünün dörd tərəfinin xaqanı elan edir. Həm bunun Tanrı buyruğu olduğu, Tanrının Oğuz xanı vəzifələndirdiyi, onun boynuna müqəddəs missiya qoyduğu və bunun da Tanrı qarşısında bir borc olduğu "Oğuz Kağan" dastanında diqqət çəkir (110, 13, 17, 34). Oğuz Kağan məhz Tanrı iradəsini həyata keçirən vəzifə daşıyıcısı (peyğəmbər-qazi) kimi cahan dövləti qurmağa çalışır və dastan informasiyasına görə buna nail olur. Deməli, kağanlıq adi bir titul deyil, sakral rütbəni işarələyir. "Kağan rütbəsi" sonrakı mərhələlərdə epik ənənədə Oğuz xandan sonrakı dövrü ifadə edən və bu dövrdə meydana çıxan xan, bəy və s. sözlüklərin arxetipi olaraq özünü göstərir. Məhz Bayındır və Qazan xan da oğuz invariant modelinin paradiqması kimi eyni funksiyanın müxtəlif təzahürü olaraq aşkara çıxır. Bayındır xanın mətndə Qazan xana nisbətdə zəif iştirak etməsi oğuz dünyagörüşünün spesifikliyindən irəli gəlir. Çünki xaqan xalqa görünmür (97, 261). İkili idarə üsulunun qaydasına uyğun olaraq xan daha çox dinamik fəaliyyəti ilə seçilir. Lakin Oğuz Kağanın xaqanlıq törəməsi kimi xan titulu DQK-də sistemli formada yalnız bu iki şəxsi əhatə edir. Bu da onu göstərir ki, xan titulu iki statusda iştirak edir:

1) Xan – ali idarəçilik institutunun (DQK-də Qalın Oğuzun) başçısı kimi (ictimai-sosial, siyasi status)

2) Xan – şəxsi keyfiyyətlərin göstəricisi olan rütbə kimi (fərdi status)

DQK-də yalnız Bayındır xan birinciyə, Dirsə, Buğac, Beyrək və s. xanlar isə ikinciyə, Qazan xan isə hər ikisinə aid olaraq üzə çıxır. Lakin hər iki funksiya Oğuz Kağan paradiq-

ması olduğuna görə bəzən bu anlamlar mətndə anaxron yarada bilir. Misal üçün, Dirsə xan oğlu Buğac xan (I boy) Bayındır xanın buğasını yıxmaq şücaəti göstərdikdən sonra ad almaq şərəfi qazandıqda və ritual icraçısı Dədə Qorqud gəlib ad ritualını həyata keçirdikdə Bayındır xan Oğuz məkanının xaqanı ola-ola Bayındır xanın öz məkanında belə (Buğa onun buğasıdır və sarayından çıxır) Buğaca bəylik vermək üçün ona deyil, Dirsə xana müraciət edilməsi (97, 36) xanlıq funksiyalarının bir-birinə qarışmasıdır, anaxrondur.

III boyda isə hünər göstərən Beyrəyin Qazanın bəyliyini (xanlığını) birgünlük alması, hər nə istəsə onu etməyə icazəli olması (97, 64) həm funksiya dəyişməsi, həmçinin statusların yerdəyişməsidir. Bayındır xanın funksiyasının (xanlığının) mətn altında Dirsə xana keçməsi və Qazan xanın funksiyasının (bəyliyinin) Beyrəyə keçməsi yalnız anlamların deyil, statusların da funksionallaşması paradiqmatik görüntülərin mövcudluğundan irəli gəlir. Yəni bu bir ana variantın müxtəlif şəkilləri olduğuna görə bəzən funksiyalar da bir-birinə qarışır. Çünki hər nə şəkildə olursa olsun, hansı obraza cəmlənirsə cəmlənsin, mahiyyətdə Oğuz xanı və Oğuz xan olaraq da oğuzun özünü (kosmoloji model) səciyyələndirir.

Başqa bir misal: XI boyda Qazan xanın Oğuz məkanından təcrid edilib sakral məkandan periferik məkana (kafər məkanına) götürülməsi və oğlu Uruz böyüyənə qədər burada qalması, bu müddətdə birinci dərəcəli xanlıq statusunu faktiki olaraq itirməsi (DQK zamanının irəliyə-geriyə gedən (təkrar) hərəkətsiz və yarıhərəkətli-yarıhərəkətsiz zaman olması belə bu anlamı dəyişdirə bilmir) ikinci dərəcəli xanlıq statusunu saxlaması ilə şərtlənir. Məsələn, kafər məkanında belə kafərlərə qələbə çalması (təkurun övrətini qorxuya salması, quyudan çıxması, kafər boynuna minib kafərlərin gözü önündə onu həlak etməsi və s.) (97, 117) xanlıq şəxsi keyfiyyətlərini ini-

kas etdirir. Qazan xan obrazının ritual-mifoloji səviyyəsi elə onun xanlıq statusunda cəmlənir və bu statusdan qopan hissələr Qazan xan obrazını bütünlüklə oğuz epik ənənəsində səciyyələndirir. Qazan xan obrazının statusu funksionallaşaraq (bəy, xan, xaqan) epik səviyyədə oğuz epik ənənəsində müxtəlif anlamları ifadə edirsə də, dərinə endikcə də oğuz mifinin invariant strukturundan qopan paradiqmalar kimi üzə çıxır. Qazan xan obrazının ritual kodeksin rəsmi daşıyıcısı kimi iştirak etməsi mütləq onun xan statusundan keçir. Çünki ritualların təşkili xan, xaqan tərəfindən həyata keçirilir, icraçılığı isə ruhani funksiyada çıxış edən şəxslər vasitəsilə baş tutur.

Qazan xan obrazı oğuz mifinin və oğuz eposunun paradiqması olaraq öncə Oğuz xanın xaqanlığını əsas statusda öz nəzərində cəmləyərək bütün titullarıyla birgə (xan, bəy, bəylərbəyi) DQK-də ali idarəçilik qurumunun başçısı kimi görünür. Qeyd etdiyimiz kimi xaqanla bərabər hüquqlu şəxs olaraq rəsmi törənlərin dəyişməz siması kimi əvəzlənməz funksiyada iştirak edir. Qazan xanın zirvədə qərar tutması, Qalın oğuz elinin faktiki rəhbəri olması onun keyfiyyətlərinin kütləviləşdirilməsi üçün ənənəvi tərənnüm şablonunu doğurur. Lakin bu şablon kimi görünmür. Çünki öz içərisində Oğuz xaqanının şəxsiyyətinin bütövlüyünü ifadə edən irsi, etnik, milli, dini və s. maddi-mənəvi yaşantının anlamlarını daşıyır: "**Bir gün Ulaş oğlı, Tülü quşun yavrısı, Bizə miskin umudı, Amit soyının aslanı, Qaracuğın qaplanı, Qonur atın iyəsi, Xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, Qalmış yigit arxası Salur Qazan yerindən turmışdı**" (97, 42).

Diqqətlə yanaşdıqda aydın görünür ki, bu sözlüklərdə yekdil olmayan müxtəlif məlumat anlamı və dünyagörüşü forması cəmlənmişdir. Elə bu baxımdan da bu ritual törənə, boy başlanğıcında olan mərasim faktoruna yalnız Qazan xanın titulları kimi baxmaq özünü doğrultmur. Bu sözlüklərə Qazan

xanın xanlıq dərəcəsinin ifadəsi olaraq ad tapmağa çalışsaq, şübhəsiz ki, "xan öyüncü" ifadəsi ritual fəaliyyəti daha çox aydınlaşdıra bilər. Buna görə də bu təyinlərin anlamlarını araşdırmağa çalışaq. Çünki bu təyinlər bütünlüklə Qazan xanın xan statusunu proyeksiyalandıra bilər. Eyni zamanda bu sözlüklər mətndə kod açarı rolunda çıxış edib bütünlüklə oğuz epik ənənəsində Qazan xan obrazının müxtəlif fəaliyyətlərini özündə cəmləyir. Mətnə hansı bucaqdan baxılırsa baxılsın, xan öyüncləri təyinlərinə gəlib çıxmaq məcburiyyəti meydana çıxır. Elə bu səbəbdən də bu təyinlərin ardıcıl formada araşdırmaya cəlb olunması ehtiyacı yaranır.

## Xan öyüncü kompleksinin semantikası

### 1. Ulaş oğlı təyini

Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturunun öyrənilməsi üçün Xan öyüncü kompleksinin ardıcıl olaraq epik-mifoloji səviyyədə araşdırılmasının mühüm əhəmiyyəti vardır. Bunlardan ilk öncə diqqəti "**Ulaş oğlı**" təyin-qəlibi cəlb edir. Bu, hər şeydən öncə soy işarəsidir, atanı inikas edir, əcdadı (Oğuzu) assosiasiya edir. Epik mətndə Qazan xanın "Ulaş oğlı" bildirilməsi təsadüfi xarakterdə deyil. Qazan xan Salurlardan olduğuna görə salurlarda şərəfli ad sayılan Ulaşın onun atası olaraq mətnə düşməsinə ən azından ona görə ehtiyac var ki, Qazanın xanlıq şərəfini əsaslandırsın. Rəşidəddin "Oğuznamə"sində "Ulaş" adı çox hörmətlə xatırlanır: "Salur boyundan olan Ulaş və Ulad adlı iki nəfər" (115, 41) Oğuz xanın nəvəsi kimi göstərilən Dib Yavqu ilə görüşür və Dib Yavqu onlar haqqında deyir: "Məmləkəti olduğu kimi saxlaya bilmək bilik və bacarığı göz qabağında olan bu iki kəsin sözünə qulaq asmaqla mümkün olar" (115, 41). Hətta titulları

göstərilməyən iki şəxsin geneşikliyi (Rəşidəddində kenqeş (115, 48), Əbdülqazidə geneş bəyləri (60, 74) və yaxud inaqlığı (97, 262) ölkənin taleyini həll edir. Ən maraqlı da odur ki, bu şəxslər (Ulaş və onun oğlu Ulad) Dib Yavquya Oğuz xanın müasiri olaraq Oğuz xaqanın dövlətçilik strategiyasından və idarəçilik metodlarından, ölkəni necə saxlamaq qaydalarından bəhs edirlər (97, 41). Əbdülqazi "Oğuznamə"sində isə iki şəxsin deyil, yalnız Ulaşın haqqında bilgi verilir (60, 73). Təbiidir ki, belə bir mühüm şəxsiyyətin (Ulaşın) Qazan xanın atası olması onu həm Oğuz zamanına yaxınlaşdırır, həm Oğuza soy baxımından yaxın edir, həmçinin "Qalın Oğuzun dövləti" olmasının şərəfini təmin edir. Halbuki Əbülqazi "Şəcəreyi-Tərakimə"də nəsil şəcərəsini göstərərkən Qazan xanın atasının Ulaş deyil, Enkeş olduğunu göstərir (60, 97). Lakin Əbdülqazidə də məlumatlar çox ziddiyyətlidir. Ulaş haqqında eyni məlumatı verən Ə.Bahadır xan Enkeşi gah Qazan xanın kəndxudası, gah da atası kimi göstərir (60, 76, 97, 100).

Ancaq buna baxmayaraq, bir fakt maraqlıdır ki, hər iki oğuznamə yazarı mənqəbəçi olaraq Ulaş haqqında verdikləri məlumatda onun Oğuz xanı gördüyü və ona yaxın olduğu barədə eyni hadisəni təsvir edir və burada Qazan xan haqqında heç bir bilgi verilmir. Biz Salur Qazanın Ulaş oğlu olmasını tarixi baxımdan qətiyyətlə inkar etməsək də, təsdiq də etmir, bunun epik tələbat səviyyəsində olduğu fikrində dayanırıq. Ulaş oğlu işarəsi soy işarəsi olub əcdadı işarələməklə epik mətndə Oğuz assosiasiyası yaratmaqla oğuz paradiqması kimi aşkarlanan Qazan xan obrazının bir paradiqma cizgisini nümayiş etdirir.

### 2. Tülü quşun yavrısı

Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturu bir bütöv sistem olub, müxtəlif semantik səviyyələr-

dən təşkil olunur. Bu cəhətdən Qazan xan obrazının "**Tülü quşun yavrısı**" semantemi səciyyəvidir. Bu sistemdə zooloji səviyyə ilkin, arxaik semantika kimi ad semantemi olaraq diqqət çəksə də, əslində bu təyin fərqli anlayışlar məcmuusunu ifadə edir. "Tülü quşun yavrısı" **i**nanc işarəsidir. Günəşi simvolizə edir. Oğuzun işıq anlamını proyeksiyalandırır. Bu ifadə haqqında elmi ədəbiyyatda (qorqudşünaslıqda) geniş bəhs açılmışdır. Öncə onu bildirək ki, bu sözü H.Araslı, Ş.Cəmşidov "tulu" (96, 31; 98, 30), O.S.Gökyay, M.Ergin, F.Zeynalov və S.Əlizadə "tülü" (140, 16; 137, 95; 97, 42) kimi müxtəlif şəkildə oxumuşlar. Əlimizdə olan DQK-nin əlyazmasında (Drezden nüsxəsinin faksimilesi) bu söz (99, 586, (35) həm də ona görə müxtəlif cür oxunur ki, bu nüsxənin əksər hissəsi nəsx xətti ilə yazılmışdır. Belə olan təqdirdə " tülü " sözü nəinki iki, hətta dörd şəkildə oxuna bilər (tülü, tulu, tölö, tolo). DQK ərəb əlifbasında yazılmış mənbə (57, 34) olduğundan bəzən bir söz ətrafında müxtəlif mübahisələr yaranır. Çünki ərəb əlifbasının öz spesifikası vardır ki, ərəb dilində deyil, Azərbaycan (türk) dilində bu əlifbadan istifadə etdikdə dil özəllikləri müxtəlif fərqlər yaradır. M.Seyidov "tülü" sözünün hətta "tu-ulu" şəklində olduğunu, uca dağ anlamını verdiyini, iki "u" səsi yanaşı gəldiyi üçün birinin fonetik biçimdə düşdüyünü qeyd edir (124, 111). Ş.Cəmşidov isə bu sözü II-III boyda "tulu" oxuduğu halda birdən-birə VII boyda "toğlu" kimi oxuyur (98, 103).

Bizim fikrimizə gəldikdə isə, bu sözün diqqət çəkdiyimiz yazılışlarından fərqli olaraq "tülu" şəklində olması qənaətindəyik. Mətndəki (əlyazmada) quş adını bildirən "tulu" isminin ərəb əlifbasındakı "te", bizim qəbul etdiyimiz "tülu" (doğmaq, çıxmaq) felinin isə "ta" hərfi ilə yazılışının fərqindəyik. Lakin həm bu sözü dilimizə uyğunlaşdırarkən tülu deyil, tulu şəklinə düşür, çünki "ta" hərfi ilə yazılmış hər hansı

sözü "əlif ", "vav", "ye" hərflərinin işlənib işlənməməsindən asılı olmayaraq qalın saitlə tələffüz etmək lazım gəlir (67, 82) ki, bu əvvəlki oxunuşların ən azından bir neçəsi ilə ziddiyyət təşkil etmir (96, 31; 98, 30), həmçinin ozan oxunuşundan eşidilmə yolu ilə alınan bu sözün (səsin) başqa şəkildə yazılması katib (lər)in yanlışından irəli gələ bilər. Diqqət çəkdiyimiz kimi, M.Seyidov bu sözü nəinki yazıldığı kimi, hətta hərf artıraraq (tu-ulu) fərqli şəkildə oxumağa cəhd göstərir. Söz öz yazılışını anlam baxımından da nəzərə çatdırır. Məhz bu leksemin bir tərəfinin həqiqi "quş" formasında qəbul edilməsi müxtəlif fikir yanlışlığına səbəb olub. Halbuki bu ifadə hərfi anlamın deyil, simvolik-metonimik anlamların ifadəsidir.

Tülu quş obrazının epik-mifoloji səciyyəsinə gəldikdə bu obraz tədqiqatlarda ulu dağ inancının zoomorfik ifadəsi hesab edilmiş, Tülu quşu ilə Simurq, Humay obrazları arasında paralellər axtarılmış, onqon quş hesab edilmiş, o cümlədən totem-kökü üzərində boy atmış sələf obraz kimi izah edilmişdir (124, 111; 1, 61; 131, 43; 78, 68; 88, 138).

Tülu burada quş adını deyil, metaforik olaraq "doğan" anlamıyla, metonimik olaraq doğunu, gündoğanı, şərqi, quş isə həqiqi quşu deyil, günəşi rəmzləndirir. Bu söz birləşməsi ümumilikdə doğan günəş anlamı verir və məcaz kompleksi kimi metaforik-metonimik ifadə olaraq diqqət çəkir. Rəmzi-simvolik düşüncə tərzi olaraq günəşə "quş" deyilməsi folklor mətnlərində, klassik rəmzi ədəbi nümunələrdə və s. vardır. Bir tapmacada deyilir:

Göydən bir ağac düşdü, barsız, budaqsız,
Onu bir quş yaladı, dilsiz, dodaqsız. (Qar, günəş) (128, 75).

Burada göydən düşən ağacın qar, onu yalayan quşun isə günəş olduğu metaforik anlamın açılmasında tapmaca strukturuna uyğun sual və cavab reaksiyasında aydın görünür. Dünyasını dəyişən insanın ruhunun quşa çevrilməsi, quşun günəş-

lə bağlılığının simvolik əlaməti kimi günəş məskəninə aid olması inancı (epik mətndə simvol) da quşun günəşi işarələdiyini göstərir (163, 208).

Nizamidə günəş müxtəlif metonimiyadan biri kimi "səhər quşu" (mürği-səhər) adlanır:

Gecələri işıqlandıran (səma) boyunbağısının
mirvarilərini dağıt,
Gecə və gündüzün quşunun qanadlarını sındır (75, 21).

Burada gecə quşu deyildikdə ay, gündüz quşu deyildikdə günəş nəzərdə tutulur. M.Füzuli də günəşi eyni anlamda "sübh quşu" və yaxud "sübh dəminin quşu" adlandırır:

Mürği-dəmi-sübh çəkdi avaz,
Zaği-şəbi-tirə qıldı pərvaz. (74, 344).

M.Ə.Sabir zamanında isə artıq bu söz funksionallaşaraq "xoruz" anlamını ifadə edir:

Eylə bilirdim ki, dəxi sübh olub,
Mürği-səhər tək bir ağız banladım. (122, 55).

Elə xoruz anlamı da "quş" denotatına daxil olması və funksiyası baxımından günəşlə əlaqəlidir. Xoruz banı günəşin çıxmasının – sabahın açılışının reflektiv reaksiyası olduğu üçün assosiativ anlamlar cərgəsinə daxil olaraq günəşi rəmzləndirən metonimiya kimi günəş quşu, səhər quşu və s. yaxın anlamları ifadə edir. Çox güman ki, sözün funksionallaşması da (Nizamidən Sabirə doğru) elə bu səbəbdən irəli gəlib. Təsadüf deyil ki, Nizamidə səhər quşu xoruz deyil, günəş olduğu halda, xoruz "sübh carçısı quş" adı ilə işarələnir (75, 21).

B.Abdulla da bu sözü göstərdiyimiz anlamda oxumuş, lakin metonimik ifadəni bütövlükdə götürməmiş, buna görə də "quş" sözünün məcazi deyil, həqiqi söz kimi qəbul edərək bu quşun "simurğ quşu" olmasını ehtimal etmişdir. Söz birləşməsinin birinci tərəfi olaraq onu günəşlə əlaqələndirən tədqiqatçı alim "quş" sözünü günəş anlamında deyil, "simurğ qu-

şu" anlamında qəbul edib simurqun günəşi rəmzləndirdiyinə diqqət çəkmişdir (5, 134).

M.Təhmasibin simurq adının üç etimoloji variantını simurğ (otuz quş) siyahmurğ (qaraquş), səgmurğ (it quş) ayrı-ayrılıqda irəli sürən tədqiqatçılarla razılaşmayaraq təklif etdiyi sim rux (ay üzlü) yozumu da (130, 10, 14) bizi qane etmir, çünki bu sözlərin yeni İran dilinə aid fars tərkibli mürəkkəb adlar olmasının qarşılığında simurq sözünü daha ilkin söz olaraq qədim İran dilinin tərkibinə uyğun şəkildə götürən tədqiqatçı alim ("Avesta" ilə müqayisə və s.) yenə də sözün ikinci tərəfini, "rux" sözünü müasir fars tərkibinə uyğun olan söz kimi təqdim edir (130, 9, 14). Lakin M.Təhmasibin simurqu "günəşin, ayın əsatiri təmsili" (130, 13) adlandırması çox əhəmiyyətli yanaşmadır. Çünki simurq da bir quş olaraq günəşi inikas etdirməklə "tülu quş" anlamının "doğan günəş" məcazını təsdiqləyir. Eyni mənbədən sitat verən B.Abdulla da bu timsala diqqət çəkir (5, 135). Sadəcə olaraq fikirlərimiz o yerdə ayrılır ki, biz tülü (tülu) quşun məcazi-simvolik olaraq doğan günəş anlamı üzərində dayanır, həqiqi mənada quş olmadığı fikrini irəli sürür, B. Abdulla isə onun simurq quşu olduğunu bildirməklə cüzi yerdəyişmə ilə eyni fikri təsdiqləyir.

Biz qeyd etmişdik ki, "quş" sözü günəşi işarə edən rəmzdir, simurğ adında məhz "murğ" (quş) mənasının olmasına bir az qabaq misal çəkdiyimiz mənbədə diqqət yetirmişdik. Simurqun günəşə bağlanması simvolikası da məhz onun adında ifadələnməklə günəşin quşa bənzədilməsi kimi məcazların həm folklor mətnlərində obraz və s. səviyyələrdə əksini tapmasını göstərir, həmçinin bunun tapınış və yaxud zoomorfik anlayış doğuran pərəstiş ünsürü olduğunu deyil, məcazi anlamı ifadə etdiyini nəzərə çatdırır. Tülu quşun bir quş olaraq simurq quşu olması ən azından ona görə mümkün deyil ki, simurqun funksiyası nağıllarda göründüyü kimi DQK-də gö-

rünmür. Əgər simurq qurtarıcılığı, qaranlıq dünyadan işıqlı dünyaya körpü missiyası tülu quşda olsa idi, elə öyünc səslənən eyni boyda (II boy) Qazan xanın evini qurtarmasında tülu quşun qurtarıcı funksiyası özünü göstərməli idi. Heç olmasa Qazan xanın yurdla, suyla, qurdla, köpəklə və çobanla xəbərləşməsində tülu quşla da söyləşib onun vasitəsi ilə kafər üzərinə getməsi mətndə işarə səviyyəsində də olsa diqqət çəkməliydi. Lakin biz bunu görmürük. Yalnız Qaracıq Çobanı bu funksiyada görmək olur. Sonda Qalın Oğuzun bəylərinin ənənəvi dəstəyi də bura əlavə edilə bilər (97, 44-46).

Qazan xanın kafər quyusundan çıxarılması da eyni funksiyanı daşıyan tülu quşun XI boyda görünməsini, Qazanı qaranlıq dünyadan işıqlı dünyaya çıxarması gərəkliliyini tələb edərdi. Lakin bu funksiya bu situasiyada Qazanın öz üzərinə düşür. Qazan xanın trikisterliyi onu xilas edir (97, 116, 117). Bu ən az halda süjet üstündə işarələnir.

Əgər nağıllardakı simurq funksiyasının daha öncə epos strukturunda modelləşməsini ehtimal edib eyni funksiyada digər obraz görüntüləri axtarsaq (Qarıcıq Çoban, Qazanın trikste-rliyi və s.) və yaxud ikili, üçlü, yəni zamanda dəyişkən funksiyalarda digər surətlərə diqqət çəkib bu arxaik davranış tərzinin simurq funksiyasına keçidini araşdırmağa çalışsaq, bu artıq simurq obrazı deyil, həmin obrazların öz struktur modelindən xəbər vermiş olacaq. Ola bilsin ki, hansısa semantik, paradiqmatik qəliblər sinxron və ya diaxron cərgəni struktur səviyyədə aşkara çıxarsın, lakin artıq bu bir-birini tamamlayan anlamlarla bərabər həmin anlamların ziddiyyət təşkil edən mücərrəd əlamətlərini də ortaya çıxaracaq, funksiyalar bir-birinə qarışıb yeni funksiyada çıxış edən fərqli obraz törədəcək. Bu isə artıq simurqu tülu quşun quş denotatı olaraq eyni anlamda göstərməyəcək. "Tülü quşun" quş işarəsi yox, günəş işarəsi simurqu yaddaşa gətirdiyi üçün bu həm simurqun batil inanc səviyyəsində yozulub pərəs-

tiş obyekti olmasının yanlışlığını göstərir, çünki bu assosiativ prosesdə simurq inanc qaynağı olaraq deyil, rəmzi ifadə kimi günəşə yaxın anlamı ilə ortaya çıxır, həmçinin simurq quş denotatının zəncirvari reaksiyası olaraq təfəkkürə gəldiyindən onu əvəzləyə biləcək digər obrazların da (göyərçin, tutu, qarğa və s.) cərgəsində epik surət kimi işarələndiyini göstərir. Yalnız simurq deyil, günəş və işığı, eyni zamanda zülmət və qaranlığı rəmzləndirən çox geniş obrazlar silsiləsi mövcuddur ki, təfəkkürdə yerləşən struktur modeldə bu binar oppozisiya, ikili mövqe, dual qarşıdurma təşkil edir. Simurq zülmətdə yaşayan iri quş kimi əslində günəşi deyil, qaranlığı ifadə edir.

Bəs necə olur ki, zumrüd (simurq, ənqa) günəşin və işığın rəmzinə çevrilir? Çünki o binar mövqenin (müsbət və mənfi qarşıdurmanın) müsbət tərəfi, xeyirxah obrazı, qurtarıcı funksiyada çıxış etməklə xaosa, dağıdıcılığa qarşı çıxış edən kosmos düzümünün bərpaçı obrazıdır. Bu kosmoloji strukturun bərpasında iştirak edən bütün obrazlar müxtəlif semantemləri ilə eyni anlama köçürülərək günəşi, işığı və s. müsbət enerji yüklü anlamları ifadə edir. Oğuz-Qara xan (işıq-qaranlıq) (124, 33) arxetipinin paradiqması kimi mətndə reallaşan simurq obrazı da pərəstiş olunan məbud kimi deyil, xeyirxah-bədxah toqquşmasının (Məlikməhəmməd-div, zümrüd-əjdaha və s.) (20, 16, 18, 19, 20) xeyirxahlıq missiyasının rəmzi ifadəsi kimi ortaya çıxır. Elə zümrüdün rəng simvolikası da bu anlamı işarələyir. Zümrüd ərəb dil tərkibinə aid söz olaraq “yaşıl quş” mənası verir. Simurq isə fars tərkibli söz olaraq (otuz (si) quş (murğ) deməkdir. Ərəblərin zümrüdə ənqa deməsi isə onun Qaf dağında yaşaması inamına əsaslandığından “zümridi-ənqa” (ənqa quşu, ənqa zümrüdü) adını almışdır. Xeyirxahlıq, yaxşılıq, qurtarıcılıq anlamında bu əfsanəvi quş ərəblərdə Qaf dağında yaşayan zümrüd (yaşıl quş) adlanmış, ənqa adı isə ərəb dil tərkibinin artiklına uyğun olaraq “ən-qaf”

adının yazılışının deyilişdə "f" səsinin fonetik düşməsi nəticəsində "ənqa" kimi qalmışdır. Farslar isə Qaf dağında olan zümrüdlərə (otuz zümrüdə) simurğ demişlər. Yaşıl rəngin yaşarlıq, həyatilik, yaxşılıq, xeyirxahlıq və s. anlamları fəzilətlərdən sayılaraq elə islami rəngin də əsasına çevrilərək islam düşüncə tərzinin təzahürü olmuşdur. Elə bu baxımdan da Oğuz xana bağlanan simurq təbiidir ki, doğan günəş (tulu edən quş (günəş) anlamına çox yaxın anlayış ifadə edir.

"Tülu"nun Qazanın aid olduğu "Salur" boyu adının başqa şəkilə düşməsindən irəli gəlməsi, Qazan xanın tayfasının (salurun) onqonunu (berkutu) (60, 71) bildirməsi kimi fikirlər (78, 12, 67,68) isə ona görə özünü doğrultmur ki, "Tülu quşun yavrusu" təkcə Qazan xan deyil, həm də Bayındır xandır. VII boyda Qazılıq Qoca oğlu Yegnəyin Bayındır xana eyni öyünclərlə üz tutması bu iddianı tamamilə inkar edir (97, 95). Çünki Bayındır xan Qazan xan kimi Salur boyundan deyil, Bayındır boyundandır. Bayındır boyunun onqonu da salur boyunun onqonundan fərqlidir, berkut deyil, şahindir (60, 71).

Bayındır xan Bayındır boyunun əcdadıdır. Gök xanın oğlu Bayındır özü olaraq eposdan kitaba epik səviyyədə köçürülən prototip və yaxud protoobrazdır. Əgər tezis irəli sürülsə ki, bu katib səhvindən doğur, o zaman antitezis də ortaya çıxa bilər. Katib harada səhv etmişdir? II boyda, yoxsa VII boyda, Qazanda, yoxsa Bayındırda? Epos strukturunun arxitektonikliyindən irəli gələn və təkrarlanan dastan poetikasının tələbatı olmasından əlavə qeyd etdiyimiz kimi təkar situasiyaların məntiqi izharı kimi görünməsi bu ifadələrin Qazan və Bayındır xanın təyini olaraq təsadüfi olmadığını göstərir. Qazana aid olan öyünclərin əksəriyyəti Bayındır xana da aid edilir. Əgər Qazan xana söylənən "Tülu quşun yavrusu, bizə miskin umıdı, Amit soyunun aslanı, Qaracuğın qaplanı, qalmış yigit arxası" kimi ifadələr yerlərini dəyişməklə Bayındır xana ünvanlanırsa, (97,

42, 95) demək bu mətn strukturunda düşüncə materialı olaraq yerləşmişdir. Təbiidir ki, bunun ən az halda iki səbəbi var:

1. Oğuz cəmiyyətinin ali idarəçilik qurumu ikili palata olaraq iki şəxsin başçılığı altındadır:

a) Bayındır-xanlar xanı (xaqan);

b) Qazan- bəylər bəyi (xan) olaraq;

2. Hər iki obraz Oğuz soyunun daşıyıcısı, Oğuz missiyasının aparıcısı, epik mətndə oğuz mifinin və oğuznamə eposunun paradiqmaları olaraq işarələnmişdir. Hər iki obrazın "Doğan günəş"in yavrusu olması isə oğuz mifinin yalnız epik törəmələri (paradiqmaları) deyil, həmçinin Oğuz soyunun törəmələri olaraq görünməsidir:

1. Bayındır – Oğuz xanın nəvəsi Gök xanın oğludur;

2. Qazan – Oğuz xanın nəvəsi Dağ xanın epik mətndə oğlu (Salur), tarixi gerçəklikdə isə törəmələrindən biridir.

Oğuz xan işığa bağlanış stixiyası ilə Günəşi rəmzləndirir, daha səhihi günəş Oğuz xanın epik düşüncədə rəmzidir. Çünki epik düşüncə tərzinə görə Oğuz oğuz epik ənənəsinin, mifinin və tarixinin əcdadı, başlanğıcı, əsası olan inanc və soy aktı kimi ən yüksəkdə dayanan və ən gözəl anlamları ifadə edən struktur modeldir. Tarixi mif səviyyəsində peyğəmbər, epik səviyyədə ilk insandır. Kosmosu ifadə edir (ən müsbət anlam və xasiyyətlər bura aiddir), xaosu antistruktur səviyyədə göstərir (ən mənfi anlam və xasiyyətlər bura aiddir). Elə buna görə də epik Oğuz (həmçinin türk) təfəkküründə Oğuz xan günəş (işıq) anlayışı olaraq mərkəzi nöqtədə durur. Hərəkətdə olan günəş kimi kainatın tarazlığında Oğuz xan epik səviyyələrdə də irəli və geri getsə də, mətn üstünə və yaxud mətn altına yerləşsə də, mərkəzi mövqeyini itirmir. Çünki kosmosu şərtləndirən Oğuz bu hərəkətlə bütün hərəkətdə olanlarla birlikdə eyni trayektoriyanı cızır. Məhz Qazan xan və Bayındır xan tülu quşun (doğan günəşin) yavrusu olmaqla

Oğuz xanın yavruları, balaları, əzizləri, yavuqları (yaxınları) olduqlarını epik mətndə ozan dilində nümayiş etdirirlər.

Oğuz xanın etnoqonik və iyerarxik diaxroniyanın zirvəsində simvol kimi günəş olaraq durması M.Seyidovun da diqqətini cəlb etmişdir: "Bu mifik təfəkkürə görə də, xaqan-Oğuz xaqan günəşin zenitdə, lap dikdə durduğu yerdə qızıl çadırda oturur" (124, 428). Fikrini daha çox əsaslandırmaq istəyən müəllif DQK-də (VIII boy) Basatın söylədiyi məkanı müəyyənləşdirir: "O (Basat) günəşin zenitdə – ən uca, ən yüksək olduğu yerdən – günortacdandır. Başqa sözlə xaqanın oturduğu yerdəndir və günəşlə bağlıdır (124, 421).

Mərkəzdə (ortada) oturan xaqan Oğuzun yerini sonra Gün xan, sonra isə zaman sırası ilə Oğuz qövmünün başçıları (xaqan, xan) tutmaqla Oğuz soyunun, oğuz mifinin və oğuz eposunun (gerçəklikdə və təhkiyədə) törəmələri (paradiqmaları) olduğunu göstərir. Təsadüfi deyil ki, V.V.Bartold da günortacı günəşin zenitdə olduğu yer anlamında qəbul edir (154, 276).

Onu da qeyd edək ki, Oğuz xan yalnız günortacın (günortanın) yox, həm də doğan günəş (tülu quş) anlamıyla sübhün, dan yerinin, məkan strukturunu işarələyir. Elə M.Seyidov da başqa bir yerdə Oğuz xanın dan və yaxud dan sökülməsi ilə bağlı olduğunu göstərir (124, 139).

Əgər bu fikir özünü informativ mətn bazasının yoxlanılması – şifrəaçımı və təsdiqi baxımından doğruldursa, o zaman günbatanı işarələyən hansısa məlumat mətndə özünü göstərməlidir. Əgər günçıxan (doğan günəş), günorta (günortac) varsa o zaman günbatan da mətndə epik ifadəsini tapmalıdır. Günəş əgər doğmuşsa, zenitə də çıxmalıdır və günbatana doğru trayektoriya üzrə hərəkətdə olmalıdır. Sonra yenə doğmalı, yenə dünya durduqca təkrar hərəkəti ilə öz dinamikasında olmalıdır. Epik səviyyədə Oğuz xan günəşi rəmzləndirdiyinə görə yalnız tülu etməsiylə deyil, həmçinin digər təkrar proses-

də iştirak etməsi ilə diqqət çəkir. Doğan günəş və günortacdan sonra Oğuz xanın günbatanı işarələməsi mətndə bu şəkildə təzahür edir: "Bir gün ağıllı, dünyagörmüş kişi Uluq Türuk yuxuda bir altun yay, üç gümüş ox görür. Bu yay və oxlar gündoğandan günbatana kimi uzanır. O, yuxusunu Oğuz xaqana danışır. Oğuz xaqan oğlanlarını çağırıb üçünü (Gün, Ay, Ulduz) gündoğana (dan sökülənə), üçünü isə günbatana (qaranlığa sarı) göndərir. Gündoğana gedənlər qızıl yay, günbatana gedənlər gümüş ox(lar) tapırlar. Oğuz xaqan toy çağırır. Yurdu oğulları arasında bu bölgü (gündoğan, günbatan) əsasında ayırıb onlara bağışlayır" (110, 30-34).

Uluq Türükün gördüyü yuxuda yayın gündoğandan günbatana kimi kün tokyısı – kün batuşu (110, 30) uzanması göstərilsə də, Oğuz xaqan övladlarını dan sökülənə, dana tərəf, dana sarı (tan sarığa) və gün sökülənə, batmaqda olan günə sarı (tün sarığa) göndərir. K.V.Nərimanoğlu, F.Uğurlu bu cəhətləri dan sökülən və qaranlıq (110, 31), F.Bayat isə gündoğan və günbatan (33, 136) kimi tərcümə etmişlər. Uluq Türükün yuxusu ilə Oğuz xaqanın göndərişi arasındakı fərq ya yuxu ilə gerçəklik arasında maddi dəqiqləşdirmə aparılmasından, yaxud yuxuda oxların cızdığı istiqamətin (gecənin (110) quzeyin (33) oğuzları deyil, başqa qövmləri göstərməsi gərəyindən (oxun onlara tuşlanılması) mətnə düşmüşdür. Elə "Oğuz Kağan" dastanı da Oğuz Kağan dilində bu anlamı ifadə edir: "Ya attı oknı. Oklar dəqsenlər bolun deb dedi (Yay oxunu ata, sizlər oxlar tək olun dedi)" (110, 32, 33).

Beləliklə, Oğuz xaqan günçıxanı və günbatanı oğullara verdikdən sonra "Göy Tanrı qarşısında borcumu yerinə yetirdim, sizlərə verirəm yurdumu" (110, 34) deyərək missiyası başa çatdıqdan sonra dünyasını dəyişməsinə işarə edir. Artıq onun günəş obrazı oğullara keçir. Törəmələrə daşınır. Artıq günçıxan da, günbatan da oğulların olmaqla bu övladlar bir

yerdə günəş trayektoriyasını məcazi olaraq işarələyir. Əslində doğan günəşin yavrusu olan Bayındır və Qazan günçıxanda oturmaları ilə tutduqları məkanı, epik səviyyədə rəsmiləşdirməyə can atırlar. F.Bayatın Oğuz ali idarəçilik strukturunun ideoloji zəmini haqqında qeydi fikrimizi təsdiqləyir: "Sol tərəfdə oturan tayfaların hakimiyyəti ələ keçirdikdən sonra özlərini sağ hesab etmələri də böyüklük prinsipinin gözlənildiyinə bir dəlildir" (33, 149). Hakim qolun məkan işarəsi günçıxan olduğundan bu Bayındır-Qazan birliyinə çox lazımdır. Çünki onların məkanı gündoğan deyil, günbatandır. (Hər ikisi Uçoqlardandır) doğan günəşin yavrusu Bozoqlar olmalı ikən onlar (Bozoqlar) Basatın diliylə ortada olan günəşin yavrusu hesab olunurlar. Bəlkə də Basat "qalarda, qoparda yerini günortac" deməklə günəşin yavruları kimi Bozoqların mərkəzdə yerləşdiklərini, doğan günəş yerinin isə tutulmasına baxmayaraq o yerin yiyəsi olduqlarını elan edir. Eyni yerdə Ulaş oğlu Salur Qazan deyil, Salur oğlu Qazan deməklə onun Dağ xana daha yaxın olan bağlılığını (onun nəvəsi durumunda olur) və yerinin günəşin doğan hissəsi (günçıxan) deyil, batan hissəsi (günbatan) olduğunu xatırlatmağa çalışır (97, 102). Eyni düşüncə tərzi Uçoqlar tərəfindən də davranış streotipi kimi təzahür edir. Qazan xanın Ala dağda oturması (97, 123) Aruza, dolayı yolla Basata verilən cavabdır ki, günçıxanda və mərkəzdə Uçoqlar yerləşdiyi üçün bu məkan onlara aiddir. Oğuz məkanını əhatələyən xəritədə şərq tərəfdə Qazan düzü, Qazan gölü və Qazan dağın olması da Qazan xanın yerləşdiyi ərazinin günçıxanda olmasını göstərir (100, 338, 339). Belə görünür ki, Oğuz elində günbatan yiyələrinin gündoğanda oturmasını dilə gətirmək yasaq olunmuşdur. Basatın bu yasağı pozması ona görə mümkündür ki, artıq Oğuz eli üçün bütövlükdə təhlükə var. Oğuz eli yeddi kərə məkanını tərk etmək istəyir, lakin Təpəgözün əlindən bu mümkün olmur (97, 99). Belə bir

durumda oğuz idarəçiliyi, xaqanlığı və xanlığı Basatdan asılı vəziyyətdə qalıb. Bu yasağın gözlənilməsi nə qədər qəribə olsa da, hətta bu vəziyyətdə də qismən baş verir. Basat ənənəvi olaraq Bayındır və Qazan xanın adını oğuz idarəçiliyinin baş sütunları olaraq çəkir (97, 102). Haqqında bəhs açacağımız Qazan-Bayındır təyinlərindən olan Qaracuğun qaplanı ifadəsi də Bayındır və Qazanın günçıxana aid olmasını bəraətləndirən fikir təzahürüdür. Çünki Qaracıq (Qaracıq) dağı B.Ögəlin qeyd etdiyi kimi, Oğuz məkanının günçıxanında "Oğuz elinin şərq tərəfi (kün toğuşu)" olan ərazidə yerləşir (112, 240). Oğuz xaqan hakimiyyətinin (xaqanlığının) Bozoqlara aid olduğu (110; 115; 60; 33; 112; 142) Uçoqların isə onu mənimsəməsi (Bayındır-Qazan birliyi) sujet üstündə və süjet altında struktur laylarda gizli və açıq formada oğuzun oğuzla mübarizəsini şərtləndirir. Ayrı-ayrı obrazların dilində və davranışında bu "epik ziddiyyətin" (100, 96-97) epik qanunauyğunluğu zaman-zaman pozmasına gətirib çıxarır ki, bu konfrantasiya mətn konfiqurasiyasının daxilində üzdə təbii, alt laylarda isə qeyri-təbii şəkildə özünü göstərir. F.Sumər, F.Bayat, A.Xəlil, S.Rzasoy ( 127, 211; 33, 149; 100, 96, 97) və s. tədqiqatçı alimlər bu məsələyə diqqət çəkmişlər.

Qazan xanın Oğuz paradiqması kimi Oğuz xaqanın işıq (günəş) arxetipini obraz arealında daşıması XII boyda Qılbaşın da dilində proyeksiyalanır. Qılbaş Aruza deyir:

Qalqubanı Qazan xan yerindən turı gəldi,
Ala tağda çadırın-otağın dikdi,
Üç yüz altmış altı alp ərənlər yanına yığnaq oldu (97,123).

Qazan xanın Ala dağda mövqe tutması zirvədə durmasını işarələyir. Çünki Ala dağ semantik anlamına və rəng simvolikasına görə mərkəzi və yüksək mövqeyi mənalandırır (5, 114, 115). Üç yüz altmış altı alp ərənin yanına yığnaq olması isə say arxetipi olaraq obrazda daşınıb semantik yüklü olaraq bir tə-

rəfdən ilin günlərini, bir tərəfdən isə oğuz boylarının əcdadlarını əks etdirir. Ola bilsin ki, üç yüz altmış altı boyluq türk oğuz eposu da şifahi ənənədə hekayət səviyyəsində mövcud olmuşdur. Elə T.Hacıyevin timsalında DQK-də olan on iki boyun Dədə Qorqud boylarının bir hissəsi olması haqqındakı fikirlər də (54, 94) görünür ki, təsadüfən meydana çıxmamışdır. Mətndə Ala dağ yeri işarələyərək yerin mərkəzinə cəmlənən alpların (astronomik oxunuşda günlərin) Qazan xan ətrafında dövrə vurmasını (epik səviyyədə yığnaq olması) ifadə edir. Bu anlayışda Qazan xan, Ala dağ və alpların süjet üstündə boy kompozisiyasına uyğunluğu ümumi bir süjet xəttinin anlamlarını bildirirsə, süjet altı struktur fiqurasiyalarda hər anlam bir-birindən ayrılıb məna kəsb etməsiylə əvvəl antistruktur, sonra isə yeni bir anlam üzərində qurulmasıyla struktur model yaradır. Artıq bu yeni anlam səviyyəsində Qazan Ala dağdan göyə çəkilib mərkəzi mövqe tutub günəşi işarələyir. Ala dağ günəş ətrafında meyl edən, cəlb olunan heliosentrik istiqamət təşkil edir, üç yüz altmış altı alp isə yerin günəş ətrafında dövrələdiyi il müddətini gün bölgüsüylə işarə edir. Qazan xanın evinin ildə bir kərə yağmalanmasında iştirak edə bilməyən Dış Oğuz təsadüfi deyil ki, mətn strukturunda Ala dağa çıxa bilməyib düzdə qalan, günəş sferasından kənara itələnib xaotik qaranlıq boşluğa (düz-boşluğu, açıqlığı işarələyir) düşən hissə kimi diqqət çəkir. "Taş oğuz bəgləri həp yığnaq oldı. Ala bargah otaqların düzə dikdi" (97, 124). Qazanın ətrafına yığnaq olanlar Ala dağda, Aruzun ətrafına yığnaq olanlar isə ala barqah tutsalar da düzdə oturmalı olur. Törənən xaotikliyi epik səviyyədə bərpa edən Qazan xan Aruzu cəzalandırmaqla Qalın Oğuzun günəş ətrafına birgə dövriyyəsini təmin edir. Ala dağın yeri işarələdiyi kimi, "gög alan çəmənin" də yeri işarələyib göyə və eləcə də günəşə bağlanmasını, günəş sferasından kənarda qalmamasını, xaotik durumda olmamasını rəmzləndirir:

“Qazan gög alan çəmənə çadır dikdirdi, otağın qurdı” (97, 126). Bu binar oppozisiyada ozan təhkiyəsinin kamilliyindən doğan ünsürlərlə bərabər çox ciddi ideoloji münasibət mətndə şifrələnib. Təsadüfi deyil ki, Qazan xan otağını mərkəzdə yüksəklikdə qurduğu halda, Aruz və Dış Oğuzlar (Bozoqlar) haqqında fərqli təəssürat yaranır. Qazandan Aruza doğru uzanan xətt istiqaməti binar oppozisiyanın doğurduğu qarşı-qarşıya, yan-yanaşı, üfüqi yönümü deyil, yuxarıdan aşağı, enən və yüksələn xətt üzrə şaquli cəhəti göstərir. Cəhətlər üstündə epik mətnə baxış bucağı yaratdıqda maraqlı materiallar üzə çıxır. Altı cəhət (yuxarı, aşağı, sağ, sol, ön, arxa) istiqamətində XII boyun Qazan-Aruz qarşıdurmasında Qazan Aruz ilə həm sağ (Qazan) sol (Aruz), həm ön-arxa (“Aruz Qazanın üzərinə at saldı. Qazanı qılıcladı, zərrə qədər kəsdirəmədi, ötə keçdi” (97, 126), həmçinin yuxarı aşağı (Ala dağda Qazan, düzdə isə Aruz otağın qurdular) mövqelərdə diqqət çəkməklə böyük-kiçik (sosial kontekst-Qazan xan, Aruz bəydir), ağ-qara (mənəvi-əxlaqi kontekst – Qazan xan, Aruz bəydir), ağ-qara (mənəvi-əxlaqi kontekst – Qazan bərpaçı, Aruz iğtişaşçıdır – Beyrəyi öldürür), yüksək-alçaq (sosial-mənəvi kontekst – əvvəlki ikiliyi özündə cəmləyir) və s. anlamları işarələyir. Bu anlamlar assosiasiyası ilə Bozoqların böyük olduqları halda kiçik, sağ olduqları halda sol (Bayındırın sağında Uruz, solunda Yegnək, Qazanın sağında Qaragünə, solunda da Aruz oturur) (97, 52, 68), boz olduqları halda qara, yüksək olmaları halda alçaq mövqelərdə olduqları diqqətə çatdırılır. Epik səviyyənin ifadə təzahüründə Qazan, struktur gizlinində Aruz müdafiə olunur. Bu bəlkə də assosiativ, mexaniki düşüncə hadisəsi olaraq strukturda kodlaşır. Elə bu baxımdan da günçıxanda Bozoqlar oturmalı halda (110, 31) Uçoqlar oturduğu üçün yerlər dəyişilir və Bozoqlar günbatanda oturur. Elə bu səbəbdən də dağda qurulan otaq Uçoqların (dağ günəşə yaxındır), düzdə qurulan otaq isə Bozoq-

larındır. Ala dağın Oğuz məkanının mərkəzində yerləşməsi yuxarıda qeyd etdiyimiz kimi, həm də gündoğanı işarələməklə ona zidd anlamlar səviyyəsində əks qütbdə yerləşən düzün (düz hər yerdə ola bilər, bu semantik qəlibdə isə zidd istiqaməti bildirir) günbatana yaxın olması ehtimalını da doğrulayır.

Nəticə olaraq "Tülu quşun (doğan günəşin) yavrusu" təyini mifologem olaraq aşkarlanır. Bu anlamın eyni zamanda mətn boyu səpələnmiş, müxtəlif sözlüklərlə ifadə olunan, lakin anlam baxımından eyni semantik cərgəyə aid olan digər mifologemlər ilə bir mifoloji kompleksdə mif motivi olaraq birləşməsi, mətndə əhəmiyyətli struktur səviyyələri meydana çıxarır.

Beləliklə, Oğuz paradiqmaları müxtəlif obraz, motiv və süjetüstü-süjetaltı mifologem və s. təzahürlərlə aşkara çıxdığı kimi, oğuz epik ənənəsinin struktur modelini təşkil edən Qazan xan obrazında da bu şəkillərlə səciyyələnir. Biz bu paradiqmatik görüntülərlə Oğuz sistemini və Oğuz epik dünyasını canlı orqanizm kimi müşahidə edirik. Qazan xana bağlı olan Bayındır xan da müəyyən keyfiyyətlərin şərikliyi baxımından bu şəkildə diqqət çəkir. Bu xan öyüncləri adlandırdığımız ritual davranış normasında da özünü göstərir. Bu ritual kodeksi (xan öyüncləri) bizi addım-addım, oğuz mifi və oğuznamə eposunun sistematik bərpasına yaxınlaşdırır. Xüsusilə də, Qazan xanın bu epik ənənədə nə qədər əhəmiyyətli hadisə olması özünü göstərir.

### 3. Bizə miskin umudı

Qazan xan obrazının sosiomifoloji kontekstdə təhlili zamanı "**Bizə miskin umudı**" təyin-qəlibi xüsusi aktuallıq kəsb edir. Bu qəlib güc və qurtarıcılıq işarəsidir. Mətnin üst qatında xanlığı, alt layında mədəni qəhrəmanı işarələyir. Öncə onu qeyd edək ki, bu ifadə "Bizə miskinlərin umudu olan" anla-

mında oxuna bilər. Lakin “Bizə miskin umıdı” kimi deyil, “Bezə miskin umıdı” şəklində oxunsa daha düzgün olar (99, 586 (35). Çünki bu sözün ifadə etdiyi anlamın daha asanlıqla qavranılması üçün şəxs əvəzliyi deyil, ümumi ismi əks etdirən söz olaraq aydınlaşdırılması müəyyən fikir dolaşıqlığının qarşısını ala bilər. DQK-nin izahlı lüğətində (O.Ş.Gökyayın lüğətindən istifadə qaydasında hazırlanan bu lüğətin tərtibçiləri T.Hacıyev, İ.Məmmədovdur) bu sözün bizə yox, “bezə” kimi yazılaraq ərəb sözü olan miskin sözünün farsca qarşılığı olan söz kimi miskin, fağır, yoxsul, nəsibsiz və s. kimi anlamları əks etdirdiyini görürük (99, 133). O.Ş.Gökyay, M.Ergin bu sözü beze, H.Araslı, S.Cəmşidov, F.Zeynalov, S.Əlizadə bizə kimi oxumuşlar (140, 16; 137, 95; 96, 31; 98, 30; 97, 42). A.Hacıyev isə Z.Zahidoğluna istinad edərək bu sözün eyni anlamda fars sözü deyil, türk mənşəli söz olduğunu qeyd edir (78, 65). T.Hacıyev bu təyini ifadənin anlamı haqqında başqa bir yerdə yazır: “Bizə və miskin” sinonim sözlərdir” (80, 31).

Eyni qənaətdə olduğumuz üçün onu qeyd edək ki, bu söz yalnız qiraət tələbatı kimi, yaxud da etimoloji mülahizə kimi deyil, həm də mətn strukturunda təsadüfi olmayan anlam olaraq mühüm səciyyələri ifadə edən söz olaraq diqqət çəkir. Eyni ifadənin Bayındıra da aid edilməsi (97, 94) xaqanlığı və xanlığı, bu ali idarəçilik təbəqəsinin ikili institutunun iki zirvə pilləsini işarələyir. Məlumdur ki, Qazan xan xan olduğu kimi, həm də bəydir. Bayındır da xaqan olduğu kimi, həm də xandır. Xanlar xanı xaqanlığı, bəylər bəyi xanlığı bildirdiyi üçün Bayındır xan həmişə xanlar xanı kimi, Qazan xan da eləcə bəylər bəyi kimi getmir. Birinci xan, ikinci bəy kimi mətn boyu səpələnir (97, 34, 116, 52, 68). Bu ifadə müxtəlif anlamlarla birgə xaqan və xanın miskinlərin, fağır vəköməksizlərin arxa-dayağı, ümid yeri, Tanrının vəzifələndirdiyi güc sahibləri olmasını göstərərkən məhz bu hakimiyyət təmsilçilərinin zəif

toplum nümayəndələri qarşısında eqoist vəzifə davranışı nümayiş etdirmədiklərini, Oğuz eli ilə güclü və zəif olduqları halda bir olan, onların səviyyəsində onların dili ilə danışan, onların köməyinə bir başçı kimi deyil, dost, qardaş, yoldaş kimi gələn olduqlarını əks etdirir. Miskin, fağır olanların umudu olan Bayındır və Qazan birliyi onların qarşısına xaqandırsa xan kimi, xandırsa bəy kimi çıxır. Təsadüfi deyil ki, bu təyinlərin, xan öyünclərinin ritual ifadə tərzi olduqları halda, yenə də bu ifadələrdə Bayındırın xaqanlığı, Qazanın xanlığı göstərilmir. Bayındır xaqan xan kimi, Qazan isə nəinki xan, hətta bəy olaraq da deyil, sadəcə Salur Qazan kimi diqqət çəkir (97, 42, 94).

Yaxınlıq, doğmalıq əlaməti kimi qəbul olunan sadə ad çağırışı bu yerdə təsadüfən özünü göstərmir. Sosial səviyyənin, maddi-fiziki müqayisənin aparılmaması üçün Qazan xan bu yerdə xanlığını və bəyliyini itirib sadəcə olaraq Salur Qazan olur. Qazan xanın fağır və miskinlərin umudu olması onun şəxsi istəyinin nəticəsi deyil. Oğuz qövmünün, qalın Oğuzun başçısı olması onu bu funksiyanı icra etməyə sövqləndirir. Sadə şəkildə götürsək, gücsüzlərin köməyi olmaq üçün gücsüz deyil, güclü olmaq tələb olunur. Kömək etmək üçünsə ədalət və xeyirxahlıq lazımdır. Gücün ədalətlə birləşdiyi yerdə qurtarıcılıq funksiyası icra olunur. Bu funksiyanı isə həyata keçirmək üçün müəyyən bir dərəcənin sahibi olmaq lazımdır. Güclülər içərisində ən güclü olanlar umud yerinə çevrilir. Məhz bu normal prosesdə umud yerinin ali idarəçilik quruluşu və təsisatı olan xaqanlıq, xanlıq mərtəbəsinin icraediciləri olması "Bizə miskin umudı"nın bu mövqeləri işarələməsini aşkara çıxarır. Eyni zamanda qurtarıcılıq Oğuz eli üçün Tanrı buyruğu olan bu şəxsiyyətlərin boynunda vəzifə və borcdur. Daha doğrusu vəzifə borcudur. Yuxarı ilə aşağı təbəqəni Tanrı qarşısında borc olaraq bərabərləşdirən funksiya məhz "Bezə, miskin umudı" olmaqdır. Məhz bu missiya-

nın yerinə yetirilməsi Tanrı buyruğu olduğundan əmr icra edən tərəfin qarşısında əmri yerinə yetirmək borcu vardır.

Sözün şaxələnib müxtəlif situasiyalarda müəyyən anlam kəsb etməsi bu sözlüklərdə də müşahidə olunur. Yalnız sosial təbəqəni deyil, situasiyada maddi-fizioloji-psixi durumları ifadə edən bu söz birləşməsi maraqlı təəssürat yaradır. I boyda Dirsə xan çox nüfuzlu xandır. Hətta, o, bəylik vermək iqtidarını özündə saxlayır. Lakin oğuz kodeksinə görə miskindir. Çünki züryəti olmur. Elə bu baxımdan da aşağılanan Dirsə xan "ac görsə toyurdı. Yalın görsə tonatdı. Borcluyı borcundan qurtardı" (97, 35). Yalnız bundan sonra "Bir ağzı dualının alqışilə Allah-Təala bir əyal verdi. Xatunı hamilə oldı. Bir neçə müddətdən sonra bir oğlan toğurdı" (97, 35).

Bu örnək həm də fikrimizi o baxımdan doğruldur ki, Dirsə xanın umudu məhz fağırların, miskinlərin özüdür. Çünki onların səsi ona qəzəblənən Uca Allaha çatır. Allah-Təala məhz onların xatirinə Dirsə xanın günahından keçib ona oğul qismət edir və oğuz içində başı aşağılıqdan xilas edir. Fağır və miskinlərin umudu isə Qazan xandır. Çünki o Tanrı buyruğu olan, Oğuz xanın sülaləsini ali idarəçi səviyyədə icra edən və qurtarıcı funksiya daşıyan şəxsdir.

Başqa bir örnəyə diqqət çəkək. III boyda Baybörə Oğuzlar qarşısında övladsızlıq dərdindən "ah eylədi. Başından əqli getdi. Dəstmalın əlinə aldı. Bögürü-bögür ağladı" (97, 52). Bu situasiyada isə Baybörə miskin, fağır durumundadır. Ona qurtarıcı, yardımçı lazımdır. Çünki övladı, xüsusilə də oğul övladı yoxdur ki, ona baxıb Bayındırın qarşısında duran Qaragünə oğlu Qarabudaq, sağ tərəfində olan Qazan oğlu Uruz, sol tərəfində olan Qarıcıq Qoca oğlu Yegnək kimi öyünsün. Məhz qurtarıcı funksiya Qazanda olduğundan Baybörənin bu diləyinə ilk reaksiyanı da Qazan xan verir. Əvvəlcə "Baybörə bəg niyə ağlayub bozlarsan?" deyən Qazan onun

dərdini öyrənincə "Məqsudun bumıdır Baybörə bəg?" (97, 52) deyir, sonra Qazan xanın başçılığı ilə "Qalın oğuz bəgləri yüz göyə" tutub, əl qaldırıb dua edirlər, "Allah-Təala sana bir oğul versün" deyirlər (97, 52). Bir müddətdən sonra Baybörə bəy diləyinə çatır, Allah-Təala bəylərin alqışını eşidib ona bir oğul övlad bağışlayır.

Baybican bəy də Baybörə bəyin durumundadır. Onun da övladı yoxdur. Bəylərin alqışı, Allah-Təalanın baxşışı ilə onun da bir qız balası dünyaya gəlir (97, 52).

Mətn strukturunda müxtəlif layları təşkil edən bu ritual hadisəsi bir lay səviyyəsində diqqət çəkdiyimiz anlamla bağlıdır. Oğuz eli üçün oğulun və qızın vacib genoloji daşıyıcı olduğu bir zamanda bu situasiyanın ifadələnməsi umudsuz olan (miskin, fağır) olan tərəflə umud verən (bəlkə də qut verən) tərəfi ortaya çıxarır. Qut, umud verən tərəf Allah Təala, onun vasitəsilə qurtarıcı, qoruyucu funksiyada çıxış edən Qazan və bəylər, umud alan isə ya bəy təbəqəsindən olan xan (Dirsə), bəy (Baybörə, Baybican), yaxud başqa sosial təbəqədən olan aclar, yalınlar və s.dir. Lakin diqqət çəkdiyimiz kimi "Bizə (bezə) miskin umudı" işlənən yerdə Qazanın heç bir titulu qarşısındakıları fərqləndirməmək üçün söylənmirsə, Qazan xanla eyni mövqedən olan bəylər qarşısında Qazan nəinki bəy, xan olaraq öyülür. Baybörə bəy eyni yerdə Qazana "Xan Qazan" olaraq müraciət edir (97, 52). Çünki eyni sosial səviyyədən olan Baybörə bəy Qazanın titulu qarşısında özünü narahat hiss edə bilməz. Təsadüfi deyil ki, məhz Bayındır xan da Dirsə xanın qarşısına bərabər sosial səviyyəni təmsil etdiyi üçün, xanlar xanı kimi çıxır (97, 34). Mətndə nəinki söz, hətta hərf səviyyəsində belə qurulmuş əsrarəngiz nizam bu anlamların bir-biri ilə təsadüfən deyil, tamamlayıcı olaraq əlaqələndiyini göstərir. Diqqət göstərin ki, Baybörə, Baybican və Dirsə xan eyni situasiyanı (antinormanı) təşkil etsələr də (hər üçü zür-

yətsizdir) onlara münasibət fərqlidir. Hətta dərəcə baxımından Dirsə xan daha üstün olsa da (Dirsə xandır, digərləri isə bəydir) ona qarşı nümayiş olunan davranış daha aqressivdir. Bu situasiya funksionallaşan müxtəlif anlamları semantik baxımdan diqqətə çatdırsa da, yenə izlədiyimiz anlam baxımından təzahür edir. Məhz Dirsə xan ona görə bu duruma düşür ki, Qazan xan onun düşdüyü situasiyada iştirak etmir. Aclar və yalınların iştirak etməsi isə sonrakı zamanın törətdiyi situasiyadır. Dirsə xan məhz birinci situasiyadan ikinci situasiyaya adlamaq üçün ona vacib dayaq olacaq "umud yeri" ortadan qalxmalıdır. Elə bu səbəbdən də Qazan xan bu situasiyada yoxdur. "Bizə miskin umudı" Bayındır və Qazanın şərik öyüncü olsa da, funksiyası baxımından fərqlidir. Məhz bu hərəkətin idarə olunması üçün Qazan xan iştirak etməlidir. Öyünc olma baxımından Bayındır Qazana şərik olsa da, icra etmə baxımından qurtarıcı olan Qazan xandır. Elə bu səbəbdən də I, III boylarda Bayındır xan qurtarıcı funksiyada çıxış etmir. Bayındır I boyda Allah-Təala qarğışının ifadəsi kimi cəzalandırıcı funksiyada, "ac yalınlar, bir ağzı dualı" isə Allah-Təalanın bağışladığı kişiyə qurtarıcı funksiyada çıxış edir. Qeyd etdiyimiz kimi miskin və fağırların, ac yalınların umudu isə Qazan xan olduğu üçün eyni ifadədə "bizə miskin umıdı" olan anlam haçalanaraq iki şəkildə iştirak edir. Bayındır eyni anlamın bir tərəfini ifadə edərək cəzalandırıcı kimi, Qazan isə digər bir tərəfini ifadə edərək qoruyucu, qurtarıcı kimi inikas edir. Məna eyni qalır, anlam isə dəyişir. Lakin bu uzun müddətli mənəvi-fiziki prosesin təzahür forması olaraq meydana çıxır. Allah-Təalanın qəzəb (qarğış) və bağışlama (alqış), məğfirət etmə sifət-təcəlliləri mətndə Bayındır və Qazan surətində zahirə çıxır. Anlam tamamlanıb bütövləşir. Nəticədə Bayındır və Qazan eyni ifadə daxilində iki sakral vəzifə daşıyan tərəflərin fərqli funksiyalarda tamamlayıcı anlamlarını proyeksi-

yalandırır. Allah-Təalanın yazısında bu eyni bir hadisənin mahiyyətcə müxtəlif görüntüləridir. III boyda Bəybörə bəyə ılıq münasibət aşkar görünsə də, burada da Bayındır xan aktiv ifadə ilə diqqət çəkmir. Yalnız Qazan xanın reaksiyası ifadələnir və sonra bəylər də ona qoşulur (97, 52). I boyda açıq şəkildə, III boyda isə davranış nümayişi ilə Bayındır xan umud diləyənləri cəzalandırıcı kimi qarşılayır. Dirsə xanı qara otağa "qonduran" Bayındır xan Qarabudağı, Uruzu və Yegnəyi Qambörəyə görk etməklə eyni şəkildə olmasa da ruhi-psixoloji formada onu ağlamaq dərəcəsinə gətirib çıxarır (97, 34, 52).

"Bezə miskinlərin umudı" olmaq yalnız diqqət çəkdiyimiz örnəklərlə yekunlaşmır. Sadəcə olaraq biz iki sosial təbəqə arasında "Bezə miskin umudı"nın spesifikasını araşdırmağa çalışdıq. Asılı, zəif, köməksiz olan müəyyən bir hissənin umudının Tanrının vasitə etdiyi xanlıq mərtəbəsi tutan Qazan xan olması (Bayındır xan onun kimi aktiv iştirak etmir) digər nümunələrlə də təsdiqlənir. Lakin onu deyək ki, Qazan xan obrazını oğuz epik ənənəsində struktur bütöv olaraq əhatə edən ən əsas mənbə DQK olduğundan (Hətta X.Koroğlu "Qorqud kitabı"ndan başqa heç bir abidədə onunla bağlı süjet qorunub saxlanılmayıb" fikrini irəli sürür (102, 73). Əsasən bu epos əsasında tədqiq etməyə çalışırıq ki, digər epik, mənqəbəvi nümunələr yalnız vasitəçi rolunu oynayaraq yardımçı funksiyada iştirak edir. Elə bu səbəbdən də epik dil, tarixi və mənqəbəvi dili üstələyir. Epik dilin isə özünəməxsusluğu bir çox məna və anlamları simvolik, şifrələnmiş, az hallarda isə açıq şəkildə diqqətə çatdırır. Elə buna görə də işarə səviyyəsində mövzu və süjetin bərpası mümkün ola bilir. Bir söz bir səviyyəni, ümumi bir anlayışı, tipik təəssüratı ortaya çıxarır. "Bizə miskin umıdının" fərdi-sosial təbəqənin inikası kimi aşkarlanması boy qəhrəmanları, əhəmiyyətli obrazlar vasitəsilə aparıldığı kimi, ictimai-kütləvi şəkildə özünü göstərməsi, aşa-

ğı təbəqəni əhatə etməsi də elə eyni struktur üzərində qurulmuşdur. Bir neçə üzdə olan məlumatı çıxmaq şərtiylə anlamın işarələndiyi obyekt və subyekt epik dilin spesifikliyinə uyğun şəkildə diqqət çəkir. Əgər Bəybörə, Baybican, Dirsə xan bu anlamın yüksək təbəqədə işarələnmiş birinci situasiya təzahürünü əks etdirirsə, ikinci situasiyada Beyrək və Qaraçıq çoban aşağı təbəqəyə aid olan mənəvi-psixoloji davranışı səciyyələndirir. Elə bu baxımdan da bu anlam daxilindən şaxələnmə, törəmə, paradiqma görüntüləri aşkara çıxır. Qaraçıq Çobanın aşağı təbəqəni işarələməsi aydındır. Bəs necə olur ki, Beyrək də eyni anlamı işarələyir? Axı Beyrək Qambörə bəyin oğlu, Qazan xanın inağı Bamsı Beyrəkdir. Nə üçün Beyrək bəylər arasına öz bəy titulu və görkəmiylə gedib Yalıncığı cəzalandırmır? Öz cildini dəyişir, öz bəyliyini dondurur, öz xarakterini gizlədir, Bamsı Beyrək kimi deyil, dəli Ozan kimi təzahür edir. Cildini dəyişməsə Beyrəkliyi toyun pozulması üçün yetərlidir. Bəyliyini dondurmasa Qazan xandan bir günlük bəylik almasına ehtiyac yoxdur. Xarakterini gizlətməsə Beyrəkliyi kifayətdir. Bu anormal davranış özü yeni bir norma aşkarlayır. Əgər ölüb dirilmədə status dəyişirsə, cild dəyişmədə funksiya dəyişir. Beyrəyin bu davranışı həm ölüb dirilməsini işarələyir, həm cild dəyişməsini təcəssüm etdirir. Oğuzların nəzərində Yalıncığın yalanıyla Beyrək kimi ölən bəy Beyrək ox yarışında qəhrəman kimi dirilən ozan Beyrəyə yeni bir status bəxş edir. Beyrək Qazandan bəylik alır. Lakin ritual icraçısı Qazan deyil, Dədə Qorqud olduğu üçün Beyrəyin bəyliyi bir günlük olur. Bir günün tamamında ritual icrasıyla əldə etdiyi öz əvvəlki bəylik statusuna qayıdan Beyrək geriyə qayıdan zamanın sınağından üzüağ çıxır. Axı elə geriyə qayıdan zaman Beyrəyi dəli ozan funksiyası daşımağa yönləndirib. Çünki Beyrək qırx yoldaşına on altı il əvvəl söz verib ki, geydiyi qızıl qaftanı qırx gün növbə ilə geyib sonra bir dərvişə

versinlər (97, 57). Dərviş və dəli ozan anlamı eyni semantik yüklü olub sözün funksional dəyişməsi nəticəsində ən uca mənəvi dəyərləri gözləyən insanların miskinliyi, məcnunluğu, yalavaclığı, yalınlığı, fağırlığı və s. anlamlar şəklinə düşmüş situasiyanı işarələyir. Elə dərviş sözünün də mənası "qapıgəzən" (yoxsul, kasıb) deməkdir (99, 146). Təsadüfi deyil ki, Beyrək cildini dəyişərkən həmin qızıl qaftanı təkrar geyməli olur (97, 62). Qaftanı təkrar olaraq əynindən çıxarması onu tanıyacaqları qorxusunu ifadə etsə belə, dərvişə verməli olduğu qaftanı əyninə geyməməsi ərdəmliyidir. Çünki Beyrək və qırx igidin geyəcəyi bu qaftan qırx günlük müddət üçün niyyət edilmişdir. Qırx gündən sonra isə dərvişə məxsusdur (97, 57). Niyyət vaxtından isə nə az, nə çox, düz on altı il keçmişdir. Əyninə dəvə çuvalı geyinən Beyrək (97, 63) qızıl qaftan geyəcək dərviş ilə eyni status alır. Çünki dərviş üçün qızıl qaftan ilə (əski) dəvə çuvalı eyni qiymətdə olub abır örtüyündən başqa heç bir dəyəri yoxdur. Dərvişə veriləcək qaftan Beyrəyi dəli ozan edir. Ozanlıqda dərvişliyi daşıyan Beyrəyin xaotik məcburiyyətdən (kafər məkanına əsir getməsindən) sözünü tuta bilməməsi özünü dəli ozana çevirir. S.Rzasoyun yanaşmasına görə elə "dəlilik xaos dünyası ilə bağlı hərəkətlərdir" (118, 149). Müxtəlif anlamlarıyla birgə dəli ozanın şöləndə və toyda dəlilik etməsi də sakral məkana daxil olan xaotikliyin (Beyrəyin ölüm yalanı, nişanlısını oğuz törəninə uyğun şəkildə ərə getməsinin yalan üzərində qurulmasına görə qanunsuzluğu və s.) xaotik davranışla qarşısının alınması təbiətdən gələn Təpəgözlə, təbiətdən gələn Basatın savaşının başqa bir təzahürü olmaqla bərabər haqqına təcavüz edilən miskinlərin, fağırların işarələnməsini əks etdirir. Elə dərviş və ozan da camaat adamı olmaqla bərabər bu təbəqənin simasını göstərir. Çünki mənəvi dünyası zəngin olan bu dərəcə sahiblərinin zəif və miskin durumunda olması onların xəlqi olmasın-

dan irəli gəlir. Bu dərəcələr həm də fəlsəfi dünyagörüşünü (dərviş-sufi, ozan-ərən) ifadə edir. Təsadüfi deyil ki, Beyrək həm də ərəndir, həmçinin fağırların, zəiflərin cərgəsində olmaq anlamlarını proyeksiyalandırır. Beyrək elə bu durumda bəy olsa da haqqına təcavüz edilmiş, miskin durumundadır. Haqqını geri almaq üçün yalan zorakılığına məruz qalmış Beyrək də Yalıncıq üzərinə, məhz bəy kimi deyil, dəli ozan kimi gəlir. Fağırların, miskinlərin umud yeri Qazan Beyrəyin bu funksiyasını reallaşdırmaq üçün ona bəylik verməklə "Qoun nerəye gedərsə getsün, neylərsə eyləsün" (97, 64) deməklə "Bezə miskin umudı" olduğunu göstərir. Heç də təsadüfi deyil ki, elə eyni yerdə Beyrəyin igidlik göstərməsi, Qazan xanın onu yanına çağırması Beyrək dilində həmin xan öyünclərinin müşaiyət olunması ilə özünü göstərir:

Qalmış yiğit arxası! Bizə miskin umudı!
Bayındır xanın göygüsi!
Tülu quşun yavrısı!
Türküstanın dirəgi!
Amit soyının aslanı,
Qaracuğın qaplanı!
Qonur atın ayası,
Xan Uruzın babası,
Xanım, Qazan, ünim anla, sözüm dinlə! (97, 63) və s.

Anlamları yozum səviyyəsində deyil, daxili rabitə əsasında aşkarladıqda bir-birini təsdiq edir. Beyrəyin Qazana bu öyünclərin ən başında "Qalmış yigit arxası, Bizə miskin umudı" deməsi və bundan sonra bəylik alması miskin, fağır, arxasız olanlarının haqlarının müdafiə təzahürü kimi ortaya çıxır və bu təyinin Qazan xana aid missiya olması işarələnir. Çox maraqlıdır ki, xan öyüncləri cərgəsinə II boyda yer tutan "Bizə miskin umudı" üçüncü, "Qalmış yigit arxası" isə onuncu yerdə işlənir. Lakin bu boyda (III boy) yerlər dəyişib bir-bi-

rindən şaquli məsafədə olan bu sözlüklər üfiqi xətdə durur. Çünki situasiya yaxın anlamları bərabərləşdirir. II boy situasiyasında xan öyüncləri məclis qurub, şölən verib, ova çıxan bəylərin ovqatını ifadə edirsə, III boy situasiyası məhz miskinlərin, fağırların işarələnməsini göstərir. Bamsı Beyrəyin miskin durumu onu dəli ozana çevirir. Haqlar bərpa edildikdən sonra əvvəlki bəyliyə qayıdır. Bərpa olunmaq üçün bəylik əldə etmək lazımdır ki, bu bəyliyi ona məhz "Bezə, miskin umıdı" Qazan verir. Beyrəyin Qazandan "şülən"də iştirak etmək xahişi də bəylik dərəcəsinə yetib qoruyucu, qurtarıcı funksiyada iştirak etməsindən irəli gəlir ki, bunun üçün də Qazan xanın icazəsi olmalıdır. DQK-nin ilk araşdırıcılarından olan Ə.Abid şülənin məhz bəy-xan təbəqəsinə aid olduğunu göstərir. "Bəzi Türkiyəli müdəqqiqlər "şülən" və yaxud "şilən" adlanan qonaqlıqları ümumi, yəni xalqa da şamil olaraq göstərir. Halbuki, biz bu mərasimlərin yalnız bəylərə, ağalara məxsus olduğunu görürüz" (12, 175).

Ümumiyyətlə, dastan obrazları arasında bölünən funksiyalar baxımından Beyrək miskin, zəif durumunun, Qazan xan isə "Bezə, miskin umıdı"nın işarəsi olaraq görünür. Bu o demək deyil ki, Beyrək həmişə zəifdir, yaxud Qazan yalnız umud yeridir. Sadəcə olaraq semantika situasiyaların təzahürü olaraq reallaşan işarə kompleksi kimi ortaya çıxdığından anlamlar situasiya dəyişikliyində də fərqli anlamlarla əvəzlənir. Bu baxımdan Beyrək və bu kimi obrazlar ad almaq ritualında zəifləri qoruyan kimi mövcud situasiyada ifadələnirsə, (kafər yağı əlindən bəzirganların malını alıb onlara qaytarır, buna görə də ritual keçirilib ona ad verilir, Boz oğlan, Bamsı Beyrək olur (97, 53-54), adaxlısı yalan iğtişaşı ilə əlindən alınan Beyrək isə situasiya baxımından zəif durumunda olur. Yalıncığı yarışda dəli ozan kimi yenən Beyrək miskinliyi, zəifliyi ifadə etməklə "yalançı bəylikdən, doğru fağırlıq yaxşıdır" əx-

laq etalonunu nümayiş etdirir və əvvəlki Beyrəkliyi təmin edir. Elə Beyrək güclü ərlik məqamında da, bəzirganların malını kafərlərdən alıb özlərinə qaytarmaqla aşağı təbəqənin müdafiəçisi olduğunu göstərir. Məhz Beyrəyin əvvəlki statusunu və indiki funksiyasını reallaşdırmaq üçün mediator olan Qazan, Beyrək-Qazan dialoqunun istər aktiv (Dəli ozan-Qazan bəy (III boy), Beyrək-Qazan (XI boy), istər passiv (Beyrəyin zindanın uca çardağından – bəzirganlardan Qazanı xəbər alması (III boy), Beyrəyin ölərkən Qazana xəbər göndərməsi (XII boy) tərəfi kimi ortaya çıxanda umud yeri olaraq səciyyələnir. Bu situasiyalarda Qazan-Beyrək obrazı üz-üzə dayanaraq epik təəssürat yaradır. Ola bilsin ki, elə bu situasiya dəyişikliyində bu obrazların üzə çıxması tarixi-real məlumatların epikləşən görüntüsüdür. Yəni prototip xarakterindən gələn cizgilər obraz inikasına daşınır. XII boyda Beyrəyin ölümcül yara alması, ev-eşiyinin təhlükədə olması Beyrəti zəif, köməksiz situasiyada qəhərləndirdikdə, yenə də üzünü "Bezə, miskin umıdı" Qazana tutur:

Yigitlərim, Aruz oğlu Basat gəlmədin,
Elim-günim çapılmadın...
....Qazan mana yetişsün! (97, 125).

Beyrəyin alp ərən olaraq dörd ərəndən biri kimi üzü niqablı olması (97, 87), dəli ozan olduqda isə niqabını dəyişməsi, ozan görkəminə düşməsi situasiyaları fərqləndirmək baxımından maraqlıdır ki, birinci situasiyada güc sahibi olaraq bəy cərgəsində, ikinci situasiyada miskin durumda olaraq aşağı təbəqədə yer almasından xəbər verir. Qazan III boyda dəli ozanı Beyrək kimi tanımadığı kimi, Beyrək də XI boyda Qazan xanı tanımır. Birinci situasiyada Beyrəyi adaxlısına, yavuqlusuna onu tanımadan yetişdirən Qazan olursa, ikinci situsiyada Qazanın zəif durumunda (kafər əlində əsirdir) onu oğlu Uruza yetişdirən Beyrək olur. Lakin bu iki boy arasında sinx-

ron şəkildə üzə çıxan yenə eyni anlamın işarə səviyyəsidir. Qazan Uruzu Beyrəkdən soruşduqda "Bəgimiz Qazanın oğlıdır" (97, 120) deyən Beyrək Qazan üçün zəif situasiyanın olmadığını, ən güclü qəhrəmanın, yaxud qəhrəmanlığın Qazana məxsusluğunu üzə çıxarmaqla həm kafər arasında olsa belə, Qazan üçün zəif situasiyanın mümkünsüzlüyünü, həmçinin umud yeri anlayışının Qazanın bəyliyində vurğulanmasını təcəssüm etdirir. Əlbəttə, bu strukturda bir lay səviyyəsini əks etdirir. Qazan xanın "Bezə miskin umıdı" kimi işarələnməsi IX boyda Bəkilin və onun oğlu Əmranın da dilində diqqət çəkir. Özü də bu çox qəribə bir tərzdə ata-oğul dialektik qarşıdurmasının – qocalığın və gəncliyin, köhnənin və yeninin daimi mübarizəsinin epik mətnə düşən bədii təzahürlərində aşkarlanır. Bəkil də, onun oğlu da Qazana küskün olur. Umud yerindən üz döndərib umudsuzlaşır. Bəkil Qazandan inciyir ki, onun hünərini qiymətləndirmir, oğlu Əmran isə Qazana umud yeri kimi ehtiyacı olmadığını deyir (97, 105-107). Lakin ata da, oğul da son nəticədə yenə "bizə miskin umudı" olaraq Qazan xanı və Bayındır xanı görür. Biz qeyd etmişdik ki, təyin həmçinin Bayındır xana aiddir. Üzərinə kafər gələn, ayağını yaralamış Bəkil oğlu Əmrana deyir:

Ağız -dildən Bayındıra səlam vergil!
Bəglər bəgi olan Qazanın əlin öpgil!
"Ağ saqallu babam bunlu"-degil!
"Əlbətdə və əlbətdə Qazan bəg mana yetişsün – dedi," degil! (97, 107)

Əmran isə atasına etiraz edir:

Ağ alınlu Bayındırın divanına varmağım yoq,
Qazan kimdir? Mən anun əlin öpməgim yoq (97, 107).

Savaşa bu iddia ilə girən Əmran kafərin ona "Sən Bəkilin nəsisən?" soruşdu-ğunda o da öz arxasında dayananın Qazan xan və onun qardaşı olduğunu bəyan edir. Lakin Qazan

xanın adını Bayındır xanın adı ilə bir yerdə daha yüksək səslə vurğulayır: “Mərə kafər, sən məni bilməzmisin? Ağ Alınlu Bayındır xanun bəglərbəgisi Salur Qazan, qartaşı Qaragünə çapar yetdi” (97, 108).

Diqqət çəkdiyimiz bu örnəkdə aydın görünür ki, burada Qazan xan aktiv, passiv situasiyalarda olduğu kimi deyil, də-yişən situasiyada və mətn strukturunda təkrarlanma funksiya-sında epik səviyyədə xronotopu (zaman və məkanı) işarələyir. Ata da, oğul da Qazan xanı qəbul etmir, ata və oğulun yenə də ortaq nöqtəsi zəif situasiyada Qazan xan olur. Ata və oğul se-mantik anlamda zamanı, Qazan xan isə “Bezə miskin umu-dı”nı səciyyələndirir.

Yuxarıda qeyd etmişdik ki, Beyrək bəy təbəqəsinin nü-mayəndəsi olaraq aşağı təbəqənin mövcud durumunu və umud yerinin ünvanını Dirsə, Baybörə və Baybicandan fərqli olaraq fərdi – sosial deyil, ictimai-sosial kontekstdə işarələyir. Bəkil və Əmran da fərdi kontekstdə diqqəti çəkir. Aşağı təbəqənin gerçək bir nümayəndəsi isə o təbəqənin öz üzvü olaraq məcazi-işarəvi deyil, real görüntülərlə II boyda Qazan xanın evinin yağmalanmasında oxu məkanına daxil olan Qazan xanın çobanı Qaracıq (Qaracuq, Qaraca) Çobandır. O, elə ilkin olaraq “çoban” peşəsi ilə bu təbəqədən olduğunu göstərir. Salur Qazanın evinin yağmalanmasında sakral məkana nüfuz edən periferik məkanın aqressiv təcavüzünün ünvanını təbiətin bir parçası olan Çobanın Qazan xana göstərməsi, təbiətin bir par-çası olan suyun, qurdun, köpəyin Çobanda dillənməsi, Çobanın təbiət olaraq xaotik cəmiyyətin zorakılığına qarşı duran tərəf olması ilkin olaraq diqqət çəkir (97, 44, 45). Bu Qaracıq Çoba-nın öncə təbiəti simvollaşdıran obraz kimi təbiət funksiyasında özünün sakral bəraət alması üçündür. Çünki təbiətdən gələnlə-rin cəmiyyətdə xaotiklik yaratması adət səviyyəsindədir. Təpə-gözün və Basatın təbiətdən gəlməsi də bu anlamlar cərgəsin-

dədir. Basatın təkrar-təkrar təbiətə qaçması (97, 98) oğuz törəsinin aqıncı qanununu icazə kodeksinə uymadan pozması (97, 99) Təpəgözə qalib gələ bilsə də, Beyrək kimi oğuz ərənlərinin eli, günü üçün təhlükə mənbəyi olaraq qalması (97, 125) və s. təbiət və cəmiyyət arasındakı davranış qarşıdurması təbiətdən olan çobanı öncə cəmiyyətə təcavüz etməyən, əksinə xaotik cəmiyyətin təcavüzü ilə qarşılaşan tərəf kimi işarələyir. Təbiətin təbiətlə qarşıdurmasını (Basat-Təpəgöz) cəmiyyətin cəmiyyətə təcavüzünü (yağı kafər-xan Qazan) əks etdirən boy fəlsəfəsi sanki Qaracıq Çobana bəraət qazandırmaq üçündür. Bunun üçün boyların irəli-geri oxunması, zamanın irəli-geri və donmuş olaraq işarələnməsi bu cəhdin mətndə epik dillə saxlanması gərəyini şərtləndirir. Sakral aləmə təcavüz edən Təpəgözün atasının da çoban olması (97, 98) ruhani və maddi qovuşmanın yasaq olunmuş formada reallaşması Qaracıq Çobanın da Çoban adı üçün həm üz qarası, həmçinin onun da təbiətin bir parçası olaraq mənfi görüntülər sırasına düşmək şübhəsi öncə özünü doğru anlayışda təqdim etmək ehtiyacını yaradır. VIII boy Çobanının xaotikliyi, II boy Çobanının özünü təmizə çıxarmaq cəhdini reallaşdırır. Strukturda mövcud olan bu anorma, II boyda norma səviyyəsində epikləşib Qaracıq Çobana bəraət qazandırır. VIII boyda görünəcək aqressiv funksionallığın bu Çobanın üzərinə kölgə salması üçün irəli gedən zamanla qarşısı vaxtında alınır. Geriyə gələn zamanla isə Çobana qarşı çoban anlamı törədir. Anlamların toqquşmasında yaxın anlayışlar özünü göstərir. VIII boyda Çoban Təpəgözün atasıdır, heyrətamiz gücü var, pərilərə təcavüz edir. II boyda Çoban heybətli və çox qüvvətlidir, altı yüz kafəri daşa basıb qaçırır, üç yüz kafəri öldürür, sapandı ilə hər atanda on iki batman daş atır, ağacı kökündən çıxarır, həm də kosmos və xaosu səciyyələndirir. Mifoloji dünya modelinin mətndə əksini ifadə edir. Çobanın Qazan xan qarşısında özünü doğrultması təsadüfi

səbəbdən deyil, cəmiyyət qarşısında Qazan xandan bəraət alması ehtiyacından irəli gəlir. O, buna görə iki qardaşını qurban vermişdir. Lakin Qazan elə ilkin olaraq eyni assosiativ anlamdan təzahür edən davranış nümayiş etdirir. Dağıdılmış elinin, ev-eşiyinin hansı səmtə getməsini sudan, qurddan, köpəkdən xəbər almağa məcbur olan Qazan Çobandan bu xəbəri aldığında onu qarğayır, sanki faciəsini Təpəgözlə bir təbiətdə olan Çobanda görür.

Ağzın qurısun, Çoban!
Dilün çürisün, Çoban!
Qadır, sənin alnuna qada yazsun, Çoban! (97, 45).

Yalnız Çobanın özünü müdafiə üçün qardaşlarının şəhid olması, üç yüz kafəri həlak etməsi, bir arıq toğlu da əldən verməməsi Qaracıq Çobanı ehtimal olunan anlamlar cərgəsindən çıxarıb doğrulayır. Bəs nə üçün Qazanın evini qurtarmağa gedən Çoban Qazanın umudu olmaq əvəzinə, Qazan xan “Bezə miskin umıdı”dır. Bu səviyyə mətndə norma-anorma funksiyasında inikas edir. Normaya görə Qazana kömək edən, qurtarıcı funksiyada olan Qaracıq Çobandır. İfadə planında bu daha aydın görünür. Lakin strukturda şifrələnmiş anorma bir neçə söz və anlam səviyyəsində ifadə planını sıxışdırıb öz yerini alır, Qazan xanın təyinini doğrulayır. Qaracıq Çoban kafər üzərinə kafərlərlə savaşda şəhid düşən qardaşlarının – Qabangücün və Dəmirgücün öcünü almağa gedir. Görəsən Qazan gəlmədən bu mümkün deyildimi? Bu yolda məhz Qazan xanın onun yanında olması vacibliyi diqqət çəkir. Əvvəl Qazanın evinin qurtarmağa getməsini söyləyən Çoban sonra qardaşlarının qisasını almaq üçün getdiyini söyləyir. “Ağam Qazan, sən evin almağa gedərsən, mən dəxi qarındaşım qanın almağa gedərəm” (97, 46). Qazan xan Qaracıq Çobanın getməsinin qarşısını almaq üçün onu ağaca bağlayır. Yalnız Çoban ağacı kökündən çıxarıb onun arxasınca gəldiyində Qazan ona

da getməyə icazə verir (97, 46). Bu mətnüstü mövzu səviyyəsində Çobanın sədaqət və gücünü göstərirsə də, mətnaltı layların bərpa olunmasında mifoloji struktura söykənir. Məlumdur ki, Qazan Oğuz törəməsi olaraq Uçoqlardandır. Konkret olaraq Salur olduğuna görə Dağ xana bağlanır. Oğuz xanın İlahi müjdəsiylə Ağac koğuşunda olan xatunu ağac stixiyasını səciyyələndirir. Qazan xan yalnız Qaracıq Çobana o zaman getməyə icazə verir ki, o, ağacı, kökü, soyu yüklənir. Əcdad müqəddəsliyinə söykənir. Qazan bundan keçə bilmir. Halbuki onun evinin qurtarılması, Çobanın qardaşlarının qisasını alması kimi təkliflərdə Qazan xan ona getməyə əngəl törədir. Elə bu baxımdan da anorma mətndə anlam səviyyəsində normaya çevrilməyə başlayır. Çoban Qazan xana kömək üçün getsə də, qardaşlarının qisasını almaq üçün getməsinə yalnız Qazan kömək edir. Qurtarıcı funksiyada iştirak edən Qazan Qaracıq Çobana qardaş intiqamı üçün hərəkətdə olmağa mediatorluq edir. Əgər epik mətndə obraz funksiyalarını diqqətə çəkməli olsaq, o zaman Qazan xanın niyə Qaracıq Çoban üçün "Bezə miskin umudı" olması ortaya çıxır. Qazan xan Qaracıq Çobanın kafərlərlə savaşa getməsinin qurtarıcı, yardımçı funksiyası kimi səciyyələnir:

1. Qaracıq Çoban Qazan xansız savaşa getmir.
2. Qazan xan ilə qardaşlarının qisasını almağa gedir.
3. Savaşa getmək üçün ağacı kökündən çıxarmalı və Qazan xanın icazəsi olmalıdır.
4. Rütbə alacaqdır (əmiraxur olur).

Aşkar görünür ki, bu epik dinamika Qazan xanı Çobanın umudu kimi aşkarlayır:

1. Qaracıq Çobanın üstündən xaotik anlam götürülür (struktur-semantik kontekst).
2. Qaracıq Çoban qardaşlarının qisasını alır (fərdi kontekst).

3. Qaracıq Çoban yüksək təbəqəyə yetişir (sosial kontekst).

Beləliklə, "Bezə miskin umıdı" olmaq epik mətndə boy boyu səpələnmiş müxtəlif obrazlarda və strukturda zəif şəkildə Bayındır xanı, aktiv şəkildə isə Qazan xanı proyeksiyalandırır. Bu təyinlərin Qazan xanla bağlı iki dəfə (97, 42, 63), Bayındır xanla bağlı bir dəfə (97, 95) işlənməsi və Bayındır xanla nisbətdə Qazan xan üçün daha əhatəli şəkildə sadalanması (Bayındır Qazanla yalnız altı təyinə şərikdir) Qazan xanın daha aktiv olmasını göstərir. Fərdi- sosial- ictimai və s. yaşam tərzinin ana qanunu kimi hərəkətdə olan "umud yeri inancı" Tanrı buyruğu olan, Oğuz xanlarında sakral vəzifə kimi daşınan ən əhatəli humanist aktların mövcudluğunu diqqətə çatdırır.

"Bezə miskin umıdı" olmaq mifoloji strukturda Qazan xanı mədəni qəhrəman kimi də işarələyir. Mədəni qəhrəmanlıq aktı müxtəlif şəkillərdə müşahidə olunan funksiyaları inikas etdirir. Mədəni qəhrəmana aid edilən funksiyalardan birinin və yaxud bir neçəsinin – qurtarıcılıq, qoruyuculuq təsisatları, daha dərin qatda isə ilk insan obrazının işarələnməsi (bu işarələnmədə Bayındır və Qazan ilk insanı simvolizə etməklə, ikili ilk insan obrazını da işarələyir) burada yalnız Qazan xan obrazında işlək olur, hətta Çoban Qazan xanı qurtarmış olsa da, Qazan xan Çobanı qurtaran, onun umudu olan durumunda "Bezə miskin umudı" olmasını aşkarlayır. Təsadüfi deyil ki, K.L.Strosun konsepsiyasına görə mədəni qəhrəman bir mediator – araçıdır və məhz onun yardımı ilə bu və ya digər ziddiyyətlər ortadan qalxır (41, 238).

Qazan xanın mədəni qəhrəmanlığı gərgin situasiyalarda qurtarıcı olmasıyla bərabər, o, mədəni qəhrəman tipi kimi bu funksiyaların hərəkətlənməsi üçün qarşı tərəfə hansısa dəyəri ərməğan etməlidir. Çünki mədəni qəhrəman yalnız xilas etmir, həmçinin xilasolunmanın reallaşmasında ərməğançı

funksiyada iştirak edir. Odun bağışlanması (106, 25-27) və s. mifoloji davranış etiketləri bu qəbildən sayıla bilər. Yuxarıda örnək göstərdiyimiz obrazlar üçün (Dirsə, Baybörə, Baybican, Beyrək, Bəkil, Əmran, Qaracıq Çoban) Qazan xan mədəni qəhrəman tipi kimi "Bezə miskin umudu" olaraq müxtəlif ərməğanlar edir.

1. Qarğış göndərir (Dirsə xan bu aktda iştirak edir).

2. Alqış göndərir (Baybörə və Baybican bu aktda iştirak edir).

3. Bəylik verir (Beyrəyə öz bəyliyini bir günlük ərməğan edir. Bu əmanət funksiyasında iştirak edib Beyrəyə əvvəlki bəyliyini qaytarır).

4. Sağ tərəfi göstərir (Bayındırın Əmrana Uruzun sağ yanında yer verməsi, hakim cərgəyə salınması Bayındırla eyni təyinə şərik olan Qazanın da funksiyasına daxildir).

5. Əmiraxurluq verir (Qaraca Çobanı mükafatlandırır).

Qeyd etdiyimiz kimi, Qazanın mədəni qəhrəman kimi ərməğan etmə funksiyası situasiyalarda funksionallaşır.

1. İtələyici funksiya (qarğış edib övlad diləmə).

2. Yarım funksiya (alqış edib övlad diləmə).

3. Keçici funksiya (bəylik verib bəylik qaytarma).

4. Törəyici funksiya (Bayındırın şərik təyini kimi sağ tərəfi verməsi).

5. Tam funksiya (əmir axurluq verməsi).

Ərməğan ifadəsi birdəfəlik bağışlama anlamına gəlsə də, epik dilin spesifikasında fərqli şəkillərlə təzahür edib mədəni qəhrəmanın məqsədə çatdırma funksiyasını işarələyir. Ərməğan həm bağışlama, həm də borc anlayışında iştirak edərək (bəyliyin bir günlük verilməsi) aciz olan tərəfi diləyinə çatdırır. Hətta bu funksionallıq epik tələffüzdə o həddə çatır ki, yalnız müsbət deyil, mənfi anlam görüntüsüylə neqativ funksiyada

diqqət çəkir. Qeyd etdiyimiz kimi pozitiv (müsbət) və (neqativ) şəkildə sözün funksionallaşması situasiya törəyicisidir.

1. Müsbət situasiya.

a) miskin (övliyalığı, yüksək dərəcəni işarəliyir: Miskin Abdal, Miskin Yunus və s.)

b) xəstə (eyni anlamı daşıyır: Xəstə Qasım, Vidadi Xəstə və s.)

c) yalavac (peyğəmbəri işarələyir: M.Kaşqari lüğətində də yalavac-peyğəmbər deməkdir (91, 48) və s.

2. Mənfi situasiya.

a) miskin (yazıq, fağır, son dərəcə aciz və s. anlamları bildirir).

b) xəstə (eyni anlam daşıyır).

c) yalavac (eyni anlam daşıyır).

Gördüyümüz kimi dünyagörüşü formasının müxtəlif səbəblərdən təhrif olunması sözün neqativ funksionallaşmasını yaradır. DQK-də isə diqqət çəkdiyimiz örnəkdə bunun əksi baş verir. Mənfi anlam müsbət anlamı törədir. Bayındır xan Dirsə xana "Oğlı-qızı olmıyanı Allah-Təala qarğayıbdır, biz dəxi qarğarız, bəllü bilsün" (97, 34) kimi xəbər yetirməklə, "biz" sözü ilə Qazan xanı da şərtləndirirsə (törəyici funksiya) və mənəvi sözlükdə aqressiv davranış nümayiş etdirirsə, Dirsə xanı ac-yalavac, miskin, yalın üzərinə göndərməkdə (övladı üçün ehsan verir) nəticə etibarilə müsbət situasiyanı törədir. Eyni zamanda da bezə, miskin umudu olan Bayındır-Qazan birliyinin Dirsə xanı miskin situasiyadan çıxarmaq təşəbbüsünün anormal davranışla normal yekunu səciyyələnir. Elə bu səbəbdən də mətn strukturunda Qazan xana (Bayındır xanla birgə) şamil edilən "Bezə, miskin umudı" təyini onun mədəni qəhrəman tipi olmasını işarələyir.

Qazan xanın "Bezə miskin umudı" olmasının bir örnəyi də Əbülqazi Oğuznaməsində saxlanmışdır. Qazan xan haq-

qında Dədə Qorqudun söylədiyi “tartım”da (ozan havası) Qazan xanın mədəni qəhrəman aktının epik təzahürdə “Bezə, miskin umudı” olmasını şərtləndirən misralar diqqət çəkir:

Bir qazana qırx bir atın ətin saldı,
Ol qazanı sol əliylə birdən aldı,
Sağ əliylə həmin əti elə payladı,
Alplar, bəylər görən varmı Qazan kimi?! (60, 98).

Bu havacatda Qazan xanın heyrətamiz gücünü (qırx bir atın ətinin olduğu qazanı bir (sol) əliylə tuta bilməsi) mədəni qəhrəman xarakterinə uyğun şəkildə göstərən Dədə Qorqud onun səxavət əlini (sağ əlini) bütün elə açmasını, el doydurmasını təbliğ etməklə aşağı təbəqələr üçün də umud yeri olmasını söyləyir və ən əsas da bunun Tanrı hökmü olduğu üçün Qazanın bu dərəcədə bir əlindən aldığını o biri əlindən elə paylaması semantik oxunaraq qüvvət və səxavət anlamlarını həm faktiki, həm məcazi şəkildə diqqətə çatdırır.

Qazan xanın, “bezə, miskin umudı” olması onun kafər üzərində qələbəsindən sonra “qırx qul, qırx xidmətçi” cariyə (qırx kişi, qırx qadın) azad etməsində də aydın görünür. “Qırq baş qul, qırq qırnaq oğlı Uruz başına azad elədi” (97, 50). “Qırq evli qulla qırq cariyə oğlı başına çevirdi, azad eylədi” (97, 78) DQK mətnindən aydın görünür ki, qul azad etmək xüsusi bir davranş kodeksi olub bu status yalnız Qazan xana məxsusdur. Digər boylarda döyüşdən qayıdan ərən, bəy və xanlarda qul azad etmək statusu yoxdur. Hətta oğluna Bayındır xanın məkanında bəylik vermə imtiyazı olan Dirsə xan da bu statusa malik deyil (97, 36). Dirsə xanın yığnaq keçirib, bəyləri qonaqlayıb ulu (böyük) toy eləyib xatununun təklifiylə “yetman əyal” alması, diləyinə çatmaq üçün borclunu borcundan qurtarıb, ac-yalınları doydurması da qul, kəniz azad etməsi ilə müşaiyyət olunmur. Əgər qul-cariyə ac-yalınlar ilə eyni zümrəyə daxildirsə, Dirsə xan da xan olaraq öhdəsində olan qul-qarava-

şa malikdirsə, necə olur ki, alqış qazanmaq üçün bircə nəfər qul-cariyə azad etmir? (97, 35). Bu sualların sayını digər örnəklərlə də artırmaq olar. Lakin bizə aydındır ki, bu icraetmə bezə, miskin umıdı Qazan xanın ali statusudur. Qul azad etmək funksiyası xüsusi bir törə aktı olaraq yalnız kafər üzərindəki qələbədən sonra Bayındır xanın sağ yanında yeri olan Uruz bəy üçün reallaşa bilər. Uruz bəyin xüsusi dərəcəsi ayrı bir mövzu olmaqla bərabər mətndə işarə törədicisidir. Uruz bəy oğulluğu ilə sabahı, şəcərəsi ilə soyu işarələyir. Bu dialektik paradiqmada azad cəmiyyət quruculuğu, oğuz demokratiyası əks olunur. Kafərlərlə döyüşdə qul azad edilməsi dövrlərin statistikasında qulsuz cəmiyyəti işarələyir. Bu qanunun Qurani-Kərimdə ehkam səviyyəsində xüsusi formada təsdiqi vardır. Müəyyən nəfsi günahların müqabilində əgər o günah bağışlanmaz dərəcədə deyilsə, Allahu-Təala qul, kölə azad etməklə o günahın bağışlanacağını müjdələyir (“Nisa” surəsi, ayə 92, “Maidə” surəsi, ayə 89) (105, 77, 78, 100 və s.). Əgər bu ehkamlara əməl olunsa, perespektivdə qul, kölə azad insana çevrilib azad cəmiyyət təşkil olunacaqdır ki, islami qanunların köləliyə qarşı dayanan humanist sistem olması, İslam demokratiyası bu yüksək inanc və əxlaq göstəricisində bir daha təsdiq olunur. DQK dilində Uruzun oğul olaraq gələcəyi işarələməsi və kafər üzərindəki qələbədən sonra bu aktın həyata keçməsi eyni semantikadan irəli gəlir. Günah da nəfs küfrüdür ki, ona qalib gəlmək üçün kölə azad olunmalıdır. Kölə azad olunması küfrü öldürür. DQK zamanında küfrü (kafəri) öldürdükdən sonra qul, kölə azad edilməsi zamanın anaxronluğundan doğulub eyni anlam yükündədir. Bu statusun yalnız Qazan xanda cəmlənməsi isə onun bu hərəkəti simvollaşdırması, “Bezə miskin umudı” olmasının səciyyəsinin artırılması üçündür. Əks təqdirdə bütün obrazlar “bezə miskin umıdı”nın daşıyıcısına çevrilə bilər ki, bu da obrazlar sisteminin mərkəzi obrazını bəsitləşdirə bilər.

“Bezə miskin umudı” olmaq eyni zamanda İslamın beş əsas rüknündən biri olan zəkatla eyni xarakterdədir. Yalnız miskinlər, fağırlar, yoxsullar üçün zəkat verilməsi zəkat qanununa uyğun olduğu kimi bu təyinin bir funksiyası da zəkat mahiyyətli olub, maddi və mənəvi şəkildə fağırların (bezələrin), miskinlərin umudı kimi onların ehtiyacını ödəmək anlamı daşıyır. Təsadüfi deyil ki, eyni təyinin bir tərəfi kimi Bayındır xanın İslam peyğəmbərinin şəcərəsinə bağlılığını göstərən xüms (beşdə bir) alması (“Bayındır xana pəncyek çıqardılar” (97, 97) xümsün epik tələbata uyğun olaraq mətndə daşlaşması bezə, miskin umıdı olmağı diqqətə çatdırır. Çünki pəncyek mürəkkəb söz birləşməsi ərəbcə “xüms” sözünün farsca qarşılığı olan “pənc” (beş) sözünün “yek” (bir) sözü ilə birləşməsindən əmələ gəlib eyni anlamı ifadə edir. Görünür ki, Oğuz düşüncəsinə görə kafərlərin qəsb etdikləri sərvət üstündə oturması onu harama çevirmək, geri alınması isə halalı bərpa etməkdir. Təbiidir ki, bu futuhatçılığın və qəzavatçılığın bir ideoloji tərkib hissəsi olub tarixi salnamə ünsürlərinin epik mətnə daşınmasından irəli gəlir. Kafərlərin kəlisasın (kilsəsin) yıxıb yerinə məscid yapılması (97, 97) da eyni anlam yüklüdür. Məhz Bayındır xanın da bu alınan sərvəti miskinlərə, fağırlara dağıtması qarşılıqlı formada eyni təyinin daşıyıcısı olan Qazan xanın qul-cariyə azad etməsində işarələnir. Bayındırın funksiyası Qazana, Qazanın funksiyası Bayındıra keçir. Çünki təyin şəriklidir. I boyda Qazan görünməsə də, eyni funksiya Bayındırda görünməklə Qazana da aid olur, II boyun sonunda qul, qırnaq azad edən Bayındır deyil, Qazan olsa da Bayındırı da mətn arxasında inikas etdirir.

DQK mətnində bezə, miskin umudı epik qarşıdurma kimi də nəzərə çarpır. Strukturdan epik düşüncəyə daşınan bu təəssürat VIII boyda diqqət çəkir. DQK də bu təyinin Bayındır və Qazanda olması onların üstünlüklərini iyerarxik formada əks etdirir. Elə bu səbəbdən də mətn strukturunda Uçoq-Bozoq qarşı-

durmasının kodlaşdırılması epik səviyyədə müxtəlif situasiyalarda üzə çıxdığı kimi bu təyində də diqqət çəkir. Bu statusun onların əlindən alınması üçün Basatın mücadilələri yenə də özünü göstərir. Qarşı tərəfin də davranışları eyni tərzdə adekvat əlamətlərlə proyeksiyalanır. Bu mövzu səviyyəsində Basatın bütün Oğuz elini Təpəgözdən qurtarması süjetində qurulmuş ozan təhkiyəsinin spesifikasından irəli gəlir. Görünür, DQK ozanı Bozoq-Uçoq iyerarxiyasının alternativ səviyyədə qurulmasını Oğuz törəsinin pozulması səbəbindən qəbul etməmiş və bunu boy-boy mətn strukturunda işarələmişdir. Hətta Basat-Qazan arasındakı "Bezə miskin umudı"nın uğrunda aparılan mübarizə mətndə açıq şəkildə özünü büruzə verir. Belə ki, Qapaqqan adlı bir kişi iki oğlundan birini Təpəgözə qurban verdikdən sonra ikinci oğlunun da növbəsi çatdığını görür və aqından gələn Basata umudunu bağlayır. Halbuki Bayındır və Qazan xandan heç bir kömək diləmir. Basatdan bezə, miskin umudı olaraq kömək istəyən bu kişi "Aruz oğlı xanım Basat mana mədəd!" (97, 100) deyərək təsadüfi olmadan onu ən yüksək dərəcəyə uyğun "xan" adlandırır. Əgər düşünülsə ki, Dış Oğuz (Bozoqlar) İç Oğuzdan (Uçoqlar) asılı vəziyyətdədir, məhz bunun müqabilində Bayındır və Qazan xan xanlıq titulunu, Basatın atası Aruz isə bəylik titulunu daşıyır (97, 123). O zaman Basata "xan" deyilməsi mövcud ziddiyyəti işarələməklə bərabər Oğuz elinin umıdı kimi Basata baxılmasını göstərir. Elə bu baxımdan da Qazan xan Basatı Təpəgözün üstünə getməkdən çəkindirərkən özü ilə müqayisə edib onun bacarmadığını Basatın heç cür bacarmayacağını bəyan edir və "Bezə, miskin umıdı" olaraq mövcud situasiyada bu funksiyanın qüvvədən düşməsinə diqqət çəkir:

"Ər olsan yeg",

"Olsan, mərə, mən Qazanca olmıyasan, Basat!" (97, 100) – deyir. Lakin Basatın onu eşitməyib Təpəgözün üstünə getməsi və onu həlak etməsi XII boyda üzə çıxacaq ziddiyyət-

lərin daha bir səbəbi kimi özünü göstərir. Yuxarıda qeyd etdiyimiz kimi "Tülu quşun yavrusu" və "Bezə miskin umıdı" təyinini öz iyerarxik funksiyası olaraq geriyə qaytarmaq istəyən Basatın Qazan xan ilə qarşılaşması məhz bu ambisiyaların epik qat altında çox qüvvətli qıcıqlarla saxlandığını göstərir. Təbiidir ki, Qazan xanın Basatın Təpəgözü öldürməsini istəməməsi onun "Bezə, miskin umıdı" olmasına kölgə salmır. Çünki, o həm buna inanmır, həm bu titula layiq olaraq görmür, həmçinin şüuraltı istəklərini nitq aktında reallaşdırması ən emosional, effektiv və aqressiv istəklərin məntiqi bir istək üzərində qurulmasını təmin edir ki, bu da humanist dəyərlə müşaiyət olunur. Qazanın dilində Basatın ata-anası bəhanə deyil, qayğılarına qalınan ağ saqqalı, ağ birçəkli valideyn kimi Basat üçün mənəvi-psixi maneəyə çevrilir:

Ağ saqallu babanı ağlatmağıl,
Ağ birçəklü ananı bozlatmağıl (97, 101).

Əslində, Qazan xanın Basata ata-anasını xatırlatmaqla ona Qapaqqan kişinin oğlu üçün gedəcəyi təqdirdə özünün də öz ata-anası üçün o kişinin oğlu kimi bir oğul olduğunu, özünü Təpəgözə qurban verməməsini anlatmağa çalışır. "Bezə, miskin umıdı" olmasına baxmayaraq Basatın Qapaqqan kişidən əvvəl öz ata-anasını düşünməsini təmin etməyə can atır. Çünki həm onun Təpəgözə qalib gəlməsinə inanmır, həm bu təyinə yiyələnməsinə mane olmaq istəyir, həmçinin bu situasiyada bu təyinin funksiyasının qüvvədən düşməsini etiraf edir. Təsəvvür edin ki, Oğuzun təkrar-təkrar yeyilməsi (Qapaqqan kişinin ikinci oğluna növbə çatıb) bu titulun həmin ərəfədə ləğvini göstərməklə bərabər yalnız Qazana və Bayındıra aid olmasını işarələyir. "Mən Qazanca olmıyasan" iddiası da bu münasibəti əks etdirir. Bundan əlavə Oğuz elinin yeyilməsi strukturda şifrələnəmiş məlumat səviyyəsindən bərpa olunan mifologem olaraq ("Tülu quşun yavrusı"nın da mifo-

logem olmasını qeyd etmişdik) nağıl təhkiyəsinə transformasiya olunan "Əjdahanın suyun qabağını kəsməsi" motivi kimi üzə çıxır. "Məlikməhəmməd" nağılında əjdahanın hər gün bir qız yeməsi və onları yediyi zaman da müvəqqəti olaraq suyun qabağının açılması (20, 21) mətn strukturunda anaxaqanlığın ataxaqanlıqla əvəzlənməsini məlumat olaraq saxlayırsa, müəyyən bir toplumun, elin, elatın ritual ənənəsini qurban vermə aktını işarələyirsə, digər tərəfdən də "yeyilmə situasiyasının" qəhrəman törətmə funksiyası olduğu (nağılda Məlikməhəmməd, dastanda Basat) aşkarlanır. DQK-də isə belə görünür ki, Qazan xanın Basata mane olmaq istəməsi qəhrəmanlıq aktının "bezə, miskin umıdı" olaraq özü tərəfindən həyata keçirməli olması, əgər o bacarmayıbsa, digərlərinin buna cəhd etməsinin mənasızlığını əsaslandırmasından irəli gəlir. Qazan xanın Təpəgözlə savaşıb ona qalib gələ bilmədiyini dediyi kimi, eyni semantik cərgəyə aid olan yeddi başlı əjdaha ilə savaşının da eyni nəticə verdiyini deməsi həm bu aktın yalnız ona məxsusluğunu iddia etməsini göstərir, həmçinin də zaman anlamında hələlik "yeyilməklik dövrünü" işarələməklə eyni mif motivini (mifologemi) şərtləndirir. Təpəgözlə savaşında:

Qara uran qopdı Dəpəgöz,
Ərş yüzində çevirdim, alımadım, Basat!
Qara qaplan qopdı Dəpəgöz,
Qara-qara tağlarda çevirdim, alımadım, Basat!
Qağan aslan qopdı Dəpəgöz,
Qalın sazlarda çevirdim, alımadım Basat! (97, 100).

Yeddibaşlı əjdaha ilə savaşında:

– Yedi başlu əjdərhaya yetüb vardım,
Heybətindən sol gözüm yaşardı.
Hey gözüm, namərd gözüm, müxənnət gözüm,

Bir yılandan nə var ki, qorxdun! – dedim (97, 117, 118) deyir.

Diqqət edilsə, aydın görünər ki, Qazan xan burada gözündən şikayət edir, onu namərd adlandırır. Basat da məhz Təpəgözə gözünü çıxarmaqla qalib gəlir. Qazanın gözünün müxənnət olmasına səbəb olan xtonik varlığın (əjdahanın, ilanın semantik düzümdə Təpəgözün) gözünün Basat tərəfindən çıxarılması Qazan üzərində üstünlüyü, hətta onun umıdı olması anlamını işarələməklə bərabər strukturda əhəmiyyətli lay səviyyəsini aşkarlayır. Təpəgözün zəif olan yeri “gözündən ğeyri yerdə ət yoqdır” (97, 101) epik mətndə mifologem olaraq üzə çıxır, Təpəgöz-Polifem variasiyası, motiv səviyyəsi olduğu kimi, “Təpəgöz gözü” də “Axilles dabanı” ilə türk-oğuz-yunan mifoloji strukturunun mifologem görüntüləridir. Mənfi və müsbət anlamların situasiya təzahürü olaraq mənfidə (Təpəgözdə) müsbətdə (Axillesdə) aşkara çıxan faktor eyni, funksiya isə işlənmə situasiyasına görə bir-birinə ziddir. K.Abdulla Təpəgözün birgözlü olmasını qəhrəmanlıq aktının törənməsi üçün əvvəldən hazırlanan mif strategiyası, kompozisiya tələbatı kimi dəyərləndirir. Əgər Təpəgöz iki gözlü olsaydı, Basat onun bir gözünü çıxararkən Təpəgöz onu ikinci gözü ilə görüb həlak edə bilərdi (6, 124-125). Diqqət çəkdiyimiz kimi Basat Təpəgözə ona görə qalib gələ bilir ki, onun gözünü çıxarır. Həmçinin onun gözünü çıxarmaq imkanı mətndə reallaşır. Lakin bu təkcə Təpəgözün bir gözünün olması səbəbindən deyil, o tək gözün nəyi ifadə etməsi, hansı semantik anlamla yüklənməsi səbəbindəndir. S.Rzasoy bu anlamı “gözdən doğulma” mifologemi olaraq açıqlayarkən Təpəgözün günəşi oğurladığını (divin və əjdahanın nağıllardakı funksiyası), oğurlanmış günəşin onun gözündə udulduğunu, Basatın isə onun gözünü çıxarmaqla günəşi azad etdiyini yazır və Oğuz elinin günəşinin özünə qaytarılması funksiyasının Basatda işarələndiyini qeyd edir (119, 138, 39). Beləliklə,

aydın olur ki, Basat Təpəgözün gözünü çıxarmaqla "Tülu quşun yavrusı", yəni doğan günəşin yaxını, balası, Oğuz elinin "Bezə, miskin umıdı" olmasını iddia edir və Bozoq yerinin ona məxsus olmasını bildirməklə xan öyünclərinin də sahibi olmasını görüntüləyir. Hər halda bu ozan təhkiyəsinin mükəmməl işarəviliyi ilə bərabər məlumat şəbəkəsinin şüurdan mətnə köçürülən kod sistemindən mexaniki olaraq aşkarlanır. Əslində Basat Təpəgözə qalib gəlməli deyildi. Çünki Təpəgöz Basata ölümünün gözündən deyil, Oğuz elinin yığılıb gəlib onun üstünə hücum çəkdiyində öz atdığı sal qayaların başına düşməsindən, öz başına daş salmasından olacağını gözlədiyini deyir:

Qalın Oğuz bəgləri üzərimə yığılub gələ, derdim.
Qaçubanı salaxana qayasına girəm, – derdim.
Ağır mancılaq taşla atam, derdim.
Enüb taş, başıma düşibən öləm, derdim (97, 103).

Məhz Oğuz elinin yığılıb gəlməsi, Qalın Oğuzun ona (hətta yerini belə müəyyən edir) hücum etməsi təbiidir ki, Qalın Oğuzun başçısı, "Bezə, miskin umıdı" Qazan xanla reallaşa bilər (Bayındır xan ənənəvi olaraq savaşlarda iştirak etmir). Deməк Basat Təpəgözün üstünə getməmiş hələ Təpəgöz bilirdi ki, Qazan xan "Bezə, miskin umıdı" olaraq ona qalib gəlməlidir. Lakin hələ bunun zamanı çatmayıb və oğuz elinin yeyilməsi davam edir. Qazanın Basatı saxlaması bu dayanmış funksiyanın bir gün işə düşəcəyindən, bunun isə yalnız Qazanın özü ilə reallaşacağından xəbərdar olmasından da irəli gəlir. Məhz "Oğuzun yeyilməsi" dayandıqdan sonra Qazanın xtonik varlığa, Təpəgözlə eyni semantik cərgəni təşkil edən nəhəng "İlana qalib gəlməsi, onun başını kəsməsi" Əbülqazi Oğuznaməsinə düşən Dədə Qorqud tartımında aşkarlanır:

Mavi göydən enib gəldi canlı ilan,
Hər adamı udar idi görən zaman.
Salur Qazan başını kəsdi, vermədi aman,

Alplar, bəylər görən varmı Qazan kimi?! (60, 98).

Halbuki Dədə Qorqud Oğuznaməsində Qazan xanın əjdahaya gücü çatmaması, heybətindən namərd gözünün yaşarması deyilir (97, 118). Bəs necə olur ki, Basat bu gələcək zamanı qabaqlayır və Təpəgözün həlakını gerçəkləşdirir? Çünki Basat Qazan xanı eşitməyib ata-anasını, "Bezə, miskin umıdı" olmağa qurban verir. Öz ata və anasının Qaba ağac və Qağan aslan (onu bəsləyən şir və ulu nənə) olduğunu elan edib bioloji atanı (Aruzu) daha uzaq əcdada və mənəvi – mifoloji atası olan Qaba ağaca (dünya ağacı və Oğuz xan) dəyişir, bu ata-anaya söykənib Təpəgözə qalib gəlir. Elə bu səbəbdən də Basat XII boyda Aruzun yanında görünmür, onun həlak edilməsinə laqeyd qalır. Qazanın Aruzun başını kəsdirməsi müxtəlif struktur-semantik törəmələrlə birlikdə eyni zamanda "Bezə miskin umıdı"nın Basatdan geri alınmasına xidmət edir. Axı Aruz da Təpəgöz kimi xaosu təmsil edib hətta xaotik keyfiyyətləri ilə diqqət çəkir. O at ağuzlu qoca Aruzdur (97, 42). Eyni anlamın situasiyadan asılı olaraq mənfi və müsbət şəkildə işlənməsi imkan verir ki, bu situasiyada Aruz xtonik anlamları özündə cəmləsin. Hətta Təpəgözün tək gözündən ehtiyat etməyən Aruz onu oğulluğa da götürür (97, 99). Çünki bu vəziyyətdə Aruz Təpəgöz ilə öz arasında ümumi oxşarlıq sezir (tək gözlü-at ağızlı) Basatın Təpəgözə "ağsaqqallı-ağbirçəkli ata-anasını incitməsini, qardaşı Qıyan Səlcuğu öldürməsini" deməsi onun savaşı üçün əsas olsa da, (97, 102-103) əslində Basat Aruzdan incikliyini müxtəlif görüntülərlə üzə çıxarır və Bozoq (Dış Oğuz) tayfasının itirilmiş hüquqlarını, ali hakim statusunu bərpa etməyə çalışır. Beyrəyin öz xatunundan qorxu keçirməsi, onu Basatın gəlib sahiblənə biləcəyi və Qazanın oğlu Uruzun onu almasını vəsiyyət etməsi Bozoqdan olan xatunun Bozoq davası aparan Basat tərəfindən Bozoqa qaytarılması strategiyası kimi reallaşma təhlükəsi yaradır. Ba-

satın "Tülu quşun yavrusı", "Bezə, miskin umıdı" və s. təyinlərin, ümumiyyətlə, Bozoqun sağ yerinin özünə qaytarılması üçün apardığı mücadilə məhz Təpəgözlə savaşında da üzə çıxır. Aruzun da eyni mücadilədə iştirakı görünür ki, Basatı qane etmir. Çünki Təpəgözün oğuza çıxışını, yığanaq içindən çıxmasını, sonra onu oğulluğa götürməsini reallşdıran Aruz açıq şəkildə olmasa da, psixi-antipatik davranışlar səviyyəsində Basat tərəfindən qəbul olunmur. Basatın günəşi xilas etməsi məhz oğuzun yeyilmə aktının dayandırılmasını şərtləndirir. Əks təqdirdə qeyd etdiyimiz kimi Basat bu savaşda məğlub olmalı, oğuzun yeyilməsi davam etməli, Qazan xanın başçılığı ilə Qalın Oğuz nizamlı hücuma keçməli, Təpəgözün oğuza atdığı sal qayalardan birinin öz başına düşməsi nəticəsində həlak olması baş verməli idi. Nəhəngin həlakını özündən nəhəng olan reallaşdıra bilərdi. Basatın isə onu zəif yerindən – gözündən tələf etməsi epik səviyyədə qəhrəmanlıq aktını görüntüləyən situasiyaları dəyişdirməyə xidmət edirsə, mətn altında işarələnən "günəşin azad olunması" motivinin üzdə deyil, kod səviyyəsində saxlanılmasını diqqətə çatdırır. Eyni zamanda qeyd etdiyimiz kimi Bozoq-Uçoq ziddiyyəti olaraq "Tülu quşun yavrusı" təyinindən sonra "Bezə, miskin umıdı"nın ona məxsus olması iddiası mətndə daşlaşmışdır. Özü də bu ziddiyyət ən müxtəlif obrazlar səviyyəsində DQK mətni boyu davam edir. Lakin bu xilasetmə funksiyası Basatın bu təyinləri əldə edə bilməsini mətnin epik təzahüründə görüntüləmir. Çünki yuxarıda diqqət çəkdiyimiz kimi, Basat özü Təpəgözə qarşı tarazlığı bərpa etsə də, kosmos-xaos oppozisiyasında kosmosu səciyyələndirsə də, digər situasiyalarda xtonikliyi ifadə edir.

1. Basat cəmiyyətdən təbiətə düşsə də, təbiətə meyllidir, ona can atır (97, 98).

2. Basat Oğuz törəsini pozub icazəsiz aqıncılıq edir. Halbuki aqıncılığa getmək üçün Bayındırın və Qazanın icazəsi olmalıdır (97, 94, 110).

3. Basat Beyrək evinə hücum edib onun malına və namusuna təcavüz edə bilər (97, 125).

4. Basatın atası Aruz Oğuz elinin parçalanmasının faktiki səbəbkarıdır (O, Beyrəyi öldürür) (97, 125).

5. Basat Təpəgözün "əmdi qardaşı" (süd qardaşı)dır (97, 102).

Hər halda Basata bu münasibət kosmosda olan Basatı xaosda yerləşdirir. Məhz bu səbəbdən də "Tülu quşun yavrusı", "Bezə, miskin umıdı" və s. təyinlərin sahibliyi Bayındır və Qazanın təyini olaraq daşınır. Oğuz eli umudsuz olub, yeddi kərə Təpəgöz əlindən qaçıb, ən çətin vəziyyətdə qalıb yeyilmə ziyafətinə razılaşdığı zamanda belə qəhrəman aktı olaraq meydana çıxan Basat oğuzu xilas etsə də, yenə də oğuz dilində qəbul olunmur, yuxarıdakı izləmələrdə xaotik məkana daxil edilir. Çünki Oğuz elinin ali idarəçilik statusunu daşıyan Bayındır-Qazan birliyi xanlıq üsuli-idarəsinin ideoloji təbliğatının tərkib hissəsi olan "xan öyüncləri"nin sahibi olaraq ozan təhkiyəsində səciyyələnməlidir. VIII boyda "Aruz aldı bu oğlanı ətəginə sardı. Aydır: "xanım, munı mana verin, oğlum Basatla yaşlıyayın" (97, 99) deməsi də Təpəgözü və Basatı Aruz oğulları cərgəsinə birgə qatmaqla onun xtonik məkana aidliyini işarələyir. Yalnız bu xtonik çevrədən bəraət alacaq Aruzun digər oğlu Qıyan Səlcukdur ki, onun adı Təpəgöz qardaşı olaraq çəkilmir və özü Təpəgözlə savaşda həlak olur. Bu Basatın dilində də səslənir. Təpəgözə "Qarındaşım Qıyanı öldürmişsən" deyir (97, 102). Basatın sakral dünyaya can atması onu xtonik çevrədən ayırmır. Lakin mətnaltı lay səviyyələrində daşınan məlumat mətnüstü işarələri mətnaltı strukturda yerləşdirərək gerçəkliyi də inkar etmir. Bu Oğuz kosmoloji strukturunda şaquli və üfiqi (haki-

miyyət bölgüsündə yuxarıdan aşağı, yurd bölgüsündə yanaşı) nizamı pozub binar oppozisiya yaradır. Məhz bu mövqenin xtonik tərəfi kimi Basat-Aruz görüntülənir. Basatın xtonik varlığa (Təpəgözə) qarşı savaşması da, XII boyda xtonik funksiyada olan Aruzun yanında görünməməsi də əslində xtoniklikdən qurtulmaq cəhdidir. Xtonik sferanı təşkil edən Təpəgözün onun qardaşlığı, XII boyda bu sferaya daxil olan Aruzun atası olması, özünün isə təbiətdən cəmiyyətə keçidi onu da xaotiklər cərgəsinə daxil edir. Ozan bu üsulu həyata keçirərkən Dədə Qorquda da söykənir. Dədə Qorqudun oxuduğu tartımda Qazanın insanları yeyən canlı (nəhəng) ilanla döyüşüb ona qalib gəlməsi və başını kəsməsi tərif olunur, Basatın Təpəgözü öldürməsi haqqında isə heç nə deyilmir. Bu xilaskarlıq funksiyasının Basatdan alınıb Qazana verilməsi deməkdir. Əks təqdirdə Basat haqqında da dastandan kənarda (epos strukturunda) "tartım" olmalı idi. Əgər belə bir "tartım" varsa və Əbülqazi onu "Şəcəreyi-tərakimə"yə daxil etməmişdirsə, bu Əbülqazinin şəxsi münasibətindən deyil, oğuznamə ənənəsinə uyğun gələn oğuz düşüncəsinin spesifikliyindən irəli gəlir. Bu düşüncə "Bezə miskin umıdı"nı Basatda deyil, Qazanda görmək istəyir. Adət səviyyəsi yaradan sterotiplərin dəyişməzliyi zahiri münasibətlərdə özünü gizlətsə də, şüurun alt qatında aqressiv təəssürat yığını kimi daima mövcud olaraq qalır. Bu Basata münasibətdə də özünü göstərir. Əvvəldə qeyd etdiyimiz kimi, Qaracıq Çobanın da bu münasibət çevrəsində özünü doğrultmağa ehtiyacı olur. Zahiri münasibətlər mətnüstü epik səviyyələrdə inikas etsə də, mətn altına endikcə bunun zidd tərəfləri görünməyə başlayır. Qazan xanın Basat üzərində sözsüz qələbəsini istər sosial-kütləvi, istərsə də psixi-fizioloji reallıqlar təmin edir və təfəkkür təzahürü kimi meydana çıxan mətn bu xüsusiyyətləri özündə inikas etdirir. Beləliklə, "Bezə, miskin umıdı" təyini üstündə gedən gizli qarşıdurmada bu təyinin Qazan xana aidliyi təsdiqlənir.

Beləliklə, Qazan xan obrazının Oğuz invariant modelinin paradiqması kimi ortaya çıxmasını "Bezə, miskin umıdı" təyini də inanc və funksiya baxımından isbata yetirir. Qeyd etdiyimiz kimi, "Bezə, miskin umıdı"nın təsadüfi sözlük deyil, kompleks status ifadə etməsi, Oğuz ali idarəçilik institutunun törə qanununun təzahürü kimi aşkarlanması və konkret sahibləri olması, hətta bunun uğrunda mübarizə aparılması və xan öyüncü kimi meydana çıxması Oğuz mifoloji sisteminə bağlılığını göstərir. Bu təyinin ilkin sahibi ilk insanı, ilk əcdadı və Oğuz invariantını təmsil edən simvolik real protoobraz Oğuz xanın özüdür. Oğuz Kağan dastanında bu təyinin arxetipi saxlanır:

Vuruşdan sonra Oğuz Kağanın,
Çeriyinə, nökərlərinə, elinə,
O qədər doyum çatdı ki,
Yükləməyə, aparmağa at, qatır, öküz,
Azlıq elədi (110, 27).

Mənzum Oğuznamədə (Uzunkörpü Oğuznaməsi) də eyni funksiyanı ifadə edən təəssürat özünü göstərir:

O özüylə birgə olan nökərlərinə,
Xəstələrinə artıq şərəf və mövqe verdi (110, 46; 108, 35).

Oğuz mifoloji strukturunun arxetipləri bütün Oğuznamələrdə və digər epos və dastanlarda transformativ və paradiqmatik şəkillərlə üzə çıxdığı kimi Qazan xan obrazını və onu əhatələyən funksional obraz təzahürlərini, eləcə də status və funksiyaları zəncirvari həlqə kimi özünə bağlayır. Bezə miskin umıdı titulu da öz qaynağını bu sistemdən götürüb onun törəməsinə çevrilir. Oğuz paradiqması kimi ortaya çıxır. Oğuzun toy ritualı altı oğulun kainatı simvollaşdırması üzərində qurulduğuna görə keçirilən bütün toy rituallarında oğulsuz iştirak etmək Oğuz kosmik anlayışının sakral mahiyyətinə qarşı xaotik təcavüz kimi qəbul olunur. Dirsə xanın Bayındırın keçirdiyi illik toy ritualında Oğuz ritualının qanununu pozması miskin

situasiyasında olduğu üçün yalnız qara çadıra qondrulması və bu ritualı bərpa etmək üçün “ulu toy” keçirməsinə yönləndirilməsi ilə yekunlaşır. Dirsə xanın qarğışla, Baybörə və Baybicanın alqışla qarşılanması isə müxtəlif səbəbləri ilə birgə Dirsə xanın Bayındırın toy ritualında iştirak etməsi, Baybörə və Baybicanın isə şöləndə iştirak etməsi səbəbindən irəli gəlir. Əgər sonuncu bəylər şölən deyil, toy ritualında iştirak etsəydilər Dirsə xanın durumunda olacaqdılar (97, 34, 52).

Toy Oğuz kosmosunun missiya və funksiyasının strategiyasını müəyyənləşdirən yığıncaq olduğuna görə hakimiyyət, inanc və soy dialektikasının əsasını müəyyənləşdirir və əks situasiya bu kosmoloji struktura xaotik təcavüzkar kimi qəbul olunur. “Bezə miskin umıdı” təyinini Oğuz paradiqması kimi səciyyələndirən Bayındırın və Qazanın davranışları daha ağır cəzalara əl atmağa imkan vermir. Bayındır qarğışla alqışa yönləndirir, Qazan alqışla iştirak edir.

Epik mətndə Qaracıq Çobanın da aşağı təbəqəni təmsil etməsində “Bezə miskin umıdı” kimi Qazana söykənməsi əslində Oğuz mifoloji strukturuna bağlanmasını göstərir. Ağacı kökündən çıxarıb Qazan xanın dəstəyini alan Qaracıq Çoban ağac arxetipinin şəkillənməsi ilə Uçoqlara bağlılığını nümayiş etdirməklə Oğuz paradiqması kimi “Bezə miskin umıdı”nın yanında yer almağa, savaş hüququ qazanmağa və bezə, miskin təbəqəsindən bəy təbəqəsinə keçməyə, əmiraxur olmağa nail olur (97, 46, 50).

“Bezə, miskin umudı” təyininin mətndə mədəni qəhrəmanlığı işarələdiyinə də diqqət çəkmişdik. Mədəni qəhrəman funksiyasının təzahürü olaraq epik mətndə daşınan obrazların ilk insanı, əcdadı, qurtarıcılıq və qoruyuculuğu əks etdirməsini işarələmişik. “Bezə miskin umıdı”nın mətnin üst qatında xanlığı, alt qatında mədəni qəhrəmanı işarələməsi yenə də təkrar olaraq Oğuz xanın xanlığının və mədəni qəhrəmanlığı-

nın paradiqması olaraq Bayındırı və Qazanı əks etdirməsi bu təyinin arxetip görüntüsü olaraq aşkara çıxmasının struktur bütövü işarələyən düşüncə hadisəsi olmasından xəbər verir.

### 4. Amit soyının aslanı

Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturunun təhlili zamanı aktual zoo-antro-sosiomentemlərdən biri "**Amit soyının aslanı**" qəlibidir. Bu qəlib iyerarxiya işarəsidir. Ali statusu bildirir. Daha geniş əhatədə "Bezə miskin umıdı" təyininin sinonimidir. İlkin olaraq onu qeyd edək ki, bu təyini H.Araslı, S.Cəmşidov "Ümmət soyunun aslanı" (96, 31; 98, 30) F.Zeynalov, S.Əlizadə "Amit soyının aslanı" (97, 42) M.Ergin, O.Ş.Gökyay, "Amit suyunun aslanı" (137, 95; 140, 16) kimi oxumuşlar. Bu söz birləşməsinin birinci tərəfini ümmət kimi oxumaq DQK əlyazmasının (faksimile) özü tərəfindən inkar olunur. Belə ki, bu söz mətndə əlif, mim və tə hərfi ilə yazıldığı halda ondan bir qədər əvvəl yazılmış "Ulaş oğlı" (Ulaş və oğlu) umıdı (bezə, miskin) sözləri "u" və "o" səsini ifadə etmək üçün əlifdən sonra vav hərfi ilə yazılır. Eyni qayda ilə ümmat sözünü də bildirmək üçün əlifdən sonra vav hərfi yazılmalı idi. Lakin biz bunu görmürük. Bu sözün "anut" kimi oxunmasından isə (97, 231, 232) söhbət gedə bilməz. Çünki mətndə (əlyazmada) üç hərflə işlənən amit sözünün (99, 586 (35), 511 (110), 416 (205) heç birində "nun" hərfi yoxdur. Nun hərfinin isə "mim" hərfinə çevrilməsi üçün öncə yazılışda "nun" yazılmalı, ondan sonra "tə" hərfi yox, "be" hərfi gəlməlidir.

Bu sözün "amit" (97; 140 ; 136) yaxud "əmət" kimi yazılması (127, 355) daha düzgün ola bilər. Fikrimizcə, ikisi arasında seçim etməli olsaq, "əmət" kimi yazılışı daha məqsədə uyğundur. Bəzi tədqiqatçılar "əmət" soyu kimi deyil,

“əmət”, yaxud “Amit (Amid) suyu” kimi oxuyub, Dəclə çayı olduğu qənaətinə gəlmişlər (127, 356; 107, 159). Çünki bu sözün çaya aidliyini bildirmək üçün onun soy deyil, su olması vacib ünsürdür. Maraqlıdır ki, F.Sumər “Amit suyunun Dəclə olduğu fikri ilə razılaşmasa da, sözün oğuzların tanıdığı hansısa çay adını bildirdiyini “Sır dəryada”olan bir irmaq ola biləcəyini qətiyyətlə söyləmişdir (127, 356).

Digər müəlliflər isə bu sözün toponim ifadə etməsini, konkret olaraq Diyarbəkir şəhər qalası olduğunu əsaslandırmağa çalışmışlar (100, 24; 102, 174). Lakin çay adını bildirmək üçün soyun suya çevrilməsi kimi, eləcə də soy sözü şəhəri, qalanı və s. deyil, nəsil ağacını ifadə edir. Bir şəhərdə, qalada müxtəlif soylu insanların da yaşaması mümkündür. Bəlkə də anlamın ziddiyyət təşkil etdiyini müşahidə edən H.Araslı, S.Cəmşidov bu sözü “ümmət” kim oxumağa cəhd etmişlər. Çünki ümmət sözü soy anlayışına yaxındır. Soy və yaxud soylardan ummət əmələ gəlir. Lakin mətn sözün bu cür oxunuşunu inkar edir. A.Hacıyev də yer adının soy adı ilə fərqli anlam daşıdığını bildiyi üçün bu sözü tərəf anlamında oxumağa cəhd etmiş, bütövlükdə “Amit soyunun aslanı” söz birləşməsini “Amit tərəfin aslanı” kimi oxumuşdur (78, 51, 66).

Beləliklə, aydın olur ki, bu təyin indiyə qədər ətraflı şəkildə açıqlanmamışdır. Sanki katib (toplayıcı, mirzə, informator) bu sözü anlaşılmaz söz olaraq təhrif olunmuş şəkildə qeyd etmiş, lakin üç dəfə eyni şəkildə yazmaqla bunun təsadüf olmadığını göstərmiş və bununla da bu söz ətrafında ədəbi oyun qurmuş, mətnaltı laylarda özünəməxsus bir tapmaca yaratmışdır. Məhz bu tapmacanı aça bilmək üçün ənənəvi – filoloji qaydada deyil, mətn məlumatının spesifikliyinə uyğun şəkildə davranmaq lazımdır. Bizim qənaətimizcə, ozan dilində və yaxud katib nüsxəsindəki bu təyinin anlamı Qazan və Bayındırın şərik təyini olaraq “Oğuz soyunun aslanı” anlamını verir. Bu təyin

yalnız Bayındır və yaxud Qazan xana aid olmadığı üçün ayrı-ayrılıqda hər iki şəxsiyyətin tayfası, atası və s. istiqamətdə soy ağacını izləmək məqsədə uyğun olmadığından hər iki şəxsiyyətin birgə soyunu araşdırmaq ehtiyacı meydana gəlir. Təbiidir ki, bu məntiqi silsilə Oğuz xana bağlanır və onun soyunu bildirir. “Oğuz soyunun aslanı” olan Bayındırın və Qazanın mətndə işarələnməsi mətn altında tapmaca kimi qurulur. Bu tapmacanı açıqlamaq üçün çox uzağa getmək, hansısa çay, dağ, qala, hətta büt (100, 24) axtarmaq lazım deyil. Klassik ədəbiyyata uyğun ənənəvi formada əbcəd əlifbasını mətnə tətbiq etmək, qeyri-ənənəvi numerologiyadan istifadə etmək yetərlidir. Məlumdur ki, “amit” sözü əlyazmada əlif, mim və “tə” hərfləri ilə yazılmışdır. Bu hərflərin əbcəd rəqəmləri ilə cəmi dörd yüz qırx bir edir (əlif-1, mim-40, tə-400). Bu rəqəmlərin numeroloji formada hesablanması (cəm rəqəm hesablanıb, sıfırlar atılır) doqquz rəqəmini cəm olaraq ortaya çıxarır. Doqquz rəqəminin Oğuz kosmoloji strukturunda sakral rəqəm olub dünya modelinin riyazi düsturunu verməsi ilə bərabər Oğuz soyunu bildirməsi məlumdur. Çünki Oğuz, onun iki xatunu və altı oğlu kosmosun mifoloji-simvolik işarəsi olmaqla eyni zamanda Oğuz soyunu bildirir. Bundan əlavə isə arxetip olaraq Oğuz paradiqması kimi epik örnəklərdə süjet, janr, motiv, obraz və s. də iştirak edir. Qazan xan obrazının (Bayındırın və s.) Oğuz mifinin və Oğuz eposunun paradiqması kimi araşdırılması bu rəqəmin say arxetipi kimi aşkarlanmasının təsadüfi olmadığını göstərir. Məsələ burasındadır ki, Oğuz iyerarxik təşkilat quruluşu soy bünövrəsi və Oğuz əhdi üzərində (60, 64-73) qurulmaqla doqquz və iyirmi dörd sakral rəqəmini simvollaşdırmışdır ki, bu da müxtəlif say sistemləri, mətnə səpələnən paradiqmalar ilə hesablanmaqla bərabər yuxarıda qeyd etdiyimiz Oğuz, iki xatun, altı oğul və onların törəmələri olan iyirmi dörd Oğuz tayfa birliyidir, Oğuz xanın nəvələridir

(115, 39, 40). Ən maraqlı orasındadır ki, bu say sisteminin iyerarxik quruluşu simvolik ifadə etməsi də diaxronik formada işarələnir. Birdən (Oğuz xandan) ikiyə (iki xatuna) iki xatundan üçə (hər xatunun Oğuz xandan üç oğlu var) üçdən dördə (hər oğlun dörd oğlu var) enməkdə olan soy ağacı da bu dialektik ardıcıllığı göstərməklə (1+2+3+4) Bayındırın və Qazanın da daxil olduğu genetik kod səviyyəsini aşkarlayır. Mövcud fizioloji prosesi göstərir və hakimiyyət əsaslarını inikas etdirir. Məhz Qazan xanın bu təyini də "amit" şəklində doqquz rəqəmini ifadə etməklə Oğuz kosmoloji strukturunu, bütöv şəkildə oxunmaqla "Amit soyunun aslanı" isə əbcəd hərflərinin rəqəmlərlə hesablanıb numeroloji cəm oxunuşu ilə iyirmi dörd sakral rəqəmini bildirir (hərflərin cəm oxunuşu yeddi yüz doxsan səkkiz (798) edir ki, bu rəqəmləri cəmlədikdə 7+9+8-iyirmi dörd (24) alınır (99, 586 (35) və s. oğuz etnoqonyasını özündə əks etdirir. Klassik ədəbiyyatda buna "müəmma" janrı deyilir. Mətn içində gizlənən müəmmanın (tapmacanın) açılması əsl gerçəkliyi üzə çıxarır. Əski mətnlərdə bu tipli təfəkkür açan qəribə üsullara tez-tez rast gəlinir. Hər halda, Oğuz etnosunun gen və düşüncə kodu olan doqquz və iyirmi dörd rəqəminin eyni təyində cəmlənməsi və bu təyinin eyni anlam daşıyaraq xan öyüncü cərgəsində Oğuz idarəçiliyinin iyerarxik qaydasını bildirməsi təsadüf sayılmamalıdır. Bəs necə olur ki, Bayındır və Qazan yalnız şəcərə baxımından söykəndiyi Gök xan və Dağ xana, onların vasitəsilə də Oğuz xana bağlanan sol qolu (Uçoqları) təmsil etdikləri halda sağ qolu (Bozoqlar) da əhatələmişdir? Bu sualın cavabı yuxarıda əvvəlki təyinlərin izahında öz cavabını tapmışdır. Belə ki, Oğuz iyerarxik sütununu təşkil edən xanlar xanı və bəylər bəyi pilləsi bütünlüklə Oğuz idarəçiliyinin baş sütunu olmaqla Oğuz kosmoqonik və etnoqonik strukturunu özündə cəmləyir. Belə ki, xan öyüncləri də təsadüfi təyin olmayıb, xüsusi dərəcə bildirib, ritual dav-

ranış kodeksi olan titullar kimi şərtlənir. Hətta bu təyini əldə etmək və əldə saxlamaq uğrunda dastan boyu mətn strukturunda Basat-Qazan və s. arasında mübarizə getdiyi işarələnir. Məhz Qazanın bütün Oğuz elinin (Qalın Oğuzun) faktiki başçısı olması, Dış Oğuzun da ona tabe olması onun təyininin bu əsasda mənalanmasını səciyyələndirir.

"Amit soyının aslanı" təyininin amit və soy anlamlarını izah etdikdən sonra "aslan" sözünün etimoloji-mifoloji araşdırmasına da ehtiyac duyulur. Aslan sözü mifoloji tədqiqatlarda və epik əsərlərdə güc, qüvvət, yenilməzlik anlamı işarələyir (100, 29). Elə buna görə də fövqəladə qüvvəyə malik dastan qəhrəmanları mifoloji anlayışın spesifikasına uyğun olaraq ya aslanla döyüşüb ona qalib gəlir, yaxud da döyüşdükləri nəhəng və qorxunc varlıqları aslan adlandırır. Yunan mifologiyasında Heraklın on iki qoçaqlığından birincisi məhz Hemey şirinə (yunanca Leon, türkcə arslan, farsca şir) qalib gəlməsi (58, 91, 92) digər qoçaqlıqları edə biləcəyinin isbatı kimi dəyərləndirilir. Edipin aslan bədənli Sfinks üzərində qələbəsi (16, 325) də əqli qüvvə ilə fiziki qüvvəni əvəzləşdirməni əks etdirəcək gücün, yenilməzliyin bütün situasiyalarda qəhrəmanlar üçün eyni olduğunu göstərir. İran mifologiyası adlandırılıb, əslində, fars mifologiyası olaraq düşünülən, mahiyyətinə görə isə Türk-Oğuz mifologiyasının struktur elementləri ilə zənginləşən bu mövzunun motiv-səviyyəsi başdan-başa türk mifologiyası ilə yüklənmiş Nizami əsərlərində, xüsusilə də Bəhram gur timsalında əks olunur. Bəhram gurun bir oxla gur yeyən şiri öldürməsi, taxta sahib çıxmaq üçün iki qara şir arasından keçərək onları məğlub edib şah tacını götürməsi, gur balası yeyən əjdahanı (Təpəgöz də Oğuz elini yeyir) mağarada görüb (Təpəgöz də mağara qayadadır) öncə nişan alıb oxu ilə onun gözlərini kor etdikdən sonra (Basat da Təpəgözün gözünü çıxarır) onu parça-parça etməsi (76, 62, 64, 65,

66, 67, 84, 86, 87) (Basat da Təpəgözün başını kəsib dəlir və yay kirişinə keçirir) də bu qəbildəndir. DQK-də Qanturalının "Selcan xatunu almaq üçün canvər (canavar)lər ilə döyüşündə "canvərlər sərvəri aslana da qalib gəlməsi" (97, 88-89) Basatın Təpəgöz ilə savaşında "Qağan aslana" dönən Təpəgözü (97, 100) öldürməsi, (Elə Qanturalının yoldaşları da qalib gəldiyi aslana Qağan aslan deyir) (97, 89) eyni səciyyə daşıyır. Həmçinin daha arxaik olduğu da diqqət çəkir. "Aslan üzərində qələbə" motvi mətnlərdə aşkarlandıqca aydın görünür ki, epos (dastan), nağıl, mif qəhrəmanlarının, eləcə də yazılı klassik ədəbi əsərlərdə iştirak edən qəhrəmanların, alpların, ərənlərin, cəngavərlərin və s. bu kimi statusa aid olan surətlərin aslan, əjdaha, div, təpəgöz, kəlləgöz və s. nəhənglər üzərində qələbə çalması əsas etibarilə "Aslan üzərində qələbə" motivini semantik çalarlarla aşkarlayır. Aslana qələbə çalmaqla aslan funksiyalarını aslandan mənimsəmə, onun fövqəladə güc statusunda təzahür etmə, hətta ondan qüvvətli və yenilməz olmaqla qəhrəmanlıq mifi yaratma mətn strukturunda daşınır. Aslan funksiyalarını mənimsəmə qəhrəmanı yeni statusda ortaya çıxarır. Aslana qalib gələn özü aslan olur. Lakin qəhrəmanlıq missiyasında xeyirxah anlamı iştirak etdiyinə görə qəhrəman aslandan yırtıcılığı deyil, aslan titulunu, adın anlamını mənimsəyir. Təsadüfi deyil ki, diqqət çəkdiyimiz örnəklərdə Herakl Hemey şirini öldürdükdən sonra şirin başı olan dərisinə girir (bu həmçinin ritual işarəsidir), Çar Yevrisfey qorxaq olduğuna görə onu Herakla bağışlayır (58, 93). Nizamidə Bəhram şah Bəhram gur olduğu halda, şirləri məğlub edib, onların arasından tacı götürdükdə "aslan basan aslan" adlandırılır (76, 87). Elə Oğuz Kağan dastanında Oğuz Kağanın öküz (buğa) şəkli ilə inikas olunması onun gərgədan və şünqar öldürəcəyindən xəbər verir (110, 12, 13). Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərində asla-

nı bilərəkdən, pələngi isə məcbur olaraq öldürən Tariyeli Aftandil ilk dəfə görərkən "aslan Tariyel" adlandırır (117, 47, 120). Tariyelin pələng dərisi geyinməsi də Heraklın Hemey şirinin dərisinə girməsi ilə eyni motiv təşkil edir. Qağan aslanı öldürən Qanturalı Selcan xatunun dili ilə aslan adlandırılır. "Bəg, yigit, ögünərsə ər ögünsün,- aslandır!" (97, 92). Təpəgözü öldürən Basat isə "Qağan aslan qopan" Təpəgözə anasının Qağan aslan olduğunu deyir (97, 102).

Bu misalların sayını artırmaq da olar. Qazan (Bayındır) xanın "Amit soyunun aslanı" adlanması da eyni funksiyaları daşıyan xanlar xanı və bəylər bəyinin statusunu Oğuz soyunun başçısı olaraq səciyyələndirir. Aslan üzərində qələbə çalan öz adının statusa çevrilməsini əsaslandırır. Bayındır xan savaşlarda ritual ənənəsi olaraq görünmədiyi üçün onun da qəhrəmanlıq şücaətini bu təyinin şərik tərəfi olan Qazan xan özündə cəmləyir. Qazan xanın əjdaha üzərində qələbəsi olmuşdur (60, 98). Elə bunun nəticəsi olaraq da Qazan xan aslanlıq statusundadır, Amit soyunun aslanıdır. Kitabda kafər üzərində qələbə də aslan statusu almaqla nəticələnir (97, 92, 121). Çünki Oğuz düşüncəsinə görə kafər də xtonik məkana daxildir. Elə buna görə də kafərlər adam əti yeyəndir və bu funksiyaları ilə xtonik məxluqlardandır. II boyda Qazan kafərləri "Uruza tanıdaraq deyir ki, kafərlərin "Adam ətin yəxni qılan aşbazı olur" (97, 70). Təsadüfi deyil ki, elə eyni yerdə oğlunu "arslanım oğul" adlandıran Qazan (97, 70) bu status qarşılığında Uruzdan kafərlə döyüşə çıxıb aslanlıq əldə etmək üçün icazə çağrısını eşidir. Uruz deyir:

Güni gəldi, kafər başın kəsdürəyim sənin içün,
Aslan adım saqlardım sənin içün (97, 70).

"Amit soyunun aslanı" olan Qazan oğlunun bu situasiyada aslan statusuna hazır olmadığını, aslan adının ona yük-

sək şərəf daşıdığı üçün ata sevgisi ilə epitet olaraq deyildiyini anlatmağa çalışır:

Sən varası kafər degil,
Qalıqulanı yerimdən mən turayım.
Qonur atın belinə mən binəyim,
Gələn kafər mənimdir, mən varayım...
....Qılıc çalub, baş kəsdügim görgil, ögrəngil (97, 70).

XI boyda isə "Amit soyunun aslanı" statusundan müvəqqəti olaraq (kafər məkanında zindan həyatı sürür) məhrum olan Qazan özü kafər durumunda olur. Çünki onu Uruz kafər zənn edir. O zaman Qazana qalib gələrkən Qazan onu bu statusa layiq görür və kafər durumundan çıxmaq üçün statusunu dəyişib, mənfi aslan görüntüsündən çıxıb, Amit soyunun aslanına çevrilməsi üçün Uruzun aslan statusuna güvənir.

Alpım Uruz, aslanım Uruz,
Ağ saqallu babana qıyma, oğul! (97, 121).

Kafərlərin xtoniklər ilə eyni semantik düzümdə dayanması I boyda da aydın olur. Dirsə xanın xatunu ovdan oğulsuz gəldiyinə görə ona deyir:

Aslanla qaplana bir oğul yedirdinsə degil mana!
Qara tonlu azğun dinlü kafərlərə bir oğul aldırdınsa,
degil mana! (97, 38).

Məhz yırtıcı anlamında aslan və qaplan adının araxasında eyni fikrin assosiativ davamı olaraq kafər adının çəkilməsi bu anlamı təsdiqləyir. Beləliklə, aslan, əjdaha, ilan, təpəgöz və s. xtonik varlıqlar binar oppozisiya təşkil edib kosmos-xaos qarşıdurmasını küfr təzahürü olaraq yaradırlar. Güc funksiyasının onlardan alınıb kosmosa keçirilməsi əbədi qanunauyğunluğu bərpa etmək, tarazlıq yaratmaqdır. IX boyda Bəkilin aslan, oğlu Əmranın isə "aslan əniyi" olmaqla "aslan ənigi yenə aslandır" (97, 106) adlanması, onları da aslan statusuna layiq olmaq üçün xtonik məxluqla – kafərlə Basatın Təpəgözlə sa-

vaşdığı kimi təkbaşına savaşa çıxarır. Bəkil kafər sərhəddində təkbaşına dayanıb bütün kafərlərdən Oğuz elini (onun yeyilməsini) qoruyur. Sərhəddən keçən kafərlərin də başını Oğuz elinə ərməğan göndərir (97, 104). Əmran isə kafərlər üzərinə hücum çəkib qalib gəldikdən sonra aslan statusu almasının görüntüsü olaraq aslan Uruzun sağ yanında yer tutur (97, 109).

Biz Qazanla Basat arasında mətndə kodlaşdırılmış, bəzi hallarda isə aşkar görünən qarşıdurma haqqında bəhs açmışdıq. Özü də bu xan öyüncü təyinləri üstündə də şiddətli şəkil alır. Məhz "Amit soyunun aslanı" təyini də bu qarşıdurmanı şərtləndirdiyinə görə Basat eyni zamanda bütün Qalın Oğuzun "aslanı" iddiasını status olaraq öz üzərinə götürən Qazana xanlığı, xaqanlığı ifadə edən qagan (kağan, xaqan) sözünün və aslan statusunun özünə aidliyini bu ifadələrdə üzə çıxarır:

Atam adın sorar olsan Qaba Ağac!
Anam adın deirsən, Qağan Aslan! (99, 389 (232).

Əlimizdə olan Drezden nüsxəsinin əlyazmasında (fotofaksimile) "te" hərfi ilə misrabaşı birinci söz (atam) "nun" hərfi ilə isə misrabaşı, ikinci söz (anam) yazıldığı üçün bu şəkildə oxuduğumuz bu sözləri M.Ergin (137, 214), O.Ş.Gökyay (140, 113), Ş.Cəmşidov (98, 116) bu şəkildə, H.Araslı, F.Zeynalov, S.Əlizadə isə əksinə oxumuşlar (96, 123; 97, 102). Lakin S.Əlizadə M.Ergin nəşrinə əsasən hazırladığı nüsxədə birinci oxunuşu təqdim etmişdir (99, 93). Örnəkdə anasının ona süd verən aslan olmasını, Qağan aslan kimi şücaətlilik, qızğınlıq qoparan Təpəgözün isə Qağan Aslan funksiyasını mənimsəməsinin qarşısını almağa yönəli igidliyi eyni zamanda Qazana eşitdirməsini və göstərməsini görürük. Maraqlıdır ki, aslan semantik cərgəsində olan Təpəgöz məhz Qazanın dilində qağan aslan adlandığı üçün Basatın Təpəgözdən əslində aslanın deyil, qağanın funksiyasını, statusunu mənimsəməsinə etiraz notları duyuruq. Bu etiraz bu statusu mənim-

səyib aslan üzərində qələbə çalan digər qəhrəmanlara da aiddir. Qanturalının qağan aslan adlanıdırılan nəhəng üzərində qələbə çalması da Basatla şərikliyi ortaya çıxarır (99, 85, 89).

"Qağan aslan" söz birləşməsi VI boyda da, VIII boyda da nəhəng aslan anlamında işlənir. Lakin VI boyda yırtıcı nəhəng, VIII boyda isə Qazanın dilində eyni anlamı, Basatın dilində isə müsbət anlamı ifadə edir. Burada da aslan denotatı eyni, anlamlar isə fərqlidir. Çünki Qanturalı cəmiyyətdəndir, təbiətdən olanlarla döyüşür. Basat isə cəmiyyətdən təbiətə, təbiətdən cəmiyyətə keçid etdiyi üçün təbiətdən olanla özündə doğmalıq görür. Məhz onun adının, funksiyasının cəmiyyətdən olanlar tərəfindən mənimsənilməsi Basata ağır gəlir. Elə bu səbəbdən də yalnız Basat dilində qağan aslan müsbət anlam kəsb edir. Qağan Aslan üzərində gedən mübarizə DQK-də həm də ona görə bu dərəcədə aydın görünür ki, məhz DQK-də ali idarəçilik pilləsi olan xaqan (kağan, qağan) titulu aslana yüklənmişdir. Kitabda xaqanı işarələyən "qamğan", xanlar xanı, bəylər bəyi titulları birbaşa deyil, müxtəlif anlamlarıyla bu titulu işarələyirsə "Qağan Aslan" adındakı qağan sözü açıq şəkildə onu ifadə edir. Qağan (türk transkripsiyasında kağan) sözü M.Kaşqari divanında xaqan (91, 157) Orxon-Yenisey, daha konkret olaraq Orxon abidələrində eyni anlamlı "kağan" sözü olaraq işlənir (113, 53, 70). M.Seyidov da qağanı eyni anlamda işlədir. "Qağan...xaqan, xan deməkdir" (124, 119). Elə bu səbəbdən də Qağan Aslan üstündə mətnüstü, mətniçi və mətnaltı mübarizə getməkdədir. Xüsusilə də Basat və Qazan arasında bu mübarizə çox şiddətlidir. Qağan Aslan ifadəsinin simvolik, məcazi anlamlarıyla birgə məhz bugünki leksikonumuzda şir, aslan mənasında işlənməsi diqqət çəkir. Elə bu günün özündə də şirə, aslana "meşələr şahı" (meşələr qağanı) deyilməsi dilimizdə işləkdir. Halbuki, şirdən böyük və qüvvətli fil kimi heyvan adı bu siyahıya düşmür. Bu da ehtimal ki, arxaik düşüncə

məhsulunun müasir şəkil törəməsidir. B.Abdulla Qağan Aslanın Basatı bəsləyən aslan olmasına, aslan anlamında işlənməsinə misallarla diqqət çəkmişdir (5, 103).

M.Seyidov Qağan Aslanı Basatın atası adlandırsa da, günəşin simvolu olaraq dəyərləndirməsi baxımından diqqətəlayiq müşahidə aparmışdır (124, 45). Öncə onu deyək ki, Qağan Aslanın Basatın anası olması və onu bəsləyən aslanı işarələməsi nə bu fikirlərlə, nə digər mifoloji yanaşmalarla ziddiyyət təşkil etmir. Situasiya baxımından DQK mətnində aslanın Basatı bəsləməsi, funksiya və anlam baxımından sözün araşdırılmasına heç bir əngəl törətmir. Laylar səviyyəsində açıqlanan mətn hətta bir-birinə zidd görünən anlamları, hadisələri, mühiti və funksiyaları bir mətn içində yerləşdirə bilir. Bu baxımdan Qağan Aslanda olan Basatı bəsləmə funksiyası funksiya baxımından, günəşi simvolizə etmək modeli anlam baxımından, aslanlığı və xaqanlığı özündə cəmləməsi və bunun uğrunda mübarizə aparılması situasiya və mühit baxımından bir araya gələ bilir. Basat-Qazan arasındakı iyerarxik qarşıdurmada Basatın "Tülu quşun yavrusu" təyininə Oğuz əhdi mövqeyindən iddialı olması qeyd etdiyimiz kimi "Qalardaqoparda yerim günortac" və günçıxanın Bozoqlara aidliyi ifadəsində üzə çıxırsa, "Amit soyunun aslanı" təyininə də iddialı olması Qağan Aslana ən çox özünün haqqı çatdığı reaksiyası ilə təzahür edir. Qağan titulunun aslana yüklənməsi, Amit soyunun Oğuz soyu anlamı verməsi də bu antipatik psixi və əqli davranışları daha da şiddətləndirir. Beləliklə, Qazan xan, eləcə də Bayındır xan Amit aslanı olmaqla Oğuz soyunun xaqanı mərtəbəsini əllərində cəmləyib, bütün Qalın oğuzun ali səlahiyyətli şəxsləri olaraq səciyyələnir. Elə DQK-nin ifadə planında bu aşkar səviyyədə təsdiqlənir (97, 42, 69) və s.

Biz qeyd etmişdik ki, bu təyin ozan, yaxud katib təfəkkürünün müəmmalı, tapmacavari söz bəzəmələri üzərində qu-

rulmuşdur. Bu fikrimizə semio-oxunuşu da əlavə edirik. Fikri oxumaq üçün nəinki əbcəd əlifbasından və numerologiyadan istifadə olunmuş, hətta hər söz altında başqa bir söz işarələnmişdir. Əgər «amit» sözü ilə Oğuz, aslan sözü ilə xaqan (qağan) işarə edilmişsə, soy sözü ilə də mətndə rast gəldiyimiz, Basatın dilində fəxrlə ünvanlanan "Qaba ağac" ifadəsi işarələnmişdir. Bu ifadə altındakı işarəni açıqladıqda söz aşağıdakı kimi təsnif olunur.

1. İfadə səviyyəsi (Amit soyunun aslanı);
2. İşarə səviyyəsi (Oğuz qaba ağacının xaqanı).

Ən maraqlısı da odur ki, bu işarə – işarə içində işarədir. Çünki ifadə planında olan "aslan" sözü burada epitet olaraq məcazi fikir ifadə edən işarədir. Bu situativ işarə mətndə iki şəkildə özünü göstərir:

1. Açıq işarə;
2. Qapalı işarə;

F.Sössür bu düşüncə və dil aktını "işarənin dəyişkənliyi" adlandırır (126, 156). Bu anlayışla götürdükdə söz birləşməsi aşağıdakı kimi mənalanır:

a) "Amit soyunun aslanı" (açıq işarə).
b) "Oğuz Qaba ağacının xaqanı" (qapalı işarə).

Söz-söz oxunuşda isə işarə bu şəkildə haçalanır:

a) Amit (məkan işarəsi) açıq işarə, Oğuz (məkan və əcdad işarəsi) – qapalı işarə.
b) soy (nəsil işarəsi) açıq işarə, Oğuz (məkan və əcdad işarəsi) – qapalı işarə.
c) aslan (güc (fiziki) işarəsi) açıq işarə, xaqan (dövlət işarəsi) – qapalı işarə.

Hər hərf ayrı-ayrılıqda bir işarə olduğu üçün təyin hərf-hərf yuxarıda diqqət çəkdiyimiz 9-luq və 24-lük say arxetipi kimi üzə çıxaraq Oğuz soyunu işarələyir (əlif, mim, tə, sad, vav, ye, nun, sağərnun (əbcəddə kaf) əlif, sad, lam, nun, ye).

Beləliklə, söz birləşməsinin semantik açımı onun mahiyyətini üzə çıxarır. “Amit soyunun aslanı” ifadəsinin Oğuz soyunun (Qaba ağacının) aslanı (xaqanı) olması mətndə təsdiqini tapır.

“Qaba ağacın” soyu bildirməsi də DQK mətnində konkret nümunələrlə təsdiq-lənir. Özü də onu deyək ki, bir çox leksik vahidlərin, söz anlamlarının daha düzgün, mətnə müvafiq oxunması üçün elə ən əsas mənbə, səhih lüğət DQK mətni özüdür. Dastanın II boyunda Qaraca Çobanı ağaca bağlayan Qazan “Çoban qaba ağacı yerilə-yurdilə qopardıq”dan sonra onun Oğuz soyunun nişanəsi olan, ağacdan gələn xatunun soy davamı olaraq gəlişini simvolizə edən ağac stixiyasını ifadə etməsini və soya söykənməsini gördüyü üçün ona özü ilə getməyə icazə verir (97, 46). III boyda Beyrəyin bacısı Beyrəyin yox olmasını, itməsini soy quruması kimi ifadə edir:

Kölgəlicə qaba ağacım kəsilübdir,
Ozan, sənin xəbərin yoq.
Dünyəlikdə bir qardaşım alınubdır,
Ozan, sənin xəbərin yoq (97, 62).

IV boyda Burla xatun oğlunu ova aparıb itirən Qazana davam edən soyun kəsilməsinə bais tərəf kimi davranır:

Kölgəsicə Qaba ağacım kəsən Qazan!
Yalnuzca oğlum Uruza qıyan Qazan! (97, 77).

Özü də aşkar görünür ki, xatun soy davamiyyətinin bioloji mediatoru kimi situasiyaya reaksiya verir. Ana sevgisi də bədii boylarla mövcud vəziyyəti əks etdirir. Eyni situasiya I boyda ovda oğul itirən Dirsə xana xatunun münasibətində görünür. Lakin burada qaba ağac ifadəsi işlənmir. Ancaq buna baxmayaraq eyni vəziyyəti ifadə edən başqa sözlüklər soy anlamını qabardır:

Yalnuzca oğul görünməz, bağrım yanar...
...Diləg ilə bir oğul güclə buldum,

Yalnız oğul xəbərin, a Dərsə xan, degil mana! (97, 38).

Oğulun tək oğul olması (yalnuzca), diləklə Allah lütfü olaraq doğulması quruyan soyun qarşısının alınmasını bildirir və qaba ağacın soy anlamında işarələnməsini göstərir. Elə Burla xatun və Qazan da Dirsə və onun xatunu kimi oğlunu dilək-niyazla tapmışlar. Burla xatun Dirsə xan kimi ovdan oğulsuz qayıdan Qazana deyir:

Quru-quru çaylara su saldım...
Qara tonlı dərvişlərə nəzir verdim.
Umanana-usanana aş yedirdim,
Ac görsəm, toyurdım,
Didəg ilə bir oğulı güclə buldım,
Yalnuz oğul xəbərin a Qazan, degil mana! (97, 73).

Təkrar situasiya eyni kəlmələr törətdiyi üçün ozan qiraətində spesifik olaraq soylamalar az qala qanunauyğun təkrar səviyyəsində baş verir. Dirsə-Qazan, Dirsə-xatunu, Qazan-xatunu bu məqamda oğul həsrətini bala şirinliyini göstərməklə bərabər, soy davamiyyətini də mexaniki olaraq diqqətə çatdırır.

III boyda Beyrəyin döndü xəbərini ata-anasına verərkən Banıçiçəyin "Qaba ağacın qurımışdı, yaşardı axır!" (97, 66) söyləməsi də, X boyda Əgrək və Səgrəkin anasının Əgrək üçün Səgrəkə "Qaba ağacda tal-budağın qurımışdı, yaşarıb gögərdi, axır!" deməsi də (97, 111) soyu ifadə edir. Qaba ağac bir mənalı olaraq mətn strukturunda ata xaqanlıq və ana xaqanlığın qarşıdurma mərhələsinin epik səviyyədə izləri olaraq görünür. Bütün halda soyu göstərir, soyun kişi cinsinə aidliyini ifadə edir (Qaraca Çobanda ümumsoy ifadə edilməklə qalan boylarda anlam dəyişmir).

1. Qardaşı bildirir (III, X b.)
2. Oğulu bildirir (III, IV b.)
3. Atanı bildirir (VIII b.)

Lakin xatunların eyni zamanda soy keşikçisi kimi çıxış etməsi və soyu oğul, qardaş olaraq qəbul etməsi (əksər halda qaba ağac ifadəsi xatunların və qızların dilindən söylənir) ataxaqanlığın qalib gəlməsi, lakin tam olaraq möhkəmlənməməsi durumunu epik şəkildə işarələrlə üzə çıxarır. Təsadüfi deyil ki, DQK-dəki Burla xatunun prototipi hesab olunan real şəxs Əbülqazi Oğuznaməsində məhz anaxaqanlığın nümayəndəsi olaraq dəyərləndirilir. "Yeddi qız bütün Oğuz elini özlərinə tabe edib çox illər bəylik etdilər. Onlardan birincisi – Sundun bayın qızı və Salur Qazan alpın arvadı Altun Gözəki idi" (60, 107).

Təsəvvür edin ki, bütün Oğuz elinin (Qalın Oğuzun) başçısı Qazan xan olduğu halda və təyinlərin ona məxsusluğuna diqqət çəkilərkən məhz Burla xatunun onun bu hüququnda olduğu barədə bilgi verilir. Bu ya əvvəlki mövcud situasiyadır, yaxud sonrakı qarşıdurma nəticəsidir ki, biz DQK mətnində bunu görmürük. Çünki ozan tərəfindən gərəkli bilinən cizgilər mətnə düşmüş, məlumat yığını isə mətn strukturunda kodlaşdırılmışdır. K.Abdulla da Qazan-Aruz arasındakı çəkişmənin mətnin alt layında bununla bağlı olduğu fikrini irəli sürmüşdür. "Salur Qazan dayısına əl qaldırmaqla qədim cəmiyyət üçün vacib olan bir mərhələni keçirdi, öz elini matriarxatın konkret bir təzahüründən uzaqlaşdırmağa cəhd edirdi" (6, 8).

Biz Qaraca Çobanın qaba ağaca söykənməsini soy anlamında bildirməklə heç də yanlışlığa yol verməmişik. Oğuz xatununun göl ortasında ağac koğuşunda Allah müjdəsi olaraq göndərilməsi (110, 14-15) məhz Oğuz soyunu davam etməsi anlayışını bildirir. Bu səbəbdən də ağac anlayışı müəyyən situasiyada xatunu işarələsə də, soy situasiyasında onu deyil, Oğuz xanı, Oğuz qövmünü və Oğuz soyunu qaba ağac olaraq ifadə edir. Bu baxımdan Basatın qaba ağaca əcdad işarəsi olaraq ata deməsi Oğuz xanı işarələyir. Ağac koğuşunun Oğuz soyunun törənməsi üçün yardımçı funksiya rolunda olması

ağac stixiyasının xatuna deyil, Oğuz xana bağlanmasını şərtləndirir. Elə Qağan Aslan da Basatı bəsləyən aslan anlamında işarələnməklə bərabər Bozoqların anası olan, gün işığı ilə Oğuz xana Tanrı tərəfindən göndərilən xatunu işarələyir. Axı M.Seyidovun yazdığı kimi, "Qağan Aslan"ın günəşi bildirməsi (124, 45) işığı, şüanı işarələməklə Oğuz xanın şüa içində gələn xatununun göstəricisidir. Nəzərə alsaq ki, Basat da Bozoqlardandır, onda hər şey aydın olur. Təpəgözə soyu haqqında bilgi verən Basat əcdadının Oğuz xan (Qaba ağac), ulu nənəsinin şüa içində gələn xatun (Qağan Aslan) və eyni anlamın situasiyada təkrarı olaraq onu bəsləyən aslan olmasını bildirir. Biz "əmət soyun"nun Oğuz soyu olmasını əsaslandırmışıq. Qaba ağacın və Qağan Aslanın da Oğuz və onun soyu anlamında işlənməsi situasiyaya görə müxtəlif şəkillərdə görünsə də, "Amit soyının aslanı" təyininin bu anlamı ifadə etməsi aşkar görünür. Təsadüfi deyil ki, B.Ögəl diqqət çəkdiyimiz kiçik mətndə (kontekst) Basatın Təpəgözə cavabında soyunu bildirməsinin vacibliyi baxımından Oğuz adınını bu soylamadan keçməli olması qənaətinə gəldiyi üçün, bunun qaba ağacda işarələnməsini, ya diqqətli olmadığından, yaxud da qəbul etməməsindən dolayı əlyazmaya əl gəzdirərək "Mənim adım sorarsan, Aruz oğlu Basatdır" (99, 389/232) əvəzinə, "Mənim adım sorar isən Oğuz oğlu Basatdır" kimi oxuyur və Aruz yerinə Oğuz oxumanın əlyazma ilə uyğun olmadığını fərq edərək M.Erginin oxuması ilə fərqli oxunuş təqdim etdiyini göstərir (112, 103). Bu yerdə onu da aydınlaşdıraq ki, qaba ağac Basat nitqində Oğuz olaraq, digər örnəklərdə isə Oğuz soyu olaraq anlam tapır. "Amit soyının aslanı" təyinində qeyd etdiyimiz kimi "amit" sözü Oğuz işarəsini daşıdığı üçün qaba ağac Oğuz soyu olaraq "soy" sözünün işarəsi durumunda olur.

DQK-də Qaba ağac birləşməsinin birinci tərəfi olan "qaba" sözü işlənmə məqamına görə böyük, kobud, uca və s. bu

kimi anlamlarda diqqət çəkir və Qaba ağac anlamının açıqlanmasına şərait yaradır. İlkin olaraq onu qeyd edək ki, qaba ağac sözünün sadə tərəfi kimi bu söz sakral anlayış cərgəsinə daxil olur, ozan tərəfindən bu ifadənin az qala bütün boylara salınması və müxtəlif anlamlar daxilində leksik dinamikası bundan xəbər verir (97, 37, 38, 41, 46, 48, 50, 52, 59, 62, 66, 67, 70, 71, 77, 91, 102, 111, 114, 117 ) və s. Böyük, uca mənasında: "köksi gözəl qaba tağ" (97, 38, 71), "Kölgəlicə qaba ağacın kəsilməsün" (97, 41, 50, 67, 78), "Qaba ələm götürən xanımız, – Bayındır xan!" (97, 102, 114), möhkəm, kobud mənasında: "Qaba dizinin üzərinə çökdi" (97, 52, 94) ,"Qaba sarıq götürdi, yerə çaldı" (97, 59) , "...qaba qarın gen köksdə oynadam sənin içün" (97, 70), "Yüksək-yüksək qara tağdan daş yuvalansa, qaba öncəm oyluğum qarşu tutan Qazan ər idim" (97, 117), "Qaba-qaba bəglər oğlı qovğa qılsa..." (97, 117) və s. anlamda işlənən qaba sözü qeyd etdiyimiz kimi ağacı, dağı, bəzən başqa anlamları özündə cəmləyir. DQK əlyazmasında qab qayalar sözünün də əslində qaba qayalar olması, ritmik-melodik ozan oxunuşu nəticəsində fonetik itkiyə məruz qalması da bu sıraya əlavə oluna bilər (99, 429 (192); 97, 91).

Qaba ağac ifadəsinə gəlincə mənasına görə uca, möhkəm, böyük ağac olan qaba ağac işlənmə situasiyasına görə dünya ağacı, həyat ağacı, Oğuz, Oğuz soyu anlamında işlənir, semantik lay təşkil edir. Qaba ağacın həyat ağacı anlamında işlənməsi də (124, 45) soy anlamında işlənməsini əsaslandırır. Çünki kosmoqonik, etnoqonik mifoloji dünya modelinin ifadəsi olan həyat (dünya) ağacı elə törəmə aktını səciyyələndirir (112, 103, 106). Elə Basatın da qaba ağacı soy ağacı olaraq dəyərləndirməsi DQK mətnində anlam olaraq üzə çıxır, "Atam adın sorar olsan, Qaba Ağac" (99, 389 (232).

DQK laylarının çoxunda (12 boydan 7-də) kölgəlicə Qaba ağacın kəsilməsün" ifadəsi ilə diqqət çəkən ozan yumu

ritual davranış forması kimi soyun qurumaması anlamında alqış, dua ayinidir. Təsadüfi deyil ki, yuxarıda diqqət çəkdiyimiz örnək-lərdə öncə qaba ağacın kəsilməsindən və quruma-sından, oğul (qardaş) qayıdandan sonra yenidən yaşarmasından söhbət gedir (97, 62, 66, 111).

Elə Bayındır xanın qaba ələm götürməsi də (ələm burada bayraq) Oğuz hərbi gücünün nümayiş olunmasında Oğuz soyunu ifadə edən bayrağın Bayındır xan gedən ön hissədə götürülməsi (aydındır ki, bayrağı tutan Bayındırın yanında gedən bayraqtutandır) Bayındır xanın götürməsi kimi işlənərək soy anlamında olduğunu bildirir. Soyu bildirən bu hərbi simvolik ənənə F.Sumərin diqqətindən yayınmamışdır. O, "Oğuzlar" əsərində yazır: "Toğrul bəyin 1038-ci ildə Nişapura girərkən qolunda gərilmiş bir yay, belində isə üç ox vardı. Bunlar hər halda onun özünü boz-ox və üç-oxun, yəni bütün Oğuz elinin hökmdarı saydığının ifadəsidir" (127, 210, 211).

Oğuz kağan da bayrağını başı üstündə tutub" gedir (110, 18).

Qaba ağacın məna baxımından ağac, anlam baxımından isə simvolik ifadə tərzi DQK mətni tərəfindən təsdiqlənir. IV boyda ağacla söyləşən Uruz ona heç bir yerdə qaba ağac demir (97, 48). Halbuki bu məna yalnız ağac anlamında işlənməli olsa idi bu situasiyada bu ifadənin deyilməsi vacib olardı. Məhz bu situasiyada ağaca soy anlamında müraciət edilmədiyinə görə ona qaba ağac deyilmir. Lakin bu araşdırmadan o da aydınlaşır ki, qaba sözü ağac sözünün epiteti olaraq ona qoşulub söz birləşməsi yaradır. Əslində soyu bildirən ağac anlamıdır. Qaba sözünün mənasının müxtəlif şəkillərini yuxarıdakı örnəklərdə göstərmişik. Elə soyu ifadə edən nəsil şəcərəsi də ərəb sözü olaraq soy ağacı anlamını verir (Nəsil-soy, şəcərə-ağac). Bu baxımdan qaba ağacın möhtəşəm Oğuz soyunu bildirməsi yuxarıda diqqət çəkdiyimiz kimi "Əmət so-

yının aslanı" ifadəsinin oxunuş şrifti olaraq mətndə gah gizli, gah da aşkar şəkildə yan-yana, iç-içə və qarşı-qarşıya durur.

Beləliklə, Qazan və Bayındıra aid olan "əmət soyının aslanı" təyini Oğuz mifinin paradiqması kimi invariant strukturdan qopan struktur törəməsi olaraq epik mətndə sabitləşən status göstəricisi qismində ortaya çıxır. Bu paradiqmanın invariant modeli və arxetipləri olaraq Oğuz Kağan dastanından analoji variantları təqdim edək:

I. "Amit soyının aslanı" Oğuz soyunun xaqanını işarələməklə "kağan" arxetipinin, soy üzərində qurulan kosmoloji strukturunun və ad sematemi olaraq əcdad işarəsinin paradiqması olaraq aşkara çıxır:

a) Oğuz (ad) ata, ilk insan, əcdad və s.

b) Oğuz (soy) boy, etnos və s.

c) Oğuz (aslan) xaqan olaraq;

II. Aslan üzərində qələbə çalıb xaosda olanı kosmosla əvəzləmək motivinin Oğuz Kağan arxetipi.

a) Oğuz gərgədanı və şunqarı öldürüb üç funksiyada iştirak edir:

1. Soy törədir (6 oğulla kosmos ifadə olunur).

2. Kağan olur (kosmosun vahidliyini qoruyur).

3. Öküz olur (gərgədan və şunqar öldürüb öküz statusu əldə edir).

III. Oğuz mifinin arxetipi kimi ağac paradiqması (ağac koğuşundan olan xatunun etnoqonik yardımçı funksiyası).

a) Basat atasına qaba ağac deyir;

b) Qaraca Çoban qaba ağacı çiyninə yükləyir;

c) Beyrək, Uruz Oğuz soyu anlamında kəsilmiş qaba ağac olur, sonra yenə pöhrə tapır və s.

IV. Oğuz mifinin soy paradiqması və soy arxetipi:

a) Oğuz, xatunları, oğulları nəvələri (kosmoqonik və etnoqonik işarə).

Beləliklə, Qazan xanın "Amit soyunun aslanı" olması təyini də onu Oğuz mifinin paradiqması kimi səciyyələndirir.

### 5. Qaracuğın qaplanı

Qazan xan obrazının mifoloji strukturunun aydınlaşdırılması baxımından "**Qaracuğın qaplanı**" semantemi ciddi informasiya verir. Təhlil göstərir ki, bu struktur vahidi ilk növbədə məkan və rütbə işarəsidir. DQK mətnində coğrafi-inzibati Oğuz məkanını və ali statusu inikas edir.

"Qaracuğın qaplanı" təyini əksər oxunuşlarda eyni şəkildə olub mübahisəsiz qəbul olunur. Lakin təbii olaraq anlama münasibət fərqlidir. Əsasən də Qaracuq və qaplan sözü ayrı-ayrılıqda götürülərək araşdırmalara cəlb olunmuş, ən müxtəlif iddialar irəli sürülmüşdür. Qaracuq sözü DQK-də üç dəfə işləndiyi yerdə məhz Qaracuğın qaplanı söz birləşməsini ifadə etdiyi üçün Qaracuq sözünün araşdırılması elə eyni anlamı əsaslandırmağa xidmət etmişdir. Qaracuğu toponim olaraq qəbul edən tədqiqatçılar əksərən dağ anlamında Qaracuq dağı anlayışını ifadə etdiyini bildirmiş, lakin bu dağın hansı ərazidə yerləşdiyi barədə yekun fikrə gəlməmişlər. Z.Gökalp dağ olduğunu qeyd etmiş, eyni adlı dağın Mosul yaxınlığında da olduğunu bildirmişdir. Xüsusən də bu dağların Türkmənistanda yerləşən Qaracuq dağına bənzədiyinə görə bu adı aldığını qeyd etmiş, E.Rossi də bu fikri dəstəkləmişdir (100, 170; 107, 171). Bundan əlavə Qaracuq dağın Xorasan vilayətində - Bəlxdə (M.F.Qırzıoğlu) Cənubi Azərbaycanda (H.Araslı) da yerləşdiyi barədə tədqiqatçılar bilgi vermişlər (100, 171; 107, 171). M.Kaşqari lüğətində Qaracuq dağı Çebeli-Qaracuq adı ilə göstərilmişdir (100, 171). Eyni zamanda Kaşqari Qaracuğun Oğuz şəhərinin adı olduğunu söyləmişdir. "Karaçuk: Fərab şəhərinin adı: Bu Oğuz şəhərlərindən biridir" (100, 469).

Əbülqazi Bahadır xanda da Qaracıq olaraq (bu yazılışda vav (u) səsi yoxdur (99, 416 (205) dağ anlamında "Qaracıqtaq kimi işlənmişdir" (60, 75). F.Sümər Z.V.Toğana istinadən onun örnək göstərdiyi Ş.Ə.Yəzdinin "Zəfərnamə" əsərində Karacuk (Qaracuq) dağından söhbət getdiyi və bu dağın M.Qaşqarinin və Ə.Bahadır xanın bəhs etdiyi eyni dağ olduğu, sonra isə adının Kara tay adlandırıldığı barədə bəhs açır (127, 55, 56).

T.Hacıyev Qaracuq dağını Qarabağın indiki Xocavənd ərazisindəki dağ silsiləsi olaraq göstərir (80, 7). Eyni zamanda müəllif "Qaracuğın qaplanı" təyinini sistematik olaraq götürərək bu təyində Qazan xanın atasının və Bayındırın adları ilə yanaşı Qaracuq Çobanın adının da bəylik alandan sonra ən qüvvətli şəxs olaraq bu sistemə daxil olduğu və Qazan xanın ondan da üstün olduğunun işarəsi olaraq "Qaracuğın qaplanı" olması qənaətinə gəlir (80, 32).

S.Babayev, N.Babayev Qaracuğun Naxçıvan şəhərinin cənubunda qədim kənd olduğunu və təyinin bu kəndlə bağlı olduğunu iddia edir (100, 171).

F.Sümər ərəb coğrafiyaşünası, səyyah əl-İstəxriyə istinadən Qaracuğun (Karaçuk) "Sır-dərya çayının orta yatağındakı Fəraq olduğu fikrini irəli sürür və XI əsrə qədər Fərağın Karacuk adı daşıdığını qeyd edir" (127, 54).

Bizim fikrimizcə, Qaracuq sözünün toponim və hidrotoponim olaraq görülməsi (dağ, kənd, şəhər, çay sahili) və s. anlayışlar konkret br məkanı deyil, bütün Oğuzu (DQK-də Qalın oğuzu) modelləşdirir. Hətta M.Kaşqarinin Qaracuğu oğuz şəhərlərindən biri hesab etməsi şəhər anlayışından daha çox Oğuz adını proyeksiyalandırıb, Qaracuğun Oğuza aidliyini diqqətə çatdırmaq istəyindən irəli gəlmişdir. Nəzərə alsaq ki, "təxminən X əsrin sonu, XI əsrin birinci yarısından qədim "Oğuz" etnoniminin əvəzinə daha çox Türkmən adı istifadə olunurdu" (150, 5), o zaman M.Kaşqarinin 1072-1074-cü illərdə yazdığı

“Divani-lüğətüt-türk” əsərində nə üçün oğuz adına bu şəkildə diqqət çəkilməsinin gerçək mahiyyəti aydın olur.

Qaracuq dağının Oğuz ölkəsinin ümumi adını ifadə edən onomastik vahid olaraq işlənməsi xan öyüncü təyininin spesifikası baxımından da özünü doğruldur. Belə ki, Qazan xan “Ulaşın oğlu, doğan günəşin yavrusu, miskinlərin umudu, Oğuz soyunun aslanı, Oğuz ölkəsinin qaplanı, Qalın Oğuzun dövləti” və s. dir. Əgər “Oğuz soyunun aslanı” təyinində Oğuz etnosu ifadə olunubsa və Qazan (Bayındır) onun xaqanı olaraq götürülübsə, “Qaracuğın qaplanı” təyinində Oğuz məkanı eyni funksiya ilə göstərilib. Əgər aslan və qaplanın eyni semantik cərgədə durduğunu qəbul etsək, təyinlərin anlam baxımından yaxın olması bizə aydın olur. Bu yaxınlıq digər təyinlər arasında da özünü göstərir. “Bezə miskin umudı” təyini ilə “Qalmış yigit arxası” təyinlərinin status və funksiya yaxınlığı göz qabağındadır. T.Hacıyev bu anlam yaxınlığını “məzmun yaxınlığı” adlandırır (80, 31). M.Kaşqarinin Çebeli-Qaracuq (Qaracuq dağı) adını ölkə adı olaraq dəyərləndirməsi onomastik qaydalarla ziddiyyət təşkil etmir. Dağ adının yurd, ölkə adı olaraq işlənilməsi ənənəvi olaraq işləkdir. Altay ölkəsi, Qafqaz, Skandinaviya və s.

Epik mətndə Qaracuq dağının hansı dağ olması tələb olunan deyil. Hətta ola bilər ki, bir neçə dağ semantik olaraq bir dağ adı altında birləşsin. Məna baxımından daha uca, zirvəli dağları ifadə edən anlam alçaq dağ adında daşına bilməz. Eyni zamanda situasiya baxımından alçaq dağ və təpələri ifadə edən söz alçaq dağların adı ilə epik mətnə daşınır. Əgər DQK mətninin status və situasiya tələbatı Qaracuq dağının yerini müəyyənləşdirmək məcburiyyəti yaradarsa, o zaman Qaracuq dağı rütbə təyini ifadə etdiyi üçün gündoğanda olmalıdır. İfadə planında bu daha yüksək, gözəl, işıqlı anlamları əks etdirirsə, əvvəldə qeyd etdiyimiz kimi mətnaltı kod səviy-

yəsində daha şərəfli mənsəb olan hakimiyyət mövqeyini, iyerarxik üstünlüyü özündə gizləyir. Bozoq-Uçoq yer bölgüsünü Uçoqların xeyrinə gündoğana köçürür. Elə Əbülqazi Oğuznaməsində Qaracuq dağ Oğuz məkanının güneyində göstərilmişdir ki, günlə bağlılıq və doğuya (şərqə) meyllilik gərəyindən oğuz epik ənənəsində eyni anlam daşınmışdır (60, 75).

B.Ögəl hətta Əbülqazi Oğuznaməsindən çıxış edərək Qaracuğu güneydən alıb doğuya (şərqə) keçirmişdir "Oğuz elinin şərq tərəfi (kün toğuşı): İssıq göl, Almalıq və çevrəsi, Sayram, Qazqurt dağı, Qaracıq dağı, Quzeyi: (təmir qazuğu): Uluğ dağ və Kiçik dağ. Kün batışı: sır suyunun ayağı, Yanqqı kənd Qaraqum" (112, 240, 241). Aşkar görünür ki, B.Özəl güneyi də doğu ilə birgə götürərək digər cəhətləri şimal və qərb göstərmiş, Qaracuq dağını birmənalı şəkildə gündoğanda görmək istəmişdir. Ola bilsin ki, müəllif DQK mətninin epik tələbatından çıxış etmişdir.

Biz Qaracuq dağın gündoğanda olmasını mərkəzi mövqe baxımından qəbul edir, lakin bütün Oğuz məkanını işarələyərkən buna ehtiyac görmürük. Qazan xan Qaraqcuq dağının qaplanı olmaqla onsuz da hakim iyerarxiya təşkil edir. Sadəcə olaraq seçilən bir dağ silsiləsi vardırsa, bu hökmən gündoğanda yerləşən dağın epik mətndə klişeləşəcəyindən xəbər verir. Elə örnəklər də belə olduğunu təsdiq edir. DQK-də Qazan xanın Gürcüstan ağzında oturması (97, 42), yurdunun bu ərazidə yerləşməsi də DQK-nin Oğuz məkanında Qazandağın, Qazangöl gölünün, Qazangöl düzünün və Qazanlının şərqdə, yaxud şərqə tərəf çox meylli olması da bunu təsdiq edir (100, 338-39).

Məqsədyönlü olaraq "Qaracuq" sözünün etimoloji cəhətdən araşdırılmasına da ehtiyac var. Qaracuğ-Qaracuq-Karacuq kimi müxtəlif türk-oğuz-uyğur transkripsiyasına görə adlanan eyni sözün oxunuşu özündə maraqlı mətləblər saxlayır. Belə ki, qara sözü lüğətlərdə müxtəlif anlam daşımaqla bərabər rəng

ifadəsindən əlavə, yaxud rəng simvolikasının semantik anlamı olaraq həmçinin "böyük" mənasında da işlənir (100, 169). Daha doğrusu, ilkin mənası böyük olmuş, sonra digər sözlər kimi funksionallaşıb müxtəlif anlam qazanmışdır. DQK mətni lüğət olaraq bu məna və anlamları da özündə əks etdirir. Böyük, uca mənasında Qaradağ (oronim) (100, 61) Qarabudağ (antroponim) (100, 67), Qara dəmir (hidronim) (100, 70), Qara buğa (zoonim) (100, 85), Qaracuq (toponim) (100, 73) və s. bu kimi sözlər "qara" sözünün böyük mənasında işləndiyini təsdiq edir. Eləcə də Qaracuq sözü toponim olaraq Qara (böyük) və cuq sözlərinin birləşməsindən əmələ gələn mürəkkəb sözdür. Çünki "qara" böyük anlamını verdikdə cıq, cuq şəkilçisinin ona qoşulması dil faktı olaraq mümkün deyil. "Cuq" şəkilçisi düzəltmə isim əmələ gətirən şəkilçi olaraq (cıq, cik, cuq, cük) kiçiltmə, əzizləmə anlayışını törədir. Misal üçün kiçicik, körpəcik və s. demək olar, böyükcük, yekəcik və s. kimi müraciət etmək olmaz. Elə bu səbəbdən də Qaracuq sözündə işlənən "cuq" sözünün DQK mətninə birbaşa aidiyyatı olaraq uçuk, ucuk sözünü ifadə etdiyini Qaracuq-Karacuk deyil, məhz Qara uçuk, yəni böyük uçuk anlamında olduğunu ehtimal edirik. Uçuk, ucuk sözü Uçoq kimi tanıdığımız Oğuz tayfasını ifadə edir. H.Araslının 1939-cu ildə latın əlifbasında nəşr etdirdiyi "Kitabi-Dədə Qorqud" dastanında bu söz elə Qaracuq kimi deyil, Qara Coq kimi yazılmış, Qara Uçoq sözünə daha yaxın söz oxşarlığı özünü göstərmişdir (95, 31). Uçoq sözünün uçuk, ucuk, bozoq sözünün isə buzuq, buzuk kimi işlənməsi şifahi və yazılı örnəklərdə təsdiqini tapır. Oğuz Kağan dastanında DQK-də Bozoq kimi işlənən tayfa Buzuk olaraq ifadə olunur. "Sağ yanda buzuklar oturdu" (110, 33). Əbülqazi Bahadır da Uçoqları "uçuklar", Bozoqları "buzuklar" olaraq tanıdır (60, 65). Qara uçuk (q) ifadəsinin qaracuq (k) şəklinə düşməsi göz qabağındadır. Şifahi nitqdə fonetik səs itkisi (iki saitin yanaşı

gəlməsində biri düşüb) və “c”-nin “ç”-yə, q (k)nin “ğ”-yə çevrilməsi bəsit fonetik qanunauyğunluqdur. Dissimilyativ və assimilyativ qaydalar sözlərin bu şəkildə dəyişməsini əsaslandırır. Həmçinin yazılı mətndə Qaracuq sözünün Qaracuğa çevrilməsi, q-ğ dəyişikiliyi kimi fonetik xüsusiyyət ismin yiyəlik, yönlük və təsirlik hal qəbul etməsində özünü göstərir. Diqqət çəkdiyimiz nümunədə məhz bu linqvistik qayda qüvvədədir. Çünki bu söz yalnız epik şəkildə, eyni təyini bildirmək üşün işlənir. Bəs nə üçün bu söz məhz böyük anlamında qaradır və ucuklar niyə böyük ucuq hesab olunur? Biz dəfələrlə söyləmişik ki, Uçoqların sağ qolu, hakim əsası Bozoqlardan mənimsəməsi DQK-də dastan boyu müxtəlif şəkillərdə özünü göstərir. Xüsusilə də diqqət çəkdiyimiz təyinlər ali statusu və hakimiyyət mövqeyini təmsil etdiyi üçün bu təyinlər üstündə tayfalar arasında açıq və gizli mübarizə gedir. Uçoqlar məhz hakim mövqelərinin qanunauyğunluğunu göstərməyə çalışırlar. Bütün hallarda sağda Uçoqlar, solda Bozoqlar oturur (97, 52, 68). Gündoğanın və Ala dağın onlara məxsusluğu əsaslandırılır (97, 42, 123). Sanki Uçoqlar (Qazan-Bayındır) törə və əhd qaydalarına uyğunluqlarını sözlü-sözsüz, psixi-mimikal səviyyədə əsaslandırmağa çalışırlar. Məhz bu davranış təzahürünün bir tərəfi kimi - özü də çox əhəmiyyətli tərəfi olaraq, Uçoqlar böyük adlandırılır. Əslində onlar böyük deyil, kiçikdir. Hətta Rəşidəddin Oğuznaməsində Oğuz yabqularının (hakimlərinin) arasında yalnız Eymur boyundan yabquların çıxdığı, qalanların isə Bozoq tayfasının dörd məlum boylarından olduğu bildirilir. “Oğuz soyundan olan padşahlar beş övladın törəmələridir: Kayı, Yazır, Eymur, Avşar və Begdili. Padşah yalnız bu boylardan olmuşdur” (115, 60). Aydın olur ki, DQK-də nəinki Bozoqların, hətta Uçoqların hakim qolu olan Eymur boyundan olan hakimlərin hüququ da epik mətndə, eləcə də eposda (epos həm də mərhələli tarixdir) pozulur. Çünki Bayındır və Qazan

Uçoqların başqa boyundandır. Daha doğrusu, boy əcdadlarıdır. Elə bu baxımdan da Qaracuq dağı doğuda görünür, Qara Uçuq isə bu dağın adında öz böyüklüyünü əsaslandırır. Əslində isə Qaracuq dağ deyil, Qara Uçuq olaraq Oğuz boy birləşməsidir, iki tayfadan biridir. Lakin dağ assosiasiyası həm bu adın şərəfini yüksəldir, həmçinin Oğuz düşüncəsində eyni anlam daşıyan mənaları məqsədə doğru yönəldir. "Qaracuğun qaplanı" olmaq dağın deyil, Qara Uçukun qaplanı olmaq mənasında da işləkdir. Qaplanın dağda yerləşən sıx meşəliklərdə mövcud olan zooarealı assosiativ qaplan adının yanaşı gəlməsində assosiasiya törədir. "Qaracuğun qaplanı" həm Qara Uçukun, həm Qaracuq dağının qaplanı anlamını daşıyır. Elə DQK-də Qaracuq sözü üç dəfə işlənməsiylə soy arxetipi olaraq Uçoqların "üç" sayını işarə edir. Sözün son hecası isə yerini dəyişərək tərsinə oxunur, Qaracuq Qaraquc olur. Bu silsilə psixi-assosiativ daşınıb, Qaracuq sözünün ona oxşar şərəfli yer adını variativ şəkildə təfəkkürdə assosasiya etməklə bu adın ucalığını Qaracuq adı ilə eyni anlamda şüuraltı və mətnaltı təbəqəyə yerləşdirir. Hətta Qaracuq olmasa belə, Qaraquc uca yer anlamını mexaniki olaraq bu anlamın onunla əlaqələnməsini şərtləndirir. Çünki qeyd etdiyimiz kimi, qaplan sözü dağ anlayışını yaddaşda canlandırır ki, Qaracuğun və yaxud Qaraqucun qaplanı ifadəsinin qulaq informasiyası fərqinə varılmayan Qara Ucuqların hakim olduğu, qaplan kəsildiyi böyük, uca dağ anlayışını düşüncəyə yerləşdirir. Halbuki mətndə Qaraqucun qaplanı ifadəsi yoxdur, "Qaracuğın qaplanı" ifadəsi vardır. Ancaq buna baxmayaraq şifahi nitqdə Qaracuq-Qaraquc deyilişi eyni anlamlar olaraq dinləyici yaddaşına yüklənir. Çünki yalnız sözlər deyil, anlamlar da yaxındır. Qaraquc və Qaracuq dağ, zirvə olaraq bu anlamı sabit fikir tərzinə çevirir. Hətta biz deyərdik ki, Qaraquc dağ anlamında DQK-də özünü göstərir. Belə görünür ki, Qaraquc I boyda adı çəkilən Qazlıq (Qazılıq) dağının

zirvəsidir. “Qaraqucda qazlıq atlar” ifadəsi (97, 73, 92, 123, 124, 125) “Yelisi Qara Qazlıq atlar” (97, 38, 72) ifadəsi kimi də Qazılıq dağının atları anlamında mətndə işləkdir. Bu baxımdan Qaraqucda qazlıq atlar deyilərkən Qazlıq dağının zirvəsində olan atlar nəzərdə tutulur ki, bu da assosiativ şəkildə dağ, zirvə anlamını Qaracuğun qaplanı təyininə bağlayır. Eyni zamanda zooloji assosiasiya ilə at-qaplan rabitəsi yaradıb Qaracuq dağının qaplanı anlamını təkrar-təkrar yaddaşda bərpa edir. Elə Qaraquc sözü yer (toponim) olaraq işləndiyi kimi at anlamında (zoonim) da işlənir. “Qaraquc ata binənlər” (97, 72), “Qaraqucun qulağı görünməz olsa” (97, 117) DQK-nin müqəddiməsində işlənən “Qarağuca qıymayınca yol alınmaz” (97, 31) (Qarağuc atını incitməyincə yol getməz) və s.

Qaraquc XII boyda Beyrəyin dilində yer adı kimi səslənir. Aruz Beyrəyi Qazanın yerləşdiyi məkandan öz yanına çağırır. Əvvəldə qeyd etdiyimiz kimi Qazan yüksəkdə Ala dağda (97, 123) Aruz isə alçaqda-düzdə yerləşir. Şaquli binar oppozisiyada dayanan xaotik tərəfə – Aruza Beyrək onu aldadıb gətirdiklərini söyləyərək:

Aruz, mana bu işi edəcəgin bilsəydim,
Qaraqucda Qazlıq atuma binərdim” (97, 124) deyir.

Bu situasiyada Qaraquc yüksək yer adı anlamını daşımaqla bərabər Qazan xanın yerləşdiyi məkanı işarələyir. Hətta biz deyərdik mətnaltı lay səviyyəsində Ala dağla Qaraqucun eyni semantik düzümdə durmasından əlavə eyni ərazidə yerləşən dağ silsiləsi (oronim) olmasını özündə saxlayır. Bu silsiləyə Qazlıq dağı da aiddir. DQK-nin VII boyunda adı keçən Qazılıq qoca Bayındırın vəziri və İç Oğuzdan olmasıyla ad semantemi ilə Qazlıq dağının Qazan xanın yerləşdiyi əraziyə yaxın olmasını mətn strukturunda işarələyir. Beləliklə, DQK lüğəti Ala dağın və Qazlıq dağının dağ, Qaraqucun dağ zirvəsi olduğunu göstərir (97, 31) və qeyd etdiyimiz şəkildə

"Qaracuğın qaplanı" təyininin dərəcəsini yüksəltməyə xidmət edir, Qazan və Bayındırın Qara Uçuğun qaplanı olmaqla ən uca pilləni tutduqlarını işarələyir. Salur boyunun tamğa işarəsi də Oğuz xanın ağac koğuşundan çıxan xatunu vasitəsilə Uçoq tayfasını törətməsini işarələyib ağac stixiyasını rəmzləndirir. Ağac içarəsi təsiri bağışlayan bu işarə (𐰲) (60, 71) öz gövdəsi ilə Oğuz xaqanı, budaq hissəsi ilə Uçoq tayfasının üç əcdadını (Göy xan, Dağ xan, Dəniz xan) modelləşdirir. Salur boyunun Uçoqdan olması məhz bu işarənin dediyimiz anlamda olduğunu təsdiqləyir. Əgər Salur boyu Bozoqdan olsa idi təbiidir ki, tamğa işarəsi fərqli olacaqdı. Ən maraqlı da orasındadır ki, Uçuq adının ilk hecasını təşkil edən uç, uc səslərinin Salur boyunun etnik-sosial səviyyədə modelləşməsində ciddi şəkildə iştirak etməsi mənbələrdə diqqət çəkir. Belə ki Salur boyunun tamğa işarəsi eyni şəkildə Orxon-Yenisey əlifbasında işlənərək "ç" səsi ifadə edir və "iç" kimi oxunur (113, 38).

Yazıçıoğlunda Salurun onqonu uç, uc adı ilə tanınan quşdur (100, 234). Salur boyunun digər üç boyla sümük hissəsi isə "uc (ayla adlu)" adlanır (100, 234).

Məhz Qazan xanın yerləşdiyi məkanın Qaraquc olması da sözün sonuncu hecasının "quc" şəklinin uçuq, ucuk ifadəsinin ilk hecası ilə eyni şəkil törəməsi Qaracuq-Qarauçuk qaplanı ilə Qaraquc məkanı anlayışları arasında Qazan xan keyfiyyətlərini ifadə edən etiket formulları təşkil edir.

Qaplan sözünün etimoloji açımına ehtiyac yoxdur. Qaplan pişikkimilər fəsiləsindən yırtıcı məməli heyvan olan bəbirdir (27, 131). Bu barədə mübahisə də əhəmiyyətsizdir. Lakin bu sözün semantikasını araşdırmağa ehtiyac var. İlkin olaraq biz onu görürük ki, DQK-də qaplan aslan sözünün eynimənalı tərəfi kimi semantik-assosiativ formada yanaşı işlənir. "Aslanla qaplana bir oğul yedirdinsə, degil mana" (97, 38), "Nə biləyin,

oğul, arslandanmı oldı, yoxsa qaplandanmı oldı?" (97, 39), "Amit soyının aslanı", "Qaracuğın qaplanı" (97, 42, 63, 95), "Ağqayanın qaplanının erkəgində...aq sazın aslanında bir köküm var" (97, 118). Bu baxımdan yuxarıda "Amit soyının aslanı" təyinində işlənən soy göstəricisinin ardınca yurd göstəricisi kimi meydana çıxan Qaracuğın qaplanı, eyni, yaxud yaxın anlam daşıyır. Qaplan da aslan kimi eyni semantik cərgəyə aid olan metafora və alleqoriya kimi mərdlik, şücaət və yenilməzlik anlamında çıxış edir. Eyni zamanda Oğuz yurdunun (məkanının) xanını (Qazan) və xaqanını (Bayındır) işarələyir.

Qaplan sözünü totem anlayışı olaraq götürən müəlliflər əsasən DQK-nin XI boyunda Qazan xanın kafərlərə meydan oxumasında oxuduğu soylamadan misal gətirirlər. Qazan xan bu soylamasında deyir:

Ağ qayanın qaplanının erkəgində bir köküm var,
Ortac qırda sizin keyiklərünüz turğurmıya,
Aq sazın aslanında bir köküm var,
Qaz alaca yundunı turğurmıya.
Əzvay qurd ənügi erkəgində bir köküm var,
Ağca bəkil tümən qoyunın gəzdirmiyə.
Ağ sunqur quşı erkəgində bir köküm var,
Ala ördək qara qazun uçurmıya (97, 118,119).

Bu misallardakı məlumat yükünü nəzərdə tutaraq bu zoonimləri totem anlayışı kimi qəbul edənlər olsa da (124, 158-159), mətn tam olaraq bunu təsdiq etmir. Ümumiyyətlə totemizmin türk, xüsusilə də Oğuz mədəniyyətində mövcudluğu barədə ciddi mübahisələr vardır (119, 80). B.Ögəl totemizmi inkar etməsə də, onun dəyişikliyə uğraması, simvolik hadisəyə çevrilməsi barədə fikir nümayiş etdirir. Totem hesab edilən qurd anlayışından bəhs açan müəllif qeyd edir ki, "Qurd m.ö. II əsrdə belə ibtidai totem mahiyyətini çoxdan itirmişdi" (112, 59, 60). B.Ögəlin mülahizəsini DQK soylamasındakı "Əzvay

qurd ənügi erkəgində bir köküm var" anlayışının totem olaraq iddia olunmasına qarşı götürsək, bu misalların fərqli anlam kəsb etməsini görmüş olarıq. A.Acalov örnəklərdə hər hansı bir heyvan adının müsbət şəkildə aşkarlandıqda o saat onu totem olaraq izah etməyin yanlış olduğunu göstərir (14, 8).

Eyni zamanda müəllif totemizmin bir mərhələ olaraq bütün xalqların ondan keçmək məcburiyyətində olmadığını, konkret olaraq Avstraliya, Afrika və Amerikanın yerli tayfalarının totemist baxışlara sahib olduğunu qeyd edir (14, 8). Eyni qənaəti türk alimi Y.Z.Yörükanda da görürük. O yazır: "Amerika və Avusturaliyada, Afrikanın cənubunda ve şebheli olarak Assamda, Hindistanın cenubunda görülen totemçilik hayatından ve dininden dünyanın diğer yerlerinde yaşamakta olan milletlerin ve bilhassa tarihte en parlak rolleri üstlenmiş ve beşeriyyeti herekete keçirmiş olan türklerin de geçmiş olduklarına hükümetmek salahiyyetini bize verebilecek kanaat verici amarelere sahip deyiliz" (146, 5,6). Müəllif eyni zamanda totemçilikdən aşağı mədəniyyətə və türklərdən fərqli irqə malik olanların keçdiyini bildirir: "Totemçilik müessesi beyaz ve sarı irklarda değil, koyu renkli ve en az medeni olan irklar nezdinde caridir" (146, 5).

Bizim fikrimizə gəlincə, biz türk, xüsusilə də oğuzlarda totemçiliyin həm olması, həm də olmaması qənaətindəyik. Yəni "totem vardır" demirik, yaxud "totem yoxdur" demirik, "totem həm vardır, həm də yoxdur" deyirik. Ziddiyyətli görünən bu mülahizə fəlsəfədə əksiklərin vəhdəti adlandırılan fəlsəfi düşüncə tərzinin analogiyası kimi özünü göstərir. Oğuz (türk) mədəniyyətində totemçiliyin olması və olmaması müddəasını irəli sürərək qeyd edirik ki, totem dünyagörüşü forması kimi əksər türklərdə (bir qism türk mənşəlilər istisna təşkil edir) və oğuzlarda yoxdur. Lakin oğuz epik ənənəsində və digər epik ənənələrdə vardır. Totem epik ənənəyə daxil olarkən

inanc mahiyyətini itirib simvol və rəmzlər formasında epik nümunələrdə daşınır. Xüsusilə böyük inanc sisteminə malik olan xalqlarda monoteizm hakim olduğuna görə totemçilik, animistik və s. baxışlar bu xalqların epik ənənələrində dünyagörüşü formasını itirib, işlənmə məqamına görə simvolik anlayışlar ifadə edir. Yuxarıdakı mikromətndə Qazan xan "qaplanın, aslanın, qurdun, sunqurun erkəyində bir köküm var" deməklə öz totemini ifadə etmir, məcazi-metaforik anlayış nümayiş etdirir. Məlumdur ki, totemçiliyin olması üçün mətndə mövcud olan zooinformasiya əcdad kultu olaraq məcazi deyil, həqiqi mənada özünü təsdiq etməlidir. Yəni bu heyvanlar Qazan xanın totemi olaraq həqiqi heyvanları göstərməlidir. Lakin biz bunu görmürük. B.Ögəl yazır ki, hər soy, qəbilə bir totemə tapınır. "Yaradılanlardan biri müqəddəs sayılır və hər qəbilə, soy bu heyvandan törədiklərinə inanırdı" (112, 49). Göründüyü kimi hər soyun, qəbilənin bir totemi olur. Y.Z.Yörükan isə totemistik anlayışa dayanaraq eyni soyluların bir totem ətrafında cəmləşdiyini göstərir: "Klan aynı soydan bir insan zümresidir ki, bunlar bir totem ismi ile anılırlar. Aralarındakı akrabalık ana, baba ve kardeş yakınlığı şeklinde deyil, bir totemde birleşmiş olmak suretiyle teessüs etmişdir" (146, 12). Lakin Qazan xanın soylamasında biz açıq-aşkar görürük ki, Qazan bir heyvanın deyil, dörd heyvanın özünün kökündə dayandığını göstərir. Bu baxımdan fərd, tayfa və soy olaraq Qazan xanın bu heyvanlara totemistik anlayışla bağlı olmadığı aşkar diqqət çəkir. Bundan əlavə, əgər Qazan xan kafərlər qarşısında öz totemini öyürsə, demək, kafərlərin söykəndiyi totemə qarşı öz toteminin üstünlüyünü diqqətə çatdırır. Soylamadan da bəlli olur ki, müqayisə aparılır və Qazan xana aid olan heyvanlar cərgəsi diaxronik-şaquli struktur olaraq daha zəif heyvanlar cərgəsi ilə zooanaloji təəssürat yaradır: qaplan-keyik, aslan-qaz, qurd-qoyun, sunqur-ördək. Bu soylama-

da işlək ifadə vasitəsi olan şişirtmə-mübaliğə (hiperbola) və kiçiltmə (litota) kimi müqayisəli fikir tərzindən eyni situasiyada istifadə olunmuş, bütün hallarda Qazanın kafərlərdən üstünlüyü təmin olunmuşdur. Əks təqdirdə, bu müqayisələr totem müqayisəsi kimi irəli sürülərsə, o zaman özünü doğrultmur. Çünki qaplan toteminə qarşı zəif totem olaraq götürülən keyik totemi totemçilikdə ən üstün totemlərdən hesab olunur. B.Ögəl keyik toteminin əzəmətli "monqol-türk xanı (xaqanı) Çingiz xanın totem əcdadı olması barədə "Monqolların gizli tarixi"ndə yazıldığını göstərir" (112, 571). Bundan başqa müəllif keyikin türk-hun mifologiyasında törəyiş inamları, qurtuluş inancları arasında saysız mif və əfsanələrdə önəmli yer tutduğuna aid məlumat verir (112, 40, 566, 567, 570, 571, 573, 574, 580). Müəllif Qazan soylamasında sunqura qarşı zəif sayılan ördəyin də soy törədən əcdad faktoru olduğu barədə macarlarda yüksək səviyyədə epik örnəklər olduğunu da qeyd edərək əlavə edir ki, hətta tədqiqatçılar "macarların ilk xanədanının "ördək boyu" olduğunu irəli sürürlər" (112, 588).

Beləliklə, Qazan xanın kafər qarşısında öyünməsində kafər üçün üstün totemlər, əcdad adları söyləməyin mümkünsüzlüyü aşkara çıxır və bu binar oppozisiyanın totem "hərbə-zorba"sı olmadığı təsdiqlənir. Rəşidəddində və Əbülqazidə quşların onqon adlanması (115, 39; 60, 70-72) onqonun totemçiliklə bağlı olması, lakin Oğuz etnoqoniyasında və epik ənənədə simvol olaraq iştirak etməsini göstərir. Bu baxımdan sunqur quşu Qazan xanın onqonu ola bilməz. Çünki Bayındırın onqonu şahin, Qazan xanın onqonu isə bürkütdür (60, 71).

Düzdür, Rəşidəddində və Yazıçıoğlu Əlidə Bayındırın onqonu şahin deyil, sunqur göstərilir. Lakin Qazanın aid olduğu Salurun onqonu sunqur deyil, uç quş adı ilə tanıdılır (100, 229, 234). Nəzərə alınsa ki, Qazan xan soylaması onun təyini ilə birbaşa əlaqəli deyil, o zaman burada onun onqonu ya bur-

kut, ya da uç (uc quş) deyilməli idi, o zaman aydın olur ki, bu soylama totemist qavrayışdan uzaq simvolik anlayışları özündə əks etdirən nümunədir. Deməк, bu soylamada işlənən zoonimlərin totem sayılması ən az halda beş səbəbdən yanlışdır:

1. Totemə sayğı qanundur – DQK-də aslan və qaplan zərərvurucu yırtıcı olaraq xatırlanır. "Aslanla qaplana bir oğul yedirdinsə, degil mana" (I boy), "Talı sazın aslanına yedirdinmi?" (IV)

2. Totemin qanının tökülməsi yasaqdır, "Basat və Qanturalı" isə qağan aslanı öldürür. "Qağan aslan qopdı Təpəgöz", "Qağan aslan gəldügində belin bükmüş" (VIII, VI boy).

3. Fərdin iki (ata-ana) klanın, soyun bir totemi olur – Qazan xan isə dörd heyvanın adını çəkir.

4. Totemin zəif totemlə müqayisə olunması vacibdir – keyik ən yüksək totemlərdəndir.

5. Qazanın onqonu burkut (uc) olmalıdır – burda isə sunqurdur.

Qeyd etdiyimiz kimi bu soylama "Qaracuğın qaplanı" olan Qazanın kafərlərə qarşı üstünlüyünü ifadə edən simvolik-məcazi deyişmədir. Kök burada soy, nəsil anlamında deyil, güc, qüvvə, əsas anlamında mənalanır. Bir az əvvəl qeyd etdiyimiz kimi kafərlərin də aslanı var, özü də bu Basatı saxlayan aslanla eyni, funksiyalar fərqlidir. Elə Təpəgöz də Qazan xanın dilində "Qağan aslan" adlandırılır. Məhz bu qarşıdurma situasiyasının real tərəfi kimi Qazan xan "Aq sazın aslanında bir köküm var" deyir. Çünki IV boyda xatunu Qazan xana "talı sazın aslanına (balamı) yedir-dinmi?" deyib nalə çəkir. Qazan XI boyda talı sazın aslanına qarşı ağ sazın aslanı deməklə Oğuz məkanını kafər məkanına qarşı qoyur, birincinin qarşısında ikincinin zəif olduğunu və məğlubiyyətə məhkum olduğunu bəyan edir. Soylamada Ag qaya, Ag saz ritmik-melodik və daxili ahəngdarlıq yaradan ifadə kimi ağca

bəkil, ag sunqur sözləri ilə anafora (təkrir) təşkil etməklə bərabər sakral (Oğuz) və profan (kafər) məkanını işarələyir.

Beləliklə, "Amit soyının aslanı" Qalın Oğuzu, "Qaracuğın qaplanı" Qara Uçuk olmaqla Uçoq qolunu, Qaracuq dağının assosasiyası olaraq titul şərəfini, həqiqi anlamda soyu, simvolik olaraq Oğuz məkanını, daha dəqiqi hər ikisini bir arada ifadə edərək soyu və məkanı xan öyüncü təyinində diqqətə çatdırır. Qeyd etdiyimiz kimi aslan və qaplan eyni semantik cərgəni təşkil edərək status ifadə edən yaxın anlamları əks etdirir. Məhz hər iki təyinin eyni sistemə aid olması bir-birini tamamlaması gərəyindən də real görünür. Bu baxımdan Oğuz mifinin paradiqması olaraq da "Amit soyının aslanı" təyini haqqında bəhs açdığımız hissədə inikas olunan eyni paradiqmatik əvəzləyicilik törəmə və təkrarlama olaraq "Qaracuğın qaplanı" təyininə də şamil olunur.

## 6. Qonur atın iyəsi

Qazan xan obrazının mifoloji semantikasının aşkarlanması istiqamətində *"***Qonur atın iyəsi***"* qəlib-formulunun təhlili göstərir ki, bu məna vahidi bir mənsubiyyət işarəsidir. Xan təyini kimi dərəcə müəyyən edir. Şəriksiz təyindir. Yalnız Qazan xana məxsusdur. Xan təyini kimi II və III boylarda işlənir. "Qonur atın iyəsi" söz birləşməsi əlyazma oxunuşunda birləşmənin sonuncu tərəfini çıxmaqla eyni şəkildə oxunur. İyəsi sözü isə hətta eyni müəlliflər tərəfindən II boyda bir cür, III boyda başqa cür oxunulmuşdur. Belə ki, H.Araslı bu sözü II boyda əyası, III boyda ayası (96, 31, 65), F.Zeynalov, S.Əlizadə II boyda iyəsi, III boyda ayası (97, 42, 63), S.Cəmşidov II boyda iyəsi, III boyda iyası (98, 30, 62), S.Əlizadə II boyda iyəsi, III boyda isə ayası (99, 46, 63) kimi oxumuşlar. M.Ergin və O.Ş.Gökyay bu sözü "iyesi" kimi oxumuşlar

(137, 95; 140, 16). Oxunuş nə qədər fərqli olsa da, əlyazma nüsxəsində bu söz hər iki yerdə eyni hərflərlə yazılmışdır (əlif, ye, əlif, sin, ye) (99, 586 (35), 511 (110). DQK-nin Drezden və Vatikan nüsxələri hər ikisi nəsx xətti ilə yazıldığı üçün (99, 32-33) S.Əlizadənin qeyd etdiyi kimi "əlif bütün sait səslər üçün ortaq bölünəndir" (67, 27). Elə buna görə də filoloqlar (mətnşünaslar da demək olar) ayası sözünün "əyası", "iyəsi", "iyası" kimi oxunuşunu təqdim etmişlər. Bizim fikrimizcə, əlyazma nüsxəsindən çıxış etdikdə qeyd etdiyimiz kimi bu söz eyni şəkildə yazılmış və "Qonur atın ayası" kimi oxunuşu daha məqsədəuyğundur. Çünki ozan, yaxud katib əvvəldə diqqət çəkdiyimiz digər təyinlər kimi bu sözdə də əsrarəngiz fikir nümayiş etdirmiş, aya, ayası omonimi yaratmışdır. DQK boyları lüğət ehtiyacı baxımından bu sözün leksik-semantik anlamlarını bizə nümayiş etdirir. Belə ki, II boyda Qaraca "Çobanın üçyasar tana dərisindən sapanının ayasıydı" (97, 48) deyilməklə "ayası" sözünün sapandın əsas hissəsi mənasında işləndiyini görürük. H.Araslı "aya" sözünü, yiyə, sahib (Qonur atın ayası) və sapandın daş qoyulan yeri (sapandın ayası) kimi təqdim etməklə (96, 160) məhz bu sözlərin omonim oldğunu göstərmişdir. Sapandın əsas hissəsi onun daş qoyulan yeridir və mətn özü sapandın ayasını digər yerləri ilə müqayisədə əsas hissə kimi diqqətə çatdırır; "Çobanın üçyasar tana dərisindən sapanının ayasıydı, üç keçi tüyündən sapanının qollarıydı. Bir keçi tüyündən çatlağucıydı. Hər atanda on iki batman taş atardı" (97, 48). Sapandın ayası digər yerləri ilə müqayisədə daha böyük heyvan dərisindən hazırlanmaqla və ayası tərəfindən heyrətamiz şəkildə on iki batman daş atmaqla məhz ayası sözünün əsas hissə anlamını mətn lüğətində təsdiqləyir. Elə təbiətdə də bu sözün əsas hissə anlamında botaniki sahələrdə işləndiyini görürük. Bu barədə oxuyuruq: "Yarpaq, adətən, fizioloji prosesləri yerinə yetirən enli ayadan

və ayanı zoğa birləşdirən saplaqdan ibarətdir. Ayası olmayan yarpaq oturaq yarpaq adlanır" (28, 90). Azərbaycan dilinin izahlı lüğətində bu söz əlin içi kimi izah olunmaqla yenə də əsas hissə anlamında olduğu görünür. Əlin barmaqlardan başqa olan hissəsi aya adlanır (19, 67). Məhz bu söz bir söz birləşməsində omonim olaraq iştirak edib, həm "Qonur atın ayası" olan Qazanın onun yiyəsi, sahibi olmasını göstərir, həmçinin Qazanı qonur atın əsas hissəsi kimi strukturda işarələyir.

"Əyə" omoniminin "sahib" mənasına gəlincə bildirmək istərdik ki, bu söz C.Bəydilinin (Məmmədovun) müşahidə etdiyi kimi, çağdaş türk ləhcələrində "ezi", "ie", "ee", "ie", "i", "iye", "eye", "iya", "ee", "eqa", "eqə", "iqe", "ize", "is", "issi", "iyqa", "ikə", "iççi" şəkillərində işlənir (45, 174). Hərfi anlamda "sahib" mənasında olan "ee", "iya", "iyə", "iə", "eya" Volqaboyu, Orta Asiya, Şimali Qafqaz, Qərbi Sibir, Altay və Sayan türk xalqlarının mifologiyasında həmişə hər hansı bir yerlə bağlı ruhların adıdır (157, 659). F.Bayat bu obrazı ovçuluq mifləri ilə əlaqələndirmişdir (133, 255). İ.Xalipaeva da qumıqlarda əyə obrazının Albaslı, Yeranası, Suvanası, Kantuluk, Sullax, Basdırık kimi variantlarından bəhs etmişdir (167, 76). Azərbaycan mifoloji mətnlərinə görə, "Yer üzündə bir qəriş yer əyəsiz deyil. Hər şeyin öz əyəsi var" (21, 46). "Əgər bir evdə hami ruha – ev yiyəsinə hörmətlsizdik olarsa, oraya mütləq bədbəxtlik gələjək, evin bin-bərəkəti bajadan göyə çəkiləjək..." (22, 82). "Bir dəfə iki nəfər şər qarışan vaxtı balıx tuturmuş. Birdən tilova bir balıx düşür... Sən demə, tilova düşən su yiyəsi, yəni su əyəsiymiş" (24, 61). "Həftənin birinci günü ağac kəsmək günahdı, deyillər ki, həmən gün ağacların ruhu ziyarətə gedər" (26, 23). Zəngəzur folklor mətnlərində əyələrin adı həm də məleykədir "Ocaxda məleykə var. Odu ki, ocağa su tökməzdər" (25, 100).

Ancaq biz qeyd etmək istəyirik ki, aya sözünün əyə anlayışı ilə əlaqəsi olduğunu mətn özü inkar edir. Eyni zamanda batil inanc səviyyəsində izah olunan bu kimi sözlüklərə bir daha yeni baxış nümayiş etməyə ehtiyac hiss olunur. "Əyə" omoniminin "əsas hissə" ilə əlaqədar mənasına gəlincə, həm strukturda ritual-mifoloji dünya modelinin Oğuz variasiyası olaraq, həmçinin tarixi-dialektik mərhələnin nümayişi kimi təzahür edən atın bir hissəsi olmaq epik mətnin ifadə planında at igidin yarısıdır, yaxud at igidin yarısından artıqdır kimi kliseləşmiş deyimlərdə özünü göstərir. Epos yaddaşımızın əhəmiyyətli mərhələsindən birini təşkil edən "Koroğlu" dastanında (M.H.Təhmasib nəşri) bu barədə qiymətli bilgilər vardır. Dastanın "Həmzənin Qıratı aparması" qolunda Hasan paşa Koroğlunun üstünə hücum etmək istədikdə Mehtər Murtuz ona deyir: "İndi ki, bizi göndərirsən, gedəcəyik. Ancaq orasını deyim ki, Koroğlunun igidliyinin düz yarısı Qıratdandı. Nə qədər ki, o, Qıratın üstündədi, biz ona heç nə eləyə bilmərik" (101, 115, 116). Atı oğurlayıb gətirən keçəl Həmzə başqa bir yerdə bunu igidlik kimi qələmə verir. "Buna oğurluq deməzlər. Bu igidlikdi. Koroğlunun atını gətirmək özünü gətirməklə tən yarıdı. Hələ bir az da ondan artıqdı" (101, 139).

Qırat elə Koroğlu kimi insansayağı qəhrəmandır və onunla bərabər səviyyədə yağı ilə döyüşür, eyni zamanda döyüş zamanı Koroğlunun yarısı olduğunu təsdiqləyir. "Bir tərəfdən Qırat, bir tərəfdən də Koroğlu özü day Hasan paşanın qoşununda qoşunluq qoymadılar, qırıb tökdülər" (101, 142).

Atla igid (dəli) arasında bu funksiya bölünməsi Koroğlu-Qırat yarımfunksiyalarının bir-birini tamamlaması DQK-də də struktur-semantik səviyyələrdə saxlanır. Qaracıq Çoban kafər üstünə getmək üçün Qazan xandan Qonur atını istəyir:

Qonur atın vergil mana!
Altmış tutam göndərüni vergil mana!

At alaca qalqanını vergil mana!
Qara polat uz qılıcın vergil mana!
Sadağında səksən oqın vergil mana!
Ağ tozluca qatı yayın vergil mana! (97, 46).

Qaracıq Çobanın Qazan xandan istədiyi zirehli geyim, qalxan, qılınc, ox və yay çobançılıq sənəti baxımından çobanda olmaya bilər və onu Qazandan istəməsi təbiidir. Lakin elat məişətinin əsas peşəsi olan çobançılıqda atın olmaması gülünc görünər. Kamil mətn isə bir-birini tamamlayan anlamların rabitəsindən struktur təşkil edir. Bu baxımdan məlum olur ki, Qonur at həm digər bəylərin atlarından daha üstündür, kafər üzərinə Qonur atla döyüşə çıxmaq şərəflidir, həmçinin Qonur at igidin yarısıdır. Qaracıq Çoban Qazan xana Qonur atı olduğu halda yağmalanmış evini hələ qaytara bilmədiyi üçün zahiri etirazını, daxili təəssüfünü ifadə edir. Burada eyni zamanda Qaracıq çobanın sakrak sferaya daxil olması qonur atla işarələnir. Çünki DQK-də xtonik çoban olan, pəri qızına təcavüz edən, Təpəgözün atası olan çobanın adı məhz qonur qoca sarı çobandır ( 97,98). Elə Qazan xanın Qonur atının sakral sferada olması çobana ad semantemi ilə qonur qocaya qarşı durub özünü xtonik anlayışlar cərgəsindən çıxartmaq üçün imkan verə bilər. Biz bu barədə əvvəldə də bəhs açmışıq. Ancaq Qazan xan Qonur atı Çobana verə bilməz. Çünki Qazana "Qonur atını vergil" deməklə onu qınayan Qazanın burda qalmasını, atını ona verməsini və Çobanın Qonur atla birgə gedib onun evini qurtarmasını və öz qardaşlarının qisasını almasını dediyini görürük. Çünki Qonur atsız qalacaq Qazan yalnız yarım funksiya daşıyır. Qazan xanın bütün savaşlara və kafər məkanına, yurda və öz elinə – Oğuz məkanına Qonur atla getməsi Qonur atın Qazanın bir hissəsi olmasını göstərir. Türk xalqlarının mifoloji düşüncəsində Qonur at məhz igidin yarısı deməkdir. Elə buna görə də Altay dastanları ara-

sında yer tutan “Kozin Erkeş” dastanında təsadüfi olmayaraq status-dəyişmə mərhələsindən keçib bahadırlıq qazanan Kozin Erkeş məhz Qonur atla birlikdə ritual prosedurdan keçirilir. Əcəlinin çatdığını hiss edən Ağ Bökö oğlunu Qonur ata minmək şərəfinə nail olan bir ər kimi bahadır (alp) elan edir:

Mənim qoca vaxtımda tapdığım oğlum,
Qızıl konur ata minən
Kozin Erkeş bahadır olsun (56, 179).

Atın igidin, kişinin, insanın bir hissəsi olması bəzən atın, bəzən igidin əsas hissə olması metateza olaraq bir-birini əvəzləsə də, anlam sabit qalır. Yunan mifologiyasında atın insanın bir hissəsi olması anlamı kentavr obrazında arxaik düşüncə tərzinin spesifik görüntüsü kimi diqqət çəkir. Piktoqrafik yazı mədəniyyətinə uyğun olaraq mənalar şəkillərlə ifadə edildiyi üçün sonrakı fikir təzahürləri də bu spesifikaya uyğun şəkildə epik mətnlərdə daşınır. Məna və anlam şəkil, görüntü, obraz olaraq üzə çıxır. Heraklın döyüşdüyü yarı at, yarı adam olan kentavrlar at və insanın bir-birinin yarısı, hissəsi olmaq anlamının təsvir dilidir. Herakl kentavrlarla döyüşüb onları öldürsə də, bu heç də anlam üzərinə kölgə salmır. Birincisi, kentavrlarla döyüş Heraklın on iki qoçaqlığına aid deyil. Bu situasiyada o, Erimant qabanı ilə döyüşüb onu ovlamalıdır. Kentavrlar xtonik olduğu kimi eyni zamanda profan və sakral məkana da daxildirlər. Herakla vəhşi qabanı tapmağa kömək edən və ona qonaqlıq verən də kentavrdır (58, 101,103). Elə qoçaqlıqlar göstərən Heraklın özünə də kentavr Xiron tərbiyə vermişdir (106, 50, 51).

Qeyd edək ki, folklor mətnlərində qəhrəmana yardım edən at ona müxtəlif variantlarda ata, yaxud baba tərəfindən yuxuda, məzarda təqdim edilir. “Çal at, Qonur at” nağılında vəfat edən ata övladlarına üç gün onun qəbrinə keşik çəkməyi məsləhət görür. Bu günlərdə kiçik oğul atanın verdiyi atları

əldə edir (23, 135). Tədqiqatlar folklorda at və qəhrəman arasındakı qırılmaz əlaqəni təsdiq edir (161; 162). "Gəmiqayada at rəsmləri bir qayda olaraq minik və qoşqu qüvvəsi kimi göstərilmişdir" (100, 23). "Oğuznamə"nin XV-XVI əsrlərdə üzü köçürülmüş əlyazmasında atla bağlı külli miqdarda nümunələr yer almışdır (109). Folklorda qəhrəman yeraltı dünyaya atla gedir: "Bir şəxsin yuxusunda at belində bir yerdən başqa bir yerə getməsi at belində kim varsa onun öləcəyinə" inamı ifadə edir (168). Məmlük-Qıpçaq dövrünə aid "Kitabül Hayl" əsərində atın qeyri-adiliyi haqqında Muhamməd peyğəmbərin (s.ə.s.) dilindən deyilir: "Yaxşılıq qiyamət gününə qədər atın alnında yer alır" (143, 97). Onu da qeyd edək ki, bu kimi ifadələr semantik yüklü olub məcazi fikir tərzini müxtəlif səviyyələrdə nümayiş etdirir.

Beləliklə, "Qonur atın ayası" ifadəsi Qazan xanın Qonur atın yiyəsi olması anlamını bildirməklə bərabər, onun yarısı, hissəsi, yaxud əsas hissəsi olduğunu semantik şəkildə ifadə edir. "Qonur atın ayası" ifadəsinin bu şəkildə olması yalnız bu sözün omonim olması səbəbindən deyil, dastan poetikasının spesifikliyindən də irəli gələn tələbatdır. T.Hacıyev diqqət çəkdiyimiz "xan öyüncləri" təyin-titulları barədə açıqlama verərkən "Ulaş oğlı" ifadəsinin arxasınca gələn "Tülü quşun yavrısı" təyinindəki quş sözünün saxlanılmasının dastan dilinin şeiriyyəti ilə bağlı olduğunu ehtimal edir. Müəllif yazır: "Bəlkə də həmin təyinin saxlanması dastan dilinin şeiriliyindən irəli gəlir. Ulaş sözündəki "ş" melodiyası quş sözünü saxlanmağa məcbur etmişdir" (80, 31). Anlamın eyni, sözün isə fərqli yazılışının örnəklərdə olması təbiidir ki, yetərincədir. fDastan şeiriyyətinin spesifikası baxımından xüsusilə də alliterasiya özəlliyinin və qafiyə zənginliyinin ritmik-melodik quruluşdan törənməsi bizə imkan verir ki, bu sözün "ayası"

şəklində olduğunu iddia edək. Xan öyünclərini bu spesifikaya uyğun olaraq təkrar şəkildə diqqətəfff çatdıraq:

Ulaş oğlı,
Tülü quşun yavrısı,
Bizə miskin umudı,
Amit soyının aslanı,
Qaracuğın qaplanı,
Qonur atın ayası,
Xan Uruzun ağası,
Bayındır xanın göygüsi,
Qalın Oğuzın dövləti,
Qalmış yigit arxası,
Salur Qazan (97, 42).

Ulaş sözünün arxasından quş, umıt sözündən sonra Amit, yaxud əmət, Qaracuğun arxasınca Qonur, qalın sözünün arxasınca qalmış kimi q samitinin alliterasiyası daxili müvazi qafiyələrin düşünülmüş cərgəsi və sonluq qafiyələr kimi aslanı-qaplanı, ayası-ağası şəklində işlənməsi DQK vəzninin poetik xüsusiyyətindən doğur. Ümumiyyətlə, DQK-də alliterasiya (samit səsin təkrarı) və assonans (sait səsin təkrarı) kimi melodiklik və ahəngdarlıq yaradan bədii ifadə vasitələrindən geniş səviyyədə istifadə olunur. Diqqət edin ki, "ayası" sözünü eyni zamanda qafiyələndirən bu misra ardıcıllıqları, nəzm parçası bugünki poeziya üçün ənənəvi olan yeddilik heca vəzninin 4+3 ölçüsünə xüsusilə son cümlələrdəki (misralardakı) qafiyələr necə uyğun gəlir:

Əmət soyının aslanı,
Qaracuğın qaplanı,
Qonur atın ayası,
Xan Uruzun ağası.

“Əmət soyının aslanı” ifadəsindəki səkkiz heca burada yeddi hecalığa tabe edilib, “Əmət soynın aslanı” olur. Poetik örnəklərdə bu kimi misralar çoxdur:

Kür qırağının əcəb seyrangahı var,
Yaşılbaş sonası hayıf ki, yoxdur. (M.P.Vaqif)

Ələsti birabbikum qalu bəladan,
Mərdin Mövlasına nökər olmuşam. (A.Ələsgər)

Bu nümunələrdə on iki heca ilə başlanan misra sonra qoşma ölçüsünə uyğun olaraq bütün qoşma boyu on bir hecaya tabe edilir.

Məhz “əmət soyının aslanı” təyininə kimi tam olaraq daxili qafiyələr nümayiş olunursa, bu təyini törədən əvvəlki təyinlərin aslan, qaplan qafiyəsi ilə həmahəng “ağası” sözünə uyğun şəkildə mətnə düşən “ayası” sözü də bu arxitektonika baxımından iyəsi deyil, ayası şəkilndə oxunmalıdır. Mətndə bu yerdə heca bölgüsü və qafiyə daha formal şəkildə ahəngdarlıq yaratdığı üçün bu poetik xüsusiyyət assosiativ-mexaniki şəkildə bu qafiyəli və formal hecalı bənd təəssüratı yaradır. “Aya” yaxud “ayası” sözünün III boyda Beyrəyin ölümünü köynək vasitəsilə bəlli edən Banıçiçəyin dilində “Al duvağım iyəsi” (97, 58) şəklində oxunması da fikrimizcə yanlışdır və “Al duvağım iyəsi” deyil, “Al duvağım ayası” kimi oxunmalıdır (99, 527 (94).

Bu yerdə də aya, yaxud ayası kimi bu sözün yiyə, sahib anlamında işləndiyini görürük. Ola bilsin ki, əksər tədqiqatçılar iyə sözünün yiyə sözünün fonetik oxşarı olması baxımından sözün bu cür yazılışını seçmiş, qeyd etdiyimiz kimi digər filoloq və şərqşünaslar isə diqqət çəkdiyimiz varianta üstünlük vermişlər.

Aya (sı) sözünün yiyə, sahib anlamında işlənməsi IX boyda da diqqət çəkir. Bəkilin xatunu Bəkilə “Altun təxtim ayası, bəgim yigit” deyir. Özü də çox maraqlıdır ki, F.Zeyna-

lov, S.Əlizadə nəşrində bu ifadə II və III boyda iyəsi yazıldığı halda (Qonur atın iyəsi, al duvağım iyəsi), bu yerdə məhz ayası kimi oxunur. Halbuki eyni anlam olması göz qabağındadır: "Al duvağım iyəsi-Altun təxtim ayası". Hər iki söz xatunlar tərəfindən həyat yoldaşları üçün deyilir. H.Araslı II, III boyu əyası oxuduğu halda, IX boyda ayası oxuyur (96, 31, 56). S.Cəmşidov II boyu iyəsi, III boyu iyası, IX boyu isə yenə də iyəsi kimi təqdim edir (98, 30, 53, 119). S.Əlizadə isə öz müəllifliyi ilə təqdim etdiyi DQK-də II, III boyda iyəsi, IX boyda birdən-birə ayası oxuyur (99, 46, 58, 94). Əksər tədqiqatçılar bu sözü sonda ayası kimi oxumaqla məhz bu şəkildə olduğunu qəbul etdikləri görünür. Əlyazmada isə eyni qaydada yazıldığı diqqət çəkir (99, 383, 238).

Bu təyinin totemçiliklə bağlı izahı da yetərincədir. Lakin bu mətndə özünü doğrultmur. Ümumiyyətlə, at totemi, at kultu zoomorfist baxışlar kimi atla bağlı irəli sürülən fikirlərə DQK mətni antitezis nümayiş etdirir. Məlumdur ki, totemizmdə totem müqəddəs olduğu üçün yeyilməsi qadağandır. B.Ögəl bu barədə yazır ki, totem olan heyvanların əti əsla yeyilməzdi (112, 49).

Y.Z.Yörükan isə totem cinsindən olan müqəddəs bir şeylə məna qüvvətini artırmaq üçün yalnız mərasim (ritual) ərəfəsində yaşlıların qidalandığını yazaraq totemin toxunulmazlığını və məişət məhsulu olmasının yasaq olduğuu göstərir: "Totem mükaddesdir. Onun kanı akıtılmaz; binaenaleyh totemi kesmek ve yemek, aynı totemden bir kadının kanını akıtmak ve onunla evlenmek memnudur" (146, 13).

Hər halda totemin kəsilməsi və yeyilməsinin qadağan olunması barədə mənbələrin verdiyi məlumatlar buna ziddiyyət təşkil edən məlumatlardan qat-qat çoxdur. Qeyd etdiyimiz kimi, oğuzlarda, xüsusilə DQK oğuzlarında bu baxımdan atın totem olmaması göz qabağındadır. DQK-də bütün oğuzlar, bütün təbə-

qələrin nümayəndələri at ətini yeyirlər: "Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib Oğuz bəglərin qonaqlardı. Genə toy edib atdan-ayğır (dan), dəvədən buğra, qoyundan qoç qırdırmışdı" (97, 34). Eyni ziyafəti Dirsə xan da təşkil edir (97, 35).

Qanturalı Selcan xatunu gətirdikdən sonra gəliş münasibəti ilə Qanlı Qoca qonaqlıq verib, "atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırır" (97, 93).

Eyni qonaqlığı eyni situasiya olaraq Uşun Qoca oğulları Əgrəgin və Səgrəgin şərəfinə verdirir (97, 115).

Aşkar görünür ki, oğuzlar ən müxtəlif situasiyalarda – toy, övlad diləmə, savaşdan və zindandan qayıtma, xatunla evlənmə və s. qoç, buğra ilə birlikdə ayğır atın ətini də yeyirlər. Bu baxımdan atın totem olması inandırıcı görünmür. Mətn strukturunda da atın totem olmasını işarələyən kod səviyyəsi diqqət çəkmir. Belə ki, Qazan xanın bu ziyafətlərdə iştirak etməsinə şübhə yoxdur. Çünki o, Oğuz elinin Bayındır xanla birlikdə, hətta ondan daha aktiv başçısıdır. Təbiidir ki, yığnaqlarda da, toy ritualında və s. də də iştirakı vacibdir. Qazan xanın verdiyi ziyafətlərdə bu akt özünü göstərməsə də, hər halda bu struktur mifoloji model səviyyəsində yozula bilməz. Çünki bu aktda işarələnən buğra, qoç və at – hər üçü Qazan ziyafətində göstərilmir. Hər halda Qazanın yalnız ov əti ilə qidalanmasını iddia etmək gülünc olar. Qazanın ziyafətlərində eyni ifadələrin təkrarlanmasına ehtiyac görməyən ozan əsas diqqəti "yeddi gün, yeddi gecə yemə-içmə"yə yönəldir. Belə görünür ki, bir günlük tədbirlərdə (məclis, yığnaq, ritual) kəsilən heyvanları göstərməyə ehtiyac görür, lakin uzun müddətli yığnaqlarda iaşə məhsulunu göstərməyi lazım bilmir. "Qırq gün, qırq gecə toy-dügün eylədilər" (97, 67), "Yedi gün, yedi gecə yemə-içmə oldı" (97, 78), "Yedi gün, yedi gecə toy-dugün edüb, yemə-içmə oldı" (97, 122).

Oğuz mifoloji dünya modelinin kosmoloji strukturunda da at totem olaraq görünmür. Oğuz xanın kosmosu simvollaşdıran toy ritualında doxsan min qoç və doqquz yüz dayça kəsdirməsi Rəşidəddində, on min qoyun, doqquz yüz at kəsdirməsi Əbülqazidə müfəssəl təsvir olunmuşdur (115, 37; 60, 64).

Bu ritual aktı Oğuz düşüncəsində və Oğuz epik ənənəsində totemin olmamasını, atın bilavasitə qurdun və s.nin totem kimi çıxış etməməsini, sakral sferaya daxil olan at və qurdun Tanrı müjdəsi olaraq qurtarıcı funksiya daşıyıcı kimi göydən endirilməsi (Oğuz Kağanda Boz Qurd, DQK-də dəniz qulunu, "Koroğlu"da dərya atları və s.) mətnlərdə özünü göstərir. Bir çox yanlışlıqlar məhz epik ənənələrin bir-birinə qarışdırılmasından meydana çıxır. Oğuz epik ənənəsi nə monqol, nə çin, nə bulqar və s. epik ənənəsi deyil. Hər epik ənənənin dünyagörüşü bünövrəsi, struktur əsası vardır. Hər epik ənənə yalnız öz tələbatına uyğun bilgiləri ənənə formasında öz içərisinə alır, gərəkli bilinməyən ünsürləri isə kənara atır. Oğuz epik ənənəsində Vahid Allah inancı, Tanrıçılıq dünyagörüşü struktur təşkil etdiyi üçün, qeyd etdiyimiz kimi totemçilik və s. bəsit dünyagörüşü formaları bu ənənəyə daxil ola bilmir, yalnız informasiya baxımından müəyyən fikir ifadə edən simvolika olaraq bu ənənədə iştirak edir. Bu baxımdan da nə Oğuz mifinin modelləşdirilmiş strukturunda, nə onun paradiqması kimi DQK-də görünən obrazlarda at totem olaraq diqqət çəkmir. Qonur at da bu baxımdan totemi deyil, üstün dərəcəni müəyyən edir. Qonur rəng simvolikası baxımından açıq qəhvəyi, şabalıdı rəng olaraq qara rəngin semantikasına daxil olur. Elə qara və sarı rəngin qarışığından əmələ gələn qonur rəng- rəng qamması baxımından da qara rənglə əlaqəlidir. Qara rəngin böyük üstün semantik anlam çalarları qonur rəngi də əhatə edir. Qazan xanın atının qonur rəngdə olması da bu səbəbdən onun xan öyüncləri cərgəsində, titul təyinləri sırasında yer tutmasına səbəb olur.

Daha doğrusu bu cərgədə yer alması üçün onun atı qonur rəngə salınır. Çünki bu epik tələbatdır. Qonur atın üstünlüyü digər örnəklərdə də təsdiqlənir. Belə ki, Qazan xanın Qonur atı digər xan və bəylərin, igid ərənlərin atları ilə müqayisədə, hətta Beyrəyin dəniz qulunu olan atından da irəli gedərək üç günlük yolu bir gündə gedir. Ovda qarışıq yuxu görən Qazan xan ev-eşiyindən, yurdundan narahat olub qardaşı Qaragünəyə deyir: "Bən bu gün Qonur ata qaqaram, üç günlük yolı bir gündə aluram, evilə olmadın yurdum üstünə vararam. Əgər sagdır, əsəndir, axşam olmadın genə mən sana gəlürəm" (97, 44).

Qonur atın üç günlük yolu bir gündə gedəcəyini, "evilə olmadın" (öylə, günortaya yaxın-A.İ.) ( 97, 232) Qazan xanın yurduna çatacağını və nəinki eyni vaxt ərzində, hətta axşama qədər geri qayıdacağını deyən Qazan onun fövqəladə sürətə malik olduğunu deyir. Məlumdur ki, bu bir motiv olaraq epik mətnlərdə xüsusi funksiya daşıyan qəhrəmanlara aiddir. Xızır Əleyhissəlamın boz atı dastanlarda və nağıllarda (123, 114, 128, 129) bu funksiyada iştirak etsə də bu funksiya DQK mətnində Qonur ata verildiyi üçün Xızır Buğacı mənzil başına aparmır. Ona ölümdən qurtuluşu üçün məsləhət verir (97, 39). Qonur atın Koroğlunun Qıratı ilə ad və funksiya bənzərliyi (hətta sağərnun oxunmasa, qonur qor kimi də oxuna bilər) təsadüfi olmayıb eyni funksiya daşıyan anlamları ifadə edən motiv olduğunu epik ənənədə aşkara çıxarır. "Bir aylıq yolları bir gündə kəsər", "Qırat ayağını götürsə heç quş da ona çata bilməz" (101, 33, 122) və s. bu kimi ifadələr obrazlar sistemində qəhrəmanın mərkəzi statusunun qabardılmasını təmin etdiyi kimi, strukturda onun invariant modelinin əhəmiyyətli bir hissəsi olaraq istər DQK mətnində, istərsə də "Koroğlu" dastanında eyni funksiyada çıxış edir. "Koroğlu" dastanının adından göründüyü kimi baş obrazı törədən funksiyada çıxış edən arxetipi Koroğlu olduğu kimi, Qonur at DQK-də digər kod-

laşdırılmış məlumatlarla birlikdə Qazan xanın eyni statusa malik olduğunu göstərir. Qazan xan "Qonur atın ayası" (yiyəsi və yarısı) olması ilə obrazlar sisteminin mərkəzi obrazı olmasını işarələyir. Məhz Qonur atın Qazan xanın təyinləri arasında yer tutması da psixi-assosiativ şəkildə bu niyyətə xidmət edir. Belə görünür ki, Qonur atın yiyəsi Qazan yox, bir başqası olsa idi, onun yüksək statusu diqqət çəkə bilərdi. Elə buna görə də Qazan xanın yiyəliyi də təsadüfi xarakter daşımayıb Qazan statusunun üstünlüyünü təkrar informativ səviyyədə təsdiqləyir.

Kitabda Qonur at yalnız status deyil, mənəvi-ictimai qarşıdurmanın işarələyici tərəfi kimi də diqqət çəkir. Uçoq-Bozoq qarşıdurmasının boy-boy şiddətlənən açıq və gizli toqquşmaları bu yerdə də özünü göstərir. Ova çıxan bəylər atlarına suvar olan zaman Qazan Qonur ata, "Qonur atlı Qazana "keşiş" deyən bəg Yegnək Turı ayğırına" minir (97, 42).

III boyda Beyrəyə elçiliyə gedən Dədə Qorqud da "Bir keçi başlu keçər ayğırı, bir toğlı başlu Turı ayğırı" (97,55) minib gedir. Dəli Qarcardan qaçarkən isə əvvəl turu ayğırla qaçır, o yorulduqda isə ikinci ata sıçrayıb minir. Lakin hər iki at Dədə Qorqudu Dəli Qarcardan qurtara bilmir, yalnız "Vilayət issi" olması xilas edir (97, 56).

Epik mətndə Yegnəyin Qonur ata qarşı Turı atı minməsi və Qazana keşiş deməsi epik ziddiyyət olaraq üzə çıxan tayfa qarşıdurmasının reallaşmasında Dədə Qorquda söykənmək cəhdindən xəbər verir. Çünki Dədə Qorqud hakim qolun uğradığı haqsızlığın, Oğuz yasasının pozulmasının fərqinə vardığından hakimiyyətin Bozoqlardan olan Qayı boyuna qayıtmasını və yaxud qayıdacağını hələ kitabın əvvəlində bildirir: "Axır zəmanda xanlıq gerü – Qayıya dəgə, kimsənə əllərindən almıya" (97, 31). Məhz bu yerdə Qonur ata qarşı Turı ata minən Yegnək Turı ata minən Dədə Qorqudla eyni ata minməyiylə at dərəcəsini Qorqud atanın ruhani dərəcəsinin (peyğəmbər,

övliya) Qazan xandan üstünlüyünü göstərmək üçün ona "keşiş" deməsiylə iyerarxik statusunu üz-üzə qoyur. Təsadüfi deyil ki, Qorqud ata Rəşidəddində Bayat (115, 43), Əbülqazidə Qayı (60, 77), DQK-də yenə də Bayat (97, 31) boyundan olmaqla hər iki halda Bozoq tayfasındandır, sağ qolu, DQK-də isə yeri dəyişdirilmiş sol qolu təmsil edir. Məhz mətnaltı məlumat səviyyəsində Turı atın Qonur ata, Dədə Qorqudun Qazan xana, ruhaniliyin xanlığa qarşı qoyulması zəminində Qonur atın Turı atdan, Dədə Qorqudun isə Qazan xandan üstünlüyü üzə çıxır. Çünki Qonur at üç günlük yolu bir günlük edib, qeyri-adi sürətiylə evi yağmalanan Qazanı mənzil başına çatdırır. Turı at isə yorulur, Dədə Qorqudu Dəli Qarçardan qaçıra bilmir. Əgər Qonur atın sürəti Turı atda olsa idi, Dəli Qarçar Dədə Qorquda çata bilməzdi. Təsadüfi deyil ki, Dədə Qorqudun ruhani dərəcəsinin üstünlüyü məhz onun köməyinə çatır. Həqq-Təalanın əmrilə Dəli Qarcarın qolu quruyur. Qazan xanın ov aktında iştirak etməsi onun əyləncəli dünyəvi tərəfini göstərirsə, Dədə Qorqudun soy aktında (Beyrəyə qız istəyir) iştirak etməsi onun mənəvi-dünyəvi funksiyada olduğuna diqqət çəkir və Qazandan üstünlüyünü şərtləndirir. Qazanın mənəvi bərpasını məhz Qonur at təmin edir. O, üç günlük yolu bir günlük etməklə yurdun, elin, soyun qurtuluşunda iştirak edir. Turı atdan üstünlüyü işarələməklə bərabər Qazan xanın əsas hissəsi kimi özünü təsdiq edir. Elə sağ yerin alınıb sol yerə verilməsi kimi, Xızırın boz atının funksiyasının alınıb Qonur ata verilməsi də eyni mahiyyətdən xəbər verir. Bozoqun yerinin mənimsənilməsində Bozoq adındakı "boz" rəng iyerarxiyası zahirən olmasa da, faktiki baxımdan onlardan alınmışdır. Əgər II boyda Turı atla qarşı-qarşıya Qonur ata minən Qazan ova əyləncə məqsədilə gedirsə, (şərabın itisi alnına çıxıb ova getmək həvəsinə düşür) məhz Qonur atın soy qurtuluşunda Turı atla semantik-arxaik lay səviyyəsində müqayisəli iştirakı baş verdikdən sonra, Qa-

zan xan IV boyda arxaik səviyyələrdə qorunan ov ritualı baxımından ova çıxır. Hərbi çevik güc təmrini üçün keçirilən bu ov aktı Uruzun döyüş hazırlığını və varis statusunu təmin etmək üçün soy qoruyucu, soy qurtarıcı məqsədlər kompleksi kimi həyata keçirilir. Məhz bu yerdə Qonur ata qarşı hər hansısa at adekvatı baş vermir. Qobu şərabın itisi alnına çıxan Qazan əyləncəli ova gedir, Yegnəyin atası Qazılıq Qoca isə aqıncılığa gedir. Hər iki halda şərab fəsadı mənfi nəticə törədir, xaotiklik yaradır. Qazanın evi yağmalanır, Qazılıq Qoca dustaq olur. Bu epik mətndə şərab anlayışının şər (su) pozisiyası yaratmasına xidmət edirsə, Yegnəyin Qazana keşiş deməsi, həmçinin onu atası ilə də müqayisə edib eyni situasiyada fərqli davranışları göstərərək (biri kafər üzərinə, biri isə ova gedir) ata (Qazılıq Qoca) və mənəvi ata (Qorqud) güvəncini Bozoq davası aparmaqla Qazana qarşı qoyur və onun ikinci dərəcəyə keçməsinə can atır. Elə Qonur ata qarşı turı ayğıra minməsi də Yegnəyin Oğuz xanın xallı ayğırını assosasiya etməklə qonur atdan üstünlüyünü diqqətə çatdırmağa çalışır. Əvvəldə diqqət çəkmişdik ki, Basat da Qazanla münasibətində bu davranışı nümayiş etdirir. Məhz bunun ən şiddətli səviyyəsi Qazan-Uruz münasibətlərində Aruz və Bozoq tayfasının nümayəndələrinə qarşı aşkar və gizli formada görünür. Bu lay səviyyələrini növbəti təyinlərdə də izah etməyə çalışacağıq. Yegnək-Qazan binar oppozisiyası ona görə çox ziddiyyətli görünür ki, Yegnək Aruz və Basat kimi Bozoqlardan deyil, Uçoqlardandır. Yalnız Yegnəyin anası Bozoqlardandır. Yegnəyin anası tərəfin Bozoqdan olması Yegnəyə olan soyuq münasibəti və onun Dış Oğuza tərəf dışlanmasını şərtləndirir. Qəribədir ki, Beyrək də Bozoqlardan qız almışdır. Lakin ona bu şəkildə aqressiv münasibət yoxdur. Ən qəribə olan da budur ki, Yegnəyin atası Qazılıq Qocaya da bu mənfi münasibət gözə çarpmır. Görünür, mətn strukturunda Oğuz əhdinin pozulmasına qarşı çıxış edən tərəf kimi Basatla

birgə Yegnək də iştirak edir. Qazılıq Qocanın aqına getmək üçün Bayındır xandan icazə almasının əksinə olaraq Basatın aqına icazə almaması bu etirazın passiv-psixi reaksiyasını səciyyələndirir. Yegnəyin Qonur ata qarşı Turı atla çıxması da qeyd etdiyimiz kimi mətn boyu eyni situasiyanı işarələyir. Yegnəyin Qazana keşiş deməsi də bu antipatik münasibəti ortaya qoyur. Lakin Qonur atın üstünlüyü kafər üstünə getmək üçün IV boyda Qazan-Uruz dialoqunda da görünür. Kafərlərlə döyüşmək üçün atasından izn istəyən Uruz ona deyir:

Bərü gəlgil, ağam Qazan!
Qalqubanı yerimdən,
Bədəvi atım saqlardım bu gün içün (97, 70).

Qazan xan Uruza cavab verir:

Oğul, oğul, ay oğul!
Sən varası kafər degil.
Qalqubanı yerimdən mən turayım,
Qonur atın belinə mən binəyim,
Gələn kafər mənimdir, mən varayım (97, 70).

Kafərlərlə döyüşə getmək üçün bədəvi atla deyil, Qonur atla savaş açmağın vacibliyi Qazanın dilində qəhrəman səviyyəsində vurğulanır. Bədəvi sözünün lüğəvi izahı köçəri anlamı verdiyi üçün Qonur atın ona qarşı qoyulmasında Qonur at antonimi oturaq yurd anlamını işarələyir. Belə görünür ki, Qonur at Oğuz cəmiyyətinin oturaqlaşmış həyat tərzini göstərməklə ali idarəçilik təsisatının təyini kimi ortaya çıxmasının məntiqiliyini nümayiş etdirir. Ümumiyyətlə, DQK oğuzlarının həm köçəri olması, həmçinin köçəri olmaması, daha doğrusu, köçərilikdən oturaq həyata keçməsi mərhələsi DQK-də işarələnir. Oğuzların köçəriliyinə aid VIII boyda deyilir: “Oğuz bir gün yaylaya köçdi”, “Zəmanla Oğuz genə yaylaya köçdi” (97, 98). Lakin oğuzların eyni zamanda köçəri olmaması, əkinçilik və heyvandarlıq təsərrüfatlarının aşkar oturaq

həyat tərzinə uyğunluğu özünü göstərir. Şərab içkisindən istifadə üzümçülükdən xəbər verir. Gürcüstandan xərac alınması oturaq həyat tərzinin əlamətidir. Qoyun sürülərini Qaracıq Çoban, Qabangüc və Dəmirgüc kimi çobanlar vasitəsilə yaylaqda saxlayırlar. DQK-də zaman şərti olduğu üçün müxtəlif həyat tərzinin görüntüləri də bir arada mövcud ola bilir. Məhz köçəriliyin oturaqlıqla əvəzlənməsi bədəvi və Qonur atda da Qonur atın üstünlüyü assosasiyasında bu şəkildə işarələnir.

Uruz başqa bir yerdə Qazan xanın Qonur atsız düşmən əlində əsir gedə biləcəyindən narahatlıq keçirir və Qonur atın Koroğlunun Qırat funksiyasında olduğunun analogiyasını üzə çıxarır:

Xanım baba, qorxuram səgirdərkən,
Qonur atın sürücdirəsən,
Savaşdügin vəqtin kəndüni tutdurasan (97, 74).

Beləliklə, Qazan xan "Qonur atın ayası" olmaqla həm atüstü xalqlara məxsus etiketi-atın əhəmiyyətli rolunu göstərir, həmçinin üstün dərəcəyə malik olmasını rəsmiləşdirir. Oğuz mifinin paradiqması kimi epik səviyyədə aşkarlanan Qonur at Yegnəyin turı ayğırından daha geniş səviyyədə Oğuz paradiqması kimi çıxış edib Oğuz xanın savaşlarda minik vasitəsindən daha çox ayrılmaz hissəsi olan xallı ayğırının arxetipinə bağlanır. Oğuz Kağan dastanında xallı ayğırn buz dağında itməsi Oğuz xanın bir hissəsi olaraq onu yarım funksiyaya endirir. Məhz bu zaman göydən gələn işıq içində Tanrı müjdəsi olan, xilaskarlıq və mədəni qəhrəman funksiyasında iştirak edən boz qurd Buz dağın ətəyində peyda olur və Oğuz xaqanın yarım funksiyasını öz yarım funksiyası ilə tamamlayır (110, 19, 25). Qurd-at xilaskarlıq və qurtuluş funksiyasında eyni semantikada çıxış edir. Hətta qurd və atın hər ikisinin birgə funksiyası da bəzən struktur-semantik laylarda işarələnir. III boyda Dədə Qorqud Beyrəyə ad qoyduqda ona Bamsı

Beyrək demir, “Bunun adı Boz ayğırlıq Bamsı Beyrək olsun” deməklə ad semantikasında aşkar və kod səviyyəsində (Beyrək-Börü-qurd) at və qurdun birgə funksiyasını qanuniləşdirir. Buz dağında itən xallı ayğırın arxetip olaraq epik mətnlərdə motivlənməsi “Koroğlu” dastanında Qıratın qaçırılması, Düratın itməkliyi (101, 112-125, 196-97) DQK-də Qonur atın sürətini itirməsi situasiyasında daşınır. Belə ki, Qaracıq Çobanı ağaca bağlayan Qazan üç günlük yolu bir gündə gedən Qonur atı ilə Çoban ağacı kökündən çıxarana qədər ondan uzaqlaşa bilmir. Məhz Qazan situasiyada yarım funksiyada qalır. Qazan Qaracıq Çobana getməyə izn verdikdən sonra Qonur at funksiyasını bərpa edir. Məhz bu ərəfədə Qarıcıq Çoban Boz qurd funksiyasında iştirak edən antropomorfistik obraza çevrilir. Qazanın önünə düşüb ona yolu göstərir. Təbiidir ki, epik zaman dəqiq zaman deyil. Boz qurdun Buz dağında əvvəldə olması və Oğuz xaqanın ayğırının daha sonra buz dağında itməsi də, Qonur atın sürətdən qalıb Çobanın ağaca yüklənib onları keçməsi də epik tələbatın öz spesifikasından doğur. Geriyə gələn zamanla anlamların mahiyyətcə təsdiqi reallaşır. Ən müxtəlif zaman göstərgələri epik-mifoloji səviyyələri ən müxtəlif şəkillərdə sərgiləyə bilir. Qonur atın xallı ayğıra və boz qurdla əlaqəli funksiyaya bağlanması da onun arxaik qatlardan yol alıb gəldiyindən xəbər verir və ən rəngarəng situasiya və funksiyalarda proyeksiyalanır.

### 7. Xan Uruzın ağası

Qazan xan obrazının mifoloji strukturunun öyrənilməsi istiqamətində “**Xan Uruzın ağası”** qəlib modelinin təhlili göstərir ki, bu ilk növbədə soy və mənsəb işarəsidir. Ali təsisatı ifadə edir. Bu təyinin oxunuşunda ciddi fikir ayrılıqları yoxdur. H.Araslı, Ş.Cəmşidov, M.Ergin, F.Zeynalov, S.Əlizadə II boy-

da “Xan Uruzun ağası”, III boyda “Xan Uruzun babası” kimi oxumuşlar (96, 31, 65; 98, 30, 62; 137, 95;144; 97, 42, 63). O.Ş.Gökyay isə hər iki boyda “Xan Uruzun babası” kimi oxumuşdur (140, 16, 51). Qeyd edək ki, O.Ş.Gökyay istisna olmaqla əlyazma oxunuşu mətnə uyğun aparılmışdır (99, 511 (110).

Yalnız bu təyinin birinci tərəfini təşkil edən “Uruz” sözünün ismin yiyəlik halı üzrə oxunuşunda F.Zeynalov, S.Əlizadə digər alimlərdən fərqli oxunuş nümayiş etdirmiş bir hərf fərqi ilə (u-ı) “Xan Uruzun ağası” təyinini, Xan Uruzın ağası” kimi oxumuşlar (97, 42). Əlyazmada “re” hərfindən sonra “u”, yaxud “ı” səsini bildirən vav, ye işarəsi olmadığı və hərəkətsiz olduğu üçün hər iki şəkildə oxunması mümkündür (99, 586, 85 (35-36).

“Xan uruzun ağası” təyini yalnız Qazan xanın oğlunu ifadə etmək üçün xan öyüncləri cərgəsində yer alır. Lakin Qazan xana məxsus olan bu təyin Bayındırı da təyinlərin şərikli tərəfi kimi assosiasiya edir. Çünki Bayındır xan da Xan Uruzun babasıdır. Elə bu təyin III boyda Osmanlı türkcəsinə uyğun olaraq “Xan Uruzun ağası” deyil, “Xan Uruzun babası” şəklində əlyazma nüsxəsində işlənmişdir (99, 511 (110). Ancaq Azərbaycan türkcəsində oxunarsa, bu söz ata mənasında deyil, baba mənasında da işlənə bilər. Təbiidir ki, biz bu oxunuşu iddia etmirik. Mətn bu sözün Qazan xana ünvanlanan Osmanlı türkcəsinə uyğun “ata” sözünü aydın göstərir. Lakin Bayındır xan təyinlərin şərik tərəfi və Xan Uruzun babası olduğuna görə bu təyin sözlüklərin fərqli dil faktını situativ fakta çevirərək Qazanla birgə Bayındırı da göz önünə gətirir.

Bir mətndə Azərbaycan, İran və osmanlı türkcəsinə uyğun leksik bazanın nümayiş olunması bizə imkan verir ki, bu təyinin VII boyda Bayındıra da aid edilməsi və Azərbaycan türkcəsinə uyğun olaraq Bayındırı “Xan Uruzun babası” adlandıra bilməyin mümkünlüyündən söhbət açaq. Ağa sözü DQK-də bir neçə

anlamda diqqət çəkir. Mənsəb, ata, böyük qardaş və s. Qazan xan Oğuz elinin başçısı olduğu üçün Oğuz bəyləri onu "ağam Qazan" çağırır (97, 49, 45). Uruz Qazan xana ata kimi "ağam Qazan" deyə xitab edir (97, 68). Xüsusilə ataya ağa kimi müraciət edilməsi II boyda Burla xatunun Uruza "ağan Qazan" deməsində aydın görünür (97, 47). III boyda Beyrəyin qız qardaşı (bacısı) Beyrəyi qiyabi şəkildə də "ağam Beyrək" adlandırır ki, məhz bu ifadə də ağa müraciət formasının və mənsəb işarəsinin hörmət, izzət anlamında olduğunu açıqlayır (97, 61).

Demək, Qazan xan "Xan Uruzın ağası" olmaqla titul yiyəsi və hörmət sahibi kimi həm tutduğu mövqeyə görə, həm ata olduğuna görə xan Uruzun ağasıdır. Eyni zamanda ata olmaq soy daşıyıcılığında iştirak etmək Oğuz düşüncəsində vacib faktordur. Dirsə, Baybican, Baybörə obrazlarında bu aktın əhəmiyyəti aydın görünür. Eyni zamanda titul baxımından da Qazan xan məhz bəy Uruzun deyil, xan Uruzun ağası olmaqla xanlar xanı dərəcəsi bu ifadədə klişeləşir. Ən əsası isə bu təyinin təsadüfi olmaması, xan Uruzun Oğuz iyerarxik sistemində çox əhəmiyyətli mövqe tutması və gələcəkdə daha böyük mövqe əldə edəcəyi, bir sözlə Qalın Oğuzda Uruz statusunun xüsusi formada mövcudluğu bütün DQK boylarında mətnüstü və mətnaltı məlumat səviyyəsində daşınır. Biz xan öyüncləri təyini ilə bağlı bir neçə mifologem aşkarlamışıq. Lakin bu təyinlə bağlı aşkarlanacaq süjet altındakı süjet DQK süjetinin alt laylarında başqa süjetlərin mövcudluğundan xəbər verir. Biz qeyd etmişdik ki, bütün DQK boyları boyunca strukturda mövcud olan ziddiyyət – Uçoq-Bozoq qarşıdurması açıq və gizli, ifadə və kod səviyyəsində davam etməkdədir. Məhz bu qarşıdurmanın ən şiddətli tərəfi kimi Qazan-Uruz-Aruz münasibətləri epik səviyyələrdə aşkarlanır. Uruz Qazan xanın varisi olaraq siyasi hakimiyyət uğrunda mübarizənin faktiki tərəfi kimi səciyyələnir. Uruzun gələcəkdə Qalın Oğuzun şəriksiz

başçısı olacağı Qalın Oğuzda ikili hakimiyyət strukturunun bir şəxsin əlində cəmləşəcəyi mətn strukturunda işarələnir. Bir boy səviyyəsində boy-boy sonluğun reallaşmasının Qazan-Uruz iddiaçı tərəfi kimi, Aruz və s. obrazlar isə bu təhlükənin qarşısının alınmasına can atan antiqüvvə olaraq diqqət çəkir. Əsərin son boyundakı İç Oğuz (Uçoq) Dış Oğuz (Bozoq) savaşında Qazan xanın qalib, Aruz bəyin isə məğlub olması müxtəlif səviyyələri ifadə etməklə bərabər bir mətnaltı süjeti aşkara çıxarır. Dastanın Qazanın qələbəsi ilə sona çatması kitabdan sonrakı dövrdə Uruz xanın Bayındır və Qazan xanı əvəzləyib Oğuz qövmünün (Qalın Oğuzun) xan-xaqan statusunu, iyerarxik strukturun ən uca pilləsini əldə edəcəyinə işarədir. Məhz gələcək diqtəsi XI, XII boylarda dinamik səviyyədə özünü göstərir. XI boyda bütün alpları yenən Qazan Uruza məğlub olur, aman diləyib onu Alp Uruz, Aslan Uruz adlandırır (97, 121). Bu situasiyada üç səviyyə işarələnir:

1. Uruz alplar alpıdır. Qazan xanın qazilik funksiyasını xaqan olduqda da davam etdirəcək;
2. Uruz aslandır, xaqan olacağına işarə edilir;
3. Uruz Qazan üzərində qalibdir.

Bu məğlubiyyət deyil, əvəzlənmənin dialektik nəticəsidir. Əvəzləyənin özündən əvvəlkindən daha keyfiyyətli olmasını göstərir. Qocalığın və gəncliyin qarşılaşmasında gənclik zamanının labüd qələbəsini inikas edir. Bu həyatın qanunu, cəmiyyətin inkişafı, gələcəkdəki Oğuz qövmünün daha uğurlu surəti, modelidir. Atalar və oğullar motivi bütün dünya xalqlarının mifologiyasında, folklor və yazılı örnəklərində bu anlamları ifadə edir. DQK-də isə bu motiv az qala bütün boyları əhatələyib struktur təşkil etməklə müxtəlif modellərdə proyeksiyalanır. DQK boylarının ad semantemi atalar və oğulların obraz ansamblında aydın nəzərə çarpır. “Dirsə xan oğlı Buğac” (I boy), “Qambörənin oğlı Bamsı Beyrək” (III boy),

Qazan bəg oğlı Uruz bəg" (IV boy), Duxa Qoca oğlı Dəli Domrul" ( V boy), "Qanlı Qoca oğlı Qanturalı" ( VI boy), "Qazılıq Qoca oğlu Yegnək" (VII boy) Bəkil oğlı Əmran" (IX boy), "Uşun Qoca oğlı Səgrək" (X boy) kimi boy adlarının başlanğıc hissələri bunu aydın şəkildə göstərir ( 97).

Bundan əlavə Basatın XII boyda "Aruz oğlı Basat" adlanması, bəylərin boy sonlarında kafər məkanında Qazana yetişməsi sonluğunda xüsusi olaraq adları ilə sadalanan Oğuz ərənlərindən "Qıyan Səlcük oğlı Dəli Dondaz", "Qaragünə oğlı Qarabudaq", "Ğəflət oğlı Şir Şəmsəddin", "İlək Qoca oğlı Alb Ərən" (97, 49, 50, 77, 125) və s. alp ərənlərin ataları ilə birgə adlanması, xüsusilə də atalara nisbətən oğulların daha pafoslu epitetlərlə diqqət çəkməsi bu motivin eposda xüsusi ağırlıq təşkil etməsindən xəbər verir.

Uruzun qələbəsi yalnız Qazan üzərində deyil, bütün Oğuz ərənləri üzərində olmaqla ali statusu müəyyən edir. Dastanın müqəddiməsində qeyd etdiyimiz kimi, Dədə Qorqudun "Axır zəmanda xanlıq gerü – Qayıya dəgə, kimsənə əllərindən almıya" (97, 31) deməsi kitabdan sonra yenə də Bozoq boyundan olan Qayı tayfasının qalın Oğuza hakim ola bilməyəcəyindən narahatlıq keçirməsini göstərir. Aruzun Bayındır xandan sonra xaqanlığı almağa meylli şəxs olması strukturda işarə səviyyəsində saxlanır. Aruzun oğlu Basata "xan" olaraq müraciət olunması (97, 100) anasının Qağan aslan olaraq bilinməsi, yalnız Qağan ifadəsinin bu söz birləşməsində üzə çıxması Aruzun da ali pillədə bəy statusundan yuxarıda dayanmaq iddiasının təsadüfi olmadığını göstərir. Aruz-Qazan arasındakı mübarizə əsərin əvvəlində şüuraltı dinamikanın gizli simtomlarını daşıyırsa, sonunda artıq bu qarşıdurma şəklində üzə çıxır. Situasiyada bəhanə gizli enerji əksliyini aşkara çıxaran fakta çevrilir. Diqqət edin, II boyda ov ovlamağa çıxan Qazandan Aruz "ordun (un) üstünə kimi qo(yu)rsan?"

soruşmaqla gizli hakimiyyət hərisliyinin qığılcımvari işartılarını ortaya çıxarırsa, Qazan xan "Oğlum Uruz" deməklə sözsüz danışdıqda öz qəti cavabını verir (97, 42). İndiki siyasi terminlə bildirməli olsaq tərəflər arasında diplomatik dialoq baş verir. Diqqət edilsə, bu yerdə Aruz bəy Uruz Qoca adlanır. Əlyazma nüsxəsində də bu yerdə məhz Aruz deyil, Uruz yazılır (99, 584 (37). Halbuki başqa yerdə, xüsusilə də başı kəsiləndə o, Uruz kimi deyil, Aruz kimi əlyazma yazılışı ilə diqqət çəkir (99, 318 (303). Uruza qarşı etimadsızlıq nümayiş etdirən Aruzun Qoca Uruz adlandırılması mənfi-müsbət anlayışında müsbətin qələbəsi, fəlsəfi zaman anlayışında təzələnmənin labüdlüyünü binar oppozisiyada üzə çıxarır. Bundan əlavə Uruz qocanın atağuzlu, Uruz xanın isə "Aslan Uruz" adlanması zoomorfist simvolikada Aruzun xtonikliyini, Uruzun isə xaqanlığını zooanaloji şəkildə diqqətə çatdırır. Aslan üzərində qələbə çalıb aslan olan Uruz arxasını Qağan Aslan qağanlığına söykəyən Aruzun gizli ambisiyalarına cavab verir, aslan statusunun özünəməxsusluğunu təsdiq edir. Uruz bu davranış kompleksi ilə Aruzun ümumi qanunauyğunluğa zidd, affektiv-emosional qıcığına effektiv reaksiya verir. Reflekslərin dinamikası ifadəsiz mübarizədən get-gedə şüurlu prosesin rasional ifadəsinə, iradi fəaliyyətin qarşıdurmasına çevrilir. Bu qarşıdurma bütün boylar boyu gizli, son boyda isə aşkar şəkildə cərəyan edir. Uruzun Qazandan və Aruzdan üstünlüyü gələcəyi işarələdiyi kimi Aruz ən az halda Qoca Uruz olaraq Cavan Uruza məğlub göründüyü üçün eyni situasiya Aruz oğlu üzərinə köçürülə bilər. Çünki məhz Bozoq-Uçoq mübarizəsinin xronotop qarşılaşmasında gənc Uruzla gənc Basatın üz-üzə gəlməsi labüddür. Elə buna görə də II boyda Aruzla müqayisə edilən Uruz, XII boyda Basatla qarşılaşdırılır. İki oğul arasında diakritik işarələnmə Uruzun Basatdan

üstünlüyünü səciyyələndirir. Özü də bu üstünlük namus səviyyəsində Beyrəyin Qazana vəsiyyətində təsdiqlənir:

Ağca yüzlü görklimi Aruz oğlı Basat gəlüb almadın,
Elüm, günim çapmadın,
Qazan mana yetişsün,
Mənim qanım Aruza qomasun,
Ağca yüzlü görklümi oğlına alı versün (97, 125).

Elə eyni yerdə Beyrək görklüsünü Aruz oğlu Basatın zorla ala bilməsindən qorxu keçirir. Basatın zorakılığı (xtonikliyi), Uruzun isə namusluluğu (sakrallığı) onu Basatdan üstün səviyyəyə qaldırır. Ümumiyyətlə, Uruz eposda ağlın (xaqanlığın) qüvvətin (alplığın) və namusun (əxlaqın) təcəssümü kimi işarələnir. Qazanın IV boyda baş kəsib, qan tökməyən oğluna qınağına Uruz:

A bəg baba!
Dəvəcə böyümişsən, köşəkcə əqlin yoq!
Dəpəcə böyimişsən, tarıca beynin yoq!
Hünəri oğul atadanmı görər, ögrənər,
Yoxsa atalar oğuldanmı ögrənür?
Qaçan sən məni alub kafər sərhəddinə çıqardın,
Qılıc çalub, baş kəsdin,
Mən səndən nə gördüm, nə ögrənim? –

deməsilə Qazanı fakt qarşısında təslim edir (97, 69). Ata-oğul davranışına uyğun gəlməyən bu kobud ifadə (türkün sözü) sözün düzünün türk əxlaqında hər şeydən üstün olmasına işarə vurmaqla bərabər Uruz-Qazan qarşılaşmasında – Uruz (gənclik) Qazan (qocalıq) kimi eyni anlamları ifadə edən təkrar anlayışları, fərqli situasiyaları ortaya çıxarır, Uruzun üstünlüyünü şərtləndirir. Eyni mahiyyətdə olan qarşılaşma həmin boyun sonunda daha kövrək notlarla davam edir. Oğul sevgisindən kor-koranə düşmən üstünə tək gələn Qazana oğlu Uruz geri qayıtmağı məsləhət görür. Uruz:

Qayıduban, baba, gerü döngil!
Altun ban evinə sürüb varğıl!
Qarıcıq olmuş anama umud olğıl!
Qara gözlü qız qartaşumı aglatmağıl!
Qarıcıq olmuş anamı sızlatmağıl!
Oğul içün ata ölmək eyb olur,
Yaradan haqqı içün, baba,
Qayıda döngil, evə varğıl! (97, 74,75) –

deyir və hətta Allaha and verməklə Qazan xana təsir edib onun geri qayıtmasına nail olmaq istəyir. Bunun nəticəsi olmadıqda Qazanın qəlbindəki atalıq mehrini zəiflədib onu xilas etməyə çalışır, vəziyyəti düzgün qiymətləndirməyə çağırır:

Bəg ərənlər əsən olsa oğlı toğar,
Sən əsən ol, anam əsən olsun,
Məndən yegrək Qadir sizə oğul verər” (97, 75).

Atalıq duyğusundan gözü tutulan Qazan bu kor-koranəliyinə gözünə dəyən qılıncla əvəz alır. “Gözi qapağına qılıc toqındı. Qara qanı şorladı, gözünə endi” (97, 76). Qara qanın gözünə dolması oğul sevgisindən qüvvəsini hesablaya bilməyən Qazanın məğlub olmasına işarədir. Məhz Oğuz ərənlərinin ənənəvi yetişməsi Qazana – Uruzun hesabladığı kimi məğlubiyyət acısından qurtulmağa yardım edir, eyni zamanda onun yalnız oğul atası deyil, həmçinin elat xanı olduğunu, Uruzun çağırdığı soyuqqanlı mühakiməyə ehtiyacı olduğunu nəzərə çatdırır. Əgər Qazan bu vəziyyətdə yalnız ata fədakarlığı göstərirsə, Uruz həm ağıl nümayiş etdirir, həm də oğul fədakarlığı göstərir. Bu fədakarlığı Uruz hələ II boyda Burla xatunla söyləşməsində (qarşılaşmasında) başqa bir vəziyyətdə ifadə edir. Bu boyda namusunu qurtarmağa çalışan Uruzun ağıl və fədakarlığı namusun ana-oğul duyğusundan (mehrindən) üstün olduğunu nümayiş etdirirsə (97, 47), sonrakı boyda

(IV boy) atanın oğuldan üstün olduğunun görüntüsünü yaradır. Hər iki halda qurban oğuldur. Burada II boyda ana, IV boyda ata namus səviyyəsinə qaldırılır.

II boyda ətinin çəngələ çəkilməsinə, qara qovurma edilməsinə dəyanət göstərən Uruz "Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsinlər, tuymasınlar" (97, 47) – deməklə ananı oğul ətindən yeməyə, lakin namusunu saxlamağa çağırırsa, "Oğul içün ata ölmək eyb olur" deməklə atanı namus inancı hesab edib bu inancı qorumağa çalışır. Təsadüfi deyil ki, yuxarıda göstərdiyimiz soylamada (97, 74,75) Uruz Qazan xana ananın və bacının (qız qardaşın) qorunmasını xatırladır və bunun üçün özünü qurban verməyə hazır olduğunu bəyan edir. Beləliklə Uruz heç bir obrazın bu səviyyədə özü kimi namus mücəssəməsi olmadığını sübut edir. Elə bu səbəbdən də Beyrək görklüsünün Uruza getməsini vəsiyyət edir. XI boyda Uruzun Qazan üzərində qələbəsi (97, 21) onun yalnız ağlın və namusun deyil, həmçinin güc-qüvvənin təmsilçisi olduğunu modelləşdirir. Qeyd etdiyimiz kimi, bu keyfiyyətlər Uruzu gələcək xaqan kimi işarələyir. Ağlı ilə Oğuz dövlətinin idarə olunması, gücü ilə Oğuz soyunun namus və şərəfinin qorunması, namusu ilə daxili münasibətlərdə əmin-amanlıq yaradılması və yaxud yaradılacağı işarələnir.

Boylardakı gizli informasiya Uruzu xaqan (alp, ərən) kimi işarələməklə onu əlimizdəki dastan variantından sonraki dövrdə taxta sahib çıxacaq şəxs kimi xarakterizə edir. Ayrı-ayrı işarələr səviyyəsində xaqan olaraq işarələnən Uruz süjetaltı süjet səviyyəsində də eyni anlamda iştirak edir. Qeyd etdiyimiz kimi, II boyda Aruz ordunun üstünə kimin qoyulmasını soruşanda Qazan xan ona "oğlum Uruz" deməklə, özündən sonra başçı olaraq Uruzu gördüyünü söyləyir. Təsadüfi deyil ki, bu gizli qarşıdurma "Salur Qazanın evinin yağmalandığı boyı bəyan edər" başlığı altında olan II boyda baş verirsə,

məhz aşkar qarşıdurma da sonuncu boyda "Qazan xanın evini yağmalatması, Aruzu (Bozoqu) bu yağmalatmaya çağırmaması" bəhanəsi zəminində baş verir (97, 123). Bu bir tərəfdən Aruz üçün bəhanədirsə, digər tərəfdən bu bəhanəyə əsas verəcək səbəbin olması ortaya çıxır. Artıq hər iki tərəf sözsüz danışıqla aşkar mübarizəyə hazırlaşır.

Qazan xan IV boyda (Uruzun dustaq olduğu boy) gələcək hakimiyyət üçün narahatlığını üzə çıxarır ki, sətir altında yenə də Aruzun həris baxışları nəzərə çarpır. Bu boyda Qazan xan oğlu Uruza, "Yarınkı gün zəman dönib, bən ölib sən qalıcaq, tacım-taxtım sana vermiyələr, – deyü sonımı andım, ağladım oğul!" – (97, 69) deməklə az qala bu mübarizədə məğlub olacağını, ümidsizliyini ifadə edir. Qazan xanın narahatlığına səbəb olan təəssürat oğlu Uruzun baş kəsib, qan tökməməsi, yəni igidlik göstərməməsidir. Elə bu yerdə Qazan xan Uruzu qardaşı Qaragünə və dayısı Aruz ilə müqayisə edir. "Oğlı Uruz qarşusında yay söykənib turardı. Sağ yanında qardaşı Qaragünə otırmışdı. Sol yanında tayısı Uruz otırmışdı. Qazan sağına baxdı, qas-qas güldi. Solına baqdı çoq sevindi. Qarşusına baqdı, oğlancığını – Uruzı gördi. Əlin əlinə çaldı, ağladı" (97, 68). Çünki baş kəsməyib qan tökməyən Uruz ilə baş kəsib qan tökən ərənlərin qarşılaşması məqamında Uruzun məğlub olacağından narahatlıq keçirir. Toplumun min illlər boyu formalaşan mentalitetindəki qanunları nəzərə almamaq toplumun seçimindəki məğlubiyyət zərurətini ortaya çıxarır. Çünki toplum qəhrəmana, xana, xaqana hər şeyi bağışlaya bilər, şüuraltı düşüncədən gələn yazılmamış qanunların adət səviyyəsində olan davranış normalarının pozulmasını isə bağışlaya bilməz. Elə buna görə də baş kəsib qan tökməyən, yəni bunu diqqətdən qaçıran Uruz üçün atası Qazan xan çox narahatdır.

Bu məğlubiyyət ehtimalında iki əsas real şəxs kimi qələbə imkanlarının mümkünlüyü nəzərə çarpan rəqiblərdən birin-

cisi Qaragünə ikinci şəxsə, – Aruza qarşı Qazan xanın tərəfindədir. Əksinə, siyasi baxışların təmin olunması üçün iki rəqib birləşib daha güclü rəqibi aradan götürməli, sonra bir-biri ilə mübarizədə taxta sahib çıxmaq üçün çarpışmalı idilər. Lakin Qaragünənin siyasi hakimiyyət şansından imtina edib Qazana güzəşt etməsi Aruz bəyi bu mübarizədə tək qoyur. Elə buna görə də sonuncu boy Qazan xanın qələbəsi, Aruz bəyin məğlubiyyəti ilə sona çatır. Qazan xanın məğlub etdiyi Aruzun başını Qaragünəyə kəsdirməsi bir tərəfdən real namizədlərin və onların pərdə arxasındakı qüvvələrinin (sosial bazasının) gələcək ittifaqının mümkünlüyünə bir dəfəlik son qoyursa, digər tərəfdən Qaragünənin Qazan xanın "qılıncı" olduğunu pərdə arxası oyunlarda fəallaşmağa meylli olan qüvvələrə nümayiş etdirir. Qaragünəni siyasi rəhbər seçməyə çalışa biləcək Aruzsuz qalan güclərə Aruzun başını Qaragünəyə kəsdirməklə Qazan xan mənəvi-psixoloji baryer yaradır. Qazan xanın sağ və sol yanında oturan, Uruz ilə müqayisə edilən və onların hesabına Uruzun taxt-taca yiyələnə bilməyəcəyindən narahatlıq keçirib ağlayan Qazan son nəticədə Qaragünənin və Aruzun müxtəlif davranışlarla meydandan çıxmasıyla Uruz üzərindəki qələbə ehtimalını sıfıra endirir.

IV boyda Qazan xanın şübhələrini puç edib alnıaçıq çıxan Uruz nəinki onun etimadını doğruldur, XI boyda Qazan xanın özünə qalib gəlməklə xan (xaqan) statusuna ən layiqli şəxs olduğunu aşkara çıxarır. Lakin buna baxmayaraq Qazan xanın narahatlığı kitab boyu davam edir. Bu narahatlığa yalnız bir az qabaq qeyd etdiyimiz kimi, Aruzun başı kəsildikdən sonra son qoyulur. Əgər II boyda Qazan xanın evinin yağmalanmasında Aruz bəyin "ordun (un) üstünə kimi qo(yu)rsan" ifadəsindəki hakimiyyət hərisliyi özünü göstərirsə, "Oğlum Uruz" cavabında onun meydana çıxa biləcək ambisiyalarının əngəllənməsinə qabaqlayıcı çeviklik nümayiş olunursa, məhz

Qazan xanın evinin yağmalanmasında Uruzun buna mane ola bilməməsi Qazan xandan işarəvi formada gələn "taxta hazır şəxs" iddiasını kölgə altında qoyur. Elə Qazan xanın IV boydakı narahatlığının səbəblərindən biri kimi II boyda baş verən bu hadisə ciddi rol oynayır. XI boyda isə Qazan xan üzərində Uruzun qələbəsi hakimiyyətə hazır olmasını təsdiq edir. Məhz bu yəqinlikdə Aruzun gizli mübarizəsi aşkar mübarizəyə çevrilir. Qazan xanın özü tərəfindən evinin yağmalanmasına Aruzun çağrılmaması Qazan xanın evinin düşmən tərəfindən yağmalanmasında "taxta varis şəxs" üzərində Aruzun qalib görünməsindən şüurda fakta çevrilən psixoloji-ekspressivliyin təsdiqlənməsi ilə bərabər, bu yağmanın Qazan xanın özü tərəfindən edilməsi artıq hafizədəki yağmalanma məğlubiyyətinin mənfi çalarını müsbət anlama çevirmək cəhdidir. Bu psixoloji gərginliyin götürülməsi üçün bu cəhd ümumi rəyə çevirmək niyyəti ilə həmişə olduğu kimi adət-ənənə çərçivəsində ("Qazan evin yağmaladardı") edilir. Bu yağmalatma ritual olsa da, məqsədlərin həyata keçməsi üçün vaxtına düşən bəhanə olur. Ümumiyyətlə, hər siyasi davranışın bir neçə hadisə, münasibət, pərdəarxası münaqişədən doğan mübarizə nəticəsi olur ki, bütün bu məqsədlər ümumi-kütləvi planda həyata keçirilir. Mərasim, tədbir və s. həm də öz vaxtında zahiri ünsürlərini meydana çıxarmaqla bərabər gizli məqsədlər üçün vasitəyə çevrilir. Yəni baş verən hər situasiyadan bəhrələnmə imkanları geniş olur və bu heç kəsdə zahiri məna görüntülərindən əlavə şübhə doğurmur. Hətta doğursa belə, sabit fikrə çevrilə bilmir. Çünki emosiyaların qızışması təhliledici fikri (intellektuallığı) zəiflədir. O.Ş.Gökyay F.Köprülüyə istinadən yazır ki, o, yağmalanma gələnəyinin "reisin hakimiyyetini berkiten başlıca vasıta olduğunu söylemekdedir" (140, CCC XIII).

Qazanın Uruza, Aruzun Qazana məğlubiyyəti gələcək seçimi müəyyənləşdirir. Mətndəki sətraltı informasiyalar, as-

sosiativ bilgilər sonda Uruzun xaqanlığı əvəzləyəcəyini bildirir. Biz qeyd etmişdik ki, sağda durmaq, sağda oturmaq hakimiyyət təmsilçiliyini ifadə edir. Sağ yerin Bozoqlardan alınıb Uçoqlara verilməsi, əksinə Uçoqların sol yerinin Bozoqlara ötürülməsi dastanda ciddi qarşıdurma yaratmaqdadır. Məhz dastanda Uruz bəyin Bayındır xanın sağ yanında yer tutması onun Bayındır xandan sonra xaqanlığı əvəzləyəcəyinə daha bir işarədir. "Bayındır xanın...sağ yanında Qazan oğlı Uruz turmış idi" (97, 52).

"Sağ yanın" hakimiyyət mövqeyi kimi divan quruluşuna aid iyerarxik pillə olduğu aydın olduğu üçün dastanda yalnız üç şəxsin sağ və sol tərəfində dayanmaq imtiyazı mövcuddur. Təbiidir ki, bu Qalın Oğuzun siyasi təşkilat quruluşunun əsasını təşkil edən mənsəb səviyyəsi olduğu üçün bu üç şəxs Oğuz elinin hakimləridir. Bu üç şəxsin ikisinin – Bayındır və Qazanın iki ali idarəçilik sisteminin idarəçiləri olduğu məlumdur. Bəs üçüncü şəxs olan Uruz xanın sağında dayanmaq şərəfi nəyi ifadə edir. O ki, mövcud situasiyada hakim deyildir. Xan titulunda olması və sağ yanında yüksək dərəcə alan igidlərin yerləşdirilməsi məhz Uruz bəyin gələcək xaqanlığını göstərir. Məhz Bayındırın sağında olduğuna görə Bayındırdan sonra sağ olaraq hakim pilləni tutacaq. Uruzun sağ tərəfində yerləşən ərən də gələcək ali idarə üsulunda Uruzun indiki statusunda olacaqdır. Dastanda aydın görünür ki, Bəkil oğlu Əmranın yüksək dərəcə qazanması və mükafatlandırılması onun Uruzun sağ yanında yer almasıdır. "Padşah Qazan oğlı Uruzın sağ yanına ana yer göstərdi" (97, 109). Çox maraqlıdır ki, DQK-də sağ tərəfin hakimlik pilləsi Uçoqların xeyrinə mənimsənilmiş, lakin əsgəri cinah, döyüşçü-alp mövqeyi Oğuz əhdinə uyğun şəkildə saxlanmışdır. Bütün döyüşlərdə sağ tərəf Bozoqların, sol tərəf Uçoqlarındır: "Daş Oğuz bəglə-

rilə Dəli Tondaz sağdan dəpdi. Cilasun yigitlərlə Qaragünə oğlı Dəli Budaq soldan dəpdi” (97, 50, 77).

Görünür, hakimiyyət elitasında sağ yerin götürülməsinin əvəzinə ordu strukturunda sağ yerin Bozoqlarda saxlanması siyasi stabilliyin qorunmasını təmin etməkdən ötrüdür. Elə “Oğuz Kağan” dastanında sağ və sol yerlərin böyük orduda müəyyənləşdirilməsi yazılır (110, 33). F.Rəşidəddin də yerlərin və rütbələrin təyin olunmasını Oğuz xanın “Orduda öz yerlərini və rütbələrini bilməlidirlər” yasası ilə aydınlaşdırır (115, 37). Qəzavatçılıq və alpçılıq fütuhatı ilə tarixdə görünən atüstü türk qövmləri iyerarxik strukturu məhz ordu intizamı üzərində qurmuşdur. Sanki Uçoqlar tərəfindən orduda sağ yerlərin Bozoqlara verilməsi bir tərəfdən Oğuz yasasının toxunulmazlığını və buna qarşı siyasi təcavüzün baş verməməsini göstərmək üçün, digər tərəfdən isə orduya da nəzarət edən faktiki hakim idarəçilikdə sağ yerin Uçoqlara verilməsinin Oğuz əhdi ilə ziddiyyət təşkil etmədiyinə diqqət çəkmək məqsədindən irəli gəlir. Lakin ordunun özünə də tam nəzarət Bozoqlara verilmir, bu aldadıcı taktiki addım kimi müəyyənləşdirilir. Elə bu səbəbdən də Aruz Qazana “Ordun (un) üstünə kimi qo (yu) rsan?” sualını verdikdə Qazan oğlum Uruz deməklə orduda sağ yerin Bozoqlara verildiyi halda “ordu üstü mərtəbədə” Uçoq nəzarəti olduğuna diqqət çəkir. Eyni boyda Bozoqlar sağ, Uçoqlar sol tərəfdə savaşdığı halda mərkəzdə Qazanın döyüşdüyü görünür. “Qazan dopa dəpdi” (97, 50, 77). Dopun izahlı lüğətdə mərkəz anlamı verdiyi açıqlanır (99, 148). Əgər eyni yerdə Dış Oğuzun yalnız sağda döyüşdüyü görünürsə, iç Oğuzun Qaragünə oğlu Qarabudaq təmsilçiliyi ilə həm solda, həm də Qazan xanla birlikdə mərkəzdə döyüşdüyünə nəzər yetirilir. “ İç Oğuz bəglərilə Qazan dopa dəpdi” (97, 50).

Onu da qeyd edək ki, Uruzun dastan boyu taxta varis kimi səciyyələnməsi müqabilində taxta iddialı şəxs kimi səciy-

yələnən Aruz praqmatik anlamda məğlubiyyətə məhkumdur. Çünki siyasi baxışları mənəvi davranışları ilə ziddiyyət təşkil edir. Aruzun məğlubiyyətinin əsas səbəbi də elə siyasi əxlaq nümayiş etdirə bilməməsidir. Bamsı Beyrəyin öldürülməsi Aruzun hakimiyyət uğrunda mübarizədə bütün vasitələrdən istifadə etməyin mümkünlüyünə əsaslanan baxışlarının eybəcərliyini ifşa edir və mənəvi silahını (yağmaya çağırılmaması) əlindən alır. Məhz işarələnən situasiya bu gizli və aşkar qarşıdurmada Qazan (gələcəkdə Uruz) qələbəsinin ədalətli, xanlığının (xaqanlığının) uğurlu olmasını şərtləndirir.

Beləliklə, Qazan xanın "Xan Uruzın ağası" təyini xaqan Bayındırdan sonra xaqan olacaq Uruzun atası olaraq xan Qazanın yüksək statusunu göstərir. Bu anlamda bu öyünc xan öyüncü cərgəsinə daxil olur, "Xan Uruzın ağası" xaqan atası anlaminda işlənir və xan Uruzun ağası olmaq xüsusi bir dərəcəni müəyyən etdiyi üçün xan təyinləri arasında yer alır. Oğuz mifinin paradiqmatik təzahürü olaraq bu təyin kosmoloji-etnoqonik Oğuz strukturunun soy aktı üzərində dayanmasından qaynaqlanır.

### 8. Bayındır xanın göygüsi

Qazan xanın mifoloji semantikasını açıqlayan "**Bayındır xanın göygüsi**" antropoqəlibi ilk növbədə qövmi mənsubiyyət (əqrəbalıq) işarəsidr, status göstəricisidir. Bu söz birləşməsinin üçüncü tərəfi alimlər tərəfindən müxtəlif cür oxunmuşdur. H.Araslı göyküsü, Ş.Cəmşidov köygüsü, S.Əlizadə F.Zeynalovla birlikdə göygüsi, S.Əlizadə digər oxunuşa əsasən güyəgisi, O.Ş.Gökyay güyegüsü, M.Ergin güyegüsi şəklində oxumuşlar (96, 31; 98, 30; 97, 42; 99, 93; 140, 16; 137, 95). Bu sözün I, IV boyda, xüsusilə də XII boyda Aruz dilində təkrar işlənməsi ilə və eləcə də II boyda əlyazma nüsxəsində, yalnız I boyda bir vav

çatışmazlığı, yaxud düşməsi istisna olmaqla, sözün kökü hər yerdə eyni şəkildə yazıldığı halda (kaf, vav, ye, kaf, vav) (99, 597 (24), 485 (136), 326 (295), 585 (36) fərqli oxunulmuşdur. Hətta S.Əlizadə II boyda güyəgisi oxuduğu halda III-IV boylarda göygüsi, XII boyda yenə bir hərf dəyişikliyi ilə güyəgüsi şəklində oxuyur. Eyni sözü H.Araslı XII boyda göyekü, Ş.Cəmşidov göygü, F.Zeynalov, S.Əlizadə güyəgü şəklində oxumaqla gördüyümüz kimi II boy oxunuşundan XII boy oxunuşunu fərqli təqdim etmişlər (96, 155; 98, 146; 97, 124). Lakin bu söz gaf hərfi ilə göygüsi, güyəgüsi və s. deyil, kaf hərfi ilə küyəküsi (sözün kökü "küyəkü"dür) şəklində oxunmalıdır. Məlumdur ki, əksər hallarda gaf hərfini kaf hərfindən fərqləndirmək üçün kaf hərfi üzərində qurulan bu hərfin üzərinə yuxarı hissəsində bir kiçik xətt əlavə olunmuşdur (67, 89). Əlyazmada isə biz bunu görmürük. Düzdür, əlyazmada başqa sözlərdə də bu qayda ya gözlənilmir, yaxud görünüşü bu şəkildədir, lakin arxaik sözün bugünkü dilimizdə işlək olan səsi də "g" deyil, "k" hərfi ilə yazılır. Kuyəkü-kürəkən. Eyni zamanda DQK poetikasına uyğun olaraq müqəddimədə də işlənən bədii ifadə vasitəsi kimi alliterasiya spesifikası da bu sözün gaf deyil, kaf ilə müşayiət olunmasını göstərir. Alliterasiya əsasında qurulan sözlərdə eyni samit ardfıcıllığı izlənildiyindən burada da eyni tələb gözlənilməlidir. Belə ki, müqəddimədə Dədə Qorqudun "Kül dəpəcik olmaz küyəkü oğul olmaz" ata kəlamında kül sözünün "k" samiti ilə küyəkü sözünün eyni samitləri alliterasiya təşkil edir. Sözü güyəgü oxumaq isə alliterasiya qaydalarını da pozur. Düzdür, Drezden nüsxəsində (əlyazmada) bu söz yoxdur (99, 618(3), lakin Vatikan nüsxəsində bu sözün olması aşkar şəkildə görünür (99, 311/2, 312/3). Sözün poetik səviyyəsini yaradan daxili ahəngdarlığın və DQK qiraətinin ritmik-melodik tələbatının özünəməxsus vəzn qaydalarına uyğun olaraq üç hecalı bir sözün burada olması gərəkliyi hiss olunur. Elə bu baxımdan da

bu sözün Drezden nüsxəsində katib diqqətsizliyindən yazıya alınmaması aydındır. Bu sözün anlamına gəldikdə isə DQK mətni özü lüğət bazası kimi bunu aydın edir. Aruz XII boyda bəylərə deyir "Bəglər, Beyrək bizdən qız almışdır, güyəgümizdir. Əmma Qazanın inağıdır" (97, 124).

Qazan xan da Bayındır xanın qızını almışdır, bu səbəbdən də onun küyəküsidir. Demək küyəkü indiki kürəkən sözünün daha arxaik şəklidir. Bəs nə üçün Qazan xanın təyinləri arasında Bayındır xanın küyəküsü olmaq təyini yer alır? Çünki əvvəldə qeyd etdiyimiz kimi Qazan xanın öz statusundan əlavə ona artıq dərəcə bəxş edən digər statuslar da bu təyinlər cərgəsində ritual etiketi olan xan öyüncləri kimi yer almaqdadır. "Xan Uruzun ağası" olmaq Qazan xana şərəf bəxş etdiyi kimi, Qalın Oğuzun xaqanı, xanlar xanı xan Bayındırın kürəkəni olmaq statusu əlavə dərəcə qazandırır və Qazan xanın ali dərəcəsini ifadə edir.

DQK Oğuzlarının ali idarəçilik təsisatında vərəsəlik qanununun əsas rol oynaması Bayındır xanın kürəkəni olmaq üstünlüyünü açıqlayır. IV boyda Qazan xanın taxt-tacının Uruza çatması gələnəyindən söz açılır. Bayındır xanın oğlu olmadığı üçün məlumdur ki, hakimiyyət və dövlət mirası qızı vasitəsilə kürəkəninə keçir. Qazan xanın Bayındır xanın küyəküsi olması və Uruzun Bayındırın sağ yanında yer tutması Bayındırdan sonra səlahiyyətlərin Qazan və Uruz arasında bölüşəcəyindən xəbər verir. Əgər Qazan xan olmazsa o zaman, yuxarıda qeyd etdiyimiz kimi, bütünlüklə Uruza keçəcəyini göstərir. Məhz bu təyinlərin ardıcıllıqla xan öyüncləri cərgəsində görünməsi Qazan xanın hakimiyyətinin qanuniliyini, birbaşa Oğuz xaqanına bağlandığını ifadə edir.

"Bayındır xanın küyəküsi" ifadəsi Oğuz təşkilat quruluşunun ataxaqanlıq (patriarxatlıq) üzərində mövcud olmasını da işarələməkdədir. Belə ki, əgər anaxaqanlıq (matriarxatlıq)

qəbilə quruluşu mövcud olsa idi, bu ifadə Qazan xan təyinləri cərgəsinə salına bilməzdi. Çünki Oğuz elinin başçısı hüququnda Burla xatun nəinki hakimyyət əldə edərdi, hətta Bayındır hakimiyyətinin mövcudluğu üçün də təhlükəyə çevrilərdi. Lakin biz Oğuz cəmiyyətində anaxaqanlığın izlərinə rast gəlsək də, hegemon imtiyazlarını görmürük. Yalnız anaya, xatuna, qız qardaşa ifrat dərəcədə sayğı və hörmət müşahidə edirik. Boy struktutunda bir yerdə ananın ifrat dərəcədə üstünlüyü (Qazan kafərdən oğlunu, xatununu deyil, anasını tələb edir), başqa bir yerdə isə xatunun eyni funksiyada iştirakı (Dəli Domrula anası və atası ömrünü bağışlamır, xatunu isə qurban verir) qadın keyfiyyətlərinin maksimal səviyyəsini göstərməklə bərabər Oğuz düşüncəsində qadının xüsusi rolunu dəyərləndirir. Qadının ərənlərlə yanaşı alplıq nümayiş etdirməsi də (Burla xatun, Selcan xatun) Oğuz cəmiyyətinin kişilərlə bərabər hüquqlu bir parçası olduğunu göstərir. Lakin bu özəllik də anaxaqanlıq üçün yetərli dərəcədə deyil, qadına münasibətin Oğuz-türk düşüncəsində əxlaq demokratiyasından qaynaqlandığını əks etdirir. Bu təyinin ifadələnməsində aydın görünür ki, burada Burla xatunun deyil, Bayındır xanın mərkəzi mövqe tutması, məhz onun küyəküsi olmağın xüsusi dərəcə bildirməsi diqqət mərkəzindədir.

Bayındır xanın küyəküsi (göygüsü) olmaq dərəcəsinin açılması üçün dastanda digər örnəklər də analoji şəkildə, xüsusilə də təkrar situasiyalarda təkrar ifadə təzahürü ilə diqqət çəkir. I boyda Dirsə xanın xatunu ona deyir:

Xan babamın göygisi!
Qadın anamın sevgisi!
Atam-anam verdigi,
Göz açuban gördigim,
Könül verib sevdigim, a Dərsə xan! (97, 38).

IV boyda isə Qazan xanın xatunu eyni şəkildə ona müraciət edir:

Xan babamın göygüsi,
Qadın anamın sevgisi,
Atam-anam verdügi,
Göz açuban gördügim,
Könül verüb sevdügim,
Bəg yigidim, Qazan! (97, 72).

IV boyda Burla xatunun Qazana bu müraciəti onun Bayındırın kürəkəni olmasını bir daha təsdiqləyir. I boyda Dirsə xanın xatununun atasının kim olması isə bəlli olmur. Lakin bununla bərabər bu xatunun da xüsusi mövqeyə malik xan qızı olmasını göstərir. Demək kürəkənlik etiketi Oğuz iyerarxiyasında xan titulunu diqqətə çatdırmaq üçün işlədilir. Eyni ifadələri V boyda Dəli Domrulun, IX boyda isə Bəkilin xatunu işlədir. Lakin bu soylamalarda "xan babamın göygüsü" ifadəsi işlənmir:

Göz açub gördügim,
Könül verüb södügüm,
Qoç yigidim, şah yigidim! (97, 83).
Altun təxtim ayası, bəgim yigit,
Göz açuban gördügim,
Könül verüb södügim (97, 105).

Bizə məlumdur ki, nə Dəli Domrul, nə Bəkil xan titulu daşımır, nə də onların xatunları xan qızı titulları ilə çağrılmır. Düzdür, Dəli Domrula bir yerdə "xanım" deyə müraciət olunur, lakin bunun titul deyil, müraciət formasında olduğunu bildirmək üçün eyni yerdə "bəy yigit" adlanır: "Ayıtdılar: "Xanım, bir yaxşı yigidimiz öldi, ana aqlarız" – dedilər. Dəli Domrul aydır: "Mərə, yigidinizi kim öldürdi?" Ayıtdılar: " Vallah, bəg yigit, Allah-Təaladan buyruğ oldı. Al qanatlu Əzrayil ol yigidin canın aldı" (97, 79).

Belə görünür ki, kürəkən öyüncü xanlıq mərtəbəsi ilə bağlı olaraq Oğuz cəmiyyətində qəbul olunur, digər hallarda isə ədəbdən kənar hesab edilir. Qazan xanın Bayındır xanın küyəküsi olması elə bu baxımdan onun statusunda yüksəldici status olaraq da iştirak edir.

DQK-də "xan babamın göygüsi" təyini əlavə bir status-da da diqqət çəkir. Belə ki, bu ifadə I boyda da, IV boyda da ov tədbirindən (ritual spesifikası da var) "iki varıb bir gələn", oğulla gedib oğulsuz qayıdan atalara (Dirsə xan, Qazan xan) söylənir. Belə görünür ki, xan qızlarının ataları oğul sahibi olmadığı kimi (dastan məntiqi Dirsə xanın da qaynatası haqqında bunu deyir) onların da nəzir-niyazla bir oğul övladı dünyaya gəlmişdir. Dirsə xanın və Qazan xanın övladlarının dünyaya gəlməsində ayrı-ayrı ritual kodekslər özünü göstərirsə də, bu soy aktının eyniyyəti özünü göstərir. Xatunlar oğullarnı ərlərindən istəyərkən bu situasiyada aşkar diqqət çəkir. Dirsə xanın xatunu deyir:

Quru-quru çaylara su (çu) saldım,
Qara tonlı dərvişlərə nəzirlər verdim.
Ac görsəm toyurdım, yalıncıq görsəm tonatdım,
Dəpə kibi ət yığdım, göl kibi qımız sağırdım.
Diləg ilə bir oğul güclə buldum.
Yalnız oğul xəbərin, a Dərsə xan, degil mana!

Burla xatun da eyni soylamanı təkrarlayır:

Quru-quru çaylara su saldım,
Qara tonlı dərvişlərə nəzir verdim.
Yanıma ala baqduğımda qonşuma eyü baqdım,
Umanana-usanana aş yedirdim.
Ac görsəm toyurdım,
Yalıncıq görsəm tonatdım.
Diləg ilə bir oğulı güclə buldım.

Yalnuz oğul xəbərin, a Qazan, degil mana! (97, 38, 73).

Məhz bu yerdə xatunların xan babalarının yada salınması əslində xan atalarının soyunun qurumasından həyəcan keçirmələridir. Təbiidir ki, burada oğul sevgi və həsrəti bu hiss tüğyanında eyni anda iştirak edir. Ancaq bu oğullar vasitəsilə daşınan mirasın ov qəzasında itirilmə qorxusu xatunların dilində ərlərin xan babanın göygüsü olması statusunu kanonikləşdirir.

Beləliklə, Qazan xanın Bayındır xanın küyəküsi (göygüsü, köygüsi) olmasının nə üçün xan öyüncləri cərgəsində yer tapması aydın olur. Kağana bağlanmaq ənənəsi isə bütün dövlətçilik tarixində mifoloji-ictimai-kütləvi ədəbiyyatlarda xüsusi təyinat olaraq özünü göstərir. Özünü soy mərtəbəsi ilə Oğuz xana və s. xaqanlara da bağlamaq ənənə formasında olmuşdur. F.Sümər dövlət quran türk sultanlarının mühüm bir qisminin – qaraqoyunluların, ağqoyunluların, qaramanlıların, osmanlıların, Elxanilərin, “İrandakı son türk xanədanı olan Qacarların” və s. özünü Oğuz soylu hesab etməsini və Oğuz xaqana bağlamasını istinadlarla vermişdir (127, 176, 177, 347, 348). Ə.Tehrani “Kitabi Diyarbəkriyyə” əsərində Uzun Həsənin nəsil şəcərəsi içərisində əcdad kimi Oğuz xanı göstərir (61, 46). Ümumiyyətlə, F.Sümərin diqqət çəkdiyi osmanlıların və digər türk soyluların özünü Oğuz xana bağlaması əslində tarixi-genoloji baxımdan aydındır. Çünki Oğuz tayfalarının özünü Oğuz xaqana bağlaması həm soy, həm də şərəf nəzər nöqtəsindən təbiidir. Lakin monqol mənşəli Elxani xanədanında Qazan xan, Olcaytu və Əbu Səidin vəziri olmuş F.Rəşidəddinin (30, 142) və özünü monqol mənşəli hesab edən Əbülqazi bahadır xanın (60, 45) Oğuz Kağan və onun şəcərəsi haqqında yazdıqları Oğuznamələr, F.Sümərin də qeyd etdiyi kimi, böyük bir “türkçülük və ya Oğuzçuluq cərəyanının” (127, 177) olmasından da irəli gələ bilər.

Xaqana bağlanmaq aktı əsasən mətnlərdə üç şəkildə özünü göstərir:

1. Təbliğat forması olaraq xaqan soyu kimi xaqana bağlanmaq (tarixi kontekst, tarixi-epik səviyyə).

2. Xaqan soyundan olduğuna görə xaqana bağlanmaq (tarixi-geneloji kontekst, tarixi-epik səviyyə).

3. Xaqana bağlanmaq motivi (epik-mifoloji kontekst, epik səviyyə).

Yuxarıda göstərilən birinici və ikinci kontekst bir-birini tamamlaya da bilər. Yəni kütləvi təbliğat və mənəvi-ictimai tarazlıq naminə kökünü xaqana, xaqan soyuna bağlamaq, yaxud xaqan soyunu eyni məqsədlər üçün dəyərləndirmək, nəsil şəcərəsini dövləti təbliğat üçün etiket qaydasına çevirmək cəhdinin mətnlərdə yer alması kimi və s. Təsadüfi deyil ki, Bayındır xanın küyəküsi təyininin xüsusi status olduğunu qeyd etdiyimiz zaman F.Sümərin ağqoyunlu sülaləsinin özünü Oğuz Kağana bağlamasını birbaşa deyil, məhz Bayındır xan vasitəsilə tayfa məntiqi baxımından həyata keçirməsini yazması diqqətəlayiq hadisədir. O yazır: "Ağqoyunlu xanədanına gəlincə, bu xanədan Oğuz xanın oğullarından Bayındır xanın nəslindən olmasilə öyünürdü" (127, 176).

Xaqana bağlanmaq motivi isə mifoloji-epik folklor örnəklərində diqqət çəkən motivdir. Motiv səviyyəsi bu təyinlə bağlı olmadığı üçün qısaca olaraq onu qeyd edək ki, Qazan xanın kökünü aslana bağlaması xaqana bağlanmaq motivinin məcazi təzahürüdür. Dirsənin Qazanın xan küyəküsü olması Basatın və s. obrazların, xüsusilə də təkrar olaraq Səgrəgin Oğuz iyerarxiyasının etiketi kimi öyündüyü "Qaba Ələm götürən xanımız, Bayındır xan" güvənci nağıllarda igidlərin özlərini Şah Abbasın övladı kimi qələmə verməsi, keçəllərin və bu tipli qəhrəmanların xan qızlarını alması və s. bu kimi epik nümunələr

xaqana (xana) bağlanmaq motivinin dünya xalqlarının şifahi örnəklərində də müxtəlif şəkillərdə nümayiş olunan cizgiləridir.

Son olaraq onu da qeyd edək ki, "Bayındır xanın küyəküsi" təyini xaqana bağlanmaq ənənəsindən qaynaqlanan mif paradiqması kimi Oğuz mifoloji strukturuna bağlılığını əks etdirir.

## 9. Qalın Oğuzın dövləti

Qazan obrazının mifoloji semantikasının təhlili kontekstində "**Qalın Oğuzın dövləti**" qəlibinin təhlili göstərir ki, bu, iyerarxiya işarəsidir. Oğuz etnosunun və Oğuz məkanının vahid ali idarəçiliyini işarələyir.

Bu təyinin oxunuşunda tədqiqatçı alimlər arasında mübahisə yoxdur. Eyni oxunuş kütləvi auditoriyaya təqdim olunmuşdur (96; 98; 97; 99; 140; 137).

Əlyazma nüsxəsində "ı" yaxud "u" səsini bildirən hərf, hərəkə işarəsi olmadığı üçün "Qalın Oğuzın dövləti" və yaxud "Qalın Oğuzun dövləti" kimi oxunuşu sərbəstdir (99, 585 (36). Qalın Oğuzun dövləti birləşməsinə aid olan dövlət sözünün bir şəxsə aidliyi şübhə yaratdığından bu sözün başqa məna çalarlarına diqqət verilmiş, əsasən uğur, səadət mənasında Qazan xanın Qalın Oğuzun uğuru kimi oxunulmasına çalışılmışdır (78, 17, 20, 69, 71).

Dövlət sözünün lüğəvi izahı hökumət, var, sərvət, varlılıq, səadət, xoşbəxtlik və s.dir (68, 156).

Gördüyümüz kimi, dövlət sözünün həm ali qanunverici orqan, həm də uğur, səadət, xoşbəxtlik anlamlarında işlənməsi mümkündür. Onu da qeyd edək ki, dövlət sözü yalnız hökumət anlamında işlənə bilməz. Çünki hökumət demokratik dövləti-idarəçilikdə yalnız dövləti orqanlardan biri, totalitar-avtoritar idarəçilikdə isə hakimiyyət mənasında işləkdir. Lakin dövlət yalnız bu anlayışla məhdudlaşa bilməz. Dövlət bir

ölkənin bütün ali siyasi hakimiyyətini özündə cəmləməklə eyni zamanda maddi, iqtisadi və mənəvi dəyərlərin təmsilçisi kimi çıxış etməklə ölkə sinonimi kimi lüğəvi funksionallıq qazanır. Dövlət ərazisi, dövlət atributları, dövlət bayrağı, dövlətçilik, Azərbaycan dövləti və s. Elə bu baxımdan da Qazan xanın "Qalın Oğuzun dövləti" olması Oğuz məkanının dövlət qismində nümayiş olunan Oğuz dövləti anlayışı ilə fərdi dövlət anlayışının ziddiyyət təşkil etməsi bu ifadənin müxtəlif cür izah edilməsinə gətirib çıxarır. Lakin Qazan xanın "Qalın Oğuzun dövləti" olması kontekst məzmununa tam uyğundur. Qazan iki əsas şəxsdən biri kimi, xüsusilə də daha fəal şəxs olaraq (bu təyin yalnız Qazan xana məxsusdur) Oğuz dövlətçiliyinin təmsilçisi, dövlətin simasıdır. Qalın Oğuzun iki dövlət siması vardır. Bayındır və Qazan xan. Bayındır xan "Qaba ələm götürən Bayındır xan" olaraq anılmaqla dövlətin modeli olmasına diqqət çəkilirsə, Qazan xan "Qalın Oğuzun dövləti" olmaqla bu səviyyədə aşkarlanır. Bəs nə üçün bu ifadə yalnız Qazan xana aid edilir? Çünki biz əvvəldə də qeyd etmişdik ki, Bozoq-Uçoq qarşıdurmasının ən potensial tərəfi Qazan xan hesab olunur. Bayındır xan da Uçoqlardan olmasına baxmayaraq bu qarşıdurmada fəal tərəf kimi görünmür. Bu eyni zamanda Bayındır xanın xaqan statusundan irəli gəlir. Onun fəal tərəfi Qazan xan olduğu üçün aqressiv münasibət də məhz Qazan xana yüklənir. Qalın Oğuz Uçoq-Bozoq tayfalarının ümumi adı olmaqla Qazan xanın "Qalın Oğuzun dövləti" adlanması onun yalnız Uçoqların deyil, Bozoqların da başçısı olduğunu səciyyələndirir, bütün Oğuz elinin ali idarəçilik statusunun Qazan xana məxsusluğunu diqqətə çatdırır. Özü də bu təsadüfi anlam səviyyəsində yox, mətndə təsdiqlənən ideya qaynağı kimi özünü göstərir. Qazan Aruz, Uçoq-Bozoq qarşıdurmasının sözsüz reaksiyası kimi Qazanın bütün Oğuzun başçısı olması və bunun təbii hal olaraq qəbul olunmasına ça-

lışılması əvvəldə də qeyd etdiyimiz kimi müxtəlif söz və təyinlərdə əks olunur. Təsadüfi deyil ki, Bayındır xanın kölgə hakimiyyətini çıxmaqla bütün Qalın Oğuzun yalnız iki təmsilçisi var – Qazan və Beyrək. Qazan “Qalın Oğuzun dövləti”, Beyrək isə “Qalın Oğuzun imrəncisi”dir. Qazanın təyini məlumdur. Beyrəyin təmsilçiliyi isə bu şəkildə tanıdılır: “Parasarın Bayburd hasarından parlıyıb uçan, at alaca gərdəginə qarşu gələn, Qalın Oğuz imrəncisi, Qazan bəgin yınağı, Bozayğırlu Beyrək” (97, 42, 77).

Beyrəyin “Qalın Oğuzun imrəncisi” olması onun da yüksək statusunu göstərir. İmrənci sözü arzu olunan şəxs kimi izah olunur (99, 167). Eyni zamanda DQK lüğəti bu sözün daha geniş çalarını diqqətə çatdırır. Belə ki, Beyrək Qazan xanın inağıdır, lakin Bozoqlardan qız alımışdır. Elə buna görə də o, hər iki tərəfin birləşdiyi bütün Qalın Oğuzun sözçüsü qismində çıxış edir. Beyrəyin ölümünün müxtəlif struktur səviyyələri ilə bərabər həmçinin əsas səbəblərindən biri kimi onun Qalın Oğuzun imrəncisi olması ciddi rol oynayır. Aruz Qalın Oğuzun təmsilçisi olan Qazana qarşı Qalın Oğuzun təmsilçisi Beyrəyi çıxarmağa can atır. Çünki o, aqressiv mövqeyini qanuniləşdirməyə çalışır. Bu səbəbdən də əgər Beyrək Qazana qarşı çıxarsa, bu Aruzun bütün Oğuzu səciyyələndirən Qalın Oğuza qarşı çıxmağının hüquqi-siyasi bəraəti ola bilər. Aruz bu taktiki addımı üçün həm də Beyrəyə ona görə söykənmək istəyir ki, Qazan “Qalın Oğuzun dövləti” olduğu üçün Qazana qarşı çıxış etmək, Oğuzun bütövlüyünə qarşı çıxış etməkdir. Aruz Beyrəyin Qazanın inağı olduğu üçün bu addımı atmayacağını bilsə də, onun Bozoqlardan qız aldığı üçün buna məcbur qalacağına ümid edir. Çünki Bozoqlardan Uçoqların qız alma gələnəyinin Qazan xan tərəfindən pozulması (Qazan xan Uçoqlardan qız alıb) bu gələnəyin daşıyıcısı olan Beyrək üçün törə qanunlarının, şəxsi münasibətlərdən (inaqlıq titulundan)

daha üstün ola biləcəyinə edilən güman Beyrəyin Qazana qarşı çıxa bilmək ehtimalını Aruz nəzərində gücləndirir. Məhz Qazanın “Qalın Oğuzun dövləti” olduğuna görə Beyrəyin ona qarşı qoyulmasını Beyrək özü yaxşı başa düşür. Bu səbəbdən də Qazana qarşı onu çağıran Beyrəklə Aruz arasında gərgin qarşıdurma nəticəsində Beyrək canından keçərək deyir: “Vallah, mən Qazan Oğuzına başım qomuşam. Qazandan dönməzəm, gərəksə yüz parə eylə!” (97, 125).

Məhz “Qazan Oğuzu” ifadəsi Qazanın Uçoqların deyil, bütün Oğuzun təmsilçisi kimi “Qalın Oğuzun dövləti” statusunda olduğunun Beyrək dilində bir daha təsdiqidir. Bu ifadənin Uçoqları bildirməsi ehtimalına gəlincə onu deyək ki, Beyrək situasiya gərəyincə bu sözü söylədiyi üçün aydın olur ki, o, Qazan Oğuzu deyərkən Uçoqları deyil, Qalın Oğuzu nəzərdə tutur, Aruzun onların tərəfinə keçmək təklifinə qarşı mövqe nümayiş etdirərək yeni Oğuz eli (Aruz Oğuzu, yaxud Bozoq) formalaşdırmaya qarşı çıxır, Qazanın başçılığı altında olan Qalın Oğuzu tanıdığını bəyan edir. Bunun təsadüfi sözlük deyil, Oğuz kompleksini ifadə edən anlayış olması təəssüf ki, bəzi tədqiqatçıların diqqətindən qaçdığı üçün Qazan Oğuzu birləşməsi Qazan uğuruna (uğruna) kimi kontekst daxili ifadə kimi də oxunmuşdur (96, 156, 10, 147). Lakin əlyazma nüsxəsində bu ifadə aşkar şəkildə Qazan Oğuzu kimi yazılmışdır (99, 324/297) F.Zeynalov, S.Əlizadə bu ismi söz birləşməsini məhz əlyazma nüsxəsinə uyğun şəkildə oxumuşlar (97, 124; 99, 110).

Ümumiyyətlə, əlyazma oxunuşuna tam sərbəst yanaşma eyni məntiqi münasibətin ziddini ortaya çıxarıb, mətnin bütünlüklə təhrif olunmasına da gətirə bilər. Məhz Qazan Oğuzı birləşməsinin Qazan uğruna kimi oxunması “Qalın Oğuzun dövləti” təyininin anlamı üzərinə kölgə sala bilər. Elə “Qalın Oğuzun dövləti” anlamının oxunuş qaydasına, transliterasiya

və qiraət üsuluna aidiyyəti olmasa da, uğur mənasında oxunuşu da Qazan statusunu təhrif edir. Çünki Qazandan əlavə Qalın Oğuzun uğuru olan digər şəxslər də Oğuz elində mövcuddur. Qarıcıq Çoban, Basat, Uruz və s. Basatın Qalın Oğuzu qurtarması, onun uğuru olması Dədə Qorqud dilində alqış səviyyəsində də əks olunur. "Qalın Oğuz bəglərini bundan qurtardın. Qadir Allah yüzün ağ etsün, Basat!" (97, 103). "Qalın Oğuzun dövləti" isə yalnız Qazan xandır. Hər halda DQK mətni də bunu təsdiqləyir. Bu mətnin spesifikası aşkar göstərir ki, mətndə təsadüfi anlam, rabitəsiz bəsit təkrar bircə ifadə səviyyəsində də özünü göstərmir.

Qalın Oğuz söz birləşməsinin soy, tayfa, millət (etnos) və yer, yurd, ölkə (topos) adı kimi işlənməsi "Qalın Oğuzun dövləti" birləşməsinin struktur və şəxs (antropos) adlarını bildirməsi ilə heç bir ziddiyyət təşkil etmir. Çünki dövlət xalqın varlığını təmsil edir. Xalq imtiyazsız olsa belə, yenə də xalq yoxdursa, dövlət yoxdur. Buna görə də anlamlar çarpazlaşıb bir anlam səviyyəsində anlaşılır (etnotoponimika). Struktur adının şəxsi ifadə etməsi də eyni funksiyada mənalanır. Şəxsin aid olduğu strukturda əsas təmsil sifəti olduğu üçün eyni strukturun (burada ali idarəçiliyin) adı ilə adlanır. "Makedoniyalı İsgəndərin imperiyası" adlı böyük ərazidə yerləşən dövlətin İsgəndərin (Aleksandrın) adı ilə adlanması buna misaldır (31, 394). Tarixdə buna aid misallar az deyildir. Fransa kralı XIV Lüdovikin (1643-1715) özünü dövlət adlandırması tarixdə məşhurdur (15, 159, 60). İngiltərə kraliçası I Yelizaveta (1558-1603) da təkrar fikir söyləmişdir. Hətta bu ifadəni ilk dəfə onun işlətməsi də güman edilir (15, 160). Elə xalq deyimləri (paremi) arasında geniş imkanlı şəxslər haqqında "dövlət içində dövlət" kəlamının işlənilməsi də dövlət quruluşunun şəxslərin adı ilə əlaqələnməsinə dair örnəklərdəndir. Belə görünür ki, Qalın Oğuzun dövləti birləşməsinin arxaik lüğətə aid olmasını

və çağdaş formada işlənməsindən bir qədər fərqli anlayışda qəbul olunmasını da ehtimal etmək olar. Lakin sözün funksionallşması da diqqətçəkici məsələlərdəndir. Belə ki qalın sözü DQK mətnində müasir anlamıyla birgə fərqli anlam kəsb edir, iki böyük tayfanın birləşib el yaratması, qalın olması, əks törənən anlayışda isə tək olarsa, nazik olması ilə eyni sözün şaxələnməsindən, funksionallaşmasından ortaya çıxır. Biz qeyd etmişik ki, Oğuz sözünün X əsrdən sonra türkmənlə əvəz edilməsinə dair fikirlər vardır (150, 5). Lakin Oğuz adının elə Rəşiddədində, Əbülqazidə, Yazıçıoğlu Əlidə və s. də sonrakı əsrlərdə işlənməsi bu sözün arxaizminin müasir anlamla heç bir ziddiyyət təşkil etmədən işlək olduğunu göstərir. Elə bu istiqamətdə də dövlət sözü də dövləti təmsil edən şəxs mənasında kontekst məzmununa uyğun olaraq insana da aid edilmişdir ki, bu təyin məhz bu anlayışın ifadəsi olaraq ortaya çıxır. Qazan xanın eyni boy daxilində ikinci dəfə ov məkanında “Qalın Oğuzun dövləti” adlandırılması da bu sözün təsadüfi söz kimi işlənmədiyini göstərir (97, 44).

“Qalın Oğuzun dövləti”nin xan statusunu ifadə etməsi məhz bu təyinin dövlət anlamında işləndiyini göstərir. Elə bu status göstəricisinin real təzahürü olaraq III boyda Qazan xanın təkrar səviyyədə “Qalın Oğuzun arqası” adlanması da sinonim sözlük olaraq eyni status və funksiyanı diqqətə çatdırmaq üçündür (97, 52).

Biz Qalın Oğuzun dövləti birləşməsinin başlanğıc sözlüyünə diqqət çəkərək yuxarıda bildirmişdik ki, “qalın” sözü əski düşüncə ilə çağdaş təfəkkürün işlək sözlüyü kimi DQK-də anlam səviyyəsini nümayiş etdirir. Elə bu səbəbdən də bu sözün araşdırılması vacib struktur komponentləri aşkarlayır. Bu baxımdan qalın sözü üç səviyyəni işarələyir:

1. İki tayfa birləşməsi işarələnir.

2. Oğuz kosmoloji strukturunun işarəsi kimi Oğuz mifoloji dünya modelini proyeksiyalandırır.

3. Motiv səviyyəsi aşkarlanır.

Qalın sözünün Oğuz sözünə qoşularaq Uçoq-Bozoq tayfa birliyini ifadə etməsini bir az qabaq qeyd etmişdik. Bu sözün tayfa birliyini əks etdirməsi ən əhəmiyyətli izahlı lüğət qaynağı olan DQK mətnində aşkarlanır. DQK-də Uçoq-Bozoq tayfası İç Oğuz və Dış Oğuz deyə iki siyasi-inzibati əraziyə bölünür və Uçoqun İç Oğuz, Bozoqun isə Dış Oğuz olduğu açıqlanır. "Uçoq Bozoq yıqnaq olsa, Qazan evin yağmaladardı. Qazan gerü evin yağmalatdı. Əmma Taş Oğuz bilə bulınmadı. Həmin İç Oğuz yağmaladı" (97, 123).

Uçoqun və Bozoqun Qalın Oğuz olması isə bu şəkildə aydın olur: "Bu məhəldə Qalın Oğuz bəgləri yetdi, xanım, görəlim, kimlər yetdi" (97, 49). Məhz bu məlumatdan sonra Qalın Oğuz bəylərinin adı bir-bir sadalanır, məlum olur ki, bu bəy ərənlər Uçoq (İç Oğuz) və Bozoq (Taş Oğuz-Dış Oğuz) bəyləridir (97, 49, 50, 66, 67, 77, 78).

Qalın Oğuzun Oğuz mifoloji dünya modelinin etnoqonik-kosmoqonik invariant strukturunu təşkil etməsi diqqətçəkici hadisədir. Məlumdur ki, Oğuz mifoloji strukturu Oğuz soyunu modelləşdirir və bu kosmoloji struktur təşkil edib yuxarıda qeyd etdiyimiz kimi Oğuz, onun iki xatunu, altı oğlu üzərində proyeksiyalanır. Toy ritualı da Oğuz mifoloji dünya modelini səciyyələndirir. Uç oğulun yay, üç oğulun isə ox tapması iyerarxik strukturu müəyyən edir. F.Rəşidəddin yay və ox nişanəsi ilə işarələnən gələcək Oğuz elinin, Qalın Oğuzun (onların övladları Uçoq, Bozoq, tayfalarını təşkil edir) Qalın Oğuz olaraq qalmasının və öz yerlərini bilmələri məcburiyyətinin Oğuz xan tərəfindən müəyyənləşdirildiyini qətiyyətlə yazır: "Oğuz yayı üç hissəyə bölüb üç böyük oğluna, üç oxu isə üç kiçik oğluna verdi. Belə buyurdu: yay payladığım

üç oğlumdan törəyən qəbilələr Bozok adlanacaqlar...ox payladığım digər üç oğlumun nəslindən törəyən qəbilələrin adı Uçok olsun... Buyurdu ki, bundan sonra oğullarımdan hər hansı gəlirsə, birlikdə (təmağamişi) çalışmalı və "biz hamımız bir kökdənik" deyib orduda da öz yerlərini və rütbələrini bilməlidirlər" (115, 37,38).

Gördüyümüz kimi, Oğuz xaqan Bozoqların və Uçoqların bir kökdən olduğu üçün öz yerləri ilə qane olaraq həmişə bir yerdə olmalarını, yəni Qalın Oğuz olmalarını buyurur. DQK-də XII boya doğru gələn ziddiyyət iki Oğuz tayfasının bir kökdən olmasına baxmayaraq bir-biriylə çarpışmasıyla sonuclanır. Qalın Oğuz ayrılır, Oğuz parçlanır, Oğuz yasası pozulur. Qazan xanın evini yağmalatması prosesində (ritual ərəfədə) Qalın Oğuz ikiyə ayrılırsa, Aruzun evinin yağmalanmasından sonra Qalın Oğuz yenə də birləşir. Bu barədə XII boyda oxuyuruq: "Qazan suçların bağışladı, Beyrəgin qanın tayısından aldı. Aruzın evini çapdırdı. Elini-günini yəğmalatdı" (97, 126).

Qazanın evini yağmalatmasında Qalın Oğuz birliyinin pozulması etiket xarakteri daşıdığı üçün Aruzun Beyrəyi öldürməsi paraçalanmaya Oğuz qanı, qardaş qanı qarışdırması baxımından bir kökdən olanların qan yaddaşına təcavüz aktı kimi qiymətləndirilib Qalın Oğuzun parçalanmasında Aruz aqressiv tərəf kimi qəbul olunur. Ona görə də onun evi yağmalanıb Qalın Oğuz birliyi saxlanır. Çünki bu il yağmaya çağrılmayan Dış Oğuz gələn il çağrıla bilər. Öldürülən Oğuz ərəni isə geri qaytarıla bilməz. Qazanın evinin özü tərəfindən yağmaya verilməsi Qalın Oğuzun birləşməsi aktıdır. Məhz Dış Oğuzun yağmaya çağrılmaması bu aktın pozulmasına qarşı iğtişaş kimi ortaya çıxır. Lakin Aruzun evinin yağmalanması Qalın Oğuzun birləşməsini Qazan xan tərəfindən təmin edir. Bu Qazan xanın "Qalın Oğuzun dövləti" statusunu

bir daha təsdiq edir. Elə Qazan xanın evinin yağmalanması gələnəyi də onun “Qalın Oğuzun dövləti” olmasını göstərir.

Qalın sözünün motiv səviyyəsi də Oğuz mifoloji dünya modelinin inikası olan yuxarıda diqqət çəkdiyimiz yay və ox örnəyində görünür. Oğuz xaqan yayı üç yerə parçalamaqla və hər birini bir oğluna verməklə bu parçaların ayrı-ayrılıqda yay parçası olması, yay funksiyasını yerinə yetirə bilməməsi, birləşdikdə isə bütöv yay ola biləcəyi, nazik olmanın ayrı-ayrılıqda sınacağı, bir yerdə qalın olmanın isə qalacağı tövsiyyəsini nümayiş etdirir. Üç oxun da ayrı-ayrılıqda deyil, bir yerdə güclü olmasını onun adının Uçoq qoyulması göstərir. Elə Uçoq adının assosiasiyası olaraq yay parçalarına bir yerdə Bozoq deyilməsi də böyük ox anlamı verməklə eyni mahiyyəti daşıyır. Sözün arxaik şəkli əlimizdə olmadığı üçün ifrat etimoloji araşdırmaya ehtiyac görmədən onu qeyd edək ki, dastan və nağıllarda bu iyerarxik strukturun motiv səviyyəsi daşınmaqdadır. Belə ki, üç, yaxud yeddi çubuğun (əsasən çubuq olur ki, bu da yay parçaları, yaxud ox arxetipindən qaynaqlanır) ayrı-ayrılıqda asanlıqla sındırılması bir yerə bağlananda isə ən qüvvətli pəhləvanların da onu sındıra bilməməsi, qalın olduqda bütövlüyün və qüvvənin, nazik olduqda isə parçanın və zəifliyin işarəsi olaraq anlam qazanır. Bu baxımdan bu ifadə Oğuz mifinin paradiqması kimi motiv səviyyəsində müxtəlif örnəklərdə funksionallaşmış şəkildə diqqət çəkir. Hətta Yazıçıoğlu Əlinin “Təvarixi-ali Səlcuq” adlı Oğuznaməsində bu motiv qaynağının təsviri Oğuz mifində Qalın Oğuz dövlətinin nə demək olduğundan xəbər verir. Elə X.Koroğlu da bu barədə söhbət açarkən fikrimizcə, bu əhvalatı (bir oxun sınması, altı oxun isə sınmaması) verdikdən sonra “çox güman ki, bu əfsanə etimoloji baxımdan Oğuzların Bozok etnonimi ilə bağlıdır” (102, 54) qənaətinə təsadüfən gəlməmişdir.

Beləliklə, “Qalın Oğuzun dövləti” anlayışı Oğuz mifinin bütövlükdə paradiqması kimi proyeksiyalanmaqla bərabər Qalın Oğuz Bozoq-Uçoq birləşməsində şəxslərin təmsilçiliyinin (altı oğul nəzərdə tutulur) dövlət anlayışı ifadə etməsi göz qabağındadır. Məhz Oğuz xaqan yayları parçalamaqla, oxları bölüşdürməklə bu oğulların Oğuz səltənətinin (xanədanının) dövləti olmasını modelləşdirir. Qazan xanın Oğuz mifinin paradiqması kimi “Qalın Oğuzun dövləti” olması eyni invariant strukturun DQK-də xan öyüncləri arasında obraz klişesi olaraq sabitləşməsi Oğuz ali idarəçiliyinin əsas şəxsi olmasından meydana gəlir.

## 10. Qalmış yigit arxası

Salur Qazan obrazının sosiomifoloji semantikasının aşkarlanması istiqamətində “**Qalmış yigit arxası”** qəlib-modelinin təhlili göstərir ki, bu, ilk növbədə himayədarlıq işarəsidir: hami xan statusunu işarələyir. Əksər alimlər tərəfindən bu mürəkkəb söz birləşməsi eyni şəkildə oxunmuşdur (96; 98; 97; 99, 140; 137). Şərikli təyindir. Bayındır və Qazana məxsusdur. A.Hacıyev bu birləşmə haqqında əhatəli məqalə üzərində işləmiş, bu təyini və onun sadə sözlüklərini dəyərləndirən tədqiqatçılar barədə geniş məlumat vermişdir. “Qalmış yigit arxası” söz birləşməsinin yalnız başlanğıc sözü arxaik ifadə olduğu üçün əsas fikirlər bu söz ətrafında diqqət çəkir. Belə ki, O.Ş.Gökyay bu sözü “aciz, düşkün”, M.Ergin qal (maq) felinin feli sifət forması, Bartold müasir anlamda qalan (digər), Radlov yorğun, zəif kimi şərh etmişlər. Müəllif başqa lüğətlərdən örnək göstərərək bu sözün müxtəlif izahlarını təqdim edir. M.Kaşqaridə “kal” – yaşlı adam izahı ilə diqqət çəkən bu sözə A.Məmmədov da demək olar ki, eyni şəkildə qədim türk dillərində qoca mənasını verən kal sözünü aşkarla-

maqla diqqət çəkir. Tədqiqatçıların fikirlərini verdikdən sonra tədqiqatçı alim bu sözün saysız, çoxsaylı anlamını verməsi qənaətinə gəlmişdir (78, 71-75).

Bizim fikrimizə gəldikdə isə bu elə çağdaş leksikonumuzda öz ilkin mənasını qoruyub saxlayan qalmış, dayanmış anlamında məlum mətndə işlənmişdir. Diqqət edilsə, yuxarıda müəllifin də araşdırmaya cəlb etdiyi tədqiqatçı alimlərin fikirləri leksik-semantik baxımdan sözün çox yaxın çalarlarını aydınlaşdırır. Qoca, yaşlı adam semantik olaraq zəif, yorğun olan və s. anlamları törədir və demək olar ki, eyni mənanın müxtəlif şəkillərdə ifadəsindən xəbər verir. Bayındır Qazan cütlüyü o mənada qalmış yigit arxasıdır ki, bu igidlər bir zamanlar göstərdikləri qəhrəmanlıqlardan ötrü bu gün Qalın Oğuzun başçıları tərəfindən diqqət mərkəzinə çəkilir, xan statusu daşıyan şəxslərin himayəçi funksiyası xan təyinləi cərgəsində yer alır. Bu təyinin təsadüfi olmayıb Oğuz cəmiyyətində sosial ədalətin tərkib hissəsi kimi ən az üç səviyyədə mövcud olan təbəqəni himayə etməsi, onların arxası olmasıyla xüsusi imtiyaz müəyyənləşdirməsi özünü göstərir:

1. Yaşı ötmüş igidlərə – qazilərə ayrılan imtiyaz;
2. Əlil şəxslərə ayrılan imtiyaz
3. Şəhidlərə ayrılan imtiyaz

Qalmış igidlərin arxası olmaq onların imtiyazının xan, xaqan səviyyəsində müdafiə olunması deməkdir. DQK-də Bayındır və Qazan xan “Qalmış yigit arxası”, Qazan “Qalın Oğuzun arxası” kimi diqqət çəkir (97, 52). Beyrəyə isə müsəlmanların arxası olsun deyilir (97, 54). Elə buna görə də arxa olmaq xüsusi bir status olaraq Oğuz cəmiyyətində sosial-ictimai kodeks kimi ortaya çıxır. DQK-də igidlərə, ərənlərə, qazilərə fəallıqdan qaldıqdan sonra ayrılan bu imtiyaz boylarda aktlaşdırılır.

1. Bayındır, Qazan xan yaşı ötmüş igidlərin arxası olduğu üçün Uşun Qocanın oğlu Bayındırın və Qazanın divana atasının imtiyazından istifadə edib istədiyi şəkildə daxil olur. “Bayındır xanın divanına qaçan istəsə varır, gəlürdi. Bəglər bəgi olan Qazan divanında buna heç qapı-baca yoqdı. Bəgləri basub Qazan ögində oturardı” (97, 110).

2. Bayındır, Qazan əlillərin arxası olduğu üçün atdan yıxılıb ayağını sındıran Bəkilin üstünə kafər gələrkən oğluna xahiş edir ki, Bayındır və Qazanın divanına getsin:

Ağ alınlu Bayındır xanın divanına dünin varğıl!
Ağız-dildən Bayındıra səlam vergil!
Bəglər bəgi olan Qazanın əlin öpgil!
“Ağ saqallu babam bunlu” – degil!
Əlbətdə və əlbətdə Qazan bəg mana yetişsün, - dedi” degil! (97, 107).

3. Qazan xan şəhidlərin arxası olduğu üçün Beyrək ona qanını almasını vəsiyyət edir:

Qazan mana yetişsün,
Mənim qanım Aruza qomasun” (97, 125).

T.Hacıyev “Qalmış yigit arxası” təyinini dəyərləndirərək onun qoca və əlillərlə bağlı olduğunu qeyd edir və “Bizə miskin umıdı” ilə yanaşı gəlməsini məzmun yaxınlığı kimi izah edir. “Bizə miskin umıdı” Qazanın cəmiyyətdəki humanist mövqeyində ciddi işarədir – deməli o, yazıq, fəqirlərin pənahıdır. Həmişə yazıqlara yardım göstərir. Bir az sonra gələn “Qalmış yigit arxası” təyini təxminən bu məzmundadır. Ancaq burada məhz vaxtilə vuruşub igidliklər göstərmiş, sonradan ya qocalmış, ya da əlil olmuş şəxslər nəzərdə tutulur” (80, 31).

“Qalmış yigit arxası” təyini diqqət çəkdiyimiz anlamda olması baxımından kontekst daxilində yalnız məzmuna uyğun deyil, həmçinin assosiativ rabitənin təzahür forması kimi das-

tan mətnində görünür. Belə ki, üç təyin kodeksindən ikisində Qazan və Bayındırda Qalmış yigit arxası təyini ilə yanaşı mexaniki olaraq Bezə, miskin umıdı təyini söylənir: "Qalmış yigit arxası, Bizə, miskin umudı" (97, 63).

Əgər nəzərə alınsa ki bu təyinlər ilk dəfə II boyda Qazan xan üçün söylənir, bu yerdə bu təyinlər arasında başqa təyinlər də yerləşir. Lakin anlam yaxınlığı olduğu üçün təbiidir ki, III, VII boylarda ardıcıllıqla gəlir.

DQK-də digər bir məsələ də "Qalmış yigit arxası" təyininin dəyişən funksiyada özünü göstərməsidir. Belə ki biz yuxarıda "Bezə miskin umıdı" təyininin müəyyən bir mərhələdə Basata aid olunması reallığından və buna qarşı olan Qazan faktorundan bəhs açmışıq. Bu təyinin yaxın tərəfi kimi "Qalmış yigit arxası" təyini də eyni situasiyada eyni funksiyanın Basata keçməsini göstərir. Təpəgözün Oğuz elini yeməsi situasiyasında bütün igidlərin qalmış igid durumuna düşməsi "Qalmış yigit arxası" olan Bayındır və Qazanın özünün də bu cərgəyə qoşulması, yalnız Basatda bu funksiyanın işə düşməsi müəyyən mərhələdə bu statusun Basata keçdiyini təsdiqləyir. Lakin əvvəldə qeyd etdiyimiz kimi, Qazanın əjdaha öldürməsi və Təpəgözü Qalın Oğuzun yığışıb gəlib öldürəcəyi bilgisi yenə də bu statusun Qalın Oğuzun başçılarında qaldığını göstərir. Bu DQK mətnində qabarıq formada diqqət çəkən anaxronizmdir. Bu statusun yalnız Bayındır və Qazana məxsusluğunu işarələyir. Bu barədə əvvəldə yetərincə söhbət açmışıq.

Onu da qeyd edək ki, istər status göstəricisi, istərsə də mifoloji törəmə kimi "Qalmış yigit arxası" təyini "Bezə miskin umıdı" təyini ilə yaxın anlam kəsb etdiyi üçün yaxın funksiya daşınmasını göstərməklə bərabər bir təyinə aid olan fəaliyyət və struktur spesifikası digərinə də aiddir. Bu baxımdan "Qalmış yigit arxası" təyini himayədar xan statusunu diqqətə çatdıran ritual etiketin aşkarlanan ifadə formasıdır.

## 11. Türküstanın dirəgi

Qazan obrazının mifoloji semantikasının təhlilinə cəlb olunmuş "**Türküstanın dirəgi**" qəlib-modelinin öyrənilməsi göstərir ki, bu, ilk növbədə məkan işarəsidir. Etnosu da ifadə etməklə status aşkarlayır. Bu birləşmə də alimlər tərəfindən eyni oxunuşla kütləvi auditoriyaya təqdim olunmuşdur (96; 97; 98; 99; 137; 140). Yalnız filoloqlar (mənbəşünaslar) arasında "g", "y" hərf oxunuşu fərqli şəklini göstərir. H.Araslı bu sözü hər iki yerdə (III, VII boy) dirəyi kimi, Ş.Cəmşidov III boyda dirəyi, VII boyda dirəgi, F.Zeynalov, S.Əlizadə hər iki halda dirəgi, S.Əlizadə tək oxunuşda da eyni formada oxu nümayiş etdirmişlər. Əlyazma nüsxəsində (faksimile) isə aşkar şəkildə hər iki yerdə "ye" hərfi deyil, kaf (gaf) yazılmışdır, ye hərfi isə burada "i" səsini bildirir. Yəni dirəyi deyil, dirəgi oxunmalıdır (99, 511/110), 416 (205). Ola bilsin ki, bəzi tədqiqatçılar "kaf" hərfini "k" səsi olaraq götürmüş, dirək sözünün ismin təsirlik halında oxunuşunu əsas olaraq "dirəyi" kimi oxumuşlar. Çünki dil xüsusiyyəti baxımından burada k-y hərf əvəzlənməsi baş verir.

Bu təyinin xan öyüncləri cərgəsində yer alması çox diqqətəlayiq hadisədir. "Türküstanın dirəgi" birləşməsi məkan işarəsi olmaqla Bayındır və Qazanın yalnız Uçoq və Bozoqları birləşdirən Qalın Oğuzun deyil, əksər türk etnoslarını içərisinə alan Türküstan kimi böyük türk məkanının başçısı və arxası (dirəyi arxa mənasında da işləkdir) olduğunu əks etdirir. Təsadüfi deyil ki, Qazan və Bayındır təyinləri arasında "Türküstanın dirəgi" ifadəsi işləndikdə "Qalın Oğuz" təyini işlənmir (97, 63, 95). II boyda Qazan xanın təyinləri arasında "Qalın Oğuz" təyini işləndikdə isə "Türküstanın dirəgi" təyini işlənmir (97, 42). Bu qayda II, III boyda Qazan təyinlərinin bir qisminin işləndiyi yerdə də gözlənilir (97, 44, 52). Görünür, ozan Bayındır və Qazanın xan statusunu məkan səviyyəsində işarələ-

yərkən Vahid türk məkanı anlayışını əsas götürür. Qalın Oğuz deyərkən Türküstanı, Türküstan deyərkən Qalın Oğuzu simvollaşdırdığı üçün bu toponimlərin birgə işlənməsinə ehtiyac görmür. Türküstanın DQK-də konkret tarixi-coğrafi ərazini bildirməməsi, epik məkan anlayışı təşkil etməsi onun sərhədlərini də müəyyənləşdirməyə ehtiyac yaratmır. Türküstan burada etnonim kimi deyil, eponim kimi iştirak edir. Türklərin, eləcə də Oğuzların məskunlaşdığı ərazi Türküstan adlanır. Elə buna görə də böyük Nizami "İskəndərnamə"də (Şərəfnamə) İskəndərin dili ilə Türküstan ərazisini bu şəkildə müəyyənləşdirir:

Xəzər dağlarından Çin dənizinə qədər,
Hər yeri türklərlə dolu görürəm (77, 314).

Türklər çox geniş ərazilərdə məskunlaşdığından və cahan miqyaslı dövlətqurma səbəbindən Türküstan və Turan toponimləri türklərin yaşadıqları əraziləri göstərməklə bərabər Oğuz düşüncəsində (eləcə də digər mifoloji təfəkkür qaynağı olan qədim xalqlarda) dünya strukturu o düşüncə daşıyıcılarının öz adına, öz soyuna, öz əcdadına ad, məkan və zaman səviyyəsində transformasiya olunur. Elə buna görə də ilk insan, mədəni qəhrəman, əcdad və s. bu kimi mifoloji kompleksi təşkil edən arxetip qaynaqları kosmoloji strukturu təşkil edir. Məhz o xalqın ədəbi-bədii abidələri, xüsusilə də epos mədəniyyətinin qiymətli örnəkləri bu əsas üzərində struktur komponentləri təşkil edir. Bu baxımdan Oğuz mifoloji dünya modeli oğuzlarla bağlı epik əsərlərdə klişeləşir. Bu kompleksə ad da, soy da, məkan da daxildir. Əcdad adı ilk insanı, soy adı törəməni, məkan adı geniş miqyasda dünya ərazisini simvollaşdırır. Məhz Bayındır və Qazanın "Türküstanın dirəgi" olması eyni struktur hadisəsi kimi ifadələnərək türklərin məskun olduğu geniş əraziləri və türk insanının şəxsində dünya strukturunu əks etdirir. Təbiidir ki, bu strukturdan kənarda qalan hissə periferik məkanda olan kafir yığınağı kosmoloji struktura qarşı antistruktur təşkil edib xaosda yerləşir. Məhz

Türküstan etnotoponimi xaotik məkana qarşı Oğuz təfəkküründə Oğuz dünya modeli bazasında xaos-kosmos qarşıdurması olaraq binar oppozisiya təşkil edir. Bu DQK mətnində millət (etnos) və məkan (topos) işarəsi səviyyəsində eyni görüntülərlə üzə çıxır. Türküstan toponiminə qarşı Gürcüstan toponimi ikili toqquşmanı müəyyənləşdirir. Kafirlər periferik məkanda Gürcüstanda, oğuzlar sakral məkanda Türküstanda işarələnir. Qazan xanın divanı Gürcüstan sərhəddindədir. O "Gürcüstan ağızında" oturur. Beyrək Gürcüstan kafərlərinə hücum çəkib bəzirganların canını və malını qurtarır, buna görə də Bamsı Beyrək adını alır. Bəkil Oğuzla Gürcüstan arasında dayanıb Oğuza qarşı kafər təhlükəsini dəf edir (97, 42, 54, 104). Əlbəttə, digər kafər məkanları da mövcuddur ki, bu situasiya çevrəsində Türküstanın yerini Qalın Oğuz tutur. Eyni zamanda Türküstan məkanını da assosiasiya edir. Türküstan modeli türk-oğuz mifoloji strukturunu boy strukturunda soy arxetipi səviyyəsində də proyeksiyalandırır. Bu üçüncü və yeddinci boyda ifadələnən təyinin rəqəm simvolikası ilə mətn strukturunda şifrələnmiş məlumat daşıyıcısı olduğunu göstərir. Türküstan soy arxetipi vasitəsilə modelləşdirilmiş mifoloji strukturların şaquli düzümünü, etnoqonik və kosmoqonik düzümü göstərir. Eyni zamanda üfüqi xətt üzrə də Qazan və Bayındır arasında boydan boya (üçdən yeddiyə) məkan səviyyəsini nümayiş etdirir. Təsadüfi deyil ki, Qazan və Bayındır (Qazan III boy, Bayındır VII boy) məhz "Türküstan dirəgi" hesab olunur. Çünki mövcud olan hər hansısa maddi məkan özül və dirək üzərində dayanmalıdır. DQK-də Türküstanın özülü Oğuz xaqan, dirəkləri Qazan xan və Bayındır xan görünür. Qazan III boyda, Bayındır isə VII boyda iki dirək funksiyası nümayiş etdirməklə Türküstan xəritəsini bu əhatədə üçdən yeddiyə doğru aşkarlayır. Bu həm sakral sonsuzluq ifadə edən 3 və 7 say arxetipi kimi Oğuz xaqana bağlanır (Oğuzun üç-üç ayrılıqda altı oğlu var, altı oğlu ilə birgə yeddi sayını təşkil edir, türk mifoloji

üçlüyünü inikas edir və s.) həmçinin bu iki boyda Türküstan məkan olaraq işarələnməklə türk-Oğuz mifoloji strukturunu üç və yeddi sakral əsas üzərində nümayiş etdirir.

Üçlük say arxetipi türk dünya modelinin mifoloji strukturunu aşkarlayır:

a) Yuxarı;

b) orta;

c) aşağı;

Yeddilik say arxetipi Oğuz etnoqoniyasını inikas edir:

1. Oğuz xaqan (Törədici)
2. Gün xan (törəyici-törədici)
3. Ay xan (törəyici-törədici)
4. Ulduz xan (törəyici-törədici)
5. Gök xan (törəyici-törədici)
6. Dağ xan (törəyici-törədici)
7. Dəniz xan (törəyici-törədici)

Təbiidir ki, bu sakral say simvolikası doqquzluq kimi də götürülür. Lakin ən maraqlısı odur ki, biz Türküstanın DQK mətnində konkret ərazi bildirmədiyini, Oğuz mifoloji dünya modelinin məkan işarəsi kimi dünya strukturunu proyeksiyalandırdığını qeyd etmişdik. Məhz üçlük və yeddilik sakral say rəqəmləri sonsuzluq ifadə etdiyi üçün yeddi və doqquz etnoqonik arxetipinin kökündə də zaman və məkanı saysız və hüdudsuz formada simvollaşdıran struktur modellər dayanır.

Məhz bu da Türküstan etnotoponiminin mifoloji dünya modelinin əsas məkan işarəsi olduğunu meydana çıxarır. Təbiidir ki, mətn boyu digər ünsürlər və əşyalar da məkan işarəsini təkrarlayır (dağ, daş, dəniz, yer, göy və s.). Ancaq bu nəinki bir-birini inkar etmir, əksinə tamamlayır. DQK-də Qaba ağac, Qaraquc dağ, Göycə və s. anlayışlar Türküstan məkanının daxilində mövcud olmaqla onu inkar etmir. Türküstanda dağın, dənizin, çayın və s. olması və məkan səviyyəsini aşkar-

laması Türküstanın bütövlükdə bu aşkarlamada iştirak etməsinin üzərinə kölgə salmır. Əgər Oğuz məkanını altı oğul ad səviyyəsində aşkarlayırsa, bu DQK mətnində paradiqmatik səviyyədə üzə çıxır, boylarda mövcud olan məkan obrazlarının (etnonim-eponim) invariant əsası kimi Oğuz mifinin strukturu rolunda çıxış edir. Elə bu səbəbdən də DQK-də diqqət çəkən Türküstan ərazisi diqqət çəkdiyimiz anlamda xan öyüncləri cərgəsinə daxildir. Bu baxımdan bəzən Qalın Oğuz məkanı da Türküstan məkanının sinonimi kimi iştirak edir. Buna görə də yuxarıda göstərdiyimiz kimi Türküstan olan yerdə Qalın Oğuz, Qalın Oğuz olan yerdə Türküstan ifadəsini işlətməyə ehtiyac hiss olunmur. Biz Qalın Oğuzun da Oğuz etnoqoniyasının törəməsi olduğunu diqqətə çatdırmışıq. Qazan və Bayındırın nə üçün "Türküstanın dirəgi" olduqlarının əsas səbəbləri də fikrimizcə bu kiçik araşdırmada yetərincə bəllidir.

"Türküstanın dirəgi" təyini istər DQK-də, istərsə də digər oğuznamələrdə, xüsusilə də O.Ş.Gökyayın təqdim etdiyi örnəklərdə birmənalı olaraq "Tülü quşun yavrısı" təyini ilə yanaşı gəlir. DQK-də III boyda "Tülü quşun yavrısı, Türküstanın dirəgi, VII boyda "Türküstanın dirəgi, "Tülü quşun yavrısı". Gökyayda II variant yuxarı-aşağı, aşağı-yuxarı yerdəyişmə ilə işlənmişdir (110, 54-56). Əlbəttə, təyinlərin bu şəkildə yanaşı gəlməsi təsadüfi deyil. Biz əvvəldə qeyd etmişdik ki, Tülu quş doğan günəş anlamı verməklə Oğuz xaqanı proyeksiyalandırır. Məhz "Türküstanın dirəgi" təyininin bazasında da Oğuz xaqanın necə rol oynaması bir qədər əvvəl diqqətimizdə olmuşdur. Türküstan adının birinci hecasındakı türk sözü soy, stan şəkilçisi (suffiks) isə məkan anlayışını ifadə etməsi baxımından Oğuz əcdad, Oğuz məkan işarəsi olaraq yaxın anlamların ozan dilində nə üçün yanaşı işlənməsinin spesifikasını aydınlaşdırır.

"Türküstanın dirəgi" birləşməsi Oğuz mifinin paradiqması olaraq DQK mətnində aşkarlandığı kimi eyni paradiqmanın

digər şəkillərinə də müəyyən örnəklərdə rast gəlirik. Əgər Qazan və Bayındır DQK-də bu təyini status olaraq daşıyırsa, O.Ş.Gökyay təqdimatında Oğuznamə parçaları arasında Salur Qazandan və Bayındır xandan sonra bu təyinin “Otmanoğlu” tərəfindən daşınması haqqında bilgilər törədici və törəyici funksiyaların epik mətndə ciddi təzahür formalarını əks etdirir. Bu öyüncdə Bayındır və Qazan xan əcdad səviyyəsində iştirak edir:

Dədə Qorqud bilüklü,
Salur Qazan Səadətlü,
Əmir Süleyman uğurlu,
Bayındır xan dövlətlü,
Yağı görsə yardımlu,
Qaçım görsə durumlu,
Türküstanın dirəgi,
Tulu quşun yavrusu...
...Otmanoğlu! (110, 54).

Bu nümunə eyni zamanda onu göstərir ki, “Türküstanın dirəgi” təyini xüsusi status olaraq Oğuz cəmiyyətində zaman-zaman mövcud olmuşdur.

Türküstan ərazisinin tarixi-coğrafi konkretliyinə gəlincə onu qeyd edək ki, bu toponim elə geniş əhatədə türksoyluların yaşamasını bildirməklə bərabər tarixçilər tərəfindən müxtəlif mülahizələr irəli sürülmüşdür. Türküstan Şərqi Türküstan adıyla miladdan öncə mənbələrdə diqqət çəkir. Çin tarixi bu dövr haqqında kifayət qədər məlumat verir. Belə ki xan sülaləsi dövründən əzəmətli şəkildə görünən bu ərazi bir çox mənbələrdə özünə yer almışdır (32, 351). B.Ögəl miladın ilk onilliklərində Türküstanın adı keçən tarixi hadisələrdən də bəhs açmışdır (111, 215). Müəllif hətta Şərqi Türküstanla bağlı tarixi dövrü miladdan öncə 2000-ci illərə aid edir (111, 9).

Ümumtürk xalqlarına qarşı yönəli anti-türk, anti-islam siyasəti Türküstan adının da müxtəlif formalarda təhrif olunma-

sına səbəb olmuşdur. Türküstan istilahının 1924-25-ci illərdə məlum məkanda Orta Asiya termini ilə əvəzlənməsi mənşəcə türk olan Azərbaycan xalqının "azərbaycanlı" adlandırılması və s. eyni eybəcər davranışın kütləviləşdirilməsinin təsdiqidir. Azərbaycan Sovet Ensiklopediyasında Türküstan haqqında məlumat verilərkən bu ərazinin XIX-XX əsrlərdə (1925-ci ilə qədər) mövcud olması əsaslandırılmağa çalışılır və inzibati ərazi bölgüsü kimi müəyyən bir dövrdə müəyyən bir vilayət quruluşu ümumtürküstan anlayışı kimi izah olunur (31, 412). Şərqi Türküstan haqqında heç bir ciddi məlumat verilmir, ayrıca bəhsdən isə söhbət belə getmir. Halbuki Şərqi Türküstanın qədim olması Çin tarixi haqqında bəhsdə diqqət çəkir. Əgər bir ərazinin şərqi varsa, təbiidir ki, onun qərbi, şimalı, cənubu da olmalıdır. Bu Türküstan ərazisinin nə qədər geniş ərazini əhatə etməsini göstərir. Məlumdur ki, Orta Asiya termini Türküstanın bir hissəsini, konkret olaraq Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Qazaxıstanın cənub hissəsini bildirmək üçün işlənmişdir. Elə buna görə də SSRİ məkanına daxil olan bu ərazilər həm terminoloji baxımdan, həmçinin türk adına qarşı aqressiv münasibətdən təcavüzə məruz qalmış, Türküstan adı bütünlüklə Orta Asiya termini ilə əvəzlənmişdir. Təbiidir ki, Türküstan yalnız Orta Asiyanı deyil, həmçinin Şərqi Asiyanın mühüm bir hissəsini, Mərkəzi Asiyanı, Cənubi Asiyanın bir hissəsini və Qərbi Asiyanın əksər hissələrini əhatə etmişdir. Lakin o da həqiqətdir ki, Türküstan deyildikdə əsasən Orta Asiya və əhatəsi nəzərdə tutulur. Elə Şərqi Türküstan istilahı da Orta Asiyanın Türküstan adlanmasına nəzərən onun şərq tərəfi kimi adlandırılır. Beləliklə, Türküstan XIX-XX əsrlərdən deyil, ta qədim dövrlərdən 1924-25-ci ilə kimi Türküstan adlanmışdır (29, 375). Elə F.Sümərin də Türküstanı bu anlayışda qəbul etdiyini görürük (127, 13, 14).

XIV əsrin ikinci yarısı, XV əsrin əvvəlində yaşamış Əbdürrəşid Bakuvi isə Türküstanın çox nəhəng ərazini tutduğunu göstərir. Belə ki, o dövrün iqlim bölgüsünə görə dünya ölkələri cəmi yeddi iqlim əsasında müəyyənləşdirildiyi halda (59, 370) alim bu ərazinin bütün iqlimləri əhatə etdiyini yazır: "Onun sərhəddi birinci iqlimdə başlanır və məşriqə daxil olub yeddinci iqlimə qədər uzanır. Türklər bütün iqlimlərin şərq tərəfində cənubdan şimala tərəf uzanan yerlərdə yaşayırlar" (59, 119).

Alim eyni zamanda epik səviyyədə qəbul olunan Türküstan anlayışını tarixi-coğrafi baxımdan da eyni anlamda qəbul edir: "Türkistan bütün türk ölkələrinin ümumi adıdır" (59, 119).

Demək, Qazan və Bayındır xan "Türküstanın dirəgi" olmaqla nəinki epik kontekstdə, həmçinin tarixi kontekstdə bütün türk məmləkətlərinin arxası, əsası, dirəyi kimi təsadüfən DQK mətnində işarələnmir. Bu status göstəricisi olub xan öyüncləri cərgəsində yer almaqla xaqanlıq mərtəbəsini işarələyir.

### 12. "Salur (Qazan)" təyini

Qazan obrazının mifoloji strukturunun tədqiqi istiqamətində **"Salur (Qazan)"** təyin-qəlibinin öyrənilməsi göstərir ki, bu, şəxs işarəsidir. Obrazlar sistemində mərkəzi obrazı işarələməklə soy baxımından eyni xana bağlanır. Bu ismi birləşmə xan öyüncləri cərgəsində bir çox alimlər tərəfindən eyni şəkildə oxunmuşdur (96; 98; 97; 99; 137; 140). Biz də eyni oxunuş şəklini qəbul edirik. Yalnız O.Ş.Gökyay bu adı eyni yerdə fərqli şəkildə "Salur Qazan" kimi deyil, "Salur xan Qazan" kimi oxuyur (140, 16). "Salur Qazan" birləşməsində göründüyü kimi iki antroponim, yaxud bir etnonim, bir antroponim özünü göstərir. Salur tayfa adı kimi, Qazan isə şəxs adı kimi fikrimizi təsdiqləyir. Lakin nəzərə alınsa ki Salur özü də şəxs adıdır, daha səhihi Oğuz xanın nəvəsinin adıdır, o zaman

antroponimin etnonimə çevrilməsinin məntiqiliyi aydınlaşır. Ümumiyyətlə, tayfa təsnifatından bilindiyi kimi hər tayfa bir əcdaddan törəyir, tayfalar birləşərək etnos yaradır, bu silsilə ilə ad tayfa və məkan bir-birinə bağlanır. Antroponimdən etnonim, etnonimdən toponim törəyərək antro-etno-toponim səciyyəsi yaradır. Oğuz əcdad kimi, Oğuz tayfa kimi, Oğuz məkan kimi və s. Salur Qazan birləşməsi də bu baxımdan özündə əcdad, tayfa və "Salur Qazan eli" anlayışı ilə məkan səviyyəsini nümayiş etdirir. Salur Qazanın tarixi kontekstdə araşdırılması epik qanunauyğunluq gərəyindən zəif şəkildə aparıldığından burada epik səviyyədə bu mənsubiyyət səciyyəsi haqqında bəhs açmağa daha çox ehtiyac vardır. Ancaq bundan öncə Qazan xan obrazının nə üçün tarixi kontekstdə araşdırılmamasının səbəblərini izah edək. Qazan xanın tarixi şəxsiyyəti haqqında Qorqudşünaslıqda ziddiyyətli fikirlər mövcuddur. M.Seyidov Qazan xanı tarixi şəxsiyyət kimi V əsrdə görür və M.Kalankatlının "Alban tarixi" əsərinə istinad edir (124, 124, 125). Q.Qeybullayev də DQK-dəki Qazan xanın V əsrdə Albaniyaya gələn Kazan adlı bir elbəyin ola biləcəyini ehtimal edir (104, 181). F.Kırzıoğlu Qazan xanın VII əsrdə yaşadığını və Bayındır xanın əmri ilə İslamı qəbul etmək üçün oğuzların xüsusi ehtiramını göstərmək məqsədiylə Muhamməd Əleyhissəlamın hüzuruna gedən nümayəndə heyətinin başında olduğunu qeyd edir (141, 21). Ə.B.Ərcilasun isə Salur Qazanı VIII əsrə ataraq Türgiş hökmdarı Su-lu Kağan hesab edir (55, 11-17). S.Cəmşidov isə Qazan xanı IX əsrdə axtarır, onu Babəklə müqayisə edib, ona bənzədiyini ehtimal edir (98, 10). Ə.Bahadır xan Salur Qazanın X əsrdə yaşadığını iddia edir: "Qazan alp isə üç yüz il peyğəmbərimizdən sonra yaşamışdı...Həm də Salur Qazan Qayı (elindən) Qorqut Ata ilə eyni vaxtda yaşamışdı" (60, 97). O.Ş.Gökyay da Qazan xanın X əsrdə yaşadığını göstərir: "Fikrimizce Salur Kazan X

yüzyılın sonlarında Samanlılerle Karahanlılar arasındakı mücadeleye karışmış olan oğuz beyidir” (140, CVII).

Göründüyü kimi, hər müəllif Salur Qazanı bir-birindən fərqli tarixi zamana aid edir. Xronoloji ardıcıllıqla düzdüyümüz bu mənbələr onu göstərir ki, tədqiqatçı alimlər Qazan xanı əsr-əsr gəzdirib az qala I minilliyin hər əsrində yaşadığını iddia edirlər. Biz Qazan xanı tarixi şəxsiyyət kimi əhatəli şəkildə araşdırsaq, o zaman hansı Qazan xanı oğuz epik ənənəsinin və DQK-nin Salur Qazanı hesab etməliyik? Hər müəllif irəli sürdüyü tarixi zamanı müəyyən şəkildə əsaslandırmağa çalışmış, əksər halda da buna nail olmuşdur. Obraz xarakteristikası isə bu zamanları inkar edir, obraz zamanını mətn strukturunda stimullaşdırır. Ola bilər ki, Salur Qazan obrazında bu Qazanların hər birinin hansısa tarixi cizgiləri cəmlənmiş, hətta araşdırdıqca yeni-yeni tarixi Qazanlar da ortaya çıxa bilər. Elə bu səbəbdən də obrazın tarixi səviyyəsi düşünülmüş şəkildə araşdırmaya cəlb olunmamışdır.

Hər bir obraz kimi Salur Qazan obrazının da əsasında bir neçə tarixi tip (prototip) dayanır. Məlumdur ki, müxtəlif şəxslərin fərdi xüsusiyyətlərindən alınan cizgilər bir obrazda cəmlənir. Qazan xan obrazı da bu baxımdan istisna təşkil etmir. Məhz obraz Salur Qazan mürəkkəb adıyla daha çox tanıdıldığı üçün eyni zamanda Salur əcdad və tayfa ifadə etməsi səbəbindən Salur Qazanın salurla bağlılığı diqqət mərkəzində olmalıdır. Çünki obraz spesifikasını dərindən araşdırmaq obrazın söylədiyi açar sözlərlə mümkündür. Salur sözü məhz bu mahiyyətdə DQK-də diqqət çəkir. Dastan mətnini araşdırarkən aşkar görünür ki, həm dastanda, həm DQK-nin daxil olduğu oğuz epik ənənəsində aşkar və simvolik səviyyədə Salur Qazan mürəkkəb adı bu obrazı bildirən şəxsin Salur olaraq tayfasını, Qazan olaraq adını deyil, Salur olaraq adını, Qazan olaraq isə keyfiyyətini ifadə edən ərən ləqəbini (həmişə qa-

zanmaq, qalib gəlmək) bildirir. Təbiidir ki, Qazan xanın adı Salur olduqda da Salur soyunu ifadə edə bilir, lakin Salurun soyunu deyil, özünü ifadə edir. Salur boyu özü Qazan xandan başlanır. Daha doğrusu, Salur Qazan Oğuz xanın nəvəsi Salurun özüdür. Hər halda bu epik səviyyədə bu şəkildə əks olunur. Bizə məlumdur ki, Oğuz ali idarəçiliyinin başında dayanan şəxs Bayındır xandır. Qazan xan isə onun kürəkəni olmaqla ikinci iyerarxik mərtəbəni tutur. Faktiki formada isə Bayındır xandan daha aktiv səviyyədə boylarda görünür. Bayındır xanın Oğuz xanın nəvəsi olması (Göy xanın oğludur) qorqudşünaslıqda az qala mübahisəsiz qəbul olunur (127, 302; 97, 259). Salur isə Göy xandan kiçik oğul olan Dağ xanın oğlu olmaqla Oğuz xanın başqa bir nəvəsidir. Dastanda təxminən Bayındır və Qazan arasındakı yaş fərqini (qayınata-kürəkən) Gök xan ilə Dağ xan arasında olan yaş dövrü tamamlamaqla obrazların epik tələbata uyğun tarixiliyini təmin edə bilir. Çünki tarix epik qanunlarda etalon reallıq təşkil edə bilməsə də, gerçək tarixilik deyil, epik tarixilik vacib ünsürdür. Əgər obrazlar arasında ən müxtəlif tarixi dövr, yaxud xəyali zaman məsafəsi vardırsa, bu yenə epik səviyyənin arxitektonikliyini pozmamalı, hətta anaxronizmlər də mövzu, süjet və motiv səviyyəsinin qanunauyğunluğunu dağıdacaq həddə olmamalıdır. Əgər DQK-də epikləşmiş obraz olan Bayındır xan Qazan xanın qayınatasıdırsa, onun kürəkəni Qazan xan da özündən zaman məsafəsinə görə uzaqda dayanmamalıdır. Ola bilsin ki, tarixi reallıqda Bayındır və Qazan arasında uzun tarixi mərhələ mövcuddur. Bayındır və Qazanın heç bir əqrəba bağlılığı yoxdur. Lakin epik mətndə bu ozan təhkiyəsinə uyğun olaraq bu şəkildə qurulmuşdur. O zaman Bayındır və Qazan arasında bir tarixi yaxınlıq da təmin olunmalıdır. Məhz Oğuz kompleksinin tərkib hissəsi kimi Bayındır və Qazan xan bir-birnə bağlandıqda təbiidir ki, hər ikisi soy ağacı-

nın yaxın budaqlarında yerləşməlidir. Bu baxımdan Bayındır xanın Oğuz xaqanın nəvəsi olması, Qazan xanın isə Oğuz xaqanın kiçik nəvəsi olan Salurun törəmələrindən biri kimi güman edilməsi çox yanlış olardı. Ən azından epik tələbata uyğun olaraq Qazan xan Salur Qazan olmaqla Salurun özü olduğunu təsdiq etmiş olur. Elə ozan düşüncəsində bu epik xronologiya mövcud olduğu üçün Qazan xanın məhz Bayındıra yaxın olması gərəyindən onun ən uzaq halda salurun oğlu olmasını təqdim etmək məcburiyyəti təsadüfən aşkara çıxmamışdır. Bu katib diqqətsizliyi yox, ozan təfəkkürünün mexaniki-assosiativ bədii görüntüsüdür. Bildiyimiz kimi Basat Qazana Salur Qazan deyil, "Salur oğlu Qazan" deyir (97, 102). Qazan xanın Salur olması Rəşidəddin və Əbülqazi Oğuznaməsində də tarixi-semantik səviyyədə aşkara çıxır. Rəşidəddinin və Əbülqazi xanın DQK-də Qazan xanın atası olan Ulaşın Oğuz xaqan ilə çağdaş olmasını Oğuznamələrdə göstərməsi Qazan xanın ən uzaq halda Salurla həmyaşıd olmasını təsdiq edir (115, 41; 60, 73). Onun Salurun hansısa törəməsi olması müddəasını isə tamamilə inkar edir. Düzdür, Rəşiddədin Qazanın atasının adının Ulaş olduğunu göstərmir. Əbülqazi isə əvvəldə qeyd etdiyimiz kimi, gah onun adını Enkeş yazır, gah da Enkeşin Qazan xanın kəndxudası olduğunu göstərir (60, 76, 100). Lakin hər iki müəllif Ulaşın Salur boyundan olduğunu, Oğuz xanın müasiri olaraq onunla eyni dövrdə yaşadığını və əhəmiyyətli şəxs olmasını yazmaqla DQK-də Qazan xanın "Ulaş oğlı Salur Qazan" olmasının təsadüfi deyil, bu situasiyanın şərəfli görüntüsü kimi Oğuz düşüncəsində saygı və hörmət bilgisinə söykənən struktur modeli kimi meydana çıxdığını təsdiq edir. Ancaq burada bir sual ortaya çıxır. Necə olur ki, Salur Qazan həm Salur olur, həmçinin Ulaş oğlu olur? Məsələ burasındadır ki, bu epik strukturun qanunauyğunluğundan doğur. Salur Qazan adlı şəxs gördüyümüz kimi, Salurun

törəmələri arasında da vardır. Salur Qazan obrazına bu şəxsin də şəxsi keyfiyyətlərindən müəyyən cizgilər daxil olunmuşdur. Lakin Salur Qazan obrazı bütünlüklə bu şəxsə aid deyil, eyni zamanda Salurun inikası olaraq meydana çıxır. Oğuz cəmiyyətində Ulaş adlı şəxsin böyük hörməti də obraz arealına daxil olub onu qüvvətləndirir. Bu bir struktur yaradıb müxtəlif səviyyələri ortaya çıxarır:

1. Qazan Salur kimi;
2. Qazan Ulaşın oğlu olaraq Salur törəməsi kimi;
3. Qazan Salur törəməsi olaraq Salur Qazan kimi;

Qazanın Salur olmasını dəyərləndirmək üçün o, Bayındır xanın kürəkəni və Qalın Oğuzun başçısı edilir. Qazanın Salurdan sonra yaşayan Ulaşın oğlu olmasını Salura bağlamaq üçün Salurun atası olan Dağ xana Ulaşın semantik bağlanmasını proyeksiyalandırır. Ulaş dağ anlamı verməklə Salurun nəvəsi durumundan Salurun atası mövqeyinə keçir. Təsadüfi deyil ki, M.Seyidov V.V.Radlova əsaslanaraq məhz “Ulaş” sözünün dağ, ucalıq anlamında işləndiyini göstərir. “Ula” – ulu + aş/ əş” tərkiblərindən ibarət mürəkkəb sözdür. “Ula” – bir sıra türk dillərində “təpə”, “kiçik dağ”, “ucalıq” deməkdir. Bəllidir ki, sözün ikinci hissəsi aş/əş-in tay anlamı da vardır. “Ula” və “aş” birləşərkən “Ula”dakı “a” səsi vurğusuz qaldığından düşmüş “ulaş”, yəni təpəyə, ucalığa tay anlamını verən ad yaranmışdır” (124, 110).

Elə türk dillərində, xüsusilə də müasir türk dilində bu gün də işlək olan ucalmaq sözü çatmaq, yetmək, ulaş (maq) anlamında olmaqla ucalığa, dağ zirvəsinə yetişmək mənasını verir (114, 210). Daha doğrusu, bu sözün funksionallaşmış mənası bu gün təfəkkürdə işlək olaraq bu anlamı ifadə edir. Eyni zamanda Əbülqazinin Salur Qazanın atasının adını Enkeş olaraq göstərməsi DQK-də Ulaş və Salur olaraq göstərilməsinin epik tələbatdan irəli gəldiyini göstərir. Yəni vacib deyil ki, Salur Qa-

zanın atası Ulaş olsun. Sadəcə olaraq bu epik mətndə ozan düşüncəsinin məhsuludur. Elə buna görə də Qazanın Salurun törəməsi olmasına baxmayaraq DQK-də Salurun özü olması heç də ziddiyyət təşkil etmir. Hətta Salurun atası Dağ xan olduğu halda, epik mətndə Ulaş ola bilər. Necə ki Bayındırın atası Gök xan olmasına baxmayaraq DQK-də Qamğandır və bu onun Oğuz xanın nəvəsi olması anlayışının üzərinə kölgə salmır. Onu da deyək ki, Rəşidəddin və Əbülqazidə Ulaşın Salur boyundan olmaqla Salurun törəməsi sayılması epik mətnə təzad yaratmır. Çünki hər iki əsər mənqəbədir. Yarı tarix, yarı epik janr xüsusiyyətləri olan əsərlərdir. Elə buna görə də bu əsərlərdə mövcud olan məlumatlar fərqli şəkildə epik əsərlərə düşə bilər. Bundan əlavə onu deyək ki, tarixi məlumat səviyyəsində təqdim olunan bu hadisənin təkrar yazılışı (Əbülqazidə yalnız Ulaşın adı vardır) özü çox ziddiyyətlidir. Yəni bu şəxsin Oğuz xaqanın çağdaşı olması ilə Rəşidəddində Oğuz xanın böyük nəvəsi (Gün xanın oğlu) Əbülqazidə isə böyük nəticəsi (Gün xan – onun oğlu Qayı xan, onun oğlu Dib Bakuy) olan Dib Yavqunun (Əbülqazidə Dib Bakuy) Ulaşdan Oğuz xaqanı görməsi və ondan məsləhət alması müqabilində ondan cavan olması çox yanlış görünür. Çünki Dib Bakuy ən az halda nəvə, yaxud nəticə olmaqla Oğuzun kiçik nəvələrindən olan Dağ xanın oğlu Salur ilə eyni dövrə düşür. Hətta Dib Bakuy Salurdan yaşlı olub Dağ xanla həmyaşıd ola bilər. Çünki o, Oğuz xanın böyük oğlunun oğlu, yaxud nəvəsi, Salur isə Oğuz xaqanın kiçik oğullarından olan sonuncudan əvvəlki Dağ xanın oğludur. Lakin Oğuz xaqanı onun deyil, Salurun törəmələrindən biri olan Ulaşın görməsi çox məntiqsiz görünür. Məhz bu tarixi uyğunsuzluq onu göstərir ki, Ulaş Salur boyundan, yaxud soyundan törəmə ola bilməz, ən az halda Salurun atası Dağ xanın çağdaşı, yaxud özü ola bilər. Özü ola bilməsi ehtimalı isə epik paradiqma baxımından özünü diaxron şəkildə təsdiq edir.

Biz M.Seyidova əsasən qeyd etdik ki, Ulaş Dağ anlamı verməklə Dağ xanla eyni semantik cərgəni təşkil edir. Qazanın Salur olması isə bizim tərəfimizdən iddia olunur. Bu halda Dağ xan Salurun atası olmaqla DQK-də Ulaşın yerini tutmuş olur. Dağ xanın Qazanın atası olması ilə epik mətndə Salur Qazanın Saluru ifadə etməsi bu tarixi məntiqin özündən doğur. Salur Qazanın Salur olması təhkiyəsi DQK-dən əlavə digər Oğuz mühitinə aid əsərlərdə, yaxud motiv səviyyəsində fərqli epik ənənəyə malik müəyyən dəyərli örnəklərdə də diqqət çəkir. XVIII əsrdə yaşamış türkmən şairi Maqrupi Qurbanəliyə aid edilən "Yusup və Əhməd" dastanında Salur eli, Salur boyu anlayışında işlənən "Salur Qazan eli" ifadəsi bu qəbildəndir. Dastanda Yusup bəy deyir:

Öz-özü ilə yarışan,
Yezidi hədələyən, qılıncı qanlı olan,
Salor Qazan eli qoy gəlsin (102, 51).

Salur Qazanın əcdad olaraq epik mətnlərdə iştirak etməsi onun Saluru inikas etməsindən irəli gəlir. İlkin olaraq onu qeyd edək ki, elə eyni dövrdə Salur eli ilə yanaşı Salur Qazan eli istilahı qüvvədə idi (60, 75, 76; 102, 51).

Bulqar-Tatar epik ənənəsinə aid olan, IX əsrdə Mikayıl Baştunun qələmə aldığı "San qızı dastanı"nda Qazan xan Hun xalqının xilaskar əcdadı, soyun yenidən bərpasında iştirak edən bahadır (alp) olaraq təsvir olunur. Dastanın "Hon xalqı necə yeniləşdi" fəslində Qazanın anası tərəfindən bir qazana qoyulub çaya buraxılması və bununla da onun soyunu tələf edən düşməndən xilas olması, soyuna uyğun olaraq adının Qazan qoyulması, nəhayətdə düşmənlə döyüşüb öz Hon (Hun) xalqını xilas etməsi yüksək poetik səviyyədə əks olunur (84, 163-166). Hətta burada Qazan soyu Laiş nəsilləri adlanır ki, Laiş sözünün Ulaş sözünə nə qədər yaxın olması göz qabağındadır (84, 164).

Dastanda "Qazan soyu" anlayışı ("Salur Qazan eli" kimi) diqqət çəkir və bir az ondan qabaq işlənən Laiş nəsilləri ifadəsinin təzahürü olaraq ortaya çıxır:

Xan tapılmış uşağı saxladı,
Oğlanı öz soyunun adı ilə,
Qazan adlandırdı" (84, 166).

Məlum olur ki, Qazan anlayışı Lais nəsilləri anlayışının davamıdır. Yəni Qazan Laiş (Ulaş) övladlarından olmaqla (DQK-də oğludur, "San qızı dastanı"nda isə törəməsidir) özü də soyu məhv olmaqdan qurtardığı, yeniləşdirdiyi üçün, daha doğrusu, ad ritualını keçdikdən sonra yeniləşdirəcəyi üçün məhz Qazan soyu ifadəsi işlənir. Bu bizi Hunlarla oğuzların tarixi və epik bağlantılarına gətirib çıxarır. Görünür, böyük Hun imperatoru Metenin Oğuz xan olması haqqında irəli sürülən fikirlərin də əsaslı elmi-tarixi və ədəbi qaynaqları vardır. Bu fikirlər haqqında B.Ögəldən oxuyuruq: "Y.Krikne Mətənin Oğuz xana bənzədiyini çox böyük bir ehtiyatla söyləmişdi. Lakin rus çinşünası Biçurin bu iki hökmdarın eyni ola biləcəyini qəti olaraq irəli sürdü. Rəhmətlik Ziya Göyalp "Millli Tətəbbölər Məcmuəsi" nin birinci cildində yazdığı "Əski türklərdə məntiqi təzahürlər" adlı məqaləsində bu mövzuya daha geniş toxunmuş və Biçurindən xəbəri olmadan Mətə ilə Oğuz xanın eyni adam ola biləcəyi fikirini irəli sürmüşdür (112, 27).

Təbiidir ki, B.Ögəl bu fikirlərə yer ayırsa da özü fərqli fikir nümayış etdirmişdir: "Bizim fikrimizcə, Oğuz xan əfsanəsi Metedən də əvvəl Orta Asiyada mövcud idi." (112, 27).

Eyni fikri biz də qəbul edirik. Çünki Oğuz xanın Mete ilə eyniləşdirilməsi onu konkret tarixi dövrə daxil edir, miladdan öncənin III-II əsrində dondurur. Halbuki Oğuz xanın m.ö.-nin IV minilliyində yaşaması haqqında fikirlər mövcuddur. Əbülqazi Oğuz xanın təxminən bu dövrə düşdüyünü yazır (60, 97). Ancaq biz Oğuzlarla Hunların bağlılığını təsdiq

etməsi baxımından mənbələrin verdiyi məlumatları da inkar etmir, Bulqar dastanında təsvir olunan motiv səviyyəli bu hadisənin Qazan xanın əcdad funksiyası, soy daşıyıcısı qismində çıxış etməsini şərtləndirdiyini görürük. Məhz Qazan xanın DQK-də əcdad səviyyəsində Salur obrazında çıxış etməsi ilə bu dastanda soy yeniləşdirməsinin təsviri yaxınlığını, motiv bağlılığını mədəni qəhrəman statusunda çıxış edib ritual davranış kodeksu nümayiş etdirdiyini, statusdəyişmə funksiyasını həyata keçirdiyini anoloji olaraq araşdırmamıza cəlb edirik. Elə DQK-də Beyrəyin Oğuz elini Qazan Oğuzu adlandırması da (97, 124) eyni status və funksiyadan xəbər verir. Qazan xanın bu funksional statusu Yazıçıoğlu Əlinin "Təvarixi-ali-Səlcuq" əsərində verilmiş Qazan öyüncləri təyin-titulları ilə də Oğuz epik ənənəsində Qazan kompleksi təşkil etməsini göstərir. Bu örnəyi O.Ş.Gökyay "Dədəm Qorqudun kitabı" əsərinə daxil etmişdir (140, DXXVIDLXXX, 20, 68-70; 134, 22, 23). Bu mənbəni A.Duymaz, B.Abdulla eyniliklə Salur Qazan haqqında yazdıqları əsərlərə daxil etmişlər (135:5:).

Bu baxımdan da "Salur Qazan" birləşməsi təyinlər cərgəsinə daxil olub bu etiket qaydasını yekunlaşdırır. Təbiidir ki, "Salur Qazan" təyin-titulların sıralanması baxımından sonda gəlir və təyinlərin yekunu olaraq görünür. Çünki bu təyinlər məhz Salur Qazana aiddir.

Beləliklə, diqqət çəkdiyimiz "xan öyüncləri" ritual davranış forması kimi Oğuz epik ənənəsində müşahidə olunur. Təsadüfi deyil ki, bu öyünclər şəxs adları da daxil olmaqla məhz Oğuz düşüncəsində sakral say arxetipi olan 12-lik sonsuzluq ədədinin üzərində qururlmaqla Oğuz mifinin paradiqması kimi böyük bir sistemin ayrı-ayrı hissələrinin obraz səviyyəsində inikas olunmasını təmin edir. On iki (12) xan öyüncü ritual etiketi olaraq məhz Oğuz dünyagörüşünün tərkib hissəsi kimi meydana çıxır. DQK-nin on iki boydan ibarət olması da bu say

arxetipinin strukturda mövcud olmasından xəbər verir və xan öyüncü təyin-titullarının geniş kompleks təşkil etdiyini açıq-aydın göstərir. Bu on iki təyin ilk baxışda epik mətndə bir abzas həcmində yer tutsa da, əslində sinxron və diaxron səviyyədə müxtəlif layların aşkarlanmasında, struktur modellərin əks olunmasında iştirak edir. Diqqət çəkdiyimiz kimi bu təyinlər başdan-başa Oğuz epik ənənəsində müxtəlif anlamları işarələməklə müəyyən səviyyələri aşkarlayır:

1. Ritual səviyyəsi;
2. Motiv, mövzu, süjet səviyyəsi.

Hər təyin işarə səviyyəsi olaraq fərdi-sosial-mənəvi və s. müəyyən bir situasiyanı işarələyir. Eyni zamanda müxtəlif statusları ifadə edir. Ümumiyyətlə, ifadəyə çevrilən nitq aktı epik mətnin formalaşmasında təfəkkür prosesi kimi üş əsas hadisəni özündə cəmləyir:

1. Situasiya;
2. Funksiya;
3. Assosiasiya.

Epik mətn bu əqli-fiziki-maddi, eyni zamanda psixi-mənəvi və s. faktura əsasında struktur təşkil edir və bu anlayışların mətnə tətbiqi bir çox məsələlərin mahiyyətini aşkarlayır. Diqqət çəkdiyimiz və "xan öyüncləri" adlandırdığımız təyinlər də bu səviyyələrdə aşkarlanmaqla mühüm bir sistemin tərkibi olduğunu meydana çıxarır.

1. "Xan öyüncləri" situasiyası Oğuz ali idarəçiliyini aşkarlayır.

2. "Xan öyüncləri" funksiyası Oğuz dünyagörüşünün və Oğuz məişətinin Oğuz ali idarəçiliyində məqsədyönlü həyat tərzini aşkarlayır.

3. "Xan öyüncləri" assosiasiyası Oğuz invariant strukturunun paradiqması olduğunu aşkarlayır.

Göründüyü kimi, Oğuz cəmiyyəti bir-birinə bağlı olan üç əsas komponent təşkil edir ki, "xan öyüncləri" hər üç komponentin vahid strukturu kimi reallaşır:

1. Oğuz dünyagörüşü;
2. Oğuz ali idarəçiliyi;
3. Oğuz məişəti.

Onu da deyək ki, "Xan öyüncləri" DQK-də əsasən üç yerdə (II, III, VII boylar) işlənməsinə baxmayaraq assosiativ formada beş yerdə işlənməsi meydana çıxır. Bu təyinlərin bir neçəsinin başqa yerdə təkrar olaraq verilməsi mexaniki olaraq təyinlər cərgəsini yaddaşda bərpa edir. II boyda Qazan xan haqqında deyilir: "Məgər, xanım, ol gecə Qalın Oğuzın dövləti, Bayındır xanın göygüsi, Ulaş oğlı Salur Qazan qara qayğılu vaqeə gördi" (97, 44).

III boyda isə Qazan təyinləri bu şəkildə təqdim olunur: "Böylə digəc Qalın Oğuz arxası, Bayındır xanın göygüsi Salur Qazan qaba dizinin üzərinə çökdi" (97, 52).

Gördüyümüz kimi II-III boyda bu təyinlərin bir hissəsi başqa situasiyada – II boyda yuxu, III boyda dua qabağı sadalanır. Özü də o boylarda sadalanır ki, məhz bu xan öyüncləri tam olaraq da həmin boylardadır. Əgər II boyda "xan öyüncləri"nin bütöv cərgəsindən sonra assosiativ olaraq yarım cərgəsi gəlirsə, III boyda bunun əksini görürük ki, bu da ozan təhkiyəsinin xüsusi spesifikasından xəbər verməklə bu yerləşmənin təsadüfi olmadığını, mətnə assosiasiya tətbiqinin düşünülmüş şəkildə mətn poetikasında yerləşdirilməsindən xəbər verir:

1. Bütöv təyin kodeksi – II boy əvvəldə, III boy ortada;
2. Yarım təyin kodeksi – II boy ortada, III boy əvvəldə;
3. Tək təyin kodeksi – VII boy, əvvəldə.

Biz diqqət çəkdiyimiz on iki (12) təyinin işarə səviyyəsini isə bu şəkildə müəyyənləşdirmişik:

1. “Ulaş oğlı” – soy işarəsidir. Atanı inikas edir, əcdadı assosiasiya edir.

2. “Tülu quşun yavrısı” – inanc işarəsidir. Günəşi simvolizə edir, Oğuzun işıq anlamını proyeksiyalandırır.

3. “Bezə miskin umudı” – güc və qurtarıcılıq işarəsidir. Mətnin üst qatında xanlığı, alt layında mədəni qəhrəmanı işarələyir.

4. “Amit soyının aslanı” – iyerarxiya işarəsidir. Ali statusu bildirir.

5. Qaracuğın qaplanı – məkan və rütbə işarəsidir.

6. Qonur atın iyəsi – mənsubiyyət işarəsidir. Xan təyini kimi dərəcə müəyyən edir.

7. Xan Uruzın ağası – soy və mənsəb işarəsidir. Ali təsisatı ifadə edir.

8. Bayındır xanın göygüsi – qövmi mənsubiyyət işarəsidir.

9. Qalın Oğuzın dövləti – iyerarxiya işarəsidir. Etnosun və məkanın ali idarəçiliyini işarələyir.

10. Qalmış yigit arxası – himayədarlıq işarəsidir. Hami xan statusunu işarələyir.

11. Türküstanın dirəgi – məkan işarəsidir. Etnosu da ifadə etməklə status aşkarlayır.

12. Salur (Qazan) – şəxs işarəsidir.

Təyinlərin ritual səviyyəsi elə etiket norması olmasında aydın olur. Bu təyinlər müxtəlif anlamları ifadə etsə də, sonucda xan öyüncləri olmaqla ali status ifadə etdiyini göstərir. Ritual davranış norması olaraq təyinlərin Oğuz cəmiyyətinin maddi-mənəvi təminatçısı kimi çıxış etməsi onun ritual-mifoloji səviyyəsini ifadə edir. Oğuz mifoloji dünya modelinin aşkarlanmasında bu təyinlərin bilavasitə yardımçı olması onların ritual xarakterindən xəbər verir. S.Rzasoy DQK-də əksər boyların başlanğıcını ritual hadisəsi hesab edir: “On iki boydan doqquzu (1, 2, 3, 4, 7, 9, 10, 11, 12) eyni situasiya ilə, yəni

ritualın təsviri ilə başlanır. 1, 3, 7, 9, 10-cu boyların əvvəli Bayındır xanın 2, 4, 10 (bu boy Bayındır fxan və Qazan xanın divanlarının, yəni ictimai-siyasi iyerarxiyanı standartlaşdıran ritual formulunun xatırlanması ilə başlanır). 11, 12-ci boyların əvvəli Salur Qazanın otaq və alaçıqlar qurdurması və burada hər hansı bir məclis (mərasimi yemə-içmə, şadyanalıq, yarış, söhbət və s.) keçirməsi ilə başlanır. Bu məclislər bütün hallarda proqramlaşdırılmış davranış kompleksi – ritualdır" (118, 43).

Tədqiqatımızda olan "xan öyüncləri" etiketi də II boyda başlanğıc təşkil edir və ritual mahiyyətini aşkarlayır. Lakin onu da qeyd edək ki, ritual DQK-də yalnız boy başlanğıcında deyil, digər abzaslarda da mətnüstü və mətnaltı laylarda da diqqət çəkir. Elə bu təyinlərin də başqa boylarda başlanğıc təşkil etməsə də, – ritualla bağlılığı göz qabağındadır. Əgər S.Rzasoyun ritualla başlanan boylar arasında diqqət çəkdiyi II boy "xan öyüncləri"nin ritualla bağlılığını göstərirsə, bu təyinlər digər boylarda da təkrarlanırsa, demək, ritual həm boy başlanğıclarında, həm də boy ortası, boy axırı hissələrdə struktur daxilində mövcuddur. Bu təyinlərin ritual səviyyəsi də bütün DQK boylarını bu baxımdan əhatə edir.

Araşdırmaya cəlb edib "Xan öyüncləri" adlandırdığımız yuxarıdakı təyinlərin struktur-semantik oxunuşu elmi auditoriyaya yeni motiv və mifologemlərin də təqdim olunmasına, bir bütöv süjet xəttinin aşkarlanmasına struktur gizlinlərinin sistemli bərpasına gətirib çıxarmışdır. Tədqiqatın "Giriş" hissəsində bu barədə bilgi verilmiş, tədqiqat boyu motiv, mifolegem və süjet xəttinin müxtəlif təyin-titullarda aşkarlanmasına çalışılmışdır.

Beləliklə, "Xan öyüncləri" təyin-titulları ilə Bayındırın, əsasən də Qazan xanın Oğuz cəmiyyətində xan statusu işarələnir. Salur Qazan xan-xaqan statusunun daşıyıcısı olaraq Oğuz xaqan (Oğuz xan) invariantının paradiqması kimi xaqan arxetipini ifadə edir.

# II FƏSİl

## QAZAN XAN OBRAZININ RİTUAL-MİFOLOJİ STRUKTURUNU PROYEKSİYALANDIRAN RİTUAL-MİFOLOJİ MODELLƏR

Qazan xan obrazının ritual-mifoloji səviyyələri elə onun xanlıq statusunda cəmlənir və bu statusdan qopan hissələr Qazan xan obrazını bütünlüklə oğuz epik ənənəsində səciyyələndirir. Qazan xan obrazının statusu funksionallaşaraq (bəy, bəylər bəyi, xan, xaqan) epik səviyyədə oğuz epik ənənəsində müxtəlif anlamları ifadə edirsə də, dərininə endikcə də Oğuz mifinin invariant strukturundan qopan paradiqmalar kimi üzə çıxır. Qazan xan obrazının ritual kodeksin rəsmi daşıyıcısı kimi iştirak etməsi mütləq onun xan statusundan keçir. Çünki ritualların təşkili xan, xaqan tərəfindən həyata keçirilir, icraçılığı isə ruhani funksiyada çıxış edən şəxslər vasitəsilə baş tutur. Qazan xanın xan statusu DQK-də ritual səviyyədə, eyni zamanda mətnüstü təsviri mövzu, süjet və motiv səviyyəsində əsasən aşağıdakı şəkildə aşkarlanır:

1. Xan öyüncləri (təyinlər)
2. Ov ritualı
3. Dua ritualı
4. Vərəsəlik törəsi
5. Yəğma ritualı

Xan təyinləri, yaxud xan öyüncləri barədə əvvəldə bəhs açarkən aydın oldu ki, digər mövzulara da bu təyinlərdən keçidlər vardır. Elə bu səbəbdən də digər məsələlər haqqında qısaca bilgi vermək ehtiyacı yaranır. Əslində Qazan xan obrazının ritual-mifoloji strukturu elə I fəsildə yetərincə aydınlaşdırılmışdır. Bu elə Xan öyünclərinin (təyinlərin) təkrar olaraq II fəslin başlığında formal statusda görünməsindən də aydın gö-

rünür. Lakin digər ritualların Qazan xanla bağlılığı bu mövzunu daha əhatəli şəkildə araşdırmaq məcburiyyəti yaradır.

### 1. Ov ritualı

İlk öncə diqqəti “**ov ritualı**” cəlb edir. DQK-də aşkar görünür ki, ov ayini, daha doğrusu kütləvi ov icrası xan statusuna aid olan şəxslərin ixtiyarındadır. Misal üçün, I boyda ov hüququ Dirsə xanda görünür. Belə ki, Buğacı şərləyən qırx namərd, atasının gözündən salmaq üçün iki yerə bölünüb, iyirmi-iyirmi onun yanına gəlir və Buğac haqqında böhtan, iftira söyləyirlər. Birinci iyirmilər deyir:

Görürmisin Dirsə xan, nələr elədi!?
Yarımasun, yarçımasun sənin oğlın, kür qopdı, ərcəl qopdı.
Qırq yigidin boyına aldı,
Qalın Oğuzun üstinə yüriş etdi,
Nə yerdə gözəl qopdısa, çəküb aldı;
Ağ saqallu qocanın ağzın sökdi,
Ağ birçəklü qarının südin tutdı (97, 36,37).

İkinci iyirmilər isə deyir:

Qalqubanı, Dərsə xan, sənin oğlın yerindən uru turdı,
Köksi gözəl Qaba tağa ava çıqdı,
Sən var ikən av avladı, quş quşladı (97, 37).

Göründüyü kimi, namərdlər Buğaca böhtan deyərkən onun Dirsə xandan iznsiz ova çıxmasını, Dirsə xan dura-dura ov etməsini ən böyük günahların başında sadalayır. Halbuki Buğac artıq buğa öldürmüş, Buğac adı almış, statusu dəyişmiş, bəylik rütbəsi əldə etmiş, taxta oturmuş, elə buna görə də qırx dostu ona paxıllıq edib düşmən olmağa başlamışlar (97, 36). Hətta bu səviyyədə də olsa Buğacın Dirsə xandan icazə

almamış, yaxud onsuz ova getməyə ixtiyarı yoxdur. Çünki kütləvi ov ayini xana məxsusdur, o isə bəydir. Dədə Qorqud Buğaca ad verərkən deyir:

Hey Dirsə xan! Oğlana bəglik vergil,
Təxt vergil, – ərdəmlidir! (97, 36).

Dirsə xan ritual ənənəsinə uyğun olaraq ona bəylik verir: "Dərsə xan oğlana bəglik verdi, təxt verdi" (97, 36).

Buğac boy başlığında xan adlansa da ("Dirsə xan oğlı Buğac xan boyını bəyan edər xanım, hey!..") (97, 34) fərdi xan statusuna malikdir, faktiki olaraq isə ona bəylik verilir. Hər halda xana bəylik verilə bilməz. Elə buna görə də onun xan statusuna aid olan ov qaydasını pozması böhtanı onun üçün ağır nəticələr törədir. Əlbəttə, başqa günahlar da status mənimsənilməsi güman edilən Buğaca qarşı cəza tədbiri düşünülməsində rol oynayır. Lakin onun sakral ritual ənənəsini pozması ən ağır günah hesab olunur. Elə bu səbəbdən də cəza da məhz ritual tabusunu pozduğu üçün ritual ənənəyə uyğun olaraq ovda verilir: "Alar sabah Dərsə xan yerindən uru turdı. Oğlancuğın yanına alub, qırq yigidin boyına saldı, ava çıqdı" (97, 37).

Dirsə xanın xatunu "Oğlancığımın ilk avıdır" deyib Dirsə xanla gedən Buğac üçün atdan ayğur, dəvədən buğra, qoyundan qoç qırdırıb (97, 38) "toy" təşkil edir, buna şölən (ritual) görüntüsü vermək üçün "Qanlı Oğuz bəglərin toylıyayım" bəyanını nümayiş etdirir. A.Xəlil bu situasiyanı "Qanlı toy ritualı" adlandırır (86, 47).

Fikirimizcə, xatunların toy verməsi Bayındırın və Oğuz xanlarının keçirdiyi toy xarakterində olmayıb, yığıncaq anlamı verir. Lakin bu tədbir və ritual (toy) sayıldığı üçün ritual təsnifatda yerinin müəyyənləşməsi lazımdır. Daha doğrusu, mətnin alt layında arxaik ritual yerini saxlayıb ifadə səviyyəsində bunu "xatunun ov toylaması" icraçılığı ilə süjet qəlibində ozan təhkiyəsi müəyyən qədər ya dəyişdirmiş, yaxud ritual etiket

bilərəkdən kodlaşdırılmışdır. Bu yerdə mərasimin ritualdan ayrıldığı pillə aydın görünür. Elə A.Xəlil də ehtimal ki, bu baxımdan bu məqamı, daha çox mərasim olaraq qəbul edir (86, 47).

Xatunun bu ovu oğlunun ilk ovu sayması təsadüfi deyil. Çünki Dirsə xansız Buğacın ova çıxması, qeyd etdiyimiz kimi, ritual gələnəyinə ziddir və ağır cəzası vardır. Xatun oğlu Buğacın belə bir hərəkət edəcəyini gözləmir, bu barədə oğluna iftira atılmasından da məlumatsızdır. Lakin xan statusuna aid olan ov ayininin Buğacın statusu olmadığını yaxşı bildiyi üçün atası ilə getdiyi ovu onun "ilk avı" adlandırır. Bundan əlavə Buğacın ilk ovunu mərasimləşdirməklə artıq ov iştirakı qazanmış "qanlı bəylərin" nəzərində Buğacın bundan əvvəl ovda iştirak etməsi haqqında yayılan şayiələrin yalnız bir iftira olduğunu mexaniki-assosiativ şəkildə doğrultmuş olur. Oğuz cəmiyyətində ov yalnız vaxt keçirmək ünsürü deyil, xan tərəfindən müəyyənləşdirilən qanun-qaydaların icra edilməsi üçün seçilən məkandır ( 12, 175).

Konkret olaraq DQK-də ov aktı aşağıdakı şəkildə özünü göstərir:

1. Cəza yeri kimi seçilir (ovda günah törətməsi güman edilən Buğaca ovda cəza verilir) kütləvi ayindir.

2. Əyləncə yeri kimi seçilir (II boyda Qazan xan əyləncə məqsədilə ova gedir) kütləvi ayindir.

3. Hərbi-siyasi taktika kimi seçilir (Bəkil Oğuz eli ilə döyüşməmək və siyasi gərginliyi artırmamaq üçün ova gedir) fərdi ayindir.

4. Status qutlamaq üçün seçilir. Status qutlama ayinidir (Beyrəyə ad verildikdən sonra həyata keçirilir). Kütləvi ayindir.

5. Cəngavərlik statusu qazanmaq üçün seçilir (Hünər göstərmək, at yarışı, ox atışı, güləş və s.). Fərdi ayindir.

6. Status dəyişmə kimi seçilir. Status dəyişmə ayinidir (Uruz üçün nəzərdə tutulur). Kütləvi ayindir.

7. Ov əti ilə xüsusi şəxslərə qonaqlıq verilir (Bayındır xan Bəkil üçün təşkil edir). Kütləvi ayindir.

8. Ova gizli getmək istisnası da vardır (Qazan xan tərəfindən həyata keçirilir). Fərdi ayindir.

Ov təşkili iki şəkildə diqqət çəkir:

1. Kütləvi-ictimai ov ayini (I, II, IV, IX boylar).

2. Fərdi ov ayini (III, XI boylar).

DQK-də beş kütləvi, üç fərdi ov ayini vardır. Cəza yeri kimi seçilən ov aktı haqqında yuxarıda bilgi vermişik. II boyda ov əyləncə yeri kimi Qazan xan tərəfindən müəyyənləşdirilir: "Yüriyəlim a bəglər! Av avlıyalım, quş quşlıyalım, sığın, keyik yıqalum, qayıdalım otağımıza düşəlim: yeyəlim, içəlim, xoş keçəlim!" (97, 42).

Mətnin üst qatında, ifadə planında əyləncə funksiyasında, alt qatında siyasi münasibətlərin yaratdığı gərginliyi zəifləmək üçün cəmiyyətdən təbiətə qayıdışı işarələyir. Siyasi konteksti bildirir. II boyda alt qatda kodlaşdırılan məlumat IX boyda mətnin üst qatında ifadə səviyyəsində görünür. Bəkil məhz eyni xarakterə uyğun situasiyada ova çıxır (97, 105). Bu ov aktı üst qatda II boyun alt qatını, alt qatda isə hərbi təlimləri işarələyir. III boyda Beyrəyin yeni statusa keçib ad almasından sonra ov aktı keçirməsi ritual ənənənin tərkib hissəsi kimi diqqət çəkir. Dərəcə alan Beyrəyin bəylərlə birlikdə kütləvi formada ova çıxması ov ayininin status göstəricisi olmasını göstərir: "Qalın Oğuz bəgləri əl götürdilər, dua qıldılar, "Bu ad bu yigidə qutlu olsun!" dedilər.

...Bəglər həb ata bindi. Boz ayğırın çəkdirdi, Beyrək bindi. Ala tağa ala ləşkər ava çıqdı" (97, 54).

Bu ov aktı mətnin üst qatında ov əyləncəsini, alt laylarda isə status qutlamanı işarələyir. İctimai-sosial konteksti bil-

dirir. Yenə III boyda Banıçiçək dadısı sifətiylə Beyrəklə yarışa çıxır: “Mən Banıçiçəgin dadısıyam. Gəl imdi sənünlə ava çıqalım. Əgər sənin atun mənim atumı keçərsə, onun atını dəxi keçərsən. Həm sənünlə ox atalım. Məni keçərsən, anı dəxi keçərsən və həm səninlə gürəşəlim. Məni basarsan, anı dəxi basarsan”, – dedi” (97, 54, 55).

Bu döyüşdə Beyrək Banıçiçəyə qalib gəlir və ona qalib gəldiyi yerdə öz aralarında nişan əlaməti kimi barmağına üzük keçirir. Bu ov aktı mətnin üst qatında hünər funksiyasını, alt qatında isə soy artırma aktını işarələyir. Sosial konteksti bildirir.

IV boyda Qazan xanın ova çıxması statusdəyişmə məqsədiylə edilir. Belə ki, Uruza baş kəsib, qan tökməsini deyən Qazan, sabah onu taxtına yaxın buraxmayacaqlarından narahatlıq keçirdikdə Uruz ona:

Qaçan sən məni alub kafər sərhəddinə çıqardın,
Qılıc çalub, baş kəsdin?
Mən səndən nə gördüm, nə örgənim? (97, 69) – deyir.

Məhz bundan sonra Qazan xan ova çıxmaq əmrini verir: “Mən bu oğlanı alayın, ava gedəyin. Yedi günlik azuğla çıqayın. Ox atduğım yerləri, qılıc çalub, baş gəsdügim yerləri göstərəyim” (97, 69).

Məhz bu ov aktının Uruzun statusunun dəyişməsi üçün həyata keçirildiyi aydın olur. Burada kafər sərhəddinə çıxmaq ov ayininə aid olsa da, statusdəyişməni reallaşdırmağa xidmət edir. Kafərlər də xtonik olduğuna görə eyni mahiyyətdə çıxış edirlər. Fikrimizcə, IV boyda Uruzun kafərlərə əsir düşməsi də təsadüfi deyil. Belə ki, ritual kodeksin ifadəsi olan statusdəyişmənin həyata keçirilməsi üçün mənəvi funksiya icraçısı Dədə Qorqudun iştirakı vacibdir. DQK-də demək olar ki, bütün statusdəyişmələrdə bu sabitdir (Buğac, Beyrək, Basat və s.). Bu situasiyada isə Qazan xan taxt-tac naminə bunu təkbaşına həyata keçirmək istəyir. Elə bu səbəbdən də düşünülən

variant Uruzun əsir getməsi ilə sonuclanır. Çünki strukturda kodlaşan məlumatları ozan epik düzümü qanunauyğun şəkildə nümayiş etdirə bilər.

Bu ov aktının ritual sakrallığını nümayiş etdirmək üçün yeddi sakral rəqəminin mərasim müddəti kimi götürülməsi (Yeddi günlük azuqə ilə ova çıxırlar) psixi-assosiativ şəkildə kütləvi şüura statusdəyişmənin qanundankənar olmadığını aşılamaq üçün nəzərdə tutulur.

Bu ov aktı beləliklə mətnin üst qatında statusdəyişməni, alt qatında isə siyasi hakimiyyət uğrunda mübarizəni işarələyir. Siyasi konteksti bildirir.

IX boyda Bəkil üçün ov əti qonaqlığı verilir və bunu Bayındır xan təşkil edir: "Üç gün dəxi Bəkili av-şikar ətilə qonaqlıyalım, bəglər!" – dedi" (97, 104).

Bu ov aktı süjet səviyyəsində Oğuz elinə "qaravulluq" edən şəxsə xan, xaqan diqqətini bildirirsə, alt laylarda isə arxaik ov ritualı ilə bərabər, Oğuz cəmiyyətində pay bölgüsünün ədalətli, nizama uyğun formada aparılmasının, haqq-hüquqların pozulmamasının məlumat səviyyəsi dayanır. Təsadüfi deyil ki, Bəkil ov ətlərinin müəyyən qisminə öz hünəriylə şərikdir. Bu DQK-də bu şəkildə bəyan olunur: "Üç yüz almış altı alp ava binsə qanlu keyik üzərinə yüriş olsa Bəkil nə yay qurardı, nə ox atardı. Həman yayı biləgindən çıqarardı, buğanın, sığının boynına atardı, çəküb turğızardı. Arıq olsa, qulağın dələrdi, avda bəllü olsun deyü. Əmma semüz olsa, boğazlardı. Əyər bəglər keyik alsa, qulağı dəlük olsa, "Bəkil sünicidir" deyü Bəkilə göndərərlərdi" (97, 104).

Bu ov aktı aydın şəkildə siyasi konteksti bildirir.

Mətndə XI boyda Qazan xan tərəfindən "gizli ov" təşkil etmə də həyata keçirilir: "Tırabuzan təkurı bəglər bəgi xan Qazana bir şahin göndərmişdi. Bir gecə yeyüb oturarkən şa-

hinçibaşına aydır: “Mərə, sabah şahinləri al, xəlvətcə ava binəlim!” – dedi. Erkən bindilər, av yerinə vardılar” (97, 116).

Aşkar görünür ki, Qazan xan ova xəlvət gedir. Lakin xanın gizli ov aktı keçirməsi, təkbaşına ova getməsi deyil. Onunla birgə iyirmi beş bəy də ova çıxır. Kafərlər Qazanı tutmağa gələndə bu bəylər kafərlərlə döyüşüb şəhid olurlar: “Kafəri qarşuladılar, cəng etdilər. Qazanın üzərinə yigirmi beş bəgini şəhid etdilər” (97, 116).

DQK-də boyların həm ayrı-ayrılıqda oğuznamə olması, hər boyun öz strukturunun mövcudluğu, həmçinin bir-birinə bağlı vahid orqanizm təşkil etməsi və vahid struktura malik olması, struktur və komponentlərin arxitektonikliyini digər laylarda olduğu kimi XI boyda da aşkarlayır. Qazan xan nə üçün ova xəlvətcə gedir? Bu suala cavab tapmaq üçün əvvəlki boylarda Qazan xanın ova getməsini izləmək lazımdır. Qazan II və IV boyda ova çıxır. Hər ikisində kafərlər hücum çəkib ona ov aktı zamanında ziyan vurur. Qazan ov aktından ziyan çəkən durumunda olur. Birincisində, elini, obasını, ailəsini, xüsusilə də evinin üstünə qoyduğu taxt varisini – Uruzu əsir aparırlar. İkinci ov aktında isə Uruza yeni status verilməsi düşünülərkən və Uruzun birinci məğlubiyyəti kütləvi hafizədən silinməyə çalışıldığı zaman yenə də Uruz əsir götürülür. Elə bu səbəbdən də Qazana bir müddət ov ayini yasaq olunur. Ola bilsin ki, strukturda ritual icraçıları bu yasağı gerçəkləşdirmişlər. Qeyd etdiyimiz kimi ov ritualında statusdəyişməni ritual ənənəyə uyğun keçirməyən Qazan ola bilsin ki, həm bu səbəbdən, həmçinin keçirdiyi hər iki ov ayinində uğursuzluğa düçar olduğuna görə onun üzərinə bu qadağa qoyulmuşdur. Elə buna görə də Qazan ova xəlvət gedir. Lakin bu onun üçün daha ağır nəticələr törədir. Əgər əvvəlki iki ov aktında oğlu Uruz xan kafər əlində əsir gedirsə, Qazan ov situasiyasında nə qədər özünə arxayın olsa da, bu dəfə özü kafərlərə əsir düşür. Məhz onun özü statusdə-

yişməyə məruz qalır. Əgər statusdəyişmə bir mərhələdən digər mərhələyə inkişaf dinamikası üzrə keçməkdirsə (buna tərəqqi deyilir) Qazan geriyə doğru statusdəyişmə ilə üz-üzə qalır (buna tənəzzül deyilir). O, bir igidin ömrü qədər (DQK-də 16 il) olan müddətdə Qalın Oğuzun başçısı statusundan məhrum olur. İctimai-siyasi-sosial xan statusunu itirir, yalnız fərdi xan statusunu özündə saxlayır. Uruzun onu xilas etməsi ilə yenidən əvvəlki statuslar bərpa olunur. Uruzun Qazan xanı xilas etməsi Qazanın xəlvəti ova getməsinin bəraətidir. Çünki Qazanın ovda olması II, IV boyda Uruzun zindana düşməsi ilə sonuclanıb. Qazanın təkrar səviyyədə, həmçinin xəlvəti olaraq ovda olması onun özünün zindana düşməsinə səbəb olmaqla və məhz Uruzun gəlişi ilə bu zindandan azad olmaqla Qazan xanın xan statusu ilə bərabər ov ritualında iştirakını təmin edir, ov statusunu da Qazan xana qaytarır. Epik mətndə kompozisiya səviyyəsində anaxronizmdən istifadə olunması eyni zamanda epik mətndə irəli gedən zamanla da, geriyə qayıdan zamanla da eyni anlamın izah olunmasının mümkünlüyünü yaradır. İrəli gedən zamanla II boydan IV boya, IV boydan XI boya doğru inkişaf edən süjet xətti yuxarıda diqqət çəkdiyimiz anlamda aşkarlanır. II, IV boyda Qazanla Uruzun ata-oğul kimi münasibətləri əks olunduğu halda (Uruz Qazanla ova gedir) XI boyda birdən-birə Qazan zindana düşərkən Uruz körpə olur, böyüyüb igid yaşına çatdıqdan sonra atasının zindanda olduğunu bilir və onu xilas erməyə gəlir. Bu epik səviyyədə motiv ifadə etməklə struktur-semantik səviyyədə ov ritualını inikas etdirir. Qeyd etdiyimiz kimi, Qazan xan ritual ənənəsini pozub ritual icraçılığını təkbaşına həyata keçirmək üçün Uruzu ova gətirib və ov ayini qadağası ilə üzləşib. Bu qadağanı pozub ova getdikdə isə mənəvi cəzaya məruz qalıb kafər zindanına düşüb. Məhz Qazanın yenidən bərpa olunması üçün ozan təhkiyəsi mif yaddaşını təzələyir. Uruzun körpəlik çağı və ov aktına qədərki ömrü yenidən veril-

məklə onun Qazanla getdiyi ov müddəti bilərəkdən yaddaşdan silinir və bu da Qazanın xan statusunun yenidən bərpa olunmasında və ov ritualına uyğun yasağın üzərindən götürülməsində aktiv rol oynayır. Qazan Oğuz eli üçün əvəzsiz şəxsiyyət olduğundan Oğuz ozanı strukturda kodlaşan məlumatları ifadə səviyyəsində aşkarlamır və anaxron hadisələrdən istifadə etməklə Qazan xana bəraət qazandırır.

Epik zaman "geriyə qayıdan zaman" düsturu ilə epik mətndə gerçəkləşərək hadisələr XI boydan IV boya, IV boydan II boya doğru hərəkət edir. Bu trayektoriyada Uruzun təbii yaş artımı ilə boya-başa çatması maddi zaman baxımından gerçək şəkildə epik mətndə reallaşır. Lakin "Qazan xanın ova xəlvət getməsi" anlamı qeyd etdiyimiz anlamda strukturda kodlaşır, epik ifadə səviyyəsində oxunmur. Ancaq buna baxmayaraq sonuc yenə də dəyişmir. Ov səhnələri, statusdəyişmələr və kafər zindanına düşmələr yenə də öz yerində qalır. Kafər üzərində qələbə artıq bərpa olunma prosesinin semantik anlamı kimi ortaya çıxır. "Kafər üzərində qələbə" motivi strukturda ritual komponenti kimi iştirak edib statusdəyişməni və bərpaolunma dinamikasını bildirir.

Araşdırmaya qısaca cəlb etdiyimiz ov aktının xan statusu ilə bağlılığı yeni bir sual doğurur: Ov ritualı ilə xan statusu hansı formada əlaqəlidir?

Bu suala cavab tapmaq üçün DQK-də ov ayininin təsnifatına bir daha göz gəzdirmək lazımdır. Aydın görünür ki, bütün kütləvi ov ayinlərini xan rütbəsi qazananlar müəyyən edir. Yalnız Oğuz demokratiyasında digərləri təklif hüququnu özündə saxlayır:

1. Dirsə xana təklif olunsa da, ov ayinini təyin edir və bəylərə də söz demək hüququ verir (II boy).

2. Əyləncə funksiyası olaraq Qazan xan ov ayinini təyin edir və bəylərə də söz demək hüququ verir (II boy).

3. Beyrəyə status verildiyi üçün mətn strukturunda bu ayin qərarını assosiativ olaraq Beyrəyin verdiyi kodlaşdırılmışdır. Epik səviyyədə isə məlum olmur (III boy).

4. Uruzun təklifi ilə Qazan xan ova çıxmaq qərarı verir (IV boy)

5. Ov əti ilə xüsusi şəxslərə qonaqlıq verilir. Bu ov ritualını Bayındır xan təşkil edir (IX boy).

Diqqət edin, bütün hallarda ova çıxmaq əmrini xanlar verir. Yalnız Beyrəyin adı mətndə görünmür. Bu da ondan irəli gəlir ki, Beyrək ad aldıqdan sonra hələlik bəy olduğuna görə onun aşkar səviyyədə ov əmri vermək hüququ olmadığından bu, konkret şəkildə dəqiqləşdirilməmiş, yalnız kod səviyyəsində saxlanmışdır. Ola da bilər ki, bu ov əmrini Beyrək deyil, Bayındır xan vermişdir. Əsas odur ki, kütləvi ov ayinləri içərisində xan olmayan Beyrəyin əmr verməsi epik səviyyədə münasib hesab edilməmişdir. Lakin onu da deyək ki, epik mətndə Beyrək özü də xan Beyrəkdir (97, 60). Lakin bu ov aktı zamanı Beyrəyə bir yerdə də xan deyilmir, yalnız bəy, yaxud bəy oğlu bəy kimi müraciət olunur (97, 54-55).

Fərdi ov səhnələri isə onu göstərir ki, bu ov aktı xan statusu ilə tam olaraq bağlı deyil. Yəni fərdi şəkildə hər təbəqənin nümayəndəsi ov təşkil edə bilər:

1. Beyrək ovda ov təşkil edir (III boy).

2. Bəkil gərgin ovqatını düzəltmək üçün ov təşkil edir (IX boy).

3. Qazan xan xəlvəti ova çıxır (XI boy).

Beləliklə, DQK-də ov ritualı əsasən xan statusunu işarələyən ictimai-siyasi-hərbi faktor kimi aşkara çıxır. Bunu Qazan xanın Qaragünəyə dediyi "Mənim avımı bozma, ləşkərimi tağıtma!" (97, 44) sözləri də təsdiq edir. Maraqlıdır ki, bu sözlər ekstremal vəziyyətdə Qazan xanın yurdu haqqında narahatlıq keçirdiyi situasiyada deyilir. Demək, ən gərgin situ-

asiyalarda belə ov pozmaq uğurlu hesab olunmur. Bu konkret süjet səviyyəsində Qazanın yuxu sınamasına görə ov dağıtmaq əmri vermədiyini göstərirsə də, mətn strukturunda ritual prosedurasının pozulmasının yasaq olduğundan xəbər verir.

Qazan xan obrazı Oğuz mifinin paradiqması kimi ov aktının obrazlaşmasında da Oğuz mifinə bağlanır. Oğuz kağanın kağan statusunun əsas funksiyasından biri kimi ova çıxması, gərgədanı, şunqarı ovlaması (110; 108; 142; 33; 36; 147; 165) DQK boylarının ov səhnələri üçün arxetip rolunu oynayır.

### 2. Dua ritualı

Qazan xanın xan statusunu ifadə edən əhəmiyyətli hadisələrdən biri də **"Dua ritualı"**dır. Bu, Qazan xanın Oğuz cəmiyyətində nə qədər mühüm yer tutduğunu göstərir. Biz dua ritualını diqqətə çatdırarkən məlumdur ki, əsasən Dirsə, Boybörə və Baybicanın düşdüyü çətin situasiyanı nəzərdə tuturuq. Oğuz xanına bəd dua edib onu soy aktının iştirakında aktiv olmağa çağıranların başında xanlar xanı Bayındır xan dayanır (I boy). Baybörə və Baybicanın eyni aktda iştirak etməsinə müsbət aurada fəallıq göstərənlərin başında Qazan xan dayanır (III boy). Bayındır xan mənfi, Qazan xan müsbət situasiyanı öz üzərinə çəkir. Vasitəçi olan xan və bəylər, səbəb isə Allahu-Təaladır. Bayındır xan Dirsə xan üçün: "Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa qondurın. Oğlı-qızı olmıyanı Allah-Təala qarğayıbdır, biz dəxi qarğarız, bəllü bilsün" (97, 34) deyir.

Qazan xan ilə övladı olmayan Baybörə (Qambörə) bəy arasında bu şəkildə dialoq baş verir: "Qazan aydır: "Məqsudun bumıdır Baybörə bəg?" Aydır: "Bəli budır. Mənim dəxi oğlım olsa, xan Bayındırın qarşusın alsa – tursa, qulluq eyləsə, mən dəxi baqsam, sevinsəm, qıvansayum, güvənsəyim..." – dedi. Böylə digəc Qalın Oğuz bəgləri yüz göyə tutdılar. Əl

qaldırıb dua eylədilər. “Allah-Təala sana bir oğul versün!” – dedilər. Ol zəmanda bəglərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcab olurdı” (97, 52).

Eyni situasiyanın davamı Baybican bəylə də təkrar olunur (97, 52).

Nə üçün xanlar (Bayındır, Qazan) dua ritualında xan statusu ilə iştirak edir? Bizim fikrimizcə, bunun iki səbəbi var. Birinci səbəb odur ki, soy aktı Oğuz demoqrafiyası olaraq ictimai-sosial əhəmiyyətə malikdir. Xüsusilə savaş vəziyyətində olan Oğuz eli hərbi qüvvənin daima artımına maraqlıdır ki, bunun da əsasını soy artımı təşkil edə bilər. Özü də maraqlıdır ki, oğuz cəmiyyətində yalnız əsgəri qüvvə kimi kişilər deyil, həmçinin qadınlar iştirak edə bilir. Burla xatun öz ömür yoldaşı ilə alp olaraq döyüşə çıxır (IV boy). Selcan xatun aslanlar yenən nişanlısı Qanturalı ilə birgə kafərlərlə döyüşür (VI boy). Banıçiçək Beyrək ilə alp savaşına çıxır, yalnız məğlub olduqdan sonra ona ərə getməyə razı olur (III boy). Elə Baybicana münasibət də bu baxımdan Baybörəyə münasibətdən seçilmir. Təbiidir ki, soy aktı ictimai-siyasi-sosial əhəmiyyət daşıdığından Oğuz elinin xaqanı və xanı ali idarəçilik təşkilatının başçısı kimi onun təyin olunmasında təmsilçi tərəf olaraq iştirak edir. Məhz dua ritualının xan tərəfindən həyata keçirilməsi buna misaldır.

Dua ritualında ritual icraçısı Dədə Qorqudun iştirak etməməsi çox güman ki, Oğuz düşüncəsində yer tapmış Tovhid ədəbinə uyğun olan dua ilə Allahın arasında kimsənin dayanmamasından irəli gəlir. Dədə Qorqud ritual ruhanisi kimi səbəbdə iştirak etmir, nəticədə isə iştirak edir. Dirsə xanın duaya yönəldilmə aktında Dədə Qorqud görünmür, Buğacın ərlik qazanıb ərlik yaşına çatmasında isə ritual icraçısı kimi meydana çıxır. Beyrəyin dua ilə dünyaya gəlmə diləyində Dədə Qorqud yenə də gözə dəymir, Beyrəyə advermə ritualında isə rəs-

mi törən nümayəndəsi kimi gəlib ona ad qoyur. Beyrək ərlik qazanır, ona bəylik verilir. Boy sonunda isə gəlib ona boy (Oğuznamə) bağışlayır, Beyrək ərənlik qazanır, ona xanlıq verilir. Rituallarda qızlara ad verilməsi aktı isə DQK-də qeydə alınmadığından Baybican bəyin qızı barədə mülahizə yürütmək əhəmiyyətsiz görünür.

Xanların dua ritualında iştirak etməsinin ikinci səbəbi də odur ki, xaqan Tanrı ilə insan arasında vasitəçi rolunu daşıyır. "Oğuz kağan" dastanında bu aydın görünür. Hətta kağanın Tanrı elçisi anlayışı da vardır. Bu Rəşidəddin "Oğuznamə"sində aşkar diqqət çəkir ( 116; 165). Oğuz xan, yaxud Oğuz xaqan bu funksiyada iştirak edir. Elə onun törəmə səciyyələri kimi Qazan və Bayındır xan da soy aktına uyğun dua ritualında aktiv olmaqla xan-xaqan statusunun vəzifə tələblərindən çıxış edirlər.

Beləliklə, Tanrı ilə dua edən kimsə arasında vasitəçi olmadığı üçün Dədə Qorqud bu ritualda iştirak etmir. Tanrı ilə insan arasında vasitəçi olan xaqan-xan institutu isə soy aktının kütləviləşməsində iştirak edən tərəf kimi bu aktda iştirak edir. Daha doğrusu qeyd etdiyimiz kimi ritualda sakral funksiya daşıyıcısının iştirakı vacib olduğundan Dədə Qorqud nəticədə iştirak edir. O yerdə ki epik mətndə sakral-ruhani missiya xana yüklənmişdir, o zaman ritual icraçısı təbii olaraq gözə görünmür, yalnız nəticədə görüntülənir. Əksinə olduqda isə ritual icraçısı ilə ritual təşkilatçısı (Dədə və xan) eyni situasiyada diqqət çəkir.

### 3. Vərəsəlik törəsi

Qazan xanın xan statusu II boydan başlayaraq hissə-hissə təqdim olunur. Birinci olaraq "xan təyinləri" geniş səviyyədə cəmiyyətə ritual davranış kodeksi kimi nümayiş olunur. Onun ardınca xan statusunu işarələyən ov ritualı eyni dinami-

ka üzrə verilir. Elə ov ritualı başlanğıcında yenə də xan statusunun təcəssümü olan **vərəsəlik hüququ** haqqında söhbət gedir. Ova çıxarkən Aruz Qazana deyir: "Ordun üstünə kimi qorsan? Qazan aydır: "Üç yüz yigidlən oğlum Uruz mənim evim üstinə tursun" (97, 42).

Biz hakimiyyət uğrunda mübarizənin bu şəkildə üzə çıxan gizli və açıq əlamətləri haqqında "Xan Uruzun ağası" təyinində ətraflı bəhs açmışıq. Yalnız onu deyək ki, bu gərgin situasiya xan statusuna aid olan taxta varis təyin etmə (vərəsəlik) vəzifəsi üzərində qurulur. Qazan xanın vərəsəlik baxımından oğlu Uruzu varis təyin etməsi və bunu reallaşdırmağa çalışması (II, IV boy) eyni zamanda status əvəzlənməsinin atadan oğula keçməsini şərtləndirməklə oğuz cəmiyyətində patriarxatın mövcudluğunu xan statusunda təsdiq edir. Çünki xan statusu bu istiqamətdə həm epik lay səviyyəsində, həmçinin struktur səviyyədə saxlanır. Əgər strukturda belə oğuz cəmiyyət quruluşu matriarxatlığa əsaslansaydı, o zaman Qazan xanın oğlu deyil, qızı varis kimi ön cərgəyə çəkilməli olacaqdı. DQK-dən məlumdur ki, Qazan xanın Uruz bəydən başqa bir qızı da var və onu öz əmisi oğluna, yəni Qaragünənin oğlu Qarabudağa ərə vermişdir. Bu barədə dastanda deyilir: "Hamidlən Mərdin qələsin dəpüb yıqan, dəmür yaylı Qıpçaq Məlikə qan qusdıran, gəlübən Qazanın qızın ərliklə alan, Oğuzın ağ saqallu qocaları görəndə ol yigidi təhsinləyən, al məxmuri şalvarlı, atı bəhri hotazlı Qaragünə oğlı Qarabudaq çapar yetdi: "Çal qılıcın, ağam Qazan, yetdim!" – dedi" (97, 49).

Bundan əlavə bu dünyagörüşü forması strukturda mövcud olsa idi, o zaman epik səviyyədə xan statusunun əvəzləyici təmsilçisi bəy, xan deyil, xatun, banu olmalı idi. Lakin dastanda bunu görmürük. Deməк, Qazan xanın xan statusunu səciyyələndirən hadisələrdən biri də **vərəsəlik aktıdır** ki, bu struktur və epik səviyyədə mühüm məsələləri dastanda açıqlayır.

Dastanda “Qazan xanın ordusı” anlayışı da xan statusunun göstəricisidir. Ordu yalnız hərbi əsgəri təşkilatı deyil, həmçinin ictimai-siyasi və sosial birlikləri ifadə edir. Təbiidir ki, bu oğuzların qəzavatçılıq və fütuhatçılığı ilə birbaşa əlaqəlidir. Çünki daimi savaş və müdafiə situasiyasında həyat tərzi formalaşan toplum üçün ordu təşkilatı bütün strateji təsisatları əhatə edir. DQK-də “ordu” sözünün “ev” sözünün sinonimi kimi II boyda daşlaşması Aruz və Qazan arasındakı gərginlikdən əlavə onu göstərir ki, Qazanın evi bir şəxsin evi deyil, Oğuz cəmiyyətinin ali idarəçilik təsisatının ən üstün statusu olaraq qəbul olunur. Elə buna görə də XII boyda Qazan xanın evinin yəğmalanması gələnəyinin ritual əsası haqqında verilən bilgidən məlumdur ki, onun evi Qalın Oğuzun ümumi əmlakı kimi ildə bir dəfə Oğuzlar üçün yəğmaya çıxarılır. Məhz bu da Qazan xanın evinin xan statusuna daxil olması haqqında məlumat verir. Yəni Qazan xan yalnız öz şəxsiyyəti, titulu və təyinləri ilə yox, həm də ev əmlakı ilə başdan-başa xan statusunun göstəricisi olduğunu bildirir. Elə “Qazanın qapulu Dərbənddə on bin qoyunı” (97, 43) olması da bu əmlakın bir hissəsini göstərir. Bu əmlakın kafərlər tərəfindən yəğmalanması və onun Oğuz bəyləri tərəfindən geriyə qaytarılması səbəbindən Oğuz bəylərinə verilən yəğmada (XII boy) Bozoqun iştirakdan məhrum buraxılması müxtəlif səviyyələri ilə bərabər həm də ona görə ədalətsiz qərar kimi qəbul olunur ki, kafərlərin yəğmaladığı bu maddi əmlak yalnız Uçoqlar tərəfindən deyil, həmçinin Bozoqlar tərəfindən geri qaytarılmışdır. II boyun sonunda Uçoqlarla (İç Oğuz) Bozoqlar (Dış Oğuz) bu yəğmalanmış əmlakı can və mal səviyyəsində xilas etmək üçün birlikdə mübarizə aparır və buna nail olurlar: “Taş Oğuz bəglərilə...Qaragünə oğlı Dəli Budaq soldan dəpdi. İç Oğuz bəglərilə Qazan dopa dəpdi” (97, 50).

Bu döyüş səhnəsində Dış Oğuzdan Aruz bəy də, Bugdüz Əmən də və digər bəylər də iştirak edirlər. Elə XII boyda

Qazanın evini yəğmaladıb Dış Oğuzu çağırmaması bəhsində Dış Oğuz bəylərindən narazı qismində məhz bu iki bəyin adı çəkilir: "Taş Oğuz bəglərindən Aruz, Əmən və qalan bəglər bunı eşitdilər, ayıtdılar ki, "Baq, Baq! Şimdiyə dəkin Qazanın evin bilə yəğma edərdik. Şimdi neçün bilə olmıyavuz?" dedilər. İttıfaqı cəmi Taş Oğuz bəgləri Qazana gəlmədilər, ədavət eylədilər" (97, 123) və s.

### 4. Yəğma ritualı

Qazan xan obrazının ritual-mifoloji strukturunun əsasında dayanan **yəğma ritualı** qeyd etdiyimiz kimi ilkin olaraq bu ziddiyyətlər üzərində qurulur. Yəni Aruz-Qazan qarşıdurması kimi hələ II boydan başlanır. Qəribə burasındadır ki, kafərlər də Aruz ilə eyni düzümdə diqqət çəkir. Qazan oğlu Uruzu ordunun üstünə qoymaqla ritual həyata keçirir. Aruzun "ordunun üstünə kimi qoyursan?" sorğusunda anti-ritual davranışı hiss olunur. Kafərlərin Oğuz elinə basqın edib Uruzu məğlub etməsi isə anti-ritual olmaqla ritual düzəni pozmaq niyyətləri kimi meydana çıxır. Uruz bir tərəfdən məğlub olmaqla Qazan xanı çətin vəziyyətə salsa da, digər tərəfdən ritualdan keçib birinci mərhələdə oğuz elinin qəhrəmanı kimi kafirlərlə üz-üzə dayanır, ikinci mərhələdə (IV boyda) varis kimi ritual subyekti olaraq iştirak edir, üçüncü mərhələdə isə (XI boyda) xaqan statusunda təsdiqini tapır. Məhz əvvəldə qeyd etdiyimiz kimi, XII boyda keçirilən yəğma ritualı kafirlərlə eyni cərgədə dayanan Aruzun xaotikliyini daha şiddətli şəkildə üzə çıxarır (O, Beyrəyi öldürür). Eyni zamanda Uruz ritualdan keçib üç mərhələdən sonra xaqan statusunda aşkar nümayiş olunduqda ona qarşı dayanan Aruz cəbhəsi yəğmada iştirakdan məhrum edilir. Yəğma ritualı ən geniş səviyyədə XII boyda özünü göstərir: "Üçoq, Bozoq yığnaq olsa, Qazan

evin yağmaladardı. Qazan gerü evin yağmalatdı. Əmma Taş Oğuz bilə bulınmadı. Həmin İç Oğuz yağmaladı.

"Qaçan Qazan evin yəğmalatsa, həlalının əlin alur, tışra çıqar, andan yağma edərdi" (97, 123).

Bu mətn aydın göstərir ki, süjet üstündə Qazan xanın evinin yəğmalanması aktı süjetaltı struktur laylarda daşlaşmış arxaik ritualdan xəbər verir. Lakin arxaik rituala münasibət də fərqli ola bilər. Bu ritualın hansı kompleksə məxsus olması da müxtəlif baxış bucaqlarının fərqli prizmasını nümayiş etdirir. Ancaq elə süjetin özündə aşkar səviyyədə diqqət çəkən məlumat yığını bir az öncə bəhs etdiyimiz kimi Uçoq-Bozoq qarşıdurmasını ifadə edən ciddi bir ritualdan xəbər verir ki, bu ritual ifadə forması mətn boyu iki səviyyədə müşahidə olunur:

1. Süjet səviyyəsində ritual;
2. Süjetaltı səviyyədə ritual.

Birinci halda ritual aşkar şəkildə epik kontekstdə müşahidə olunur (XII boy).

İkinci halda ritual, mövzu, süjet və motiv səviyyəsində daha dərin qatlarda kodlaşdırılıb mifoloji-tarixi bilgilərin sükunətdə olan layları kimi yalnız struktur-semantik səviyyədə aşkarlana bilir (II boy).

Biz, Qazan xanın evini yəğmaladarkən bir-birinə bağlı olan bu ritual davranışları müşahidə edirik. XII boyda Qazan xan tərəfindən ritual kodeksin ənənəvi strukturu, yaxud etiket prinsipləri ciddi şəkildə pozulur:

1. Dış Oğuz yəğmada iştirak etmir, ritual subordinasiya gözlənilmir;
2. Ritual icraçısı (Dədə Qorqud) ritualı icra etmir.

Dış Oğuzun yəğma ritualında nə üçün iştirak etməməsi barədə yuxarıda geniş şəkildə araşdırma aparılmışdır. Bəs ritual icraçısı Dədə Qorqud nə üçün bu ritual zamanından kənarda qalır, periferik məkana köçürülür?

Bizə məlumdur ki, ritual prosesi epik səviyyədə xaqan, yaxud xan tərəfindən elan olunur, Qorqud Dədə tərəfindən isə icra edilir. Hətta bəzi hallarda təşkil olunan mərasimlərdə (şölən, yığıncaq, toy və s.) mərasim xaqan, xan tərəfindən başladılır, oğuz ərənləri isə mərasim içində Dədə Qorqudu ritualı icra etməyə dəvət edirlər (ad ritualı, "Oğuznamə bağışlaması") (97, 36, 67).

A.Xəlil məhz mənəvi səviyyədə ritualın Dədə Qorqud tərəfindən populyarlaşdırılıb legitimləşdirilməsi qənaətini arxaik ritualların motiv səviyyəsini tədqiq edərkən, fikrimizcə, bu baxımdan əsaslandırmışdır (86, 46).

Bəs belə olduğu təqdirdə Dədə Qorqud nə üçün yəğma ritualında iştirak etmir? Əgər Qazan-Aruz münasibətlərinin kulminasiyası kimi Aruz və onun təmsilçiliyi ilə Diş Oğuz yəğmaya çağrılmırsa, Dədə Qorqud hansı səbəbdən bu aksiyadan kənarda qalır? Bunun səbəblərini araşdırmağa çalışaq. Biz əvvəldə qeyd etdik ki, Qazan xanın keçirdiyi bu ilki yəğma ritualı əvvəlkilərdən o cəhətiylə fərqlənir ki, bu aktın həyata keçirilməsi ənənəvi olsa da, bu akt nəticəsində Uruz bəyin xaqanlığı elan olunur. Yəni Uruz bəyin II, IV, XI boydan keçən status dəyişmələri bu boyda stabil statusda meydana çıxır. Uruzun xaqanlığı elan edilir. Aydındır ki, öncə Aruz buna qarşıdır. Aruzun bu mərasimdə iştirakı təmin edilmir. Lakin diqqətlə müşahidə etdikdə aydın olur ki, elə mənəvi səviyyəni təmsil edən Dədə Qorqud da bu addımı qəbul etmir. Bunun üçün biz DQK-nin müqəddiməsinə qayıdaraq təkrarən qeyd edirik ki, Dədənin-xanlığın geriyə dönməsini və yaxud dönəcəyini deməsi "Axır zəmanda xanlıq gerü – Qayıya dəgə, kimsənə əllərindən almıya" (97, 31) ifadəsi Ali iyerarxik pillənin zirvəsinin Oğuz ritualına uyğun – Bozoqların xeyrinə tutulmasının gərəkliliyini bəyan etməsidir. Hətta "kimsənə əllərindən almıya" deməklə növbəti mərhələdə yenə də hakimiyyətin Bozoqlardan alınacağına və yaxud buna cəhd ediləcəyinə narahatlıq keçirən Dədə

aydın mövqe nümayiş etdirir. Məhz gələcəkdə (XII boyda) Qazanın tutduğu mövqeyə qarşı ritual gələnək əsasında narazı olduğunu nümayiş etdirən Dədə Qorqud bu səbəbdən "Uruzun xaqan elan olunması" ritualına dəvət olunmur, yaxud da özü bu dəvətdən imtina edir. Eyni zamanda onu deyək ki, Əbülqazi mənqəbəsində Dədə Qorqudun Qayı boyundan olması haqqındakı bilgilər də (60, 74, 77) bu baxımdan bu faktın dəqiqliyini daha da artırır. Təbiidir ki, Dədə Qorqudun Qayı, yaxud DQK-də göstərildiyi kimi Bayat boyundan olması onun bu mərasimə çağrılmaması üçün yetərli səbəb ola bilər. Çünki Qayı və Bayat boyu Bozoq boyları olaraq Dış Oğuza daxildir. Məhz Dış Oğuz da bu yağmada Qazan xan tərəfindən dışlanıb kənara qoyulur. Lakin mətnə düşən müqəddimə mühakiməsi, Ata statusunun daşıyıcısının qətiyyətli mövqeyi bu yağmaya onun nə üçün çağrılmamasının əsl mahiyyətini aşkarlayır. Hətta Qazan xan mənəvi səviyyənin vacibliyini unudub siyasi səviyyənin etalonluğunu əsas götürür. Aruzun Beyrəyi öldürməsi Qazan xana mənəvi səviyyəni bərpa etməsi üçün ən ciddi sosial-kütləvi əsas verir. Əks təqdirdə Qazan xan daha aqressiv tərəf kimi antiqəhrəman durumuna düşmək məcburiyyəti qarşısında qalıb bütün Oğuz birliyinin parçalayıcı faktoru kimi xan statusunun funksional əsaslarından məhrum ola bilərdi.

Qazan xan obrazının ritual-mifoloji strukturunun II, IV, XII boylarda bu istiqamətdə təhlil olunması heç də o nəticəni ortaya çıxarmır ki, yalnız Uruzun xaqan olması uğrunda mübarizə bu əsası təşkil edir. Bu süjetüstü və süjetaltından aşkarlanmış yalnız bir mətnaltı süjet aprobasiyasıdır. Qazan xan obrazının oğuz epik ənənəsində, əsasən də DQK-də müxtəlif mifoloji-ritual səviyyəsi diqqət çəkdiyimiz kimi "xan təyinləri" kompleksində daha əhatəli şəkildə aşkarlanmışdır. Oğuz mifinin paradiqması kimi Qazan xan obrazının ritual-mifoloji strukturu elə Oğuz ritual-mifoloji strukturunun tərkib hissəsidir.

# NƏTİCƏ

Tədqiqatın məqsədi adından göründüyü kimi oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturunun açıqlanmasıdır. Məqsədimiz Qazan xan obrazının oğuz epik ənənəsində əhəmiyyətli yerini aydınlaşdırmaq, Qazan xan obrazının oğuz epik ənənəsində davamiyyətli yer tutan mənbələrdə (tarixi, mənqəbə, epik) əsas obraz olaraq digər obrazlarla münasibət çevrəsini müəyyənləşdirmək və Oğuz dünyagörüşünü özündə cəmləyən vahid mifoloji sistemin Qazan xan obrazının mifoloji strukturunu təşkil etməsini aşkarlamaq olmuşdur. Oğuz epik ənənəsi deyildikdə uzunmüddətli bir tarixi proses yaşamış oğuzların fərdi və ictimai münasibətlər sistemində ifadə olunan epik mənbələrin ardıcıllığı nəzərdə tutulur ki, bu sıraya yalnız bədii örnəklər və mənqəbələr daxildir. Tarixi mənbələr isə yalnız bu istiqamətdə əlavə bilgi cəlb etmək üçün istifadə olunur. Məlumdur ki, bu mənbələr sırasında əldə olan və olmayan oğuznamələr əksəriyyət təşkil edir. Çünki bir qayda olaraq Oğuz mühitinə və yaşantı sferasına aid olan bütün əsərlər elmi-metodoloji baxımdan oğuznamə adlanır. Təbiidir ki, yalnız bədii əsərlər deyil, həmçinin mənqəbələr də bu cərgəyə aiddir. Oğuz epik düşüncəsində əsas yer tutan əsərlər arasında ənənəvi olaraq "Kitabi-Dədə Qorqud", F.Rəşidəddinin "Cəmi ət-təvarix" (tarixlərin cəmi) əsərindən çıxarılıb "Oğuznamə" adını almış oğuzlarla bağlı hissələr, Ə.Bahadır xanın "Şəcəreyi-Tərakimə" (Türkmənlərin şəcərəsi) əsəri, uyğurca "Oğuz Kağan" dastanı, Yazıçıoğlu Əlinin "Təvarixi-ali Səlcuq" əsərində olan oğuznamə parçaları, "Əmsali-Məhəmmədəli" və digər oğuznamələr vardır. Lakin bizim məqsədimiz tarixi əsər yazmaq olmadığından daha çox bədii-epik nümunələri tədqiqata cəlb etmək olmuşdur ki, bunların da içərisində ən

əhəmiyyətli yeri "DQK" tutur, digər oğuznamələr isə vasitəçi rolunda çıxış edir.

Qazan xan obrazının bir obraz olaraq əsasən "DQK" də yer tutması obraz arealını istər süjet, istərsə də mətn strukturu səviyyəsində izləmək baxımından yenə də əsas olaraq mənqəbələrdə deyil, DQK-nin əsasında təhlil etmək zərurəti doğurur. Çünki mənqəbələr Qazan xan obrazını əhatəli şəkildə diqqətdə saxlamağa imkan vermir. Elə bu baxımdan da mənqəbə bilgiləri DQK-dəki obrazı daha geniş səviyyədə səciyyələndirmək üçün yardımcı funksiya daşıyır.

Qazan xan obrazının tarixi səviyyəsi araşdırmada yalnız ona görə geniş yer almamışdır ki, mövzumuz obrazın epik-mifoloji səviyyəsi ilə bağlıdır. Eyni zamanda obrazın tarixi prototip kimi araşdırılması həm də ona görə əhatəli şəkildə diqqət çəkmir ki, biz obrazın tarixiliyinə etolon səviyyədə yanaşmağın tərəfdarı deyilik. Çünki obraz bütün hallarda epik hadisə olduğu üçün burada tarix salnamə səviyyəsində rol oynamır, yalnız tarixdə mövcud olmuş şəxsin müəyyən keyfiyyətləri yaradıcı şəxsin fərdi baxışları əsasında obrazda müəyyən qədər özünə yer ala bilir. Hətta bir obrazın bir şəxsin prototipi kimi götürülməsi müəyyən hallarda mümkün olmur. Bir obrazda bir neçə tarixi şəxsin statusları və şəxsi keyfiyyətləri cəmlənmiş də ola bilir. Elə bu baxımdan da obrazın tarixi məntiqi anaxron yaratmış olur, tarixi xronologiya pozulur. Araşdırmamızda olan Qazan xan obrazı da eyni istiqamətdə izlənilə bilər.

Obrazın epik-mifoloji səviyyəsi elə bu obrazın bütövlükdə təsviri və struktur səviyyədə tədqiq olunmasına kifayət qədər imkan verir. Biz qeyd etmişdik ki, Qazan xan obrazı oğuz epik ənənəsində bir-birinə sinxron və diaxron şəkildə bağlı olan üç əsas obrazdan (Oğuz, Qorqud, Qazan) biridir. Əgər bu obrazlardan hər hansı biri olmazsa, oğuz epik ənənəsi

sistemliliyini və statikliyini itirmiş olar. Sanki türk mifoloji strukturunun üçlük dünya modelinin Oğuz mifoloji sistemində obraz şəkillənməsi olan bu ana obraz üçbucağı bütün Oğuz epik və mifoloji sistemini zəncirvari həlqə kimi öz ətrafında cəmləmişdir. Qazan xan obrazı mifoloji baxımdan da arşdırıldıqda yalnız epik mətndən bu sistemə daxil ola bilmək məcburiyyəti olduğu üçün obrazın həm epik, həm mifoloji səviyyələri araşdırmaya cəlb olunur. Daha doğrusu, oğuz epik ənənəsinə və yaxud Oğuz kompleksinə daxil olan mətnlər bir-birinə qarışmış şəkildə diqqət çəkir. Mif epikləşir, epik olan isə mifləşir. Yəni bu kompleksin mətnləri diqqətlə araşdırıldıqda bu vacib elementlər bir-birinə bağlı olur və mifoloji baxımdan araşdırma tələb edir. Əgər bu mətndə mif üzdə deyilsə, bu mifin olmamasından xəbər vermir, mifin alt laylarda gizli qalmasından xəbər verir. Elə bu səbəbdən də ənənəvi-təsviri metodla bərabər struktur-semiotik metod tələbatı da meydana çıxır. Tədqiqatda bu istiqamətdə də araşdırma aparmaq ehtiyacı diqqət çəkdiyimiz yanaşma tərzindən meydana gəlmişdir. Qazan xan obrazı oğuz epik ənənəsində ən geniş səviyyədə DQK-də kodlaşdırılmış "Qazan xan təyinləri" vasitəsilə epik ənənəyə səpələnib başdan-başa epik, mifoloji sistemi struktur və süjet səviyyəsində öz içərisinə alır. "Ulaş oğlı" olması ilə Qazan xan obrazının övladlığı təzahür edirsə, "Xan Uruzun ağası" olması ilə atalığı izlənilir. "Bayındır xanın göygüsi" olması ilə kürəkənliyi və ərliyi işarələnirsə, "Tülu quşun yavrısı", "Amit soyının aslanı" və s. olması ilə Oğuz məişətinin və idarəçiliyinin bütün səviyyələri işarələnir. Hər təyin bütün oğuz epik ənənəsini başdan-başa gəzir, hətta bu ənənədən kənara çıxıb ümumtürk kontekstində də iştirak edə bilir ("Altay dastanı", "Şan qızı" dastanı və s.). Bu təyinlər semantik cərgə yaradıb funksionallaşır və ayrı-ayrı səviyyələri məna və anlam baxımından özündə cəmlə-

yərək Qazan xan kompleksi yaradır. Elə bu baxımdan da tədqiqat işi ən geniş səviyyədə bu təyinlər üzərində qurulub oğuz epik ənənəsində Qazan xan obrazının ən müxtəlif tərəflərinin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayır.

Qazan xan obrazının ritual-mifoloji səviyyəsi “xan öyüncləri” adlandırdığımız təyinlər vasitəsilə işıqlandırılsa da, bu səviyyənin tamamlanması üçün əlavə bir fəsilə ehtiyac hiss etdiyimizdən araşdırmanı bu istiqamətdə aparmağı lazım bilmişik. Beləliklə, Qazan xan obrazını bu tədqiqat işində aşağıdakı kimi təsnif etmək zərurəti meydana çıxır:

1. Qazan xan obrazı oğuz epik ənənəsini təşkil edən üç əsas obrazdan biri kimi bərabərhüquqlu obrazdır.
2. Qazan xan obrazı oğuz mifinin paradiqmasıdır.
3. “Qazan xan təyinləri” funksionallaşaraq oğuz epik ənənəsinin müxtəlif laylar təşkil edən semantemlərinə çevrilmişdir.
4. Qazan xan obrazı ritual-mifoloji struktura malikdir.
5. Qazan xan obrazının epik-mifoloji səviyyələri bir-birinə kontaminasiya edilmişdir.
6. Qazan xan obrazının tarixi səviyyəsinin tədqiqat işində nə üçün geniş səviyyədə işıqlandırılmamasının səbəbləri aydınlaşdırılmışdır.

Son olaraq onu da qeyd edək ki, oğuz epik ənənəsində Qazan xan obrazının mükəmməl obraz olaraq diqqət çəkməsi onu göstərir ki, bu mövzu qapanmamış qalır və Qazan xan obrazı neçə-neçə gələcək tədqiqat işinin mövzusu olacaqdır.

## ƏDƏBİYYAT


***Azərbaycan dilində***

1. Abdulla B. "Kitabi-Dədə Qorqud" da quşlar / "Kitabi-Dədə Qorqud"
(məqalələr toplusu). Bakı: Elm, 1999, s. 60-66

2. Abdullayev B. "Kitabi-Dədə Qorqud"un poetikası. Bakı: Elm, 1999, 224 s.

3. Abdulla B. Dəli Domrul "Kitabi-Dədə Qorqud"da və qorqudşünaslıqda. Bakı: Təhsil, 2002, 60 s.

4. Abdulla B. "Kitabi-Dədə Qorqud"da rəng simvolikası. Bakı: Çaşıoğlu, 2004, 128 s.

5. Abdulla B. Salur Qazan ( tarix, yoxsa mif...). Bakı: Ozan, 2005, 223 s.

6. Abdulla K. Gizli Dədə Qorqud. Bakı: Yazıçı, 1991, 152 s.

7. Abdulla K. Sirr içində dastan və yaxud gizli Dədə Qorqud – 2. Bakı: Elm, 1999, 288 s.

8. Abdulla K. Mifdən Yazıya və yaxud gizli Dədə Qorqud. Bakı: Mütərcim, 2009, 376 s.

9. Abid Ə. Türk el ədəbiyyatına baxış. "Oğuznamə" // "Dan ulduzu" jur., 1929, № 5, s. 16-22, 30-33; № 8, s. 18-30

10. Abid Ə. Əşirət dövründəki Azərbaycan ədəbiyyatına dair vəsiqələr // "Azərbaycanı öyrənmə yolu" məcmuəsi, 1930, № 3, s. 48-53

11. Abid Ə. Qorqud kimdir? // "Azərbaycan" jur., № 9, s. 7-12

12. Abid Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 285 s.

13. Acalov A. Dəli Domrul boyunun kökləri və mifoloji simvolikası / Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s. 222-237

14. Acalov A. Azərbaycan folklorşünaslığının bəzi epistemoloji problemləri / "Azərbaycan folklorşünaslığı məsələləri"

(Nizami ad. Ədəbiyyat İnstitutu Gənc Alimlər Şurası konfransının materialları). Bakı, Elm, 1989, s. 3-12

15. Adilov M. Niyə belə deyirik? Bakı: Azərnəşr, 1982, 238 s.

16. Adilov M. Qanadlı sözlər. Bakı: Yazıçı, 1988, 439 s.

17. Anar. Dünya bir pəncərədir. Bakı: Gənclik, 1986, 536 s.

18. Araslı H. "Kitabi-Dədə Qorqud" (müqəddimə) / Kitabi-Dədə Qorqud. Bakı: Azərnəşr, 1939, s. 3-15

19. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, I cild. Tərtib edən Orucov Ə. Redaktoru Ə.Cəfər. Bakı: Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, 1964, 595 s.

20. Azərbaycan ədəbiyyatı inciləri (nağıllar). Tərtib edən N.Seyidov. Bakı: Yazıçı, 1985, 505 s.

21. Azərbaycan folkloru antologiyası. I cild. Naxçıvan folkloru. Tərtib edənlər: T.Fərzəliyev, M.Qasımlı. Bakı: Sabah, 1994, 388 s.

22. Azərbaycan folkloru antologiyası. III cild. Göyçə folkloru. Toplayanı, tərtib edəni və ön sözün müəllifi H.İsmayılov. Bakı: Səda, 2000, 767 s.

23. Azərbaycan folkloru antologiyası. VII cild. Qaraqoyunlu folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, Q. Süleymanov. Bakı: Səda, 2002, 463 s.

24. Azərbaycan folkloru antologiyası. VIII cild. Ağbaba folkloru. Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Qurbanov. Bakı: Səda, 2003, 475 s.

25. Azərbaycan folkloru antologiyası. XII cild. Zəngəzur folkloru. Toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. Bakı: Səda, 2005, 463 s.

26. Azərbaycan folkloru antologiyası. XIV cild. Dərbənd folkloru. Toplayıcılar: H.İsmayılov, S.Xurdamiyeva. Tərtib edənlər: H.İsmayılov, T.Orucov. Bakı: Səda, 2006, 429 s.

27. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. II cild. Bakı: 1978, 592 s.

28. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. V cild. Bakı: 1981, 592 s.

29. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. VII cild. Bakı: 1983, 624 s.

30. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. VIII cild. Bakı: 1984, 608 s.

31. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. IX cild. Bakı: 1986, 624 s.

32. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. X cild. Bakı: 1987, 608 s.

33. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.

34. Bayat F. Advermə / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 9-11

35. Bayat F. Alp / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 23-25

36. Bayat F. Oğuznamə (lər) / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 255-274

37. Bayat F. Türk dini-mifoloji sistemində Tanrı / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVII kitab. Bakı: Səda, 2005, s. 70-106

38. Bəydili (Məmmədov) C. Övliya Qorqut Ata // "Azərbaycan" jur., 1999, № 9, s. 172-176

39. Bəydili (Məmmədov) C. Qorqut Atanın advermə funksiyası / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. X kitab. Bakı: Səda, 2001, s. 29-39

40. Bəydili (Məmmədov) C. "Qorqut" adının ölümdən qaçma motivi ilə bağlılığı // "Dədə Qorqud" jur., № 1, Bakı: Səda, 2001, s. 27-34

41. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.

42. Bəydili (Məmmədov) C. Qorqut Ata / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 221-229

43. Bəydili (Məmmədov) C. Tanrı / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 316-318

44. Bəydili (Məmmədov) C. Türk esxatoloji düşüncəsi və Dədə Qorqut / "Qloballaşma və Azərbaycan mədəniyyəti" II Respublika elmi-praktiki konfransının materialları. Bakı: 2004, s. 71-78

45. Bəydili (Məmmədov) C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı: Mütərcim, 2007, 272 s.

46. Cəfərov N. Azərbaycan xalqının şah əsəri // "Azərbaycan" jur., №9, 1998, s. 4-6

47. Cəfərov N. Türk epik təfəkkürü və "Kitabi-Dədə Qorqud" / "Kitabi-Dədə Qorqud" - 1300. Filoloji araşdırmalar. IX kitab. Bakı: AAMM, 1999, s. 80-91

48. Cəfərov N. "Kitabi-Dədə Qorqud"da islama keçidin poetikası. Bakı: Elm, 1999, 54 s.

49. Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999, 220 s.

50. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: AzAtaM, 2002, 600 s.

51. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud". Bakı: Elm, 1977, 231 s.

52. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud"u vərəqləyərkən (monoqrafiya) Bakı: Gənclik, 1969, 100 s.

53. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud" (Tarixi, coğrafi, tekstoloji tədqiq və Drezden əlyazmasının dürüstləşdirilmiş elmi mətni). Bakı: Elm, 1999, 678 s.

54. Dədə Qorqud dünyası (məqalələr toplusu). Bakı: Öndər Nəşriyyat, 2004, 239 s.

55. Dədə Qorqud jur., / Elmi-ədəbi toplu. II (7). Bakı: Səda, 2003, 185 s.

56. "Dədə Qorqud" jur., / Elmi-ədəbi toplu. IV (29). Bakı: Nurlan 2008, 203 s.

57. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: Maarif, 1979, 268 s.

58. Elladanın qəhrəmanları. Buraxılışa məsul: Güləliyev Ə. Bakı: Öndər Nəşriyyat, 2004, 150 s.

59. Əbdurrəşid əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri / Ərəbcədən tərcümə edən Z.Bünyadov. Bakı: Şur, 1992, 174 s.

60. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı) / Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2002, 146 s.

61. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə / Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi R.Şükürova. Bakı: Elm, 1998, 336 s.

62. Əliyev K. "Dəli Domrul" boyu eposun strukturunda təsadüfdür, yoxsa zərurət? // "Dədə Qorqud" jur., № 4, Bakı: Səda, 2002, s. 14-25

63. Əliyev K. "Dədə Qorqud" eposunda Çoban oğlu Təpəgöz // "Dədə Qorqud" jur., № 4, Bakı: Səda, 2006, s. 28-36

64. Əliyev K. "Dədə Qorqud" eposunun poetikasında Bayındır xanın nəvəsi Uruz // "Dədə Qorqud" jur., № 4, Bakı: Nurlan, 2007, s. 32-40

65. Əliyev K. "Dədə Qorqud" eposunun poetikasında Dirsə xan oğlu Buğac // "Dədə Qorqud" jur., № 2, Bakı: Nurlan, 2008, s. 13-18

66. Əliyev R. "Dəli Domrul" boyunun mifoloji strukturu // ADPU-nun Elmi xəbərləri, 2006, № 3, s. 143-149

67. Əlizadə S. Əski Azərbaycan yazısı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1993, 141 s.

68. Ərəb və fars sözləri lüğəti. Tərtibçilər: Zərinəzadə H.H, Abdullayev B.T. Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, Bakı: 1966, 1036 s.

69. Əsgər Ə. Ölən etnosun ədəbi irsi // "Dədə Qorqud" jur, № 1, Bakı: Səda, 2001, s. 49-53

70. Əsgər Ə. Ədəbiyyat tarixinə etnosiyasi yanaşma və oğuz xalqları ədəbiyyatı // “Dədə Qorqud” jur., № 1, Bakı: Səda, 2002, s. 106-113

71. Əsgər Ə. Şifahi epik mətn, onun ifası və yazıya alınması kontekstində “Kitabi-Dədə Qorqud” / “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” III uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2005, s. 121-135

72. Əsgər Ə. Oğuznamələr və Rəşidəddin Oğuznaməsi / “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” V uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2007, s. 186-194

73. Əsgər Ə. Oğuznamələrdə müsəlman-oğuz və oğuznamələrin yaranması problemi / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXVI kitab. Bakı: Səda, 2007, s. 24-37

74. Füzuli M. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988, 386 s.

75. Gəncəvi N. Sirlər xəzinəsi / Filoloji tərcümə, izah və lüğət R.Əliyevindir. Bakı: Elm, 1981, 247 s.

76. Gəncəvi N. Yeddi gözəl. Filoloji tərcümə Əliyev R, Bakı: Elm, 1983, 356 s.

77. Gəncəvi N. İskəndərnamə (Şərəfnamə) / Filoloji tərcümə, izahlar və qeydlərin müəllifi Q.Əliyev. Bakı: Yazıçı, 1983, 648 s.

78. Hacıyev A. “Dədə Qorqud kitabı”: oxunuşlar, açımlar. Bakı: Elm, 2007, 215 s.

79. Hacıyev T. “Kitabi-Dədə Qorqud” ədəbi-bədii abidə kimi / “Kitabi-Dədə Qorqud – 1300” respublika elmi konfransının tezisləri (25-26 may 1999). Bakı: Bakı Universiteti Nəşriyyatı, 1999, s. 5-6

80. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.

81. Hacıyev T. “Dədə Qorqud kitabı” Oğuz tarixinin yazılı dərsliyi kimi (yaxud: dastanımızın həcmi haqqında) // “Dədə Qorqud” jur., № 1, Bakı: Səda, 2001, s. 9-24

82. Hacıyev T. Bir daha Qorqudun kimliyi haqqında // “Dədə Qorqud” jur., № 2, Bakı, Səda, 2002, s. 3-25
83. Hacıyev T. “Dədə Qorqud dünənimizin keçmişidir” // “Dədə Qorqud” jur., № 2, Bakı: Səda, 2004, s. 12-16
84. Hacıyev T. Mikayıl Baştunun “Şan qızı dastanı” və poetikası. Bakı: Təhsil, 2005, 310 s.
85. Xəlil A. “Dədə Qorqud kitabı”nın semiotik strukturu / Türk Xalqlarının Edebi Geçmişi: Türk Destanları. Uluslararası Sempozyum. Bakı: Qafqaz Universiteti Nəşriyyatı, 2004, s. 268-270
86. Xəlil A. “Dədə Qorqud kitabı”nda arxaik ritualla bağlı motivlər // “Dədə Qorqud” jur., № 12, Bakı: Səda, 2004, s.44-48
87. Xəlil A. Əski türk savlarının semiotikası. Bakı: Səda, 2006, 164 s.
88. Xəlilov P. “Kitabi-Dədə Qorqud” – İntibah abidəsi. Bakı: Gənclik, 1993, 176 s.
89. Kamal (Rəsulov) R. “Kitabi-Dədə Qorqud”un poetikası (metaforik arxetiplər): Fil. elm. nam. ...dis. avtoref. Bakı: 1995, 21 s.
90. Kamal R. “Kitabi-Dədə Qorqud”: arxaik ritual semantikası. Bakı: Elm, 1999, 72 s.
91. Kaşqari M. Divani-luğatit-Türk / Tərcümə edən və nəşrə hazırlayan R.Əskər. 4 cilddə, III cild. Bakı: Ozan, 2006, 400 s.
92. Kazımoğlu M. “Dədə Qorqud kitabı”nda dəli obrazı // “Dədə Qorqud” jur., № 3, Bakı:Səda, 2004, s. 22-39
93. Kazımoğlu M. Qazan xan və Molla Nəsrəddin, yaxud mif və antimif // “Dədə Qorqud” jur., № 2, Bakı: Səda, 2006, s. 3-11
94. Kazımoğlu M. “Bamsı Beyrək” boyunda yalançı adaxlı // “Dədə Qorqud” jur., № 3, Bakı: Səda, 2006, s. 16-22
95. Kitabi-Dədə Qorqud (latın əlifbasında) / Redaktoru H.Araslı. Bakı: Azərnəşr, 1939, 178 s.

96. Kitabi-Dədə Qorqud / Tərtib edən H.Araslı. Bakı: Gənclik, 1977, 184 s.

97. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.

98. Kitabi-Dədəm Qorqud (əla lisane-taifeyi-Oğuzan) / Tərtib edən Ş.Cəmşidov. Bakı: 1995, 174 s.

99. Kitabi-Dədə Qorqud Ensiklopediyası. İki cilddə. I c. Bakı: Yeni Nəşrlər Evi, 2000, 624 s.

100. Kitabi Dədə Qorqud Ensiklopediyası. İki cilddə. II cild. Bakı: Yeni Nəşrlər Evi, 2000, 567 s.

101. Koroğlu / Nəşrə hazırlayanı M.H.Təhmasib. Bakı: Gənclik, 1982, 328 s.

102. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 244 s.

103. Qafarlı R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 2002, 758 s.

104. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 248 s.

105. Qurani-Kərim. Tərcümə edənlər: Bünyadov Z. Məmmədəliyev V. Bakı: Azərnəşr, 1992, 711 s.

106. Markiş S. Prometey əsatiri. Tərcümə edən L.Mahmudova. Bakı: Gənclik, 1969, 57 s.

107. Məmmədli H. Dədəm Qorqud gəzən yerdi bu yerlər (məqalələr məcmuəsi). Bakı: Elm, 1999, 330 s.

108. Mənzum Oğuznamə / Qədim turkcədən çevirən və ön sözün müəllifi İ.M.Osmanlı. Bakı: Ulu, 2005, 84 s.

109. Oğuznamə / Tərtib edəni, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə). Bakı: Şərq-Qərb, 2006, 216 s.

110. Oğuznamələr / İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993, 94 s.

111. Ögel B. Böyük Hun imperiyası. I kitab. Bakı: Gənclik, 1992, 408 s.

112. Ögəl B. Türk mifologiyası. I cild, / Türk dilindən çevirən R.Əskər. Bakı: MBM, 2006, 606 s.

113. Rəcəbov Ə. Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 392 s.

114. Rəsulov Ə.A. Rüstəmov R.Ə. Türk dili. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1991, 214 s.

115. Rəşidəddin F. Oğuznamə / Fars dilindən tərcümə, ön söz və şərhlərin müəllifi R.M.Şükürova. Bakı: Azərbaycan Dövlət NPB, 1992, 72 s.

116. Rəşidəddin. Oğuznamə / Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003, 108 s.

117. Rustaveli Ş. Pələng dərisi geymiş pəhləvan / Tərtib edib çapa hazırlayan D.Əliyeva, tərcümə edən Ə.Cavad. Bakı: Elm, 1987, 206 s.

118. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004, 200 s.

119. Rzasoy S. Oğuz mifi və Oğuznamə eposu. Bakı: Səda, 2007, 181 s.

120. Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı: Nurlan, 2008, 188 s.

121. Rzasoy S. Oğuz mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.

122. Sabir M.Ə. Hophopnamə. Bakı: Yazıçı, 1992, 558 s.

123. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.

124. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

125. Seyidov M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik, 1994, 232 s.

126. Sössür F. Ümumi dilçilik kursu. Bakı: BDU nəşr., 2003, 408 s.

127. Sümər F. Oğuzlar. Bakı: Yazıçı, 1992, 429 s.

128. Tapmacalar / Toplayıcı və tərtibçi N.Seyidov. Bakı: Elm, 1977, 225 s.

129. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.

130. Təhmasib M. Məqalələr / Tərtib edən Cəfərli M. Əliyev O. Bakı: Elm, 2005, 218 s.

131. Vəliyev İ. Azərbaycan mifik təfəkküründə sehrli quşlar // "Dədə Qorqud" jur., № 1, Bakı: 2005, s. 42 - 53

***Türk dilində***

132. Bayat F. Türk Mitolojik Sistemi. Cilt 1. İstanbul: Ötüken, 2007, 380 s.

133. Bayat F. Türk Mitolojik Sistemi. Cilt 2. İstanbul: Ötüken, 2007, 368 s.

134. Caferoğlu A. Dedem Korkut hikayelerinin Antroponim Yapısı // Türk Dili Araştırmaları Yıllığı, Belleten, Ankara, 1959, s. 59-80

135. Duymaz A. Bir Destan Kahramanı Salur Kazan. İstanbul: 1997, 221 s.

136. Ercilasun A.B. Dede Korkut Destanı ile Oğuz Destanı Arasındakı Münasibetler // TDAY Belleten-1986. Ankara: 1994, 17 s.

137. Ergin M. Dede Korkut Kitabı. Ankara: 1958, 251 s.

138. Gökalp Z. Türk töresi. İstanbul: Türk Kültür Kurumu, 125 s.

139. Gökyay O.Ş. Dedem Korkudun kitabı. İstanbul: Milli Eğitim Basımevi, 1973, 1018 s.

140. Gökyay O.Ş. Dedem Korkutun Kitabı. İstanbul: 2000, 3589 s.

141. Kırzıoğlu M.F. Dede Korkut Oğuznameleri. I kitab. Atatürk Kültür Merkezi Başkanlığı. Maltepe-Ankara: 2000, 224 s.

142. Ögel B. Türk mitolojisi, II cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1995, 610 s.

143. Özgür Can. Kitabül-Hayl / Memlük Kıpçaqçası İle Yazılmış İlk Türk At və Atçılıq Eserinin Paris Yazması. İstanbul: Çantay, 2002, 148 s.

144. Sümer F. Oğuzlar / İslam Ansiklopedisi. 9. Cilt. İstanbul: Milli Eğitim Basımevi, 1988, s. 378-387

145. Toğan Z.V. Oğuz destanı. Reşideddin Oğuznamesi, tercüme ve tehlili. İstanbul: 1972, 200 s.

146. Yörükan Yusif Ziya. Müslümanlıktan evvel türk dinleri – şamanizm. Ankara: Yol yayınları, 2005, 221 s.

***Türkmən dilində***

147. Abulqazı. Şejerei terakime. Aşqabat: 1992, 74 s.

148. Bekmıradov A. Andalıp xem Oquznamaçılık dəbi. Aşqabat: Ilım, 1987, 121 s.

149. Salar Baba. Oquz ve övlad ve etba ve bakı-ye etrak tarıxı. Aşqabat: Türkmenistan, 1992, s. 95-119

***Rus dilində***

150. Агаджанов С.Г. Государство сельджукидов и Средняя Азия в XI-XII в.в., Москва: Наука 1991, 241с.

151. Араслы Г. Мотивы азербайджанского народного эпоса «Деде Коркуд» в творчестве Низами. Москва: 1960, 21с.

152. Бадалов Р. Правда и вымысел героического эпоса. Баку: Элм, 1983, 154 с.

153. Бартольд В.В. Турецкий эпос и Кавказ / Книга моего Деда Коркуда. Огузский героический эпос. Перевод В.В.Бартольда. Москва-Ленинград, 1962, с. 109-120

154. Бартольд В.В. Книга моего Деда Коркуда. Огузский героический эпос / Пер. ак. В.В.Бартольда. Баку: ЙНЕ «XXI», 1999, 320 с.

155. Басилов В.Н. Культ святых в исламе. Москва: Мысль, 1970, 144 с.

156. Басилов В.Н. Коркут / Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Советская энциклопедия, 1982, с. 5

157. Басилов В.Н. Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Изд. "Советская энциклопедия", 1982, с. 659

158. Бухари Хафиз-и Таныш. Шараф-намайи шахи (Книга шахской славы) / Пер. с персидс., введ., прим. и указатели М.А.Салахетдиновой. Часть 1. Москва: Наука, 1983, 543 с.

159. Жирмунский В.М. Народный героический эпос. Сравнитьельно-исторические очерки. Москва-Ленинград: Наука, 1962, 581 с.

160. Жирмунский В.М. Тюркский героический эпос. Ленинград: Наука, 1974, 727 с.

161. Короглы Х. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. Москва: Наука, 1983, 336 с.

162. Липец Р.С. Образ батыра и его коня в тюрко-монголъском эпосе. М., 1984, 263 с.

163. Пропп В.Я. Исторические корни волшебной сказки. Ленинград: Изд. Ленинградского университета, 1986, 365 с.

164. Рашид-ад-Дин Ф. Сборник летописей. Т. 1-3, М.-Ленинград: АН СССР, 1946-1960, 903 с.

165. Рашид ад-Дин Ф.Огузнаме / Перевод с персидс., комм., прим. и указатели Р.М.Шукуровой. Баку: Элм, 1987, 127 с.

166. Халил А.С. О проблематике письменности и жанрого состава огузского эпоса (на материале «Книги Деде Коркута») // Тюркологический сборник. Вып. II, Материалы

международной тюркологической конференции «Языки и литература тюркских народов: история и современность». Елабуга: 2004, с. 227-234

167. Халипаева И. Мифологическая проза кумыков. Исследование и тексти. Махачкала: Издат. Даггоспединститута, 1994, 211 с.

168. Якубовский А.Ю. "Китаб-и Коркут" и его значение для изучения туркменского общества в эпоху раннего средневековья / Книга моего Деда Коркуда. Огузский героический эпос. Перевод В.В.Бартольда. Баку: ЙНЕ XXI, 1999, с. 127-135

***İnternet resursları***

169. http://www.turkoloji.cu.edu.tr/halkbilim/41.php

**Atif İslam oğlu İslamzadə**

## Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturu

### Xülasə

Bu monoqrafiyanın quruluşu giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Əsər eyni zamanda elmi-kütləvi baxımdan daha əhatəli şəkildə oxunmaq üçün indeksləşdirilmiş, araşdırmada olan antroponimlər, etnonimlər, toponimlər və s. əhəmiyyətli bilgilər kitabın sonunda göstərilmişdir.

Kitabın “Giriş” hissəsində ənənəvi olaraq mövzunun aktuallığından, obyekt və predmetdən, məqsəd və vəzifələrdən, problemin öyrənilmə dərəcəsindən, elmi yeniliklərdən, nəzəri-metodoloji əsaslardan, tədqiqatın nəzəri və tətbiqi əhəmiyyətindən bəhs olunur.

“Oğuz epik ənənəsində Qazan xan obrazının funksional statusu”adlanan I fəsildə Oğuz epik ənənəsinə daxil olan bədii-tarixi-mənqəbəvi ornəklərdə Qazan xan obrazının xan statusu öyrənilir, xan statusunun göstəricisi kimi “Xan öyüncü” qəlibinə daxil olan təyinlərin bədii-təsviri, epik-mifoloji kontekstdə semantik səviyyələri elmi ictimaiyyətin nəzərinə çatdırılır. Bu təyinlərin adi sözlüklər olmadığı, mifoloji modellər olaraq kompleks təşkil etməsinin əsaslandırılması hər təyinə ayrı-ayrılıqda yanaşmaq ehtiyacı meydana gətirir. Çünki bu təyinlər bütünlüklə Qazan xanın xan statusunu proyeksiyalandıra bilir. Eyni zamanda bu sözlüklər mətndə kod açarı rolunda çıxış edib Oğuz epik ənənəsində Qazan xan obrazının müxtəlif fəaliyyətlərini özündə cəmləyir. Mətnə hansı bucaqdan baxılırsa baxılsın xan öyüncləri təyinlərinə gəlib çıxmaq məcburiyyəti meydana çıxır. Elə bu səbəbdən də bu təyinlərin ardıcıl formada araşdırmaya cəlb olunması ehtiyacı yaranır. Məhz bu təyinlər bünövrə təşkil edib Qazan xan obrazını bir obraz kimi səciyyələndirir.

Monoqrafiyada eyni zamanda zoomifoloji, antropomifoloji və sosiomifoloji modellərin mənaltı laylarda arxaik spesifika olaraq işarələnməsi, lakin məna və anlam baxımından daha geniş səviyyədə səciyyə tapması konkret nümunələrlə əsaslandırılır.

II fəsildə "Qazan xan obrazının mifoloji strukturu" ritual-mifoloji səviyyədə öyrənilir, qeyd olunur ki, II fəsil I fəsilin yekunu kimi işlənmiş, burada Qazan xan obrazının mifoloji strukturunu müxtəlif modellər əsasında səciyyələndirən ritual modellər mətnlərdən bərpa olunaraq elmi ictimaiyyətin istifadəsinə verilmişdir.

Araşdırmanın "Nəticə" hissəsində tədqiqat boyu əldə olunmuş elmi qənaətlər və yekun müddəalar ümumiləşdirilmiş, mövzunun perespektiv istiqamətləri, yeni tədqiqatlar üçün açıq qalması müəyyən edilmişdir.

**Atif Islam oglu Islamzade**

**The mythological structure of Gazan khan character in Oghuz epic tradition**

**Summary**

This monography consists of introduction, two parts, conclusion and the list of used literature. The work has been indexed to read it according to the scientific-mass in details, the anthroponims, ethnonims, toponims and other important information have been shown at the end of the book. In the introduction of the book the actuality of the subject, the object, the aim, duties, the investigating level of the problem, the scientific innovation, the theoretical-methodological principles, the theoretical-applied importance are determined.

In the first part called "The functional status of Gazan khan character in Oghuz epic tradition" in the examples of artistic-historical-mangaba (mangaba is the legend describing the life style and behaviour of the religious people) which includes in to Oghuz epic tradition the status of khan is studied, "Khan oyunju" as an indicator of khan status including in the literary-descriptive, epic-mythological context the semantical levels of attributes are presented to the social science. Substantiated these attributes not as the ordinary words, but being the mythological models create the need of approaching each attribute seperately in basing the complex. Because these attributes can project the status of "khan" of Gazan khan in whole form. At the same time these words playing as a code key in the text sum up different activities of Gazan khan character in Oghuz epic tradition. Looking at the text from the different points to come to the attributes of "khan oyunju" is necessity. That is why it is necessary to investigate these attributes systematically. Organizing the base just these attributes characterise the character Gazan khan as a character.

In the monography at the same time being marked as an archaic specification of zoo-mythological, anthropo-mythological and social-mythological models in confidential layers, but to find character accordung to the meaning and idea in a great level are based on the concrete examples.

In the second part called “The mythological structure of Gazan khan” is investigated in the ritual-mythological level, it is noted that the second part has worked as a result of the first part, the ritual models renewed from the texts characterizing mythological structure of Gazan khan character on the base of different models have been given to the use of social science.

In the part “Conclusion” of the investigation the scientific conclusions and total thesis are generalized and in order to full fill the new investigations the perspective directions of the subject are determined.

**Атиф Ислам оглы Исламзаде**

## Мифологическая структура образа Газан хана в Огузской эпической традиции

### Резюме

Стуктура этой монографии состоит из введения, двух глав, заключения и из списка использованной литературы. Работа индексироана в то же время для развернутого чтения с научно-популярной точки зрения, антропонимы, этнонимы, топонимы и др. важные знания показаны в конце книги.

Во введении книги традиционно говорится об актуальности темы, о ее обьекте и предмете, о цельях и задачах, о степени изучения проблемы, о научных новизнах, о теоретически-методологических основах,о теоретической и практической значимости исследования.

В I главе, называемой »Функциональный статус образа Газан хана в Огузской эпической традиции» в художественно-историко-мангабави образцах, входящих в состав Огузской эпической традиции, изучается ханский статус образа Газан хана, доводится до сведения научной общественности семантичекие уровни определений, входящие в форму «Хан оюнджу» как показатель ханского статуса в художественно-изобразительном,эпическо-мифологическом контексте. Эти определения, не являясь простыми словами, дает основание создания комплекса как мифологической модели, требует отдельного подхода к каждому определению. Так как, эти определения польностью могут проекцировать ханский статус Газан хана. В то же время эти слова соединяют в себе различные деятельности образа Газан хана в Огузской эпической традиции, выступив в тексте в роле кодового ключа. С какой бы призмы рассматривался текст, возникает необходимость прихода к определениям «хан оюнджу». И по этой причине возникает нужность

привлечения расследования этих определений в последовательной форме. Именно эти определения обоснованно характеризуют образ Газан хана как один образ.

В монографии в то же время конкретными примерами отражаются обозначение зоомифологических, антропомифологических и социомифологических моделей в подтекстовых слоях как архаической специфики, но раскрытие характера обосновывается в более широком уровне с точки зрения значения и понятия.

Во II главе «Мифологическая структура образа Газан хана» изучается на ритуально-мифологическом уровне, отмечается, что II часть была разработана как итог I части, здесь ритуальные модели, характеризующие по различным моделям мифологическую структуру образа Газан хана, восстанавливаясь из текстов, даны в использование научной общественности.

В заключении исследования обобщены научные утверждения и итоговые положения, приобретенные в ходе исследования, определены для того, чтобы оставить перспективные направления темы открытыми для новых исследований.

# İNDEKS

## -A-

**Allahu-Təala (Celle Cəlaluhu)** 41, 42, 43, 44, 57, 59, 85, 130, 141, 190, 191

Afrika 101

Ağ Bökö 110

Ağ Qaya 100, 104

Ağqoyunlular 143

Ağ Saz 100, 104

Axilles, Axilles dabanı 64

Aqın, Aqınçılıq 68, 121

Ala Dağ, Ala Tağ 34, 35, 36, 38, 98, 183

Albaniya 166

Albaslı 107

Almalıq 94

Altay 93, 107

Altay dastanları 109, 201

Amerika 101

Amit, Əmət, Amit soyının aslanı 11, 21, 31, 47, 72, 74, 75, 76, 78, 79, 80, 82, 83, 87, 90, 100, 105, 112, 113, 177, 201

Anafora 105

Animizm 102

Arxetip 19, 29, 35, 70, 71, 72, 74, 83, 90, 97, 117, 190, 159, 175, 178, 190,

Aruz 34, 35, 36, 37, 61, 66, 67, 68, 69, 86, 98, 120, 125, 126, 127, 128, 132, 133, 134, 137, 137, 147, 148, 148, 152, 156, 193, 194, 195, 197, 198

Asiya, Mərkəzi Asiya, Şərqi Asiya, Qərbi Asiya, Cənubi Asiya 164

Aslan bədənli Sfinks 76

"Aslan üzərində qələbə, aslan öldürüb aslana çevrilmə" mifologemi 10, 77, 78

Assam 101

Ata Qorqud 15

Atalar və oğullar motivi 126
“Atın bir hissəsi olmaq” motivi 10
Avesta 27
Avstraliya 101
Avşar 96
Ay xan 33, 161
Azərbaycan 5, 164
Azərbaycan türkcəsi 124

**-B-**

Banıçiçək 85, 113, 184, 191
Basat, Aruz oğlu Basat 32, 34, 35, 46, 49, 51, 61, 62, 63, 64, 65, 66, 67, 68, 63, 69, 66, 67, 68, 76, 77, 86, 87, 90, 104, 120, 127, 128, 144, 149, 157, 169, 184
Basdırık 107
Bayat 119, 198
Baybican 42, 42, 51, 56, 71, 125, 190, 191, 192
Baybörə, Qambörə 41, 42, 45, 51, 56, 71, 125, 126, 190, 191
Bayındır, Bayındır xan 11, 17, 18, 19, 20, 21, 30, 31, 34, 35 , 38, 39, 40, 41, 42, 43, 44, 50, 55, 56, 57, 58, 59, 60, 61, 62, 65, 68, 71, 72, 73, 74, 78, 82, 88, 89, 92, 93,96, 98, 99, 103, 115, 121, 124, 127, 135, 139, 140, 141, 144, 145, 146, 154, 155, 156, 157, 158, 159, 162, 163, 165, 166, 168, 169, 170, 178, 181, 183, 185, 189, 190, 191, 201
Bayındır boyu 30
Bayındır xanın göygüsi, küyəküsi 11, 21, 47, 112, 115, 137, 138, 139, 140, 143, 144, 145, 176, 177
Begdili 96
Berkut 30
Beyrək, Bamsı Beyrək 19, 20, 37, 45, 46, 47, 48, 49, 50, 51, 52, 56, 66, 68, 84, 85, 90, 98, 113, 117, 118, 119, 120, 123, 126, 129, 131, 115, 117, 124, 128, 131, 156, 174, 182, 183, 184, 189, 191, 192, 195, 198
Bədəvi at 121, 122

Bəhram gur 76, 77
Bəkil 50, 51, 56, 80, 113, 141, 160, 182, 183, 185, 189
Bəlx 91
Bi(e)zə miskin umıdı 11, 21, 30, 39, 40, 42, 43, 44, 47, 48, 49, 50, 53, 54, 55, 59, 60, 61, 62, 65, 66, 67, 68, 69, 70, 71, 93, 112, 156, 157, 177
Binar oppozisiya 29, 37, 69, 79, 98, 103, 120, 128, 160,
Birgünlük bəylik 45, 56
Boz Qurd 116, 122, 123,
Bozoğlan 48
Bozoqlar 34, 35, 37, 61, 65, 66, 75, 82, 72, 78, 79, 80, 82, 87, 94, 95, 96, 118, 119, 120, 126, 127, 132, 135, 136, 146, 147, 148, 151, 152, 153, 154, 194, 195, 196, 197, 198
Buğac 19, 20, 117, 126, 180, 181, 182, 184, 191
Bulqar-Tatar 172
Burla xatun 85, 86, 125, 130, 140, 141, 142, 191
Buz dağ 122
Bügdüz Əmən 194
Bürküt 104

**-C-**

Cəmi ət-təvarix 13
Cənubi Azərbaycan 91

**-Ç-**

Çar Yevrisfey 77
Çebeli-Qaracuk 91, 93
Çin 159
Çingiz xan 103

**-D-**

Dağ xan 31, 34, 75, 99, 161, 168, 170, 171

Dana Ata 13
Denotat 26
Dəclə çayı 73
Dədə Qorqud kitabı, DQK 3, 4, 6, 7, 11, 14, 17, 18, 19, 20, 21, 24, 27, 32, 36, 39, 44, 48, 57, 58, 59, 60, 61, 72, 77, 81, 82, 84, 86, 87, 88, 89, 91, 92, 93, 94, 95, 96, 97, 98, 104, 106, 108, 109, 112, 114, 116, 117, 121, 122, 125, 126, 135, 138, 139, 142, 149, 150, 151, 152, 154, 155, 157, 159, 160, 161, 162, 163, 165, 166, 167, 168, 169, 170, 171, 172, 173, 174, 176, 177, 178, 179, 180, 182, 183, 184, 185, 186, 187, 188, 189, 190, 192, 194, 198, 200, 201 indeksləşib.
Dəli Domrul, Duxa Qoca oğlı Dəli Domrul 127, 140, 141
Dəli Qarcar 118, 119
Dəli Ozan 45, 46, 47, 48
Dəniz xan 99, 161
Dərbənd 194
Dərviş 46, 85
Dış Oğuz, Taş Oğuz 36, 61, 66, 76, 120, 126, 136, 151, 152, 194, 195, 196, 197
Dib Yavqu, Dib Bakuy 22, 171
Dirsə, Dərsə xan 19, 20, 41, 42, 45, 51, 56, 57, 58, 71, 79, 84, 85, 115, 126, 141, 142, 144, 180, 181, 180, 181, 182, 191
Diyarbəkir 73
"Doğan günəş" mifologemi 10, 27, 31, 32, 33, 34
Drezden nüsxəsi 24, 80, 106, 139
Dua ritualı 179, 190, 191, 192
Dünya ağacı 66
Dürat 123

**-E-**

Edip 76
Elxanilər 143
Enkeş 23, 169, 170

Erimant qabanı 110
Eymur 96

**-Ə-**

Ə.Bahadır xan 13, 17, 23, 57, 65, 69, 86, 92, 94, 95, 116, 119, 143, 150, 166, 169, 170, 171, 173, 199
Əbu Səid 143
Əgrək və Səgrək, Uşun Qoca oğlı Səgrək 85, 115, 127, 144
Əla-lisani-taifeyi-Oğuzan 14
Əmdi qardaş (süd qardaşı) 68
Əmiraxur 54, 56, 71
Əmir Süleyman 163
Əmran, Bəkil oğlı Əmran 50, 51, 56, 79
Əmsali-Məhəmmədəli 13
Əmsali-türki 13
Əyə 107
Əzrail 141

**- F -**

Fəraq 92
F.Rəşidəddin 13, 17, 22, 96, 103, 116, 119, 136, 143, 151, 169, 171, 192, 199

**-G-**

Geneşik, Kenqeş 23
Gəmiqaya 111
Gök xan, Göy xan 31, 75, 99, 161, 168, 171
Göycə 161
Gözdən doğulma mifologemi 65
Gün xan 32, 33, 161, 171
Gürcüstan 160

**-Ğ-**


Ğəflət oğlı Şir Şəmsəddin 127


**-H-**


Hekayeti-Oğuznameyi Qazan bəg və qeyri 17

Hemey şiri 76, 77, 78

Herakl, Heraklın on iki qoçaqlığı 76, 77, 110

Həqq-Təala 119

Hindistan 101

Hiperbola 103

Hun, Hon xalqı 172, 173


**-X-**


“Xaqana bağlanmaq” motivi 10, 145

Xallı ayğır 122, 123

Xan öyüncü 22, 38, 47, 76, 111, 124, 139, 162, 165, 174, 175, 176, 178, 179, 202

Xan statusu 13, 17, 18, 21, 22, 150, 154, 155, 157, 158, 177, 178, 179, 180, 181, 188, 189, 190, 191, 192, 194, 198,

Xan sülaləsi 163

Xan Uruzın ağası 10, 11, 21, 112, 123, 124, 125, 137, 139, 177, 193, 201

Xan Uruzun babası 47, 124

Xaos 29, 31, 46, 66, 67, 68, 79, 90, 160

Xəzər dağları 159

Xızır Əleyhissəlam 117, 119

Xocavənd 91

Xorasan 92


**-İ-**


İç Oğuz 61, 99, 126, 136, 151, 194, 196

İlək Qoca oğlı Alb Ərən 127

İmrənci 147
İnaq, inağ 45, 147
İnvariant 15, 17, 19, 21, 70, 90, 117, 151, 154, 162, 175, 178
İran 27, 124, 143
İskəndərnamə (Şərəfnamə) 159
İskəndər, Makedoniyalı İskəndərin imperiyası 149
İssıq göl 94

**-K-**

Kafər üzərində qələbə motivi 188
Kantuluk 107
Karahanlılar 167
Kara tay 92
Kayı, Qayı 96, 118, 127, 166, 198
Kentavr 110
Kentavr Xiron 110
Kiçik dağ 94
Kitabi-Dədə Qorqud eposu 14
Kontaminasiya 202
Koroğlu dastanı 108, 116, 117, 123
Koroğlu 108, 117, 122
Kosmos 29, 31, 67, 68, 79, 90, 160
Kozin Erkeş, Kozin Erkeş dastanı 110

**-Q-**

Qaba Ağac 66, 80, 83, 84, 85, 86, 87, 88, 89, 90, 161
Qabangüc və Dəmirgüc 122
Qacarlar 143
**Qadir, Qadir Allah** 53, 130, 149
Qaf dağı 29
Qafqaz 93
Qağan Aslan 66, 77, 78, 80, 81, 82, 87, 104, 127,128

Qalın Oğuz 19, 21, 28, 40, 65, 67, 76, 80, 82, 86, 93, 105, 125, 139, 148, 149, 150, 151, 155, 157, 158, 159, 162, 170, 176, 180, 183, 187

Qalın Oğuzun arqası 150, 155, 176

Qalın Oğuzın dövləti 11, 21, 23, 93, 112, 145, 146, 147, 148, 149, 150, 152, 153, 154, 176, 177

Qalın Oğuzın imrəncisi 147

“Qalın” sözünün motiv səviyyəsi 10, 153

Qalmış yigit arxası 11, 21, 30, 47, 93, 112, 154, 155, 156, 157, 177

Qamğan 171

Qanlı Qoca 115

Qanturalı, Qanlı Qoca oğlı Qanturalı 77, 78, 81, 104, 115, 127, 191

Qapaqqan 61, 62

Qarabağ 92

Qarabudaq, Qaragünə oğlu Qarabudaq 41, 44, 127, 136, 193, 194

Qara Buğa 95

Qaracıq, Qaraca, Qarıcıq Çoban 28, 45, 51, 52, 53, 54, 55, 56, 57, 69, 71, 84, 85, 86, 90, 92, 106, 108, 122, 123, 149

Qaracuq, Q(k)aracı(u)q dağı 35, 91, 92, 93, 94, 95, 96, 97, 98. 99, 105, 161

Qaracuğın qaplanı 11, 21, 30, 35, 47, 91, 92, 93, 94, 99, 100, 104, 105, 112, 177

Qara Çoq 95

Qaradağ 95

Qara Dəmir 95

Qaragünə 37, 51, 117, 132, 133, 189

Qara xan 29

Qaraqoyunlular 143

Qaraquc, Qaraquc at, Qaraquc dağ 97, 98, 99, 161

Qaraqum 94

Qaramanlılar 143

Qara Uçoq, Qara Uçuk 95, 96, 97, 99, 105

Qayı xan 171

Qazaxıstan 164

Qazan, Qazan bəg, Qazan xan, Salur Qazan 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 28, 30, 31, 34, 35, 36, 37, 38, 39, 40, 41, 42, 43, 44, 45, 47, 48, 49, 50, 51, 52, 53, 54, 55, 56, 57, 58, 59, 60, 61, 62, 63, 64, 65, 66, 67, 68, 69, 70, 71, 72, 73, 74, 75, 76, 78, 79, 80, 81, 82, 84, 85, 86, 88, 90, 91, 92, 93, 94, 96, 98, 99, 100, 102, 103, 104, 105, 107, 108, 109, 111, 112, 115, 116, 117, 118, 119, 120, 121, 122, 123, 124, 125, 126, 127, 128, 129, 130, 131, 132, 133, 134, 135, 136, 137, 139, 140, 141, 142, 143, 144, 145, 146, 147, 148, 149, 150, 151, 152, 153, 154, 155, 156, 157, 158, 159, 160, 163, 165, 166, 167, 168, 169, 170, 171, 172, 173, 174, 176, 177, 178, 179, 180, 182, 183, 184, 185, 186, 187, 188, 189, 190, 191, 192, 193, 194, 195, 196, 197, 198, 199, 200, 201, 202

Qazan dağı, Qazan düzü, Qazan gölü 34, 94

Qazanlı 94

Qazan oğuzı 148, 174

Qazılıq qoca 30, 98, 120, 121,

Qazqurt dağı 94

Qazlıq at 98,

Qazlıq dağı 97, 98

Qərbi Sibir 107

Qılbaş 35

Qırat 108, 117

Qırğızıstan 164

Qıyan, Qıyan Səlcuq 66, 68

Qıyan Səlcük oğlı Dəli Dondaz 127, 136

Qonur at 79, 106, 108, 109, 110, 116, 117, 118, 119, 120, 121, 122,177

Qonur atın iyəsi (ayası) 11, 21, 47, 105, 106, 112, 118, 122, 177

Qonur qoca sarı çoban 109

Qorqu(t)d, Qorqud Ata, Ata Qorqud, Qorqud Dədə, Dədə Qorqud 8, 15, 45, 58, 65, 69, 118, 119, 120, 122, 127, 138, 149, 163, 166, 181, 184, 191, 196, 197, 198, 200

**Qurani-Kərim** 59

**-L-**

Laiş nəsilləri 173
Litota 103
XIV Lüdovik 149

**-M-**

Macarlar 103
Maqrupi Qurbanəli 172
Məclis 115
Mədəni qəhrəman 55, 56, 57, 71, 122, 159, 174
MəlikMəhəmməd 29, 63
Məmlük Qıpçaq 111
Mənqəbə 4, 7, 8, 13, 14, 23, 44, 171, 198, 199, 200, 216
Mənzum oğuznamə 70, 210
Mərasim 21, 114, 134, 178, 185, 196, 197, 198
Mətə, Mete 173
Mifologem 8, 10, 38, 62, 63
Mikayıl Baştu 172
M.Kaşqari 57, 81, 92, 93, 154, 209
Monqol, Monqol-Türk 103, 143
Monqolların gizli tarixi 103
Monoteizm 102
Mosul 91
Motiv 4, 8, 10, 17, 38, 63, 64, 67, 74, 76, 77, 90, 117, 123, 126, 127, 144, 145, 175, 178, 187, 196
**Muhamməd peyğəmbər** (SƏS) 111, 166,

**-N-**

Naxçıvan 92
N.Əndəlib 13
Nizami, N.Gəncəvi 76, 77, 159

**-O-**

Oğuz 18, 22, 23, 29, 31, 70, 74, 75, 87, 88, 90, 92, 150, 160, 166, 172, 174, 175, 200, 201

Oğuz epik ənənəsi 6, 9, 11, 13, 19, 21, 22, 31, 38, 44, 72, 116, 167, 174, 175, 198, 199, 200, 201

Oğuz eposu 16, 17, 32, 74

Oğuz əhdi 74, 82, 121, 136

Oğuz xan, Oğuz kağan, Oğuz xaqan 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 30, 31, 32, 33, 35, 41, 66, 70, 71, 74, 75, 77, 86, 89, 90, 99, 116, 120, 122, 136, 139, 143, 144, 154, 160, 161, 162, 169, 171, 173, 178, 190, 192

Oğuz Kağan dastanı 13, 16, 18, 19, 33, 70, 64, 77, 116, 122, 136, 192, 199

Oğuz mifi 9, 15, 16, 21, 38, 74, 90, 91, 105, 116, 122, 137, 154, 162, 174, 179, 161, 190, 202

Oğuznamə 3, 6, 13, 14, 17, 23, 31, 38, 70, 94, 96, 143, 162, 169, 192, 199

Oğuz ölkəsi 93

Oğuz ritualı 70

Oğuz soyu 31, 82, 83, 86, 87, 88, 90, 131, 143, 151

Oğuz soyunun aslanı 74, 93

Oğuz soyunun qaplanı 93

Oğuz şəhəri 91, 92

Oğuz törəsi 52, 61, 68

"Oğuzun yeyilməsi" mifologemi 10, 66, 67

Olcaytu 143

Onqon 30, 99

Orxon, Orxon-Yenisey 81, 99

Orta Asiya 107, 164, 173

Osmanlılar 143

Osmanlı türkcəsi 124

Otmanoğlu 163

Ov ritualı 120, 179, 180, 187, 188, 189, 193

**-Ö-**

Ördək boyu 103
Özbəkistan 164

**-P-**

Paradiqma 9, 15, 16, 17, 18, 21, 23, 28, 29, 31, 32, 35, 38, 45, 59, 70, 71, 72, 74, 90, 91, 105, 116, 122, 137, 145, 153, 154, 162, 178, 190, 202
Parasarın Bayburd hasarı 147
Polifem 64

**-R-**

Ritual 9, 18, 20, 21, 38, 40, 42, 45, 48, 63, 77, 108, 114, 115, 134, 152, 174, 177, 178, 179, 180, 181, 183, 184, 185, 186, 187, 188, 189, 190, 191, 192, 195, 196, 198, 202

**-S-**

Salır Baba 13
Sal(o)ur Qazan eli 172, 173
Salur oğlu Qazan 34
Salur, Salur boyu, Salur soyu 22, 30, 54, 99, 165, 167, 168, 169, 170, 171, 172, 174
Samaniler 167
Sayan 107
Sayram 94
Selcan xatun 77, 78, 115, 140
Seyyid Əli 154
Sırdərya 73, 92
Sır suyunun ayağı 94

Skandinaviya 93
Statusdəyişmə 183, 184, 185, 186, 187, 189, 197
Sullax 107
Sunqur 103, 104
Suvanası 107

**-Ş-**

Şah Abbas 144
Şahin 30
Şan qızı dastanı 172, 201
Şəcəreyi-Tərakimə 13, 23, 69
Şərqi Türküstan 163
Şimali Qafqaz 107
Şülən, şilən, şölən 46, 48, 197

**-T-**

Tacikistan 164
Tamğa 99
Tanrıçılıq dünyagörüşü 116
Tartım 58, 65, 69
Təpəgöz, Dəpəgöz 34, 46, 51, 52, 61, 62, 63, 64, 65, 66, 67, 68, 69, 77, 78, 79, 80, 87, 104, 109, 157, 133
Təvarixi-ali Səlcuq 13
Totem, totemçilik 25, 100, 101, 102, 104, 114, 116
Tovhid 191
Toy, toy ritualı 70, 115, 151, 181, 197
Transformativ məlumat baqajı 11
Trikster 28
Turan 159
Turı at 118, 119, 121,
Tülu, Tülu quş 25, 28, 30

Tülü quşun yavrısı 11, 21, 24, 30, 31, 38, 47, 62, 65, 67, 68, 82, 111, 162, 163, 177, 201

Türk-Hun mifologiyası 103

Türk xanədanı 143

Türkmən 92

Türkmənistan 91, 164

Türk-Oğuz mifologiyası 76

Türküstan 158, 159, 160, 161, 162, 164

Türküstanın dirəgi 11, 47, 158, 159, 160, 162, 163, 165, 177

-U-

**Uca Tanrı** 18, 19, 33, 32, 33, 39, 40, 41, 44, 58, 87, 116, 122, 192

Uç quş 103

Uçoqlar 34, 35, 37, 54, 61, 67, 71, 75, 94, 95, 96, 97, 99, 105, 118, 120, 126, 135, 136, 146, 147, 151, 152, 153, 154, 158, 194, 195, 196

Ulaş oğlı, Ulaş oğl(ı)u Salur Qazan 11, 21, 22, 23, 34, 72, 93, 111, 169, 176, 201

Ulaş, Ulaş və Ulad 22, 111, 112, 169, 170, 171, 172, 173, 177

Ulduz xan 33, 161

Uluğ dağ 94

Uluq Türuk 33

Uruz Qoca 128

Uruz, Uruz xan, Uruz bəg, Qazan bəg oğlı Uruz bəg 20, 37, 41, 44, 49, 56, 58, 66, 79, 80, 84, 89, 90, 120, 121, 122, 123, 126, 127, 128, 129, 130, 131, 132, 133, 134, 135, 137, 149, 184, 185, 186, 187, 188, 193, 195, 197, 198

"Uruzun xaqan edilməsi" süjeti 10

Uşun Qoca 115, 156

Uzun Həsən 143

Uzunkörpü variantı 14

-Ü-

Üç yüz altmış altı alp ərən 35, 36, 185

**-V-**

**Vahid Allah** inancı 116

Vatikan nüsxəsi 17, 138

Vərəsəlik törəsi 179, 192

Vilayət issi 118

Volqaboyu 107

**-Y-**

**Yaradan** 130

Yabqu 96

Yalıncıq 45, 47

Yanqqı kənd 94

Yazıçıoğlu Əli 13, 103, 153, 174

Yazır 96

Yegnək, Qazılıq Qoca oğlu Yegnək 37, 41, 44, 120, 121, 122, 127

I Yelizaveta 149

Yeranası 107

Yəğma 134, 152, 194, 195, 196

Yəğma ritualı 196

Yığnaq 115

Yunan mifologiyası 76

"Yusup və Əhməd" dastanı 172

**-Z-**

Zəngəzur 107

Zümrüd, Ənqa, Simurq, Simurğ quşu 25, 26, 27, 28, 29

# MÜNDƏRİCAT

**REDAKTORDAN........................................................ 3**
**GİRİŞ ........................................................................ 6**

**I FƏSİL**
**Oğuz epik ənənəsində Qazan xan obrazının funksional statusu**

Qazan xan obrazının xan statusu ................................ 13
Xan öyüncü kompleksinin semantikası........................ 22
1. "Ulaş oğlı" təyini .................................................. 22
2. Tülü quşun yavrısı.................................................. 23
3. Bizə miskin umudı .................................................. 38
4. Amit soyının aslanı ................................................ 72
5. Qaracuğın qaplanı .................................................. 91
6. Qonur atın iyəsi...................................................... 105
7. Xan Uruzın ağası.................................................... 123
8. Bayındır xanın göygüsi ........................................... 137
9. Qalın Oğuzın dövləti.............................................. 145
10. Qalmış yigit arxası .............................................. 154
11. Türküstanın dirəgi................................................ 158
12. "Salur (Qazan)" təyini.......................................... 165

**II FƏSİL**
**Qazan xan obrazının ritual-mifoloji strukturunu proyeksiyalandıran ritual-mifoloji modellər**

1. Ov ritualı.............................................................. 180
2. Dua ritualı............................................................. 190
3. Vərəsəlk törəsinin ritual kodeksi .......................... 192
4. Yəğma ritualı ........................................................ 195

**NƏTİCƏ ................................................................ 199**
**ƏDƏBİYYAT.......................................................... 203**
**İndeks .................................................................... 222**

**Atif İslam oğlu İslamzadə.**
**Oğuz epik ənənəsində Qazan xan**
**obrazının mifoloji strukturu.**
Bakı, Elm və təhsil, 2017.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/ 16
Mətbəə kağızı: №1
Həcmi: 238 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.



Kitab arxası

Atif İslam oğlu İslamzadə 19 mart 1968-ci ildə ziyalı ailəsində dünyaya göz açmışdır.

1984-cü ildə Kürdəmir şəhər 1saylı orta məktəbin məzunu olmuş, 1991-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakultəsini bitirmişdir.

A.İ.İslamzadə 1995-ci ilə kimi Kürdəmir şəhər Şahmat məktəbində məşqçi-müəllim vəzifəsində çalışmış, 1995-ci ildən 2002-ci ilə kimi Kürdəmir şəhər tarixdiyarşünaslıq muzeyində kiçik elmi işçi vəzifəsi daşımışdır. 2002-ci ildən AMEA Folklor İnstitutunda kiçik elmi işçi, elmi işçi və böyük elmi işçi vəzifəsində çalışmışdır.

Elmi- publisistik-bədii üslublarda müxtəlif əsərlərlə çıxış edən A.İ.İslamzadə 50-yə yaxın elmi məqalə yazmış, elmi-ədəbi toplu və jurnallarda dərc etdirmiş, Respublika daxilində və xaricdə kitab və məqalələri nəşr olunmuşdur.

A.İ.İslamzadə 27.06.2013-cü il tarixində AMEA Folklor İnstitutunun Dissertasiya şurasında "Oğuz epik ənənəsində Qazan xan obrazı" adlanan dissertasiya mövzusunu məvəffəqiyyətlə müdafiə etmiş, 12.05.2014-cü ildə Prezident Şurası yanında AAK tərəfindən elmi tədqiqat əsəri təsdiq olunaraq filologiya üzrə fəlsəfə dokturu alimlik dərəcəsinə layiq görülmüşdür.

A.İslamzadə hal-hazırda AMEA Folklor İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. Evlidir, iki övladı var.



Atif İslam oğlu İslamzadə 19 mart 1968-ci ildə ziyalı ailəsində dünyaya göz açmışdır.

1984-cü ildə Kürdəmir şəhər 1saylı orta məktəbin məzunu olmuş, 1991-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakultəsini bitirmişdir.

A.İ.İslamzadə 1995-ci ilə kimi Kürdəmir şəhər Şahmat məktəbində məşqçi-müəllim vəzifəsində çalışmış, 1995-ci ildən 2002-ci ilə kimi Kürdəmir şəhər tarixdiyarşünaslıq muzeyində kiçik elmi işçi vəzifəsi daşımışdır. 2002-ci ildən AMEA Folklor İnstitutunda kiçik elmi işçi, elmi işçi və böyük elmi işçi vəzifəsində çalışmışdır.

Elmi-publisistik-bədii üslublarda müxtəlif əsərlərlə çıxış edən A.İ.İslamzadə 50-yə yaxın elmi məqalə yazmış, elmi-ədəbi toplu və jurnallarda dərc etdirmiş, Respublika daxilində və xaricdə kitab və məqalələri nəşr olunmuşdur.

A.İ.İslamzadə 27.06.2013-cü il tarixində AMEA Folklor İnstitutunun Dissertasiya şurasında "Oğuz epik ənənəsində Qazan xan obrazı" adlanan dissertasiya mövzusunu müvəffəqiyyətlə müdafiə etmiş, 12.05.2014-cü ildə Prezident Şurası yanında AAK tərəfindən elmi tədqiqat əsəri təsdiq olunaraq filologiya üzrə fəlsəfə dokturu alimlik dərəcəsinə layiq görülmüşdür.

A.İslamzadə hal-hazırda AMEA Folklor İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. Evlidir, iki övladı var.